# ARİSTOTEL

# RİTORİKA

***Birinci kitab***

***İkinci kitab***

***Üçüncü kitab***

4472

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Bakı-2008**

Tərcümə «Античные риторики» (Под ред.А.А.Тахо-Годи, М., Изд.-во Моск. ун.-та, 1978, 352 с. ) kitabından edilmişdir. Yunan dilindən tərcümə edən N.Platonovadır (bax. Аристотель. Риторика. Пер. с греч. Н.Платоновой. С.-П., 1894)

**Tərcüməçilər:** Qızılgül Abbasova, Bəsti Cəfərova

Kitabda Aristotelin ritorikaya aid üç traktatı ilk dəfə olaraq azərbaycan dilində nəşr olunur; bu, ictimai və humanitar elm sahələri ilə bağlı bir çox tədris fənlərinin məzmununu zənginləşdirə biləcək qiymətli bir əsərdir.

# RİTORİKA
## Birinci kitab

*1.Ritorikanın dialektikaya münasibəti. – Ritorikanın ümumiliyi. – Natiqlik sənəti sisteminin yaradılmasının mümkünlüyü. – Natiqlik sənətinin daha erkən formalarının qeyri-qənaətbəxşliyi. – Natiq nəyi sübut etməlidir? – Qanun imkan daxilində hər şeyi özü müəyyən etməlidir; bunun səbəbləri. – Hakimin həll etməli olduğu məsələlər. – Nəyə görə tədqiqatçılar məhkəmədə söylənən nitqlərdən danışmağa üstünlük verirlər? – Sillogizm və entimema arasındakı münasibətlər. – Ritorikanın faydası, məqsədi və sahəsi.*

Ritorika dialektikaya uyğun gələn sənətdir[1], belə ki, onların toxunduğu predmetlər eynidir. Bu predmetlər isə müəyyən mənada hamının və hər bir kəsin ümumi sərvəti hesab oluna bilər və heç bir ayrıca elmin sahəsinə aid deyildirlər. Bunun nəticəsi olaraq, bütün insanlar müəyyən mənada hər iki sənət ilə əlaqədədirlər, belə ki, hamı müəyyən dərəcədə həm araşdırmaq, həm hər hansı bir rəyi dəstəkləmək, həm bəraət qazandırmaq, həm də ittiham etmək məcburiyyətində qalırlar. Bu hallarda bəziləri təsadüfən, bəziləri isə vərdiş nəticəsində inkişaf etmiş qabiliyyətlərinə uyğun şəkildə hərəkət edirlər. Bu hər iki yolun mümkünlüyünə görə onların sistemə salınmasının mümkünlüyü də şübhəsizdir, belə ki, biz həm vərdişlərinə əsaslanan insanların, eləcə də təsadüfən hərəkət edən insanların nəyin nəticəsində öz məqsədlərinə çatdıqlarını nəzərdən keçirə bilərik, bu cür tədqiqatlar isə sənət işidir ki, bununla yəqin ki, hamı razılaşar. Bu vaxta qədər ritorika sistemlərini quranlar həll etdikləri məsələnin ancaq əhəmiyyətsiz bir hissəsini yerinə yetirirdilər, belə ki, bu sahədə ancaq sübutlar natiqlik sənətinə xas əlamətlərə malikdirlər, qalan hər şey isə aksessuarlardan (prosthēcai) başqa bir şey deyil. Bununla belə, sistem müəllifləri sübutların məğzini təşkil edən entimemalar haqqında heç bir söz demir, əvəzində isə heç bir dəxli olmayan şeylərdən ətraflı danışırlar; həqiqətən də: böhtan, mərhəmət, qəzəb və başqa buna bənzər ruhi təzahürlər ha-

kimin nəzərdən keçirdiyi işə deyil, hakimin özünə aiddir. Beləliklə, əgər mühakimə üsulu hər yerdə bəzi ölkələrdə olduğu kimi, xüsusən də yaxşı dövlət quruluşu ilə fərqlənən ölkələrdə olduğu kimi qurulsaydı, bu nəzəriyyəçilər heç bir söz deyə bilməzdilər. Hamı belə mühakimə üsulunu bəyənir, amma bəziləri belə hesab edirlər ki, qanunun işi bu qadağanı qoymaqdır, digərləri isə əslində bu qanundan istifadə edir və işə dəxli olmayan heç bir şeydən danışmağa imkan vermirlər (Areopaqda da iş belə qurulub)[3] Bu qayda düzgündür, belə ki, hakimdə qəzəb, həsəd və rəhm hisslərini doğurmaqla onu karıxdırmaq olmaz: bu kimin isə istifadə edəcəyi xətkeşi əyməsi kimi bir şey olardı.

Bundan başqa, aydındır ki, məhkəmədə iddiaçıların işi faktın özünün sübutundan, yəni, onun olub-olmamasından başqa bir şey deyildir; faktın vacib olub-olmaması, ədalətli və ya ədalətsiz olması, yəni qanunvericinin münasibət bildirmədiyi bütün məsələlərə gəldikdə isə bu barədə hakimin öz rəyi olmalıdır və qətiyyən bu rəyi iddiaçı olan şəxsdən mənimsəməməlidir.

Buna görə də, yaxşı tərtib olunmuş qanunlar əsas etibarı ilə mümkün qədər hər şeyi özləri müəyyən edərək hakimlərin ixtiyarına mümkün qədər az şey saxlamalıdırlar, birincisi, ona görə ki, düzgün düşüncə tərzinə malik, qanun vermək və hökm çıxartmaq qabiliyyətində olan çoxlu adam tapmaqdansa bir və ya bir neçə belə adam tapmaq daha asandır. Bundan başqa, qanunlar insanlar tərəfindən uzunmüddətli düşüncələr əsasında tərtib olunur, məhkəmə hökmləri isə sürətlə verilir, buna görə də ədaləti həyata keçirən insanlar üçün ədalətli və faydalı olanı yaxşı seçib-ayırmaq çətin olur.

Ən vacib səbəb isə ondadır ki, qanunvericinin qərarı ayrı-ayrı hadisələrə aid olmur, amma gələcəyə aid olub ümumi xarakter daşıdığı halda, andlı iclasçılar və hakimlər isə öz hökmlərini indiki zamanda və ayrı-ayrı hallara münasibətdə verirlər ki, bu da çox vaxt onlarda məhəbbət və nifrət, özlərinin şəxsi faydasının dərki hissləri ilə bağlı olur; buna görə də onlar yəni hakimlər və andlı iclasçılar, həqiqəti kifayət qədər aydın görə bilmirlər: onların öz şəxsi məmnunluq və qeyri-məmnunluqları haqqında düşüncələri işin düzgün həllinə mane olur.

Beləliklə, bütün yerdə qalan şeylərdə hakimə imkan daxilində olduqca az genişlik vermək lazımdır; məlum faktın baş verib-verməməsi, əldə olub-olmaması məsələlərinə gəldikdə isə, bu məsələlərin həllini tamamilə hakimlərin ixtiyarına vermək lazımdır, belə ki, qanunverici xüsusi halları qabaqcadan görə bilməz.

Belə olduğu halda, aydındır ki, öz düşüncələrində başqa məsələləri, məsələn, giriş hissəsinin və ya nitqin hər bir hissəsinin məzmununun necə olması haqqında götür-qoy edən adamlar isə dəxli olmayan məsələlərə toxunurlar, ona görə ki, bu nitqlərin müəllifləri ancaq hakimlərdə məlum əhval-ruhiyyə yaratmaq məqsədini güdürlər, texniki sübutlar haqqında isə heç nə demirlər, halbuki, ancaq bu yolla entimema yaratmaq olar. bütün bunların nəticəsində həm xalqa müraciət, həm də məhkəmə xarakterli nitqlərin eyni metodlu olmasına baxmayaraq, həm də xalqa xitabən deyilən nitqlər dövlət baxımından da ayrı-ayrı adamların əlaqələrinə aid nitqlərdən daha gözəl olsa da, tədqiqatçılar birinci qəbildən olan nitqlərdən heç söz açmır, amma, onlardan hər biri məhkəmə nitqlərini müzakirə etməyə cəhd edir.

Bunun səbəbi odur ki, birinci qəbildən olan nitqlərdə məsələyə dəxli olmayan şeylərdən danışmaq daha az sərfəli sayılır, eləcə də birinci qəbil nitqlərdə məkrli sofistika üçün daha geniş meydan var və daha çox ümumi marağa malikdir: burada hakim ona çox yaxından dəxli olan işləri mühakimə edir, belə ki, o, işin natiqin dediyi kimi olduğunu ancaq sübut etməlidir. Məhkəmə nitqlərində isə bu kifayət deyil, amma dinləyicini öz tərəfinə çəkmək üçün faydalıdır, çünki, burada hakimin qərarı ona yad olan işlərə aiddir, odur ki, hakimlər əslində mühakimə etmirlər, ancaq işi

məhkəmədə çəkişənlərin öz öhdələrinə buraxır, bu zaman öz mənfəətlərini güdür və çəkişənlərin ifadələrini tərəfgirliklə dinləyirlər. Bunun nəticəsində bir çox dövlətlərdə bizim əvvəldə dediyimiz kimi, qanun işə dəxli olmayan şeyləri şərh etməyi qadağan edir, amma, orada hakimlərin özləri də buna kifayət qədər diqqət verirlər.

Beləliklə, düzgün metodun inandırma üsullarma aid olduğu, inandırma üsulunun isə müəyyən mənada sübut olduğu (çünki, biz hər hansı bir şeydən o vaxt möhkəm əmin oluruq ki, nəyin isə sübut olunduğunu görək) aydındır, ritorik sübut isə entimemadır və bu ümumiyyətlə inandırmanın ən vacib üsullarından biridir və həm də aydındır ki, entimema müəyyən qəbildən olan sillogizmdir[4] və müxtəlif qəbildən olan sillogizmləri nəzərdən keçirmək bütövlükdə dialektikaya və ya onun hər hansı bir sahəsinə aiddir. Buradan aydın olur ki, sillogizmin nədən və necə qurulduğunu bilən hər kəs, eləcə də entimema qurmağa da qabil ola bilər, əlbəttə, əgər o, sillogizmlərə aid biliklərinə entimemalara aid olanları və onların sırf məntiqi sillogizmlərdən fərqini də əlavə edə bilsə, çünki, biz eyni bir qabiliyyətlə həm həqiqəti, həm də həqiqətə bənzər olanı dərk edirik. Bununla belə, insanlar təbiətin həqiqət axtarışına kifayət qədər qabildirlər və əksər hallarda onu tapırlar; bunun nəticəsində həqiqətin özünü tapmaqda mahir olan şəxs həqiqətə bənzər olanın tapılmasında da mahir olacaq.

Beləliklə, aydmdır ki, başqa müəlliflər öz sistemlərində işə dəxli olmayan şeylərdən danışırlar; həm də onların nəyə görə məhkəmə nitqlərinə diqqət verdikləri də aydmdır.

Ritorika faydalıdır, çünki, həqiqət və ədalət təbiətlərinə görə öz əks-tərəflərindən güclüdürlər, amma, əgər məsələnin həlli düzgün qurulmayıbsa, onda əks tərəflər həqiqət və ədaləti məğlubiyyətə uğradarlar ki, bu da məzəmmətə layiqdir. Bundan başqa, əgər bizdə ən dəqiq biliklər olsa belə, bəzi insanları bu biliklərin əsasmda inandırmaq çox çətindir, ona görə ki, biliklərə əsaslanan nitqi qiymətləndirmək



savad işidir, bu isə kütlə qarşısında qeyri-mümkündür. Burada biz sübut və mülahizələri mütləq hamı üçün anlaşılan yolla aparmalıyıq. Biz bu barədə "Topik"[5] əsərində kütləyə müraciət ilə əlaqədar danışmışıq. Bundan başqa, sillogizmlərdə olduğu kimi əks olanı sübut etməyi bacarmaq vacibdir. Amma, həm bunu, həm də onu həqiqətən sübut etmək üçün yox, çünki, pis olanı sübut etmək lazım deyil, bunun necə edildiyini öyrənmək, eləcə də kiminsə həqiqətə uyğun olmayan sübutlardan istifadə etməsi zamanı onu təkzib etmək üçün vacibdir.

Digər sənətlərin heç biri əks mühakimələrdən çıxan nəticələrlə məşğul olmur, bunu ancaq dialektika və ritorika edir, belə ki, onların hər ikisi eyni dərəcədə əksliklərlə[6] münasibətdədirlər. Bu əksliklər öz təbiətlərinə görə eyni deyildir, amma həqiqət və öz təbiətinə görə yaxşı olan şeylər həmişə əqli nəticə çıxarmağa daha çox uyğundurlar və necə deyərlər, daha çox inandırma qabiliyyətinə malikdirlər.

Bundan başqa, əgər özünə öz bədəninlə kömək etməyi bacarmamağın rüsvayçılıqdırsa, onda özünə öz sözünlə kömək edə bilməməyin də rüsvayçılıqdır, belə ki, insan təbiətinə sözdən istifadə etmək bədəndən istifadə etməkdən daha çox xasdır.[7] Əgər kimsə desə ki, sözün belə qüvvəsindən ədalətsizcəsinə istifadə edən insan çoxlu ziyan törədə bilər, onda bu iradı (məziyyətləri çıxmaq şərti ilə) müəyyən dərəcədə bütün nemətlərə və əsasən də ən çox faydalı olanlara, məsələn: qüvvəyə, sağlamlığa, var-dövlətə, sərkərdəliyə aid etmək olar; bu nemətlərdən lazımi qaydada istifadə edən insan çoxlu fayda gətirə bilər, onlardan ədalətsizcəsinə istifadə edənlər isə çoxlu ziyan törədə bilər.

Beləliklə, aydındır ki, ritorika elmlərin hər hansı bir ayrıca sinfinə aid deyildir, amma dialektika kimi bütün başqa sahələrlə əlaqəsi var, eləcə də o, faydalıdır və onun işi inandırmaq deyil, hər bir halda inandırma üsullarmı tapmaqdır; eyni şeyi qalan bütün sənətlər barəsində də qeyd etmək olar, məsələn, həkimlik sənəti təkcə hər bir insanı sağlam

etməkdən ibarət deyil, həm də bu məqsədə mümkün qədər daha çox yaxınlaşmaqdır, belə ki, artıq tamam sağala bilməyən insanları da yaxşı müalicə etməyə kifayət qədər imkan ola bilər.

Bundan başqa, aydındır ki, eyni bir sənət sahəsinə həm həqiqətən inandırıcı olanı, həm də inandırıcı kimi görünən tədqiq etmək aiddir, bu da dialektika sahəsində həm həqiqi, həm də görünüşlü sillogizmin öyrənilməsinə bənzəyir: insan hər hansı müəyyən bir qabiliyyətinə görə sofist olmur, öz istedadı ilə istifadə etdiyi niyyətinin gücünə görə sofist olur. Onu da deyək ki, burada, yəni ritorikada natiq sözü həm bilik, həm də insanı danışmağa məcbur edən niyyət mənasmda veriləcək. Məntiq elmində adam öz niyyətinə görə sofist, qabiliyyətinə görə isə dialektik adlandırılır.[8]

İndi isə artıq metodun özündən danışmağa cəhd edək – biz necə və nəyin köməyi ilə qoyulmuş məqsədə çata bilərik? Beləliklə, əvvəldə olduğu kimi ritorikanın nə olduğunu müəyyən edərək sonrakı şərhimizə keçək.

**2.** ***Ritorikanın başqa elm və sənətlər arasında yeri: - İnandırmanın "texniki" (ritorikanın üsullarına əsaslanan) və "qeyri-texniki" (obyektiv səbəblərə əsaslanan) üsulları. – İnandırmanın üç mahir üsulu. – Ritorika – dialektika və siyasətin bir sahəsi kimi. – Misal və entimema. – İnandırıcı olanın analizi. – Ritorikanın məşğul olduğu məsələlər.- Entimemaları haradan əldə edirlər? – Ehtimalın müəyyən edilməsi. – Əlamətlərin növləri. – Misal – ritorik istiqamətləndirmə. – Ümumi yerlər (topoi) və xüsusi entimemalar (eidē).***

Beləliklə, ritorikanı hər bir verilmiş **predmetə** aid mümkün inandırma üsullarını tapmaq qabiliyyəti kimi müəyyən edək. Bu hər hansı bir başqa sənətin məqsədi deyildir, çünki, hər bir başqa **predmet** ancaq onun sahəsinə aid olanlar barəsində izah və inandırma apara bilər, necə ki, məsələn, həkimlik sənəti – sağlamlığı möhkəmləndirən və ya xəstəliyə aparan səbəblər barəsində, həndəsə vahidlər arasında mümkün dəyişikliklər barəsində, hesab – rəqəmlər barəsində; yerdə qalan elm və sənətlər də eyni ilə belədir; ritorika isə hər bir verilmiş **predmet** barəsində inandırma üsullarını tapmağa qabildir, buna görə də biz deyirik ki, o, heç bir xüsusi, müəyyən sinif **predmetinə** aid deyildir.

İnandırma üsullarının bəziləri "qeyri-texniki", digərləri isə "texnikidir". Mən bizim tərəfimizdən icad edilməmiş, amma daha əvvəldən bizdən asılı olmayaraq mövcud olan inandırma üsullarını "qeyri-texniki" (atechnoi) adlandırıram; buraya şahidlər, işgəncə altında verilmiş ifadələr, yazılı müqavilələr və s. aiddir; "texniki" (entechnoi) üsullar dedikdə, mən metodun və bizim şəxsi vasitələrimizin köməyi ilə yaradıla biləcək üsulları nəzərdə tuturam, beləliklə, birinci sübutlardan ancaq istifadə etmək lazımdır, ikinci sübutları isə əvvəlcədən tapmaq lazımdır.

Nitq vasitəsilə çatdırılan inandırma üsullarına gəldikdə isə onların üç növü vardır: bəziləri danışanın xarakterindən asılıdır, digərləri dinləyicinin bu və ya başqa cür əhval-ruhiyyəsindən, üçüncülər isə nitqin özündən asılıdır. Bu sonuncu olanlar həqiqi və ya görüntülü sübutetmədən ibarətdir.

Sübutlar danışanın mənəvi xarakterinin köməyi ilə o zaman qəbul olunur ki, söylənilən nitq onu söyləyən adama qarşı inam yaratsın, çünki, biz ümumiyyətlə yaxşı adamlara daha çox və tez inanırıq, bəzi hallarda ki, aydın bir şey yoxdur və tərəddüd var – onda heç inanmırıq və bu danışanın məlum mənəvi keyfiyyətlərə malik olması haqqında əvvəlcədən yaranmış qənaətdən irəli gəlmir, nitqin özünün nəticəsidir, belə ki, bu **predmet** ilə məşğul olan bəzi adamların düşündüyü kimi desək ki, sənətə həm də natiqin vicdanı da daxildir, guya o özü ilə necə deyərlər, ən etibarlı sübutları təmsil edir, onda ədalətsizlik etmiş olarıq.[9]

Dinləyicilər nitqin təsirindən həyəcana gələn zaman sübut dinləyicilərdən asılı vəziyyətə düşür, çünki, biz müxtəlif qərarları məmnunluq və ya narazılıq, məhəbbət və ya nifrətin təsiri altında qəbul edirik. Təkrar edirik ki, söz sənəti-

nin müasir nəzəriyyəçiləri məhz bu inandırma üsullarına toxunurlar. Bu üsulların hər birinə ayrıca olaraq ehtiraslardan danışanda toxunacağıq.[10]

Nəhayət, nitqin özü bizi o halda inandırır ki, onda natiq hər bir verilmiş sual üçün hazırladığı dəlillərdən əsil həqiqəti və ya görüntülü həqiqəti aşkara çıxara bilsin.

Sübutlar məhz belə yollarla həyata keçirildiyinə görə, onda, aydındır ki, onlardan ancaq əqli nəticələr çıxarmağa və xarakter, müsbət məziyyət və ehtirasları tədqiq etməyə, ehtirasların hər birinin nə olduğunu, təbiətcə necə olduğunu, nəyin nəticəsində və necə yarandığını araşdırmağa qabil olan insan istifadə edə bilər, beləliklə, ritorika dialektikanın və ədalətli olaraq siyasət adlandırdığımız əxlaq haqqında elmin bir sahəsi kimi meydana çıxır.[11] Bunun nəticəsində ritorika siyasət görkəmi alır və ritorikanı öz malı hesab edən adamlar ya nadanlıq, ya da şarlatanlıq, ya da insan təbiətinə xas başqa səbəblər üzündən özlərini siyasətçi kimi qələmə verirlər. Əslində, biz əvvəldən dediyimiz kimi, ritorika dialektikanın müəyyən bir hissəsi və bənzəridir: hər ikisi hər hansı müəyyən bir **predmet,** onun təbiətinin necə olması haqqında elm deyildir, amma onların hər ikisi sübutların tapılması üçün ancaq metodlardır. Beləliklə, biz, yəqin ki, bu elmlərin mahiyyətini və onların qarşılıqlı münasibətləri haqqında kifayət qədər danışdıq.

Həqiqət və ya görüntülü surətdə sübutetmə üsullarına gəldikdə isə dialektikada **istiqamətləndirmə**, sillogizm və görüntülü sillogizm olduğu kimi, burada da eynilə mövcuddur, çünki, misal **istiqamətləndirmədən** başqa bir şey deyil, entimema – sillogizmdir, görüntülü entimema isə – görüntülü sillogizmdir.[12]

Mən ritorik sillogizmi entimema adlandırıram, misalı isə – ritorik **istiqamətləndirmə**: axı bütün natiqlər öz dəlillərini ya misal gətirməklə, ya da entimemalar qurmaqla izah edirlər və bundan başqa heç bir sübut üsullarından istifadə etmirlər.



Odur ki, əgər hər hansı bir şeyi ya sillogizm, ya da **istiqamətləndirmə** yolu ilə sübut etmək zəruridirsə (bu bizim üçün "Analitikadan" məlumdur) onda bu sübutetmə üsullarının hər biri mütləq yuxarıda adı çəkilənlərin hər biri ilə üst-üstə düşür.

Misal və entimema arasındakı fərqlərə gəldikdə isə, bu artıq "Topik"dən məlumdur, belə ki, orada daha əvvəl sillogizm və **istiqamətləndirmə** haqqında deyilib: çoxlu oxşar hadisələr əsasında hər hansı bir faktın olması haqqında nəticə çıxarılır ki, bu cür nəticə orada **istiqamətləndirmə**, burada isə misal adlanır. Əgər hər hansı bir faktın mövcudluğundan nəticə çıxarılarsa ki, bu faktın mövcudluğu həmişə və ya çox zaman ondan fərqli olan başqa bir faktın mövcudluğunun nəticəsi olur, onda bu nəticə orada sillogizm, burada isə entimema adlanır.

Məlumdur ki, həm bu, həm də başqa qəbildən olan ritorik arqumentasiyanın öz yaxşı cəhətləri var. Biz "Metodika"da[15] nə deyiriksə, onu eynilə burada da tapırıq: bəzi nitqlər misallara, digərləri isə entimemalara meyllidir. Misallarla dolu nitqlər heç də az inandırıcı deyildir, amma entimemalarla dolu nitqlər isə daha böyük təsir bağışlayır. Biz bunun səbəbini, həm də bu iki qəbildən olan dəlillərin hər birindən necə istifadə etmək üsulu haqqında bir qədər sonra danışacağıq. İndi isə onların əsil mahiyyətini dəqiq müəyyən edək.

Hər hansı bir məşhur adam üçün inandırılma belə olmalıdır, həm də bir qəbildən olan inandırma bilavasitə öz-özlüyündə inandırır və etibar doğurur, digər qəbildən olanı isə ona görə buna nail olur ki, birinci qəbildən inandırıcılığı vasitəsilə sübut olunmuş kimi görünür; amma heç bir sənət özəl halları nəzərdən keçirmir: məsələn, tibb elmi Sokrat və ya Kallinin[16] sağlamlığı üçün nəyin faydalı olduğunu deyil, müəyyən xüsusiyyətlərə malik insanın və ya hər hansı adamların sağlamlığı üçün nəyin faydalı olduğu haqqında danışır;

bu qəbildən olan suallar sənət sahəsinə daxildir, özəl hallar isə saysız-hesabsızdır və bilik üçün əlçatmazdır.

Ritorika da buna görə ayrıca bir şəxs üçün, məsələn, Sokrat və ya Kalli üçün həqiqətə uyğun olam nəzərdən keçirmir, ancaq bütün insanlar üçün inandırıcı olanı olduğu kimi nəzərə alır. Dialektika da eyni cür hərəkət edir; bu sənət hər nədən gəldi nəticə çıxarmır (axı dəlilər üçün də nə isə inandırıcı ola bilər), ancaq müzakirəyə ehtiyacı olanlardan nəticə çıxarır, eyni ilə ritorika da adətən məsləhətləşməyə ehtiyacı olan məsələlərlə məşğul olur.

O, elə məsələlərə toxunur ki, onlar haqqında biz məsləhətləşirik, amma onlara dair bizdə ciddi müəyyən olunmuş qayda yoxdur və həm də elə dinləyiciləri nəzərdə tutur ki, onların nə uzun mühakimələr zəncirini tez qavramaq, nə də kənardan baxıb nəticə çıxarmaq qabiliyyəti yoxdur. Göründüyü kimi, biz onun barəsində məsləhətləşirik ki, nə keçmişdə, nə indi, nə də gələcəkdə başqa cürə ola bilməzlər, çünki biz onları elə olduğu kimi başa düşürük, ona görə məsləhətləşmirik ki, bunun heç bir mənası yoxdur.

Qərar vermək və nəticə çıxarmaq olar, birincisi, əvvəlcədən sillogitik yolla sübut olunmuş müddəalardan, ikincisi isə - sillogizm yolu ilə əvvəlcədən sübut olunmamış müddəalardan olsun və buna görə də bu cür sübutetmələrə ehtiyacı olsur, belə ki, bu olmazsa, onlar həqiqətə uyğun kimi təqdim olunmazlar; birinci halda mülahizələr çox uzun olduğuna görə asan başa düşülmür, çünki hakim adi adam kimi nəzərdə tutulur, ikinci halda isə onlar inandırıcı deyil, çünki, onların çıxış nöqtəsi olan müddəaları hamı tərəfindən qəbul edilməyib və ya həqiqətə uyğun deyil. Beləliklə, entimema və misal hökmən olmalıdırlar: birincisi sillogizm, ikincisi isə elə bir **istiqamətləndirməsi** olmalıdır ki, onun ümumiyyətlə başqa bir nəticəsi də ola bilsin. Həm entimema, həm də misal o qədər də çox olmayan müddəalardan əldə olunur; çox vaxt onlar ilk sillogizmi əldə edən vaxtdan sayca daha az olurlar, çünki onlardan hər hansı biri hamıya



məlumdursa, onu əlavə etmək lazım deyil, belə ki, onu dinləyici özü əlavə edir, məsələn Dorieyin[17] yarışda qalib gələrək mükafat kimi çələng alması fikrini ifadə etmək üçün onun Olimpiya oyunlarında qalib gəldiyini demək kifayətdir, qələbə üçün mükafatın çələng olduğunu əlavə etmək lazım deyil, çünki bunu hamı bilir.

Ritorik sillogizmlərin əldə olunduğu çox az zəruri müddəalar var, çünki, mübahisə və mühakimələrin toxunduğu şeylərin əksəriyyəti onların olduğu ilə müqayisədə başqa cür də ola bilər, əgər insanlar məhz öz fəaliyyət obyektləri olan şeylər haqqında mühakimə və fikir yürüdürlərsə, onda onların bütün fəaliyyəti məhz belədir: burada heç nə zərurət xarakteri daşımır, ən çox baş verənlən isə mütləq eyni qəbildən olan müddəalardan götürülməlidir, necə ki, eynilə öz təbiətinə görə zəruri olan zərurətdən çıxarılmalıdır (bütün bunlar bizə həm də "Analitika"dan məlumdur). Buradan belə görünür ki, entimemaların əldə olunduğu müddəalarm içindən bəziləri zərurət xarakteri daşıyır, başqaları isə (onlarm çox hissəsi belədir – təsadüf xarakteri daşıyır; beləliklə entimemalar mümkün ola biləndən və ya əlamətlərdən əldə olunur, belə ki, bu iki anlayışın hər biri zəruri olaraq o biri ilə üst-üstə düşür.

Mümkün olan odur ki, əksər hallarda baş versin və bəzilərinin müəyyən etdiyi kimi, sadəcə olaraq baş verə bilən deyil, başqa cür də baş verə bilər; onun o birinə qarşı münasibəti elədir ki, bu münasibətə görə o, ümuminin xüsusiyə olan münasibəti kimi mümkündür.

Əlamətlərə gəldikdə isə (sēmeia) onların bəziləri xüsusiyə münasibətində heç bir ümumi əhəmiyyətə malik deyildir, digərləri isə ümumiyə münasibətdə xüsusi əhəmiyyətə malik deyildir, onlardan bəziləri, hansı ki, zəruri olaraq nəticəyə doğru aparırlar – aşkar sübutlar (tecmēria) adlandırılırlar; zəruri olaraq nəticəyə doğru aparmayanların isə elə adları yoxdur ki, onların fərqləndirici cəhətlərinə uyğun gəlsin.

Mən elə əlamətləri zəruri olaraq nəticəyə aparan adlandırıram ki, onlardan sillogizm əmələ gəlsin. Məhz buna görə, bu qəbildən olan əlamətlər aşkar sübutlar (tecmērion) adlandırılır, çünki, insanlar düşünəndə ki, onların dedikləri təkzib oluna bilər, onda onlar belə hesab edirlər ki, tecmērion, yəni sübut olunub qurtarmış bir şeyi təqdim ediblər, çünki, qədim dildə "tecmar" və "peras" eyni bir məna verir.[19]

Əlamətlərdən bəziləri ümumiyə qarşı xüsusi əhəmiyyətindədir, necə ki, məsələn əgər kim isə müdriklərin ədalətli olmadığının əlaməti olaraq Sokratın müdrik və ədalətli olduğunu göstərsin. Bu əlamətdir, amma deyilən hətta doğru olsa belə, onu təkzib etmək olar, çünki, ondan sillogizm əldə etmək olmaz. Başqa qəbildən olan əlamətlər, məsələn, əgər kimsə desə ki, hər hansı bir adam xəstədir, ona görə ki, qızdırması var və ya hər hansı bir qadın doğub, ona görə ki, onun südü var – bu qəbildən olan əlamətlər zərurət xarakteri daşıyır. Ancaq bu qəbildən olan əlamətlər "tecmērion" sayılır, ona görə ki, madam onun mühakiməsi doğrudur, onda o, heç cür təkzib edilə bilməz. Ümumidən xüsusiyə aparan əlamət, məsələn, əgər kimsə hər hansı bir adamın tez-tez nəfəs almasını bu adamın qızdırmadan əziyyət çəkməsi faktı hesab edirsə, bunu təkzib etmək olar və hətta bu iddia düzgün olsa da, çünki, bəzən qızdırması olmayan insan da tez-tez nəfəs ala bilər.

Beləliklə, biz, ehtimalın, əlamətin və nişanənin nə olduğunu və bir-birindən nə ilə fərqləndiyini dedik, bundan başqa isə biz "Analitikada"[20] bəzi səbəblərin sillogizm qaydaları ilə əldə edildiyinin, digərlərinin isə bu qaydalarla çıxarılmadığının səbəblərini ətraflı şəkildə araşdırdıq.

Biz, həmçinin dedik ki, misal **istiqamətləndirmədir** və bu **istiqamətləndirməyə** aid olanları izah etdik: misal nə hissənin tama, nə tamın hissəyə, nə də tamın tama münasibətini yox, hissənin hissəyə, oxşarın oxşara münasibətini bildirir, bu o vaxt olur ki, verilmiş hər iki hadisə eyni hadisələr kateqoriyasından olsun və onlardan biri o birindən daha çox məşhur olsun: məsələn, biz fərz edirik ki, Dionisi özü üçün silahlı mühafizəçi tələb edərək tiran olmaq niyyətindədir, çünki, bundan əvvəl Pisistrat tiran olmaq qərarına gələrək mühafizə tələb edib və tələbi ödənən kimi tiran olub; Megaralı *Flagen*[21] və bizə yaxşı tanış olan bir çox adamlar da belə hərəkət ediblər; onların hamısı məhz bu məqsədə görə Dionisiyə qarşı münasibətdə misal olurlar, çünki biz Dionisini yaxşı tanımırıq və dəqiq bilmirik ki, o məhz bu məqsədlə özü üçün mühafizə tələb edir. Bütün gətirdiyimiz misallar ümumi müddəaya uyğun gəlir; madam insan özü üçün mühafizə tələb edir, onda, o, tiran olmağı düşünür.

*Biz apodiktik*[22] kimi görünən inandırma üsullarını necə və nədən tərtib olunduğunu söylədik. Entimemalar arasında demək olar ki, bütün tədqiqatçılar tərəfindən tamam unudulan bir böyük fərq var, bu da sillogizmlərin dialektik metoduna aid olanın eynidir və ondan ibarətdir ki, entimemaların bəziləri sillogizmin ritorik, eləcə də dialektik metodu ilə yaranır, digərləri isə başqa sənət və imkanlara (dynameis) uyğun yaranır; onlardan bəziləri tamamlanmış vəziyyətdə mövcuddur, bəziləri isə hələ tamamlanmayıblar. Bunun nəticəsində onlardan istifadə edən insanlar özləri belə bilmədən onlardan lazım olduğundan daha çox istifadə edir və artıq sadə natiq rolundan çıxırlar. Əgər biz fikrimizi daha ətraflı açsaq, dediyimiz daha aydın olar. Mən deyirəm ki, dialektik və ritorik sillogizmlər bizim ümumi yerlərlə – toplarla (topoi) danışdığımıza aiddir; onlar ədalət, təbiət hadisələri və bir çox bir-birindən fərqli predmetlər haqqında mühakimə yürütmək üçün ümumidirlər; məsələn, böyüyün və kiçiyin topu belədir, çünki, bunun əsasında həm ədalət və təbiət hadisələri, həm də hər hansı başqa bir predmetə münasibətdə - hətta bu predmetlər təbiətcə tamamilə müxtəlif olsalar da – sillogizm və ya entimema qurmaq üçün eyni cür əlverişlidirlər. Mənim xüsusi adlandırdığım entimemalar müxtəlif növ və qəbillərdən olan hadisələrə aid mühakimə-

lərdən alınır; məsələn, fizikanın mühakimələri mövcuddur, amma onlardan etikaya aid entimema və sillogizm əldə etmək olmaz, etika sahəsində də başqa mühakimələr mövcuddur ki, onlardan fizika üçün, eləcə də bütün başqa elm sahələri üçün nəticə çıxarmaq olmaz. Birinci qəbildən olan entimemalar, yəni (topoi), insanı hər hansı bir xüsusi elm sahəsində bilikli edə bilməz, çünki, onlar heç bir müəyyən predmetə toxunmurlar. İkinci qəbildən olan entimemalara gəldikdə isə biz mühakimələri nə qədər yaxşı seçsək, bir o qədər də tez və hiss olunmadan dialektika və ritorikadan fərqli elm sahəsini yaradarıq və əgər biz əsas müddəalara qədər çatsaq, onda artıq qarşımızda dialektika və ritorikanı deyil, əsas müddəalarına yiyələndiyimiz elmi görərik. Entimemaların çoxu bu özəl müddəalardan əldə olunur, toplardan isə daha az entimema əldə olunur.

İndi, biz, eynilə "Topik"də[23] olduğu kimi entimema növlərini, həm də onların əldə olunacağı topları nəzərdən keçirək. Hər bir ayrı qəbildən olan predmetlərə xas olan mühakimələri mən növ adlandırıram, bütün predmetlər üçün ümumi olan mühakimələri isə top adlandırıram.

Beləliklə, əvvəlcə növlərdən danışaq. Amma ən əvvəl ritorikanın qəbillərini nəzərdən keçirək ki, onların sayını müəyyən edib hər birinin element və mühakimələrini ayrı-ayrılıqda araşdıraq.

3. *Nitqin tərtib olunduğu üç element. – Üç cür dinləyici. – Ritorik nitqlərin üç növü.- Məşvərətçi, məhkəmə, epideyktik[24] nitqlərin predmeti. Hər üç nitq növünün hər birinin nəzərdə tutduğu vaxt. – Hər bir növ nitqin məqsədi. – Hər bir növ nitqin mühakimələrini bilmək zərurəti.*

Ritorikanın üç növü var, ona görə ki, üç cür qəbildən olan dinləyici var. Nitq üç elementdən: natiqin özü, onun danışacağı predmet və onun müraciət etdiyi şəxsdən ibarətdir; bütün bunların son məqsədi dinləyicidir. Dinləyici hökmən ya sadə tamaşaçı, ya hakim olur və həm də artıq



44472

baş vermiş və ya baş verəcək şeyin hakimi olur. Olacaqlar haqqında düşünən insana misal kimi xalq yığıncağı üzvünü, artıq olmuşları düşünən insana məhkəmə üzvünü, ancaq natiqin istedadına fikir verən adama isə sadə dinləyicini misal gətirə bilərik. Beləliklə, təbii olaraq üç növ ritorik nitq meydana çıxır: *məşvərətçi*, *məhkəmə* və *epideyktik*. Məşvərətçi *nitqlərin işi* ya razılaşmaq, ya da rədd etməkdir, çünki, özəl həyatda məşvərət etməli olan adamlar kimi kütlə qarşısında nitq söyləyən natiqlər də iki şeydən birini edirlər. (ya razılaşır, ya da rədd edirlər).

Məhkəmə nitqlərinə gəldikdə isə, onların işi ya ittiham etmək, ya da bəraət qazandırmaqdır, çünki, məhkəmədə çəkişən tərəflər mütləq iki şeydən birini edirlər – ya ittiham edirlər, ya da özlərini təmizə çıxarırlar.

Epideyktik nitqlərin işi isə tərifləmək və ya məzəmmət etməkdir. Hər bir növ nitqin nəzərdə tutduğu vaxta gəldikdə isə, insan məşvərət edərkən gələcəyi nəzərdə tutur, o, nəyi isə rədd edərək və ya nə ilə isə razılaşaraq ancaq gələcək üçün məsləhətlər verir. Məhkəmədə çəkişən insanın işi keçmiş ilədir, çünki, məhkəmədə həmişə artıq baş vermiş hadisələrə görə biri ittiham edir, o biri isə müdafiə olunur. Epideyktik natiqlər üçün isə hazırkı dövr daha çox vacibdir, çünki, hamı mövcud olan bir şeyə görə ya tərif, ya da məzəmmət edir; amma, natiqlər tez-tez başqa zamanlardan həddindən çox istifadə edirlər: keçmişi xatırlayır və ya gələcək üçün fərziyyələr qururlar. Hər bir növdən olan nitqlərin müxtəlif məqsədləri var və üç nitq növü olduğuna görə üç məqsəd də mövcuddur: məsləhət verən insanın məqsədi fayda və ziyandır – biri məsləhət verərək yaxşılığa təhrik edir, o biri isə fikrindən daşındıraraq pis olandan uzaqlaşdırır; yerdə qalan mühakimələr: ədalətli olan və ədalətsiz olan, gözəl olan və rüsvayçı olan burada ikinci plandadır.

Məhkəmədə çəkişənlərin məqsədi ədalət və ya ədalətsizlikdir, amma onlar da buna müxtəlif mülahizələr əlavə edirlər.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Tərif və ya məzəmmət edən insanlar üçün məqsəd – gözəl və nöqsanlı olanı fərqləndirməkdir, amma bura da başqa mülahizələr əlavə olunur.

Hər bir növdən olan nitq üçün məhz bizim dediyimiz məqsədin olmasının sübutu odur ki, bəzi hallarda qalan başqa bəndlərə görə qətiyyən mübahisə etmirlər; məsələn, iddiaçı heç vaxt inkar etmir ki, fakt həqiqətən olub və ya bu fakt həqiqətən də ziyan törədib, amma, o, ədalətsiz iş gördüyü haqqında fikirlə razılaşmır, çünki, əgər belə olmasaydı, onda heç bir məhkəmə lazım olmazdı.

Məsləhət verən natiqlər də eynilə bu cür, qalan hər şeydə tez-tez güzəşt etsələr də, heç vaxt boyun almırlar ki, xeyirsiz məsləhətlər verirlər və ya xeyirli şeylərdən çəkindirirlər; məsələn, onlar çox vaxt qətiyyən diqqət vermirlər ki, qonşuları və ya bizə heç bir pislik etməyən adamları əsarət altına almaq necə də ədalətsizdir. Eynilə, tərif və ya məzəmmət edən natiqlər də bu adamın nə isə xeyirli və ya ziyanlı bir şey etməsinə baxmırlar, hətta bəzən ona görə tərifləyirlər ki, öz faydasına zidd olaraq nə isə gözəl bir şey edib; məsələn, Axilli ona görə tərif edirlər ki, o, özünün bu vaxt ölə biləcəyini bilə-bilə dostu Patrokla yardım göstərir[26], halbuki, onun yaşamağa tam imkanı var idi. Onun üçün ölüm nə isə daha gözəl bir şey kimi, həyat isə faydalı bir şey kimi təsəvvür olunur.

Deyilənlərdən aydındır ki, hər şeydən əvvəl göstərilmiş hər bir qəbildən olan nitqlərin hər birinin mühakimələrini ayrıca bilmək vacibdir, çünki, sübutlar, ehtimallar və əlamətlər ritorikanın mühakimələridir. Axı, ümumilikdə desək, sillogizm mühakimələrdən tərtib olunur, entimema isə adını çəkdiyimiz mühakimələrdən tərtib olunmuş sillogizmdir. Belə ki, keçmişdə baş verə bilməyən qeyri-adi bir şey gələcəkdə də baş verməyəcək, həmişə ancaq mümkün olan şeylər baş verir və eynilə belə, nə isə mümkün olmayan bir şey heç vaxt keçmişdə baş verə bilmədiyi kimi, gələcəkdə də mümkün olmayan bir şey baş verə bilməz; buna görə də həm



məsləhət verən, həm də məhkəmə və ya epideyktik nitqlər söyləyən natiqlər üçün mümkün olan və mümkün olmayanlar haqqında, nəyin isə olduğunu və ya olmadığını, olacağı və ya olmayacağı haqqında mühakimələri qabaqcadan hazır tutmaq zəruridir.

Bundan başqa, həm tərif edən və ya məzəmmət edən, həm də dilə tutub inandıran, ya da dilə tutub fikrindən daşındıran, eləcə də günahlandıran, ya da bəraət qazandıran bütün natiqlər təkcə nəyi isə sübut etməyə can atmırlar, onlar həm də xeyir və ya şərin, ədalətin və ya haqsızlığın, gözəlliyin və ya mənfurluğun böyüklüyünü və ya miskinliyini göstərməyə çalışırlar və bu zaman predmetləri öz-özlüyündə, ya da bir-biriləri ilə müqayisə edərək nəzərdən keçirirlər. Bütün bunları nəzərə alaraq, aydındır ki, ucalıq və miskinlik və böyüklük və kiçikliyə aid həm ümumi, həm də xüsusi xarakterdə olan mühakimələri əldə hazır saxlamaq lazımdır; məsələn, nəyi böyük və ya kiçik fayda və ya böyük, ya da kiçik cinayət və ya çox, ya da az dərəcədə ədalətli hərəkət adlandırmaq olar; bu eynilə qalan predmetlərə də aiddir.

Beləliklə, biz nəyə dair mühakimələrin əldə hazır tutulmasının zəruri olması haqqında danışdıq. Bundan sonra isə hər bir növdən olan nitqlərin predmetini ayrıca araşdırmaq lazımdır: bu həm məşvərətçi, epideyktik, həm də məhkəmə nitqlərinə aiddir.

4. *Məşvərətçi nitqlərdə natiq nədən danışmalı olur? – İnsanların əlaqədə olduğu məsələlərin müfəssəl surətdə təhlili ritorikanın sahəsinə aid deyildir. – Ritorikaya analitik və siyasi elementlər daxildir. – Məşvərətçi nitqlərin söylənməsinə dair beş bənd: maliyyə, müharibə və sülh, ölkənin qorunması, ölkənin ərzaq ehtiyatı, qanunvericilik. – Natiq dövlət quruluşu qaydalarını bilməlidir.*

Beləliklə, hər şeydən əvvəl müəyyən etmək lazımdır ki, insan hansı qəbildən olan fayda və ziyan barəsində məşvərət edir, belə ki, məşvərəti bütün fayda, nemət və ziyanlar haqqında deyil, ancaq həm mümkün ola bilən və həm də

mümkün ola bilməyənlər haqqında etmək olar. Hökmən mövcud olan və ya olacaq və ya olmayacaq və ya ola bilməyəcək şeylər haqqında isə heç bir məşvərət ola bilməz. Amma, ola biləcək şeylərin hamısı haqqında da məşvərət etmirlər, çünki, ola biləcək və bilməyəcək nemətlər arasında elələri də var ki, onlar şeylərin təbii axarında və ya təsadüfi olaraq meydana çıxırlar və onların haqqmda məşvərət etməyin heç bir xeyri yoxdur. Aydındır ki, ancaq elə hadisələr haqqında məşvərət etmək olar ki, onlar təbiətlərinə görə bizdən asılıdır və onların yaranma mənbəyi bizim özümüzdədir. Axı biz o vaxta qədər məlum şeyləri tədqiq edirik ki, onları düzəltməyimizin mümkünlüyünü və qeyri-mümkünlüyünü müəyyən edək.

Burada biz insanların adətən əlaqədə olduğu məsələləri bir-bir, müfəssəl şəkildə nəzərdən keçirərək növlərə bölməyi qarşımıza məqsəd qoymalıyıq, lakin, onlara həqiqətə uyğun tərifi mümkün qədər verməməliyik, çünki, bu ritorikanm sahəsinə aid olmayıb, başqa, daha dərin və həqiqi elmin sahəsinə aiddir, həm də, indi ritorikaya ona xas olandan daha çox məsələ aid edilib.

Bizim, əvvəl də qeyd etdiyimiz kimi ritorikanın analitik elm ilə əxlaqa dair siyasət elmindən ibarət olması və onun bəzi münasibətdə dialektikaya, digərində isə sofist mühakimələrinə oxşarlığı düzgündür.[26] Əgər biz dialektika və ritorikanı qabiliyyət kimi deyil, elm kimi nəzərdən keçirmək istəsək, onda özümüz də hiss etmədən onların təbiətini məhv edərik, belə ki, onlara belə münasibət bəsləməklə biz elə elmlərin sahəsinə keçməli olacağıq ki, onların sahəsinə təkcə mühakimələr deyil, həm də məlum predmetlər də daxildir.

İndi isə elə məsələlərdən danışaq ki, onları kateqoriyalara bölmək faydalıdır və onların siyasət elmi üçün əhəmiyyəti vardır. Haqqmda insanların məşvərət etdiyi və natiqlərin fikir söylədiyi şeyləri əsasən beş bəndə ayırmaq olar:



maliyyə, müharibə və sülh, ölkənin müdafiəsi, ərzağın idxalı və ixracı və qanunvericilik.

Maliyyəyə dair məsləhət vermək istəyən şəxs bütün dövlət gəlirlərinin bütün mənbələrini, onların necə və nə qədər olduqlarını bilməlidirlər ki, onlardan hər hansı biri yaddan çıxsa, onu gəlirə əlavə etsin və başqa birisi lazım olduğundan az olanda onu artırsın; bundan başqa bütün xərcləri mütləq bilmək lazımdır ki, məxaricin bir bəndi faydasız çıxarsa onu ləğv etsin, hər hansı başqa birisi isə lazım olduğundan çox böyükdürsə, onu azaltsın, belə ki, insanlar ancaq əllərində olanlara əlavə etməklə varlanmırlar, bunu həm də xərcləri azaltmaq yolu ilə əldə etmək olar.

Bütün bu məlumatları təkcə bir işin təcrübəsindən əldə etmək olmaz: buna dair məsləhətlər vermək üçün mütləq bu sahədə başqalarmın qazandıqları təcrübələri də bilmək lazımdır.

Müharibə və sülhə gəldikdə isə burada dövlətin gücünü bilmək vacibdir. İndiki zamanda onun gücünün böyüklüyü nə qədərdir və əvvəl nə qədər olub, dövlətin gücü indi nədədir və onu hansı cəhətdən daha da artırmaq lazımdır. Bundan başqa, bilmək vacibdir ki, dövlət hansı müharibələri aparıb və necə aparıb – bütün bunları təkcə öz dövlətinə qarşı münasibətdə deyil, həm də qonşu dövlətlərə qarşı münasibətdə də öyrənmək lazımdır. Həmçinin bilmək lazımdır ki, hansı qonşularla müharibə etmək ehtimalı var. Bu ona görə lazımdır ki, daha güclü olanlarla sülh qorunub saxlansm, zəiflərə gəldikdə isə, elə eləmək lazımdır ki, müharibənin başlanması həmişə bizdən asılı olsun.

Düşmənlərin hərbi qüvvələrini bilmək də vacibdir, onlarm qüvvələrinin bizim qüvvələrə uyğun gəlib-gəlmədiyini bilməliyik, çünki, bu yolla biz həm faydalana billəcəyik, həm də ziyan vura biləcəyik. Elə bunun üçün də təkcə bizim deyil, yadların da apardığı müharibələri nəzərdən keçirmək vacibdir, çünki eyni səbəblərdən eyni nəticələr alınır.

Ölkənin qorunmasına gəldikdə isə bu qorunma üsulları ilə tanış olmaq vacibdir; keşikçilərin sayını, keşikçi məntəqələrinin növünü və yerlərini bilmək də vacibdir; amma, bu məlumatları ölkə ilə yaxşı tanış olmadan əldə etmək olmaz; bütün bunlar ona görə lazımdır ki, vacib məntəqələrin mükəmməl qorunması üçün zəif qorunan yerlər müəyyən olunub gücləndirilsin, lazım olmayan yerdə olan keşikçi məntəqələri isə ləğv edilsin.

Ölkənin ərzaq məsələsi sahəsində onu bilmək vacibdir ki, ölkənin istehlakı üçün nə qədər ərzaq lazımdır və ölkədə istehsal olunan, eləcə də idxal olunan ərzaqlar necədir, həmçinin ölkənin hansı dövlətlərdən ərzaq idxal etməyə və hansılarına ixrac etməyə ehtiyacı var – bu həmin ölkələrlə müqavilələr və ticarət sazişləri bağlamaq üçün vacibdir, beləliklə, vətəndaşları iki kateqoriyadan olan dövlətlərlə toqquşmaqdan çəkindirmək lazımdır: bizdən qüdrətli olanlarla və yuxarıda göstərilmişlərə uyğun olaraq ölkəyə faydalı ola biləcək dövlətlərlə.

Əgər dövlətin təhlükəsizliyinin saxlanması üçün bütün bu məsələlərlə tanış olmaq vacibdirsə, qanunvericiliyi bilmək heç də bundan az vacib deyil, çünki, dövlətin rifahı qanunlardan asılıdır.

Beləliklə, neçə növ dövlət qurumunun olmasını və onların hər biri üçün nəyin faydalı olduğunu, həmçinin dövlət quruluşunun sözügedən formasının öz təbiətindən irəli gələn, eləcə də onun təbiətinə zidd olan hansı səbəblərin bu formanın məhvinə səbəb olacağını bilmək vacibdir. Mən məlum idarə formasının öz içində olan xüsusiyyətləri üzündən məhvi haqqında danışıram, ona görə ki, ən yaxşı idarə formasını çıxmaq şərti ilə yerdə qalanların hamısı həm həddindən çox zəiflikdən, həm də həddən artıq gərginlikdən məhv olublar, məsələn, demokratiya təkcə zəifləyərək ən sonda oliqarxiyaya[27] keçdiyi zaman deyil, həm də həddindən artıq gərginlikdən də məhv ola bilər – necə ki, qarmaqvari və yastı burun təkcə bu xüsusiyyətlərinin bir qədər



yumşalması nəticəsində ortabab formaya düşür, eləcə də qarmaqvariliyin və yastılığın həddən çox artması nəticəsində elə forma alınır ki, o, heç buruna oxşamır.

Qanunvericiliyə münasibətdə hansı idarə formasının faydalı olduğunu bilmək üçün təkcə keçmişi müşahidə etməklə qane olmaq olmaz, bunun üçün başqa dövlətlərin idarə formalarını da bilmək lazımdır, bilmək lazımdır ki, hansı adamlar üçün necə idarə forması yaranır. Bundan aydın olur ki, qanunvericilik üçün dünyanın təsviri faydalıdır, çünki bundan başqa xalqların qanunları ilə tanış olmaq üçün istifadə etmək olar; dövlət işlərinin məşvərəti üçün isə tarixçilərin əsərləri faydalıdır. Amma, bunların hamısı ritorika deyil, siyasətin sahəsinə aiddir.

Dövlət işlərində məsləhət vermək istəyənlərin bilməli olduqları əsas bəndlər bunlardır. İndisə isə biz yuxarıda adı çəkilən, eləcə də bütün başqa məsələlərdə nə məsləhət vermək, harada isə nədən çəkindirmək üçün lazım olan müddəaları şərh edəcəyik.

**5.** *Xoşbəxtlik (eudaimonia) insan fəaliyyətinin məqsədi kimi. – Xoşbəxtliyin dörd tərifi. – Xoşbəxtliyin tərkib hissələri. – Daxili və nemətlər. – Alicənab mənşə; yaxşı və çoxsaylı övladlar (eytechnia və polytechnia); var-dövlət, yaxşı ad-san, hörmət və ehtiram, fiziki məziyyətlər, çoxlu dosta sahib olmaq (polypilia) və yaxşı adamlarla dostluq (chnēstopilia) etmək anlayışlarının analizi. – "Dost" anlayışının tərifi. – Xoşbəxt tale (eytychia) və təsadüfi nemətlər.*

Hər bir insanın ayrılıqda və bütün insanların hamısının məlum bir məqsədinin olduğunu demək olar. İnsanlar ona çatmaq üçün bəzi şeyləri seçir, digərlərindən isə yan keçirlər; bu məqsəd qısa sözlə desək, xoşbəxtlik (eudaimonia) və onun tərkib hissələridir. Beləliklə, xoşbəxtliyin nə olduğunu və onun hissələrinin nədən ibarət olduğunu araşdıraq, çünki, bütün inandırılaraq yola gətirmələrin və yoldan çəkindirmələrin xoşbəxtliyə dəxli vardır. Xoşbəxtliyə aparan şeyləri və ona əks olanı, xoşbəxtliyi və ya onun hər hansı bir

hissəsini yaradan, ya da daha da artıran şeylərin hamısını etmək lazımdır, amma xoşbəxtliyi məhv edən, ona mane olan və ya yad olan şeyləri yaradan hərəkətləri eləmək lazım deyil.

Xoşbəxtliyi *məziyyətlər ilə birləşmiş firavanlıq* və ya öz həyatından razılıq və ya təhlükəsiz xoş güzəran və ya həddindən çox əmlak və qula sahib olmaq və onları qorumaq, istifadə etmək imkanına malik olmaq imkanı kimi müəyyən edək.[28] Demək olar ki, bütün insanlar bunların birini və ya bir neçəsini xoşbəxtlik kimi qəbul etməyə razı olarlar.

Əgər, xoşbəxtlik həqiqətən buna bənzər bir şeydirsə, onun tərkib hissələrinə hökmən aşağıdakılar daxil olmalıdır: alicənab mənşə, çoxlu dost, yaxşı adamlarla dostluq, var-dövlət, yaxşı və çoxsaylı nəsil, xoşbəxt qocalıq. Bundan başqa, sağlamlıq, gözəllik, qüvvə, boy-buxun, yarışlarda zirəklik kimi fiziki üstünlüklər, eləcə də, şöhrət, hörmət, müvəffəqiyyət kimi məziyyətlər. Ona görə ki, insan ancaq həm özündə, həm də ondan kənarda olan nemətlərə sahib olan zaman (bunlardan başqa isə nemət yoxdur) daha xoşbəxt olur. İnsanın özündə mənəvi və cismani nemətlər, ondan kənarda isə mənşə alicənablığı, dostlar, var-dövlət və hörmət kimi nemətlər var. Bizim fikrimizcə, buna qüdrət və müvəffəqiyyət də əlavə olunmalıdır, çünki, bu halda həyat daha çox təhlükəsiz olur.

Beləliklə, xoşbəxtliyin adı çəkilən hissələrinin hər birinin ayrılıqda nə olduğunu araşdıraq.

Hər hansı bir xalq üçün və ya dövlət üçün alicənab mənşədən olmaq avtoxton və ya sözügedən ölkənin qədim sakini olmaq, şan-şöhrətli xalq rəhbərlərinin nəslindən olmaq və öz nəslində rəqabətli işlərdə şöhrət qazanmış çoxlu igid ərlər yetişdirməkdir. Ayrıca bir adam üçün mənşənin nəcibliyi həm ata, həm də ana xətti ilə gəlir, həm də hər iki valideynin vətəndaş bərabərliyi ilə şərtləndirilir. Həm bütövlükdə dövlət üçün, həm də ayrıca adam üçün alicənab mənşədən olmaq hünər, var-dövlət və ya hörmətə layiq başqa şeylərlə şöhrətlənmiş kişilərin nəslindən olmaq və nəsildə çoxsaylı şbhrətli kişi, qadın, gənc və qocanın olması deməkdir.[29]



Yaxşı və çoxsaylı övlad anlayışı aydındır: dövlət üçün yaxşı *övladlara malik olmaq* qüvvə, boy-buxun, gözəllik, yarışlarda zirəklik kimi yaxşı fiziki keyfiyyətləri olan çoxlu və yaxşı cavanlara malik olmaq deməkdir, əxlaqi keyfiyyətlərə gəldikdə isə gənc adamın məziyyəti sadəlik və mərdlikdir.

Ayrıca bir adam üçün çoxsaylı və yaxşı övladlara sahib olmaq yuxarıda göstərilən keyfiyyətlərə malik həm kişi, həm də qadın cinsindən olan uşaqlara malik olmaq deməkdir.

Qadının fiziki məziyyəti gözəllik və boy-buxun, əxlaqi məziyyəti isə təvazökarlıq və alçaqlıq bilməyən zəhmətkeşlikdir (aneleytheria). Hər bir insan və bütün dövlət çalışmalıdır ki, həm qadınlarda, həm də kişilərdə yuxarıda göstərilən keyfiyyətlər olsun, çünki, qadınları lakedemoniyalı qadınlar kimi əxlaqsız olan dövlətlərdə əmin-amanlıq və firavanlıq təqribən iki dəfə azdır.[30]

Var-dövlətin tərkib hissələrinə sikkələrin çoxluğu, torpağa və daşınmaz əmlaka sahiblik, eləcə də çoxlu sürüərin və qamətli, gözəl qulların olması da daxildir; bütün bu mülkiyyət obyektləri danılmaz, azad insanın ləyaqətinə uyğun və faydalı olmalıdır. Mülkiyyətin faydalı obyektləri deyəndə elələrini nəzərdə tuturuq ki, onlar azad insanın ləyaqətinə uyğun məhsul gətirsinlər və zövq versinlər. Mən elə mülkiyyət predmetlərini məhsul gətirən adlandırıram ki, onlardan gəlir əldə olunsun, zövq verən mülkiyyətdən heç nə əldə olunmur, onlar ancaq istifadə olunur.

Mülkiyyətin danılmazlığı əlamətinə gəldikdə isə bu mülkiyyətin elə yerdə və elə şərtlərlə olmasıdır ki, mülkiyyət obyektindən istifadə üsulu sahibin özündən asılı olsun, mülkiyyətə sahib olub-olmamağın əlaməti isə mülkiyyət predmetinin əldən alınmaq imkanının olmasıdır; əldən alınmaq imkanı dedikdə isə onu satışa verilməsini nəzərdə

tuturam. Ümumiyyətlə, var-dövlətin mahiyyəti ona sahib olmaqdansa, onun istifadə edilməsindədir; axı, mülkiyyət predmetləri üzərində əməliyyatlar və onlardan istifadə etmək elə var-dövlət deməkdir.

Yaxşı ad-sanı olmaq bütün insanlar arasmda sanballı adam kimi sayılmaq və ya elə bir şeyə malik olmaq deməkdir ki, o, hamının və ya əksər insanların və ya yaxşı, ağıllı adamların can atdığı bir şey olsun. Hörmət xeyirxah, hami adamın ad-samnın əlamətidir; əsasən xeyirxahlıq etmiş insanlarm hörmət görməsi ədalətlidir, amma, həm də xeyirxahlığın baş verməsinə və olmasına imkan verənlər və ya əldə edilməsi sözügedən yerdə və vaxtda çətin olan bir sərvət və ya nemətə aidiyyatı olanlar da hörmət görürlər. Çoxları üzdən bir o qədər də əhəmiyyətli olmayan işlərə görə hörmət qazanırlar ki, bunun səbəbi görülən xidmətin yeri və vaxtıdır.

Hörmət və ehtiram özünü qurbanların kəsilməsində, nəsr və nəzmdə şöhrətləndirilmədə, fəxri hədiyyələrdə, müqəddəs torpaqdan verilən payda, fəxri yerlərdə dəfn mərasimlərində, heykəllərdə və dövlət hesabına təminatda göstərir; barbarlarda isə üz üstə yıxılıb təzim etmək, yer göstərmək, həmin xalqlarda şərəfli hesab olunan hədiyyələrin verilməsi hörmət və ehtiram əlaməti hesab olunur. Hədiyyə həm məlum əmlakın verilməsi, həm də hörmət əlaməti hesab olunur; məhz buna görə də hədiyyələri həm mənfəətgüdən, həm də şöhrətpərəst adamlar əldə etmək istəyirlər; hədiyyə həm bu, həm də digər adamlara lazım xüsusiyyətə malikdir: hədiyyə mənfəət güdən adamların can atdığı müəyyən dəyərə malikdir, həm də, şöhrətpərəst adamların can atdığı hörmət və ehtiram ilə bağlıdır.

Sağlamlıq fiziki məziyyət olub, insanın öz bədənindən ağrısız istifadə etməsi deməkdir, çünki, bir çoxları, məsələn, rəvayətlərdəki Herodik[31] kimi elə sağlamlığa malikdirlər ki, heç kəs onlara qibtə edə bilməz, belə ki, onlar insan üçün



mümkün olan hər şeydən və ya çox şeydən imtina etməli olurlar.

Gözəlliyə gəldikdə isə, o, hər bir yaş üçün müxtəlifdir. Gəncliyin gözəlliyi ağır zəhmətlərə qatlaşa biləcək bir bədənə malik olmaqdan ibarətdir, bu özünü qaçışda və ya qüvvədə göstərə bilər. Gözəllik həm də zövq verən xarici görünüşə malik olmaqdır; məhz buna görə də pentatl[32] ilə məşğul olan atletlər daha çox gözəlliyə malikdirlər, belə ki, onlar öz təbiətlərinə görə həm güləşməyə, həm də sürətli qaçışa qabildirlər.

Yetkinlik yaşının gözəlliyi hərb sənətinin ağırlığına dözən, xoş və həm də sanballı görkəmə malik olmaqdır.

Qocanın gözəlliyi zəruri işləri görmək üçün kifayət olan qüvvəyə qadir olmaqda və qocalığı biabır edən heç bir şeyin olmaması nəticəsində qayğısız ömür sürməkdədir.

Qüvvə, başqasını – insanı və ya predmeti, öz istəyinə uyğun hərəkət etdirməkdir, bunu isə onu sürüyərək və ya itələyərək, ya qaldıraraq, ya sıxışdıraraq, ya da sıxaraq etmək olar, belə ki, güclü adam bütün hərəkətlərdə və ya onlarm bəzilərində güclü olmalıdır.

Qamətli insanlar çoxlarından boyda hündür olaraq, möhkəm və enlikürəkdirlər, amma, bu keyfiyyətlərin çoxluğu heç də onun hərəkətlərini ləngitmir.

Yarışlar üçün lazım olan atletik hünər boy, qüvvə və cəldlikdən ibarət olan keyfiyyətlərdən yaranır, axı sürətlə qaçan insan həm də güclü insandır, məlum qaydada ayaqlarını sürətlə hərəkət elətdirə bilən və uzaq məsmafədə bunu davam etdirən adam qaçışa qabildir; öz rəqibini sıxıb saxlaya bilən isə güləşməyə qabildir; zərbə vurmağı bacaran adam yumruq döyüşünü də bacarar, həm bunu, həm də onu edə bilən insanlar isə pankratiyaya[33] qabildir; bütün göstərdiyimiz bədən hərəkətlərinə qabil olan insana gəldikdə isə, o, pentatla da qabildir.

Yaxşı qocalıq – gec gələn və dərdsiz-qəmsiz olan qocalıqdır. Nə tez qocalan, nə də gec qocalsa da qocalığı əzab-

əziyyətlə müşayiət olunan insanların qocalığı xoşbəxt deyil. Yaxşı qocalıq həm insanın yaxşı fiziki keyfiyyətlərinin, həm də yaxşı taleyinin nəticəsidir, çünki sağlam və güclü olmayan insan əzablardan məhrum olmayacaq, eynilə, pis tale nəticəsində insanın həyatı xoş və uzunömürlü ola bilməz. Qüvvə və sağlamlıqdan başqa, elə şərtlər də mövcuddur ki, onlar insanın ömrünü uzadır; çoxları yaxşı fiziki keyfiyyətlərə malik olmasalar da, uzunömürlüdürlər. Bu barədə burada danışmağa heç bir ehtiyac yoxdur.

Polyphilia – "çoxlu dostlara malik olmaq" və chrēstophilia – "yaxşı adamlarla dostluq" anlayışları aydındır, çünki, dostun tərifi belə verilib: dost – bu elə adamdır ki, o, başqa adam üçün xeyirli hesab etdiyi şeyi edir və bunu həmin adamın xatirinə görə edir. Polyphilos – məhz çoxlu dostu olan insandır, chrēstophilos isə dostları həm də yaxşı adam olan insandır.

Uğur (eytychia) isə təsadüfi hallarda ələ düşən nemətlərin ya hamısına, ya da böyük bir hissəsinə, ya da ən əsaslarına sahib olmaqdır. İnsanın məharəti sayəsində əldə edə biləcəyi bəzi nemətlərin əldə edilməsinə təsadüf[34] səbəb olur, amma bəzi nemətləri təsadüf nəticəsində əldə etmək qeyri-mümkündür, təbiətin bizə bəxş etdiyi nemətlər buna misaldır. Təsadüf nəticəsində əldə edilən bəzi nemətlər təbiətdən asılı olmayaraq mövcud ola bilərlər; məsələn, sağlamlığın mənbəyi sənət ola bilər, amma gözəlliyin və qamətin mənbəyi ancaq təbiətdir. Ümumiyyətlə desək, bunlar həsəd yaradan təsadüfi mənşəli nemətlərdir. Təsadüf bəzən heç bir hesabla nəzərə alınmayan nemətlərə də səbəb ola bilər, məsələn, bütün qardaşlar kifir və ancaq biri gözəldirsə və ya heç kimin nəzərinə çarpmayan xəzinəni birisi tapırsa və ya ox birinin yanında duran adama dəyirsə, ona isə heç bir zərər yetirmirsə və ya hər hansı bir yerə daim gedən insan ora getmirsə, ora ilk dəfə gedən başqaları isə həlak olursa; bütün buna bənzər hadisələr uğurun nəticəsi sayılır.



Məziyyətlər haqqında təlimin tariflər haqqında təlim ilə ən çox əlaqəsi olduğuna görə, biz, məziyyətlər haqqında məsələni tərif haqqında danışanda araşdıracağıq.

6. *Məşvərətçi nitqin məqsədi faydadır, fayda-nemətdir; nemətin tərifi; - Fəaliyyətdə olan səbəblərin üç növü. – Nemət kateqoriyasına aid olanlar: məziyyət, məmnuniyyət, xoşbəxtlik, mənəvi məziyyətlər, gözəllik və sağlamlıq, sərvət və dostluq, şərəf və şöhrət, yaxşı danışmaq və hərəkət etmək bacarığı, fitri istedad, elmlər, biliklər və sənətlər, həyat, ədalət. – Mübahisəli nemətlər. – Nemətin bir daha tərifi. – Mümkün olanın iki növü.*

Beləliklə, aydındır ki, biz gələcəkdə arzu olunan və ya artıq indi mövcud olan nəyi nəzərdə tutaraq, kimi isə dilə tutub yola gətirməliyik və ya nəyi isə nəzərdə tutub, kimi isə dilə tutub, nədən isə çəkindirməliyik; çünki, ikinci birinciyə əksdir. Məşvərətçi natiqin məqsədi faydadır, çünki, məşvərəti son məqsəd haqqında deyil, son məqsədə aparan vasitələr barəsində aparırlar, bu vasitələr isə işlərin mövcud vəziyyətində ən faydalı olanlardır, faydalı olan isə nemətdir – bütün bunlarla əlaqədar olaraq, ümumiyyətlə xeyir və faydanın əsas elementlərini araşdırmaq lazımdır.

Nemətə öz-özlüyündə arzu olunan, uğrunda başqa şey də arzuladığımız, hamının, demək olar ki, hiss etməyi bacaran və şüurlu olan hamının can atdığı bir şey kimi tərif verək.

Nemət şüurun göstərişlərinə uyğun gələn bir şeydir; hər bir insan üçün nemət odur ki, şüuru onu hər bir ayrıca hal üçün göstərsin; nemət elə şeydir ki, onun olması insanı sakit və özündən razı edir; nemət özlüyündə elə əhəmiyyətli olan bir şeydir ki, bu vəziyyətin yaranmasına və davam etməsinə səbəb olur və bu vəziyyəti müşayiət edir, əks vəziyyətə mane olaraq onu aradan götürür.

Müşayiət burada iki cür ola bilər: nə isə başqa bir şeylə eyni zamanda mövcuddur və ya başqasından sonra mey-

dana çıxır, məsələn, bilik təlimdən sonra əmələ gəlir, həyat isə sağlamlıq ilə eyni zamanda mövcuddur.

Yaranmağa (ta poiëitica) səbəb olmaq üç şəkildə ola bilər: biri sağlamlıq vəziyyətinin sağlamlığa səbəb olmasına bənzəyir, ikincisi, sağlamlığın səbəbinin qidanın olmasına bənzəyir, üçüncüsü isə buna gimnastikanın səbəb olmasına bənzəyir, çünki, gimnastika əsasən sağlamlığa səbəb olur. Madam ki, bu təsdiq olundu, onda bundan hökmən belə bir nəticə çıxır ki, hər cür nemətin əldə edilməsi və pis olan şeyin aradan qaldırılması yaxşıdır, ona görə ki, birinci vəziyyətdə eyni zamanda psilik və şər olmur, ikinci haldan sonra isə nemət ələ gəlir. Böyük nemətin kiçik nemətin yerinə alınması, eləcə də böyük şərin yerinə kiçik şərə sahib olmaq da nemətdir, çünki, birinci halda böyüyün kiçik üzərində üstünlüyünü əldə edirik, ikinci halda isə bu üstünlüyü aradan götürürük. Məziyyətlər də nemətdir, çünki, onlara malik insanlar xoşbəxtdirlər; məziyyətlər nemətləri yaradaraq onlardan istifadə etməyi öyrədirlər. Biz onların hər biri haqqında ayrıca danışaraq onların nə olduğunu və hansı təbiətli olduğunu deyəcəyik. Məmnunluq da vacib nemətdir, çünki, bütün canlılar öz təbiətlərinin gücünə məmnunluğa can atırlar. Bunun nəticəsində bütün xoş və gözəl olan şeylər nemətdir, çünki, xoş olan şeylər məmnunluq gətirir, gözəl olan şeylərin bəziləri xoşdur, digərləri isə öz-özlərinə görə arzuolunandır.

Bir sözlə, xoşbəxtliyi nemət kimi qəbul etmək zəruridir, çünki, xoşbəxtlik öz-özünə görə arzuolunandır və özlüyündə əhəmiyyətə malikdir; bundan başqa, bir çox şeyi onun uğrunda seçirik: ədalət, mərdlik, aza qane olmaq, alicənablıq, əliaçıqlıq və buna bənzər çoxlu keyfiyyətləri, ona görə ki, bunlar mənəvi məziyyətlərdir.[35] Gözəllik, sağlamlıq və buna bənzər olanlar da nemətdir, çünki bütün bunlar fiziki məziyyətlər olub bir çox nemətlər yaradırlar, məsələn, sağlamlıq məmnunluq və həyat yaradır, elə buna görə də ali nemət sayılır, çünki, əksər insanlar üçün ən çox



dəyərli olan iki şeyin – məmnunluğun və həyatın səbəbidir. Var-dövlət mülkiyyət cəhətdən üstünlüyü təmsil etdiyinə bir çox nemətə səbəb olur. Dost və dostluq da nemətdir, çünki dost öz-özlüyündə arzuolunandır və o, çox şey edə bilər. Şəraf və şöhrət də nemətdir, çünki, onlar xoşdurlar və çox şeyi yaradırlar; insanların hörmət və ehtiram görmələrinin səbəbi əsasən onlarla bağlıdır. Mahircəsinə danışmaq və hərəkət etmək də nemətdir, çünki, bütün belə şeylər nemət yaradır. Buraya həmçinin istedadlı olmaq, yaxşı yaddaş, fərasətlilik, fəhmlilik və buna bənzər keyfiyyətlər də daxildir, ona görə ki, onlar nemətlər yaradırlar. Eyni qaydada bütün elmlər və sənətlər də buraya daxildir. Həyatın özü də nemətdir, ona görə ki, həyat heç bir başqa nemət ilə bağlı olmasa da, elə öz-özlüyündə arzuolunandır. Nəhayət, ədalət də nemətdir, ona görə ki, hamıya faydalıdır.

İnsanların nemət hesab etdiyi bütün şeylər təqribən - bundan ibarətdir. Mübahisəli nemətlərə gəldikdə isə, onlar haqqında nəticəni yuxarıda adı çəkilən nemətlər əsasında çıxarmaq lazımdır. Şər olan şeyə əks olan da nemətdir, eləcədə düşmənlərə faydalı olanın əksi də nemətdir, məsələn, əgər vətəndaşların qorxaqlığı düşmənlər üçün faydalıdırsa, aydındır ki, mərdlik vətəndaşlar üçün çox faydalıdır. Ümumiyyətlə, düşmənlərin arzuladığı və yoxluğuna sevindiyi hər şeyə əks olanlar faydalı görünür, özünə görə də deyiblər:

Hökmdar Priam necə də sevinərdi...

Amma bu həmişə deyil, əksər hallarda olur, çünki hər iki tərəf üçün eyni şeyin faydalı olması tamamilə mümkündür. Eyni şeyin hər iki tərəf üçün zərərli olduğu hallar da olur, buna görə də belə deyirlər: “bədbəxtlik insanları birləşdirir”. İfrat olmayan şeyi də nemət adlandırmaq olar, müəyyən həddi keçmək isə pislikdir. Böyük zəhmət və məsrəflərin sərfinə səbəb olan şeylər də nemət kimi görünür, çünki, o, çoxlu səylərin nəticəsi olan məqsəd kimi başa düşülür, hər bir məqsəd isə nemətdir, buna görə də belə deyilib:

Priamın özünü tərifləməsinə
Və
Burada sonsuz olaraq gözləmək də
bizim üçün ayıb deyil.[37]

"Su ilə dolu dolçanı qapı ağzında əldən buraxmaq"[38] məsəli də buradan yaranıb. Çoxlarının can atdığı və rəqabət üçün layiqli predmet olan şeylər də nemət kimi görünür, çünki, hamının can atdığı şeylər nemətdir, "insanların əksəriyyəti" anlayışı isə "hamı" anlayışına bərabər götürülür. Tərifə layiq şeylər də nemətdir, ona görə ki, heç kim nemət olmayan şeyi tərifləməyəcək. Düşmənlərin və pis adamların təriflədiyi şey nemətdir, çünki bu halda hamı eyni şeylə razılaşır, hətta bu nemətin ziyan vurduğu adamlar da: bu yekdillik nemətin şübhəsizliyini göstərir. Buna uyğun olaraq pis adamlar elələridir ki, onları dostlar məzəmmətləyir, düşmənlər isə məzəmmətləmir; yaxşı adamlar isə elələridir ki, onları hətta düşmənlər də pisləmir. Məhz buna görə də korinflilər özlərini Simonidin misrası ilə təhqir olunmuş hesab edirdilər:

İlion korinfliləri pisləmir.[39]

Ağıllı və yaxşı kişi və qadınlardan birinin nəyə isə üstünlük verməsi də nemətdir, məsələn, Afina Odisseyə: Tesey Yelenaya, ilahələr Aleksandra, Homer isə Axillə[40] üstünlük vermişdir. Ümumiyyətlə, insanlar tərəfindən üstün tutulmağa layiq olan şeydir, çünki, insanlar yuxarıda göstərilmiş şeylərin sırasına daxil olan, eləcə də düşmənlərin ziyanına, dostların xeyrinə olan şeyləri etməyə üstünlük verirlər. Bundan başqa, insanlar həm də mümkün olan şeyləri etməyə üstünlük verirlər, mümkün olanlar isə iki qəbildən olur: biri – artıq baş vermiş, o birisi isə – baş verməsi asan olanlar. Asan baş verən şeylər narazılıq olmadan və ya qısa bir vaxtda həyata keçir, çünki, hər hansı bir şeyin çətinliyi onunla bağlı narazılıq ilə və ya ona sərf olunan vaxtın miqdarı ilə müəyyən olunur. İnsanlar həm də onların arzusu ilə



baş verənlərə üstünlük verirlər, onların arzuladıqları isə elə şeylərdir ki, ya onlarda qətiyyən pis bir şey olmasın, ya da pislik yaxşılıqdan çox az olsun, bu isə elə hallarda olur ki, pislik gözə çarpmayan və ya az miqdarda olsun. Üstünlük həm də bizə məxsus olub və başqa heç kimdə olmayan şeylərə, eləcə də bütün fövqəladə olanlara üstünlük verilir, çünki, belə şeylərə sahib olmaq hörməti artırır. Bizim üçün xüsusilə rahat olan şeylərə də üstünlük veririk, onların sırasına ailəmizə və ictimai vəziyyətimizə uyğun gələnlər və bizim fikrimizcə bizə lazım olan şeylər daxildir; bunun o qədər də əhəmiyyətli olmasına baxmayaraq, adamlar belə şeyləri etməyə üstünlük verirlər. Yaxşı yerinə yetirilməsi asan olan şeylərə də üstünlük verilir, onlar asan olduqlarına görə mümkün olandırlar; elə şeyləri asan həyata keçirilən adlandırırlar ki, onları adamların çoxu və ya əksəriyyəti, ya da bizə uyğun gələn adamlar, ya da bizdən zəif olan adamlar həyata keçirə bilsinlər. Biz həm də dostlarımıza yarayacaq, düşmənlərimizi isə dilxor edəcək hərəkətlərə də üstünlük veririk. Bizi təəccübləndirən insanların üstünlük verdiyi şeylərə və yaxşı bildiyimiz, bacardığımız şeyləri etməyə üstünlük veririk, çünki, belə işdə daha asan müvəffəqiyyət qazanmağa ümid var. Həm də heç bir pis adamın eləməyəcəyi şeylərə üstünlük veririk, çünki, belə şeylər daha çox təriflənir. İnsanların ehtirasla arzuladığı şeylərə də üstünlük verilir, çünki belə şeylər nəinki təkcə xoşdur, onlar həm də olduqlarından da yaxşı təsəvvür olunurlar. Hər bir insan rəğbət bəslədiyi şeyi seçir, necə ki, məsələn, şöhrətpərəst insanlar şərəf və ehtirama, şan-şöhrət sevən insanlar qələbəyə, mənfəətpərəstlər isə pula rəğbət göstərirlər; bütün başqa insanlar da eynilə belə hərəkət edirlər. Beləliklə, nemətlərə və faydaya aid inandırma üsullarını biz buradan əldə etməliyik.

### 7. *"Böyük nemət" və "daha faydalı" anlayışları; onların analizi; bu anlayışların müxtəlif tərifləri*

İnsanlar tez-tez hər hansı iki şeyin faydalı olduğunu qəbul edir və onların hansının daha faydalı olduğu barəsində mübahisə etdiklərinə görə, yuxarıda dediklərimizdən sonra böyük nemət və daha çox fayda haqqında məsələni araşdırmalıyıq. Hər hansı başqa bir şeydən üstün olan bir şey özündə o biri şeydə olanı və üstəlik ondan başqa da bir şeyi cəmləyir, ondan geri qalan şey isə üstün olandan *kiçikdir*. Böyük vahid və böyük rəqəmlər hər hansı kiçik olanla həmişə belə münasibətdədir, bütün böyük və kiçik, çox və az olanlar əksər predmetlərin vahidinə və ya sayına münasibətdə belədir, böyük anlayışı üstünlük, kiçik anlayışı isə azlığı bildirir, çox və az anlayışları da belədir.

Biz nemət deyəndə hər hansı başqa şeyə görə deyil, özlüyündə arzuolunan şeyi, hamının can atdığı şeyi, əgər şüur və düşüncəyə sahib olsaydılar, onda hər şeyin can atdığı şeyi və bu kimi şeyləri yaradan və qoruyan, eləcə də onlarla bağlı olan hər şeyi nemət adlandırırıq. Madam, məqsəd elə şeydir ki, onun naminə nə isə edilir və bütün qalan şeylər də onun naminə edilir, madam nemət insan üçün elə şeydir ki, ona münasibətdə insan yuxarıda göstərilən xüsusiyyətlərə malik olur, onda belə bir nəticə çıxır ki, əgər vahid və az miqdar böyüyün tərkibinə daxildirsə, onda böyük miqdar vahid və az miqdarla müqayisədə böyük nemətdir; böyük miqdar sayca üstünlüyə malikdir, onun tərkibinə daxil olan vahid və kiçik miqdar bu cəhətdən ondan geri qalırlar. Və əgər hər hansı növün nəhəng nümayəndəsi başqa növün nəhəng nümayəndəsindən üstündürsə, onda növün özü də ikinci növü üstələyəcək və yaxud əksinə, bir növ başqa növdən üstündürsə, onda birinci növün nəhəng nümayəndəsi ikinci növün nəhəng nümayəndəsindən üstün olacaq, məsələn, əgər ən hündür kişi ən hündür qadmdan hündürdürsə, onda kişilər ümumiyyətlə qadınlardan hündürdürlər və ya əksinə kişilər ümumiyyətlə qadınlardan hündürdürlərsə, onda ən hündür kişi də ən hündür qadmdan hündür olacaq. Ona görə ki, bir növün başqa növdən üstünlüyü həmin növlərdən olan iri nüsxələrin üstünlüyü ilə analojidir. Nə zaman ki, bir nemət başqasının ardınca gedir, bu başqası isə onun ardınca getmir, onda bu başqası məhz böyük nemətdir. Ardıcıllıq üçtərəfli ola bilməz: bir hadisə ya başqası ilə eyni vaxtda baş verir, ya da onun ardınca gəlir, ya da ondan asılı olur, bu zaman hadisənin varlığı (chrēsis) əvvəl gələn hadisənin varlığında bir mümkünlük kimi artıq mövcuddur. Məsələn, sağlamlıq həmişə həyat ilə bir yerdə olur, amma həyat sağlamlıq ilə heç də həmişə ayrılmaz olmur.

Ardıcıllıq əlaqəsi təlim və bilik arasında da mövcuddur; mümkünlük əlaqəsi isə küfr və qarət arasındadır, çünki, küfr edib müqəddəs sayılan şeyləri təhqir edən adam ümumiyyətlə qarətə qabildir. Böyük nemət yaradanın özü də böyükdür, çünki, bu elə böyüyü istehsal etmək üçün mümkünlük deməkdir. İstehsal səbəbinin daha böyük olduğu şey də daha böyükdür, çünki, əgər sağlamlıq üçün faydalı olan xoş olan şeydən üstündürsə, onda həm də onunla müqayisədə daha böyük nemətdir, sağlamlıq da məmnuniyyətdən vacibdir. Öz-özlüyündə arzuolunan öz-özlüyündə arzuolunmayandan mühümdür, məsələn, qüvvə sağlamlıqdan vacibdir, çünki sağlamlıq öz-özünə arzuolunan deyil, qüvvə isə özü-özünə arzuolunandır, nemətlərin meyarı məhz budur. Əgər biri məqsəd, digəri isə məqsəd deyilsə, onda birinci üstündür, çünki, ikinci başqa bir şey üçün arzuolunandır, birincisi isə özü-özünə görə arzuolunandır, məsələn, gimnastika bədənin yaxşı vəziyyətdə olması üçün lazımdır. Başqa şeyə və ya şeylərə daha az ehtiyacı olan da üstündür, belə ki, o, müstəqildir; o qədər də vacib olmayan və yüngül şeylərə ehtiyacı olan isə az ehtiyacı olandır. Əgər hər hansı biri başqa birisi olmadan olmursa və ya ola bilmirsə və bu başqa birisi birincisiz olur və ola bilirsə, onda heç nəyə ehtiyacı olmayan daha müstəqildir və buna görə də böyük nemət kimi görünür. Əgər hər hansı bir şey mənşədirsə, o birisi isə deyilsə və ya əgər bir şey səbəbdirsə, o birisi isə səbəb deyilsə, onda eyni şeyə görə birinci ikincidən vacibdir, ona

görə ki, səbəb və mənşə olmadan nə varlıq, nə də yaranma ola bilməz.

İki mənşənin böyüyündən yaranan daha böyükdür, eləcə də iki səbəbin böyüyündən baş verən də daha böyükdür və əksinə, iki mənşədən böyüyü odur ki, o, böyük mənşəli olsun, iki səbəbdən də vacibi odur ki, böyüyün səbəbi olsun. Deyilənlərdən aydın olur ki, əgər bir şey mənşədirsə, digəri isə mənşə deyilsə, birincisi ikincisindən həm bu, həm də digər tərəfdən böyük ola bilər və eynilə digər halda olduğu kimi, birincisi mənşə deyilsə, o biri isə mənşədirsə, onda birincisi daha mühüm görünə bilər, çünki, məqsəd mənşədən vacibdir. Leodamant, Kallistratı ittiham edərək, deyirdi ki, məşvərətçi icraçıdan daha çox günahkardır. Çünki, məsləhət verilməsəydi, hərəkət də baş verməzdi. Və ya əksinə, Xabri əleyhinə ittiham nitqi söyləyən zaman o, deyirdi ki, icraçı məsləhətçidən daha çox günahkardır, çünki, işi görmək üçün adam tapılmasaydı, iş görülməzdi: insanlar sui-qəsdləri ona görə hazırlayırlar ki, kim isə onları həyata keçirsin. Az-az tapılan şey bol-bol olandan yaxşıdır, necə ki, məsələn, qızıl dəmirdən yaxşıdır, onun daha az faydalı olmasına baxmayaraq qızıla sahib olmaq böyük nemət sayılır, çünki, bu çox çətin əldə olunur. Digər tərəfdən isə bol-bol olan az tapılandan daha yaxşıdır, çünki, ondan daha geniş istifadə olunur, "tez-tez rast gəlinənin" "nadir olandan" üstünlüyü var, buna görə də deyilir:

Su hər şeydən yaxşıdır.[42]

Ümumiyyətlə, daha çətin olan, daha yüngül olandan yaxşıdır, çünki, ona daha az rast gəlinir, digər nöqteyi-nəzərdən isə daha asan olan daha çətin olandan yaxşıdır, çünki bizim istəklərimizə tabedir. Böyük şəyə əks olan da, yoxluğu çox güclü hiss olunan şey də böyük nemətdir. Məziyyət isə məziyyət olmayan şeydən üstündür, nöqsan da nöqsan olmayan şeydən üstündür, çünki, məziyyət və nöqsan məqsəddir, o biri keyfiyyətlər isə belə görünmürlər. Səbəblərdən nəticələri yaxşı və ya pis tərəf üçün əhəmiyyətli olan səbəblər



vacibdir. Yaxşı və ya pis tərəfləri daha böyük olanların nəticələri də daha mühümdür, ona görə ki, səbəb və mənşə necədirsə, nəticə də elədir və nəticə necədirsə, səbəb və mənşə də elədir. Ali dərəcəsi daha gözəl və arzuolunan şeylər də daha yaxşıdır, məsələn, yaxşı qoxu bilməkdənsə, yaxşı görmək daha arzuolunandır, çünki, görmək qoxlamaqdan yaxşıdır. Pulu sevməkdənsə dostları sevmək yaxşıdır, buna görə də dostpərəstlik mənfəətpərəstlikdən yaxşıdır. Yaxşı və gözəl olanın həddindən artıq dərəcəsi daha yaxşı və daha gözəldir; daha yüksək və gözəl istəklər yaradan şeylər də eynilə daha yaxşı və gözəldir, çünki, daha güclü istəklər daha böyük obyektlərə aiddir, məhz bu səbəbdən də daha gözəl və yüksək predmetlər tərəfindən oyandırılmış istəklər də gözəl və yüksəkdir. Elmlər nə qədər gözəl və dəyərlidirsə, onların obyektləri də bir o qədər daha gözəl və dəyərli olur, çünki, elm necədirsə, onda olan həqiqət də elədir, belə ki, hər bir elm öz xüsusi həqiqətinə malikdir (celeyei). Buna analoji olaraq elmlərin obyektləri nə qədər gözəl və dəyərli olarsa, elmlərin özü də daha gözəl və qiymətli olar. Ağıllı insanların, ya hamınm, ya onların böyük hissəsinin, ya çoxunun, ya onlardan ən yaxşılarmın böyük nemət kimi təsdiq edə biləcəkləri və ya təsdiq etdikləri şeylər ümumiyyətlə böyük nemət hesab ediləcək, həm də ona görə ki, onların fikirləri ağıllıdır. Bu qaydalar başqa məsələlərə də aid olunur, ona görə ki, mahiyyət, kəmiyyət və keyfiyyət şüur və biliyin onları qəbul etdiyi kimi olur. Biz nemət haqqında məsələlərdən danışaraq neməti şüurlu olan bütün varlıqlarm özləri üçün seçə bilmək istədikləri bir şey kimi müəyyən etdik. Buradan aydın oldu ki, şüurun daha çox üstünlük verdiyi şey böyük nemət sayılır. Yaxşı insanlarda olan keyfiyyətlər böyük nemətdir, ya da sözsüz böyük nemətdir, ya da ona görə böyük nemətdir ki, onlar ən yaxşı adamlardır, məsələn, mərdlik qüvvədən yaxşıdır. Böyük nemət həm də eləsidir ki, ona üstünlüyü yaxşı adam heç bir şərt qoymadan versin, ya da yaxşı adam olduğu üçün versin, məsələn, ədalətsizliyə döz-

mək ədalətsizlik etməkdən yaxşıdır[43], çünki, birinciyə daha ədalətli adam üstünlük verə bilər. Çox xoş olan da az xoş olandan yaxşıdır, çünki, hamı məmnuniyyət dalınca qaçır və məmnuniyyəti onun özünə görə əldə etmək istəyir, biz nemət və məqsəddə belə cizgilər müəyyən etdik. İki xoş olan şeydən daha çox xoş olanı az acısı (alypoteran) olan və uzunmüddətli məmnunluq verənidir. Daha çox gözəl olan da daha az gözəl olandan xoşdur, ona görə ki, gözəl olan ya nə isə xoşagələndir, ya da özlüyündə arzuolunandır. İnsanların böyük həvəslə özləri üçün, ya da öz dostları üçün etdikləri də böyük nemətdir, amma, insanların özləri və ya dostları üçün qətiyyən etmək istəmədikləri şey isə böyük pislikdir. Uzun müddət davam edən nemətlər qısamüddətli olan nemətlərdən yaxşıdır, eynilə, möhkəm olan az möhkəm olandan yaxşıdır, çünki, birincilər vaxta görə, ikincilər isə istəklərinin yerinə yetirilməsi münasibətində üstündürlər: bizdə istək yaranan zaman bizim möhkəm nemətdən istifadə etmək imkanımız daha böyükdür. Eləcə də, bir anlayışın dəyərləndirilməsi ilə həmin anlayışla qohum olan, ya da həmin anlayışda ifadə olunmuş sözün başqa forması ilə ifadə olunmuş anlayışın da dəyəri müəyyən olunur, məsələn, əgər "mərdcəsinə", "mülayimcəsinə"dən daha gözəl və arzuolunandırsa, mərd olmaq da mülayim olmaqdan daha çox arzu olunandır. Hamının üstün tutduğu şeylər, az adamın üstün tutduğu şeylərdən üstündür, eləcə də insanların çox hissəsinin üstün tutduğu şeylər də, insanların az hissəsinin üstün tutduğu şeylərdən üstündür, belə ki, biz neməti hamının can atdığı bir şey kimi müəyyən etmişdik, buna görə də insanların ən çox can atdığı şey həm də ən böyük nemət hesab olunmahdır. Bizim düşmənlərimizin, ya da rəqiblərimizin, ya da hakimlərin, ya da hakimlərin seçdikləri vasitəçilərin üstünlük verdikləri şeylər daha yaxşıdır, çünki, birinci halda biz bütün insanların şərik olduğu fikirlərlə, ikinci halda isə bilikli və səriştəli insanların fikirləri ilə üzləşirik. Hamının əlaqədar olduğu şey daha yaxşıdır, çünki, belə şeylə əlaqədar olmamaq ayıbdır, bəzən isə heç kəsin və ya azlığın əlaqədar olduğu şey də ayıb olan şeydir, çünki, belə şeylər çox nadir hallarda olur. Tərifəlayiq olan şeylər də qiymətlidir, çünki daha gözəldir; eyni qaydada, böyük hörmətə səbəb olan şeylər də yaxşıdır, çünki, hörmət bir növ qiymətdir. Böyük cəzaya səbəb olan şeylər isə əksinə olaraq pisdir. Böyük kimi qəbul olunmuş və ya belə görünən şeylərdən yüksəkdə duran şeylər də daha yaxşıdır; eyni bir şeyi onun tərkib hissələrinə bölsək, o, böyük görünəcək, ona görə ki, onun böyüklüyü şeylərin say çoxluğu ilə təmsil olunub. Meleaqrı üsyan etmək üçün necə inandırmaqları haqqında şairin hekayəsi məhz bunlardandır:

Düşmən tərəfindən tutulmuş şəhərdə əhalinin üstünə bəlalar tökülür;
Vətəndaşları evlərində doğrayırlar, bütün şəhəri od bürüyüb,
Qadın və uşaqları alçaqcasına bağlayaraq əsir aparırlar.[44]

Epiharmın[45] istifadə etdiyi ayrıca hissələrin müqayisəsi və birləşdirilməsi və eyni səbəblər üzündən də onların ayrılması da eyni məna daşıyır, çünki hissələrin müqayisəsi tam olana güclü üstünlük görkəmi verir və məhz o zaman tam olan böyük şeylərin mənbəyi və səbəbi kimi görünür. Çətin olan və nadir tapılan şeylər daha yaxşı olduğu üçün, şərait, yaş, zaman, məkan və qüvvə göstəriciləri şeyin qiymətini artıra bilər, ona görə ki, həmin şey qüvvə və yaşa baxmayaraq, bizim kimilərin nə etdiyinə baxmayaraq edilibsə və əgər məhz harada isə və məhz nə zaman isə edilibsə, onda həmin şey gözəlliyinə, faydalılığına və ya ədalətli olmasına görə üstün görkəm qazanır və ya onlara əks olan şeylərin üstün görkəmini qazanır. Olimpiya oyunlarında qalib gələn birinin şərəfinə yazılmış epiqram buradan götürülüb:

Vaxt vardı ki, mən əyri çiyin ağacı ilə
Arqosdan Tegeyaya balıq daşıyardım.[46]

İfikratın[47] özünü tərifləyərək "budur, mən bundan başlamışam" deməyi də buradandır. İnsana təbiət tərəfindən verilmişlər kənardan əldə edilmişlərdən daha yaxşıdır, çünki, birincisi çətindir; məhz buna görə də şair deyib:

Mən öz-özünə öyrənmiş adamam.[48]

Hər hansı bir böyük olanın ən böyük hissəsi də daha çox əhəmiyyətə malikdir; Perikl "Qəbrüstü nitqində" deyib ki, vətən üçün gənclərin itirilməsi elə bir əhəmiyyətə malikdir ki, bunu ancaq ilin fəsillərindən baharın itirilməsi ilə müqayisə eləmək olar".[49] Böyük ehtiyac zamanı, məsələn, qocalıq və xəstəlik zamanı yardım göstərmək də yaxşıdır. İki nemətdən isə məqsədə daha yaxın olanı dəyərlidir, eləcə də həm mənim üçün, həm də ümumiyyətlə yaxşı olan yaxşıdır. Mümkün olan mümkün olmayandan üstündür, çünki, birincisinin insan üçün əhəmiyyəti var, ikincisinin isə yox. Həyatın sonunda olanlar daha yaxşıdır, çünki, sonda olanlar məqsədin xüsusiyyətlərinin əksəriyyətini özündə cəmləmiş olur. Həqiqət sahəsinə aid olanlar ad-san şöhrət xatirinə edilənlərdən yaxşıdır, şöhrət xatirinə edilənlər sahəsinə elələri aiddir ki, onlar sirr kimi qalsaydı, heç kəs onları etməzdi. Məhz buna görə də belə insan xidmət göstərməkdənsə, xidmətdən istifadə etməyi üstün tutur; çünki, o, xidmətdən nəzərə çarpmadan istifadə edə bilər, amma, o, xidmət göstərərək kölgədə qalmağı lazımlı hesab etmir. Həqiqətən yaxşı olmaq əslində ancaq yaxşı görünməkdən çox vacibdir, çünki, bu həqiqətə daha yaxındır. Bununla belə, bəziləri yaxşı olmaqdansa, belə görünməyi üstün tuturlar (düzdür, bu sağlamlığa aid deyil) və buna görə də, ədaləti nə isə əhəmiyyətsiz bir şey hesab edirlər. Müxtəlif münasibətlərdə çox faydalı olanların, məsələn, bizə yaşamağa, xoşbəxt olmağa, xoş şeylərdən istifadə etməyə və yaxşılıq etməyə kömək edən şeylərin də dəyəri çoxdur, məhz buna görə də var-dövlət və sağlamlıq ali nemətlər hesab olunur – axı, onlar bütün bu nemətlərin şərtidir. Az dərd gətirən, məmnunluqla bağlı olan şeylər də yaxşıdır, çünki, belə şeydə iki nemət var, belə ki, həm məmnunluq nemətdir, dərdin yoxluğu da nemətdir. İki nemətdən böyük olanı odur ki, o birisi kimi böyüklükdə nemətlə birləşəndə böyük tam əmələ gətirsin. İştirakı gözə çarpan iştirakı gözə çarpmayandan daha yaxşıdır, çünki, birincisi, həqiqətə yaxındır; buna görə də varlı görünməkdənsə, varlı olmaq daha yaxşıdır. Sevilən şeylər də daha qiymətlidir, eyni bir predmet həmin predmetdən ancaq birinə sahib olan üçün həmin predmetin çox miqdarına sahib olan adam üçün olduğundan daha çox qiymətlidir. Məhz buna görə də, bir gözü olan insanın gözünü kor edənlə, iki gözü olan insanın bir gözünü kor edənə eyni cəzanı vermirlər, ona görə ki, birinci halda insandan onun üçün xüsusilə əziz olan bir orqanını alıblar. Beləliklə, biz kimi isə yola gətirmək və ya yoldan çəkindirmək üçün inandırma üsullarını təqribən haradan əldə etmək lazım olduğu haqqında danışdıq.

**8.** *Məşvərətçi natiq müxtəlif idarə formalarını yaxşı bilməlidir. Dörd idarə forması: demokratiya, oliqarxiya, aristokratiya, monarxiya. – Hər bir idarə formasının məqsədi. – Məşvərətçi natiq idarə formalarının hər birinin adətlərini bilməlidir.*

İnandırmaq və yaxşı məsləhətlər vermək iqtidarında olmaq üçün ən vacib və uyğun gələn vasitə bütün idarə formalarını, onların hər birinin ənənə və qanunlarını başa düşmək və onların hər biri üçün nəyin faydalı olduğunu müəyyən etməkdir, ona görə ki, hamı faydalı olanı rəhbər tutur, faydalı olan isə odur ki, o, dövlət quruluşunu saxlasın. Ali hakimiyyətin iradəsinin ifadəsi də həlledici əhəmiyyətə malikdir, ali hakimiyyət növləri isə dövlət quruluşu növlərinə görə fərqlənirlər: neçə cür idarə forması varsa, bir o qədər də ali hakimiyyət növü var. İdarə formaları dörddür: demokratiya, oliqarxiya, aristokratiya və monarxiya[50], buna görə də ali hakimiyyət və məhkəmə hakimiyyəti ya bütün dövlət üzvlərinə, ya da onların bir hissəsinə aiddir. Demokratiya elə bir idarə formasıdır ki, orada vəzifələr püşkatma yolu ilə

tutulur, oliqarxiyada bu vətəndaşların əmlakına uyğun olaraq edilir, aristokratiyada isə bu vətəndaşların tərbiyəsinə (paideia) uyğun şəkildə həyata keçirilir. Tərbiyə dedikdə mən burada qanun tərəfindən müəyyən olunmuş təhsili nəzərdə tuturam, çünki, qanun çərçivəsindən kənara çıxmayan adamlar aristokratiyada hakimiyyətə malikdirlər; vacibdir ki, onlar vətəndaşların ən yaxşıları olsunlar, idarə forması öz adını da buradan götürmüşdür. Monarxiya adından göründüyü kimi elə bir idarə formasıdır ki, orada bir nəfər hamı üzərində hökmranlıq edir. Təkhakimiyyətlilik formaları arasında özünəməxsus qayda ilə həyata keçirilən formalardan biri padşahlıqdır (*basileia*), o biri isə heç bir şeylə məhdudlaşdırılmayan tiranlıq.

Biz hər bir idarə formasınm məqsədini nəzərdən qaçırmamalıyıq, çünki, insanlar həmişə məqsədə aparan şeyi seçirlər. Demokratiyanm məqsədi azadlıqdır, oliqarxiyanın - var-dövlət, aristokratiyanın – tərbiyə və qanunçuluq, tiranlığın isə – müdafiə. Aydındır ki, əgər insanlar dövlətin məqsədini nəzərdə tutaraq qərarlar qəbul edirlərsə, onda hər bir idarə formasının adət və qanunlarını və bunların hər biri üçün faydalı olanı nəzərdən keçirmək lazımdır, həm də bütün bunları dövlət quruluşunun hər bir növünün məqsədinə aid olan bir şey kimi araşdırmaq lazımdır. Amma, təkcə sübutlarla dolu nitq vasitəsi ilə inandırmaq olmaz, bunu etik üsulla da etmək olar, axı biz natiqə ona görə inanırıq ki, o, bizə məlum xarakterli və ya dürüst, sağlam fikirli adam kimi görünür; bütün bunları nəzərə alaraq biz hər bir idarə formasına aid olan xarakterləri öyrənməliyik, ona görə ki, onlardan hər birinin mənəvi keyfiyyətləri onların özləri üçün daha çox inandırıcı görünür. Bu da elə həmin vasitələrlə həyata keçirilir, ona görə ki, mənəvi keyfiyyətlər niyyətlərlə əlaqədar olaraq üzə çıxır, niyyət isə məqsədlə əlaqədədir. Beləliklə, biz burada yeri gəldiyi qədər dedik ki, inandırma zamanı gələcəyi və indini nəzərdə tutaraq nəyə doğru can atmalıyıq və hər bir idarə formasınm xarakter və qanunlarına, faydalı olana aid olan inandırma üsullarını haradan əldə etməliyik və bu məsələlərin hansı üsullarla və necə həllini özümüz üçün asanlaşdırmalıyıq. Bunlar daha dəqiq bizim "Politika"da[51] şərh olunacaq.



*9. Epideyktik nitqin obyektləri. – Gözəlliyin tərifi. – Məziyyətin tərifi; məziyyətin hissələri; ali məziyyətlər; müxtəlif məziyyətlərin tərifi. – Gözəl olan şeylərin sadalanması. – Tərif etmək və enkomiy.[52] Bəxtiyarlığın (macarismõs) təriflənməsi və xoşbəxtliyin (eydamonismos) təriflənməsi. – Tərifin məsləhətə münasibəti. – Epideyktik nitq üçün yararlı olan əlverişli şərait, müqayisə və mübaliğə; məşvərətçi nitq üçün misallar, məhkəmə nitqləri üçün entimemalar yararlıdır.*

Bunun ardınca biz məziyyət və nöqsan, gözəl olan və eyibli olan haqqında danışacayıq, çünki bu anlayışlar tərifləyən və ya pisləyən adam üçün obyektdir. Bu barədə danışarkən, biz həm də aydınlaşdıracayıq ki, bizim barəmizdə nəyin sayəsində məlum əxlaqi xarakterli insan anlayışı yarana bilər və dediyimiz kimi inam yaratmağın digər üsulu nədən ibarətdir, çünki, eyni bir yol ilə biz özümüzü və başqalarını əxlaqi cəhətdən (pros aretēn) özlərinə qarşı inam yaradan adam edə bilərik.

Çox vaxt elə olur ki, biz ciddi və qeyri-ciddi şəkildə təkcə insanı və allahı deyil, həm də cansız əşyaları və qarşımıza çıxan heyvanı da tərifləyirik, onda bu bəndə münasibətdə də əsas müddəaları eyni tərzdə nəzərdən keçirməliyik, buna görə də bu məsələyə də lazım olan qədər toxunacağıq.

Gözəllik odur ki, özü-özlüyündə arzuolunan olaraq, həm də tərifəlayiq olsun və ya nemət olaraq ona görə xoşdur ki, o, özü nemətdir.[53] Əgər gözəllik anlayışının məzmunu belədirsə, onda məziyyət zəruri olaraq gözəldir, çünki, nemət olmaqla yanaşı, həm də tərifəlayiqdir. Məziyyət nemətləri əldə etmək və onları saxlamaq imkanıdır və bununla yanaşı, bir çox vacib hallarda çoxlarına və ümumiyyətlə bütün mümkün hallarda hamıya yaxşılıq etmək imkanı kimi

görünür. Məziyyət bu hissələrdən ibarətdir: ədalət, mərdlik, ağıl, əliaçıqlıq, alicənablıq, təmənnasızlıq, mülayimlik, dərrakəli olmaq və müdriklik.[54] Əgər məziyyət yaxşılıq etmək qabiliyyətidirsə, onda ən ali məziyyətlər zəruri olaraq başqaları üçün daha çox faydalı olanlardır. Bunun nəticəsində ədalətli və mərd olan insanlar daha böyük hörmətə layiq olurlar, çünki mərdlik insanlara müharibə vaxtı, ədalətli olmaq isə dinc vaxtda fayda verir. Bunun ardınca nəcib, genişqəlbli xasiyyətdə (eleutheniotēs) insanlar gəlir, ona görə ki, belə adamlar puldan çox asanlıqla imtina edir və pula görə mübahisə etmirlər, halbuki, pul başqalarının can atdığı əsas predmetdir. Ədalət (dicaiosyne) elə məziyyətdir ki, hamı onun gücünə öz malına sahibdir (həm də qanunun göstərdiyi yolla); Ədalətsizlik isə elə keyfiyyətdir ki, insanlar onun gücünə özlərini təhlükəyə atır və qanuna tabe olaraq, onu rəhbər tutaraq gözəl işlər görürlər. Qorxaqlıq (deilia) isə əks olan keyfiyyətdir. Aza qane olmaq (sōphrosyne) elə məziyyətdir ki, insanlar onun gücünə öz fiziki tələbatlarını qanuna tabe edirlər: nəfsə yiyə dura bilməmək isə buna əks olan keyfiyyətdir. Nəcib, geniş qəlbli xasiyyət özünü pul yardımını həvəslə etmək qabiliyyətində göstərir, xəsislik (aneleytheria) isə bunun əksi olan keyfiyyətdir. Alicənablıq (megalopsychia) elə bir məziyyətdir ki, böyük xeyirxahlıqlar etməyə təhrik edir, alçaqlıq (micropsychia) isə buna əks keyfiyyətdir. Əliaçıqlıq (megaloprepeia) böyük məsrəflərə təhrik edən məziyyətdir, xırdaçılıq və xəsislik (micropsychia cai microprepeia) isə ona əks keyfiyyətdir. Dərrakəli olmaq (phronēsis) intellektual məziyyətdir, onun gücünə insanlar yuxarıda sadalanan nemət və pisliklərin xoşbəxtlik üçün olan əhəmiyyəti haqqında sağlam şəkildə düşünmək qabiliyyətində olurlar.

Beləliklə, biz indiki hal üçün ümumiyyətlə məziyyətlər və nöqsanlar haqqında, bu anlayışların tərkib hissələri haqqında kifayət qədər danışdıq; buradan isə başqa bəndlərə dair nəticələr çıxarmaq artıq çətin deyil; aydın olur ki, mə-



ziyyətin yaratdığı bütün şeylər də, ona aid olan şeylər də mütləq gözəl olmalıdır; məziyyətin əlamətləri və işləri məhz belədir. Əgər əxlaqi cəhətdən yaxşı olan adamın məziyyətləri və onlara uyğun hərəkətləri gözəldirsə, onda buradan belə bir zəruri nəticə çıxır ki, mərdliyin özü və ya əlaməti kimi görünən, ya da mərdcəsinə edilən şeylərin hamısı gözəldir; eynilə belə, bütün ədalətli olan və ədalətli-mükəmməl olan da gözəldir; ədalət xarakteri daşıyan əzablı vəziyyətlərə gəldikdə isə, onların barəsində bunu demək olmaz, çünki, ancaq bu məziyyətdə ədalətli olan hər şey gözəl deyil, məsələn, ədalətli olaraq cəzalandırılmaq haqsız yerə cəzalandırılmaqdan daha böyük ayıbdır, başqa məziyyətlər haqqında da eyni şeyi demək olar. Həm də bütün elə şeylər də gözəldir ki, onların əvəzində prizlər verilsin, çünki, onlarm hörməti puldan daha çoxdur. Seçilməli olan hərəkətlərdən elələri gözəldir ki, insan onların içindən özü üçün deyil, başqası üçün arzuolunanı etsin; kimin isə öz şəxsi marağına baxmadan vətənin xeyri üçün etdiyi qeydsiz-şərtsiz hərəkətlər də gözəldir; eynilə öz təbiətinə görə yaxşı olanlar da gözəldir, həm də məhz məlum bir insan üçün olmayıb yaxşı olanlar da gözəldir, çünki belə şeylər özü-özünə görə edilir. Canlı insandansa vəfat etmiş insana görə edilənlər daha gözəldir, çünki, canlı insana görə edilənlər bu işi görənin eqoistik marağı ilə bağlıdır. Başqalarının xatirinə edilən hərəkətlər də gözəldir, çünki, belə hərəkətlər daha az eqoistik olur. Özünü deyil, başqalarını nəzərdə tutan xeyirxahlıq, eləcə də bizim xeyirxahlığımıza aid olan hər şey gözəldir, çünki bu ədalət ilə üst-üstə düşür. Həm də elə xeyirxahlıqlar gözəldir ki, onları edən insanın özünə aid olmasınlar. İnsanları utandıran şeyə əks olan da gözəldir, çünki, insanlar o halda utanırlar ki, o zaman ya utanmalı bir şey desinlər, ya etsinlər, ya da eləmək niyyətində olsunlar. Alkeyin sözlərinə görə Safo öz şeirində bu mənada fikir söyləMişdir: “Mən nə isə demək istəyirəm, amma həya məni qoymur”. “Əgər sən nə isə nəcib və ya gözəl bir şey arzulasaydın və əgər sənin dilin pis bir şey demək

istəməsəydi, onda həya sənin gözlərini tutmazdı və sən ədalətli olanı deyərdin".[55]

İnsanların qorxunun təhriki olmadan gördüyü işlər də gözəldir, insanlar şöhrətlənmək üçün iş görəndə belə hərəkət edirlər. Öz təbiətlərinə görə ən yaxşı olan adamların məziyyətləri və işləri də gözəldir, məsələn, kişilərin məziyyətləri qadınların məziyyətlərindən yüksəkdir. Həm də elə məziyyətlər gözəldir ki, onlar bizim özümüzdənsə başqalarına daha çox fayda versin; məhz buna görə də bütün ədalətli olan şeylər və ədalətin özü də gözəldir. Düşmənlərdən qisas almaq da, onlarla barışmamaq da gözəldir[56], ona görə ki, əvəz çıxmaq ədalətlidir, ədalətli olan isə gözəldir, həm də mərd insana öz üzərində qələbə qazanmağa imkan verməmək xasdır. Həm qələbə, həm də şöhrət gözəl şeylər sırasına daxildir, ona görə ki, hər ikisi hətta heç bir maddi mənfəət ilə bağlı olmasalar da, arzuolunandırlar və hər ikisi görkəmli məziyyətlərin əlamətidir. Bütün xatirə şeyləri gözəldir və çox xatırlanan şey bir o qədər də gözəldir. Bizdən sonra da yaşayacaq, şərəf və şöhrətlə bağlı, fövqəladə xarakterli hər şey gözəldir. Təkcə bir insanda olan şey də gözəldir, çünki, belə şeylər daha çox diqqəti cəlb edir. Eləcə də, gəlir gətirməyən mülkiyyət də gözəldir, çünki, bu, azad insanın ləyaqətinə daha çox uyğundur. Ayrı-ayrı xalqlarda gözəl sayılan şeylər də, onlarda şərəfli bir şeyin əlaməti hesab edilənlər də gözəldir: məsələn: Lakedemoniyada uzun saça malik olmaq azad vətəndaş olmağın əlaməti olduğuna görə gözəl sayılır və belə saçı olan insan üçün qulların gördüyü hər hansı bir işi görmək heç də asan deyil.[57] Alçaq bir sənətlə məşğul olmamaq da gözəldir, belə ki, azad insana başqalarından asılı olaraq yaşamaq xas deyil.

Bununla yanaşı, məlum keyfiyyətlərə yaxın keyfiyyətləri həm təqdir, həm də tənqid edən zaman onları bir-birinin eyni kimi qəbul etməliyik, məsələn, ehtiyatlı insanı – soyuq və məkrli, sadəlövh insanı – xeyirxah, küt hissiyyatlı insanı sakit insan kimi qəbul etməliyik və hər bir xüsusiyyəti



daha yaxşı tərəfə yozmalıyıq, məsələn, qəzəbli və ipə-sapa yatmayan insanı sadə və hiyləsiz, öz bildiyini edən insani ali və ləyaqətli insan kimi və ümumiyyətlə hər hansı bir keyfiyyətə ifrat səviyyəsində malik olan insanları məziyyətlərə sahib olan insan kimi qəbul etməliyik, məsələn, dəlicəsinə qoçaq olanı mərd insan kimi, israfçı insanı səxavətli kimi qəbul etməliyik, onsuz da kütlədə belə təəssürat yaranacaq. Bununla yanaşı, burada səbəbdən paralogizm[58] qurmaq olar: əslində əgər insan zəruri olmayan yerdə özünü təhlükəyə atırsa, onda tam ehtimal var ki, o, vəzifəsinin tələb etdiyi yerdə bunu daha böyük canfəşanlıqla edəcək. Əgər insan qarşısına çıxan hər kəsə qarşı əliaçıqdırsa, onda o, öz dostlarına qarşı da belə olacaq, çünki, hamıya qarşı xeyirxahlıq etmək məziyyətin ifrat həddidir. Bu zaman diqqət vermək lazımdır ki, tərif kimlərin arasında söylənilir, çünki, Sokratın təbiri ilə desək, afinalıları elə afinalılar arasında tərifləmək asandır.[59] Tərif edən adam bilməlidir ki, hansı xüsusiyyət sözügedən insan qrupları arasında, məsələn, skiflərin və ya lakonilıların, ya da filosofların arasında qiymətləndirilir. Ümumiyyətlə, şan-şöhrət anlayışını gözəl anlayışı ilə yanaşı qoymaq lazımdır, ona görə ki, bu anlayışlar bir-birinə yaxındır. Münasib və ləyaqətli olanı tərifləmək lazımdır, məsələn, əcdadlarımızın ad-sanına və bizim daha əvvəl gördüyümüz işlərə layiq olanları, çünki, insanın öz şan-şöhrətini artırmağı xoşbəxtlikdir və gözəldir. Bizim gözlədiyimizdən daha yaxşı və gözəl baş verənlər də gözəldir, məsələn, xoşbəxt olan zaman mülayim olan insanın, bədbəxtliyə düçar olanda alicənab olması və ya birinin yüksəldikcə yaxşı və sadə olması. İfikratın sözləri də bu qəbildəndir: "Mən haradan gəlirəm və haraya gəlmişəm?", eləcə də Olimpiya oyunlarında qalib gələnin sözləri: "Vaxt vardı ki, mən əyriçiyin ağacı çiynimdə...".[60] Simonidin şeiri də bu qəbildəndir: "Tiranların qızı, arvadı və bacısı olmaqla...".[61] İnsan gördüyü işlərə görə təriflədiyi üçün və mənəvi cəhətdən yaxşı insana əvvəlcədən qəbul olunmuş niyyətə

əsasən iş görmək xas olduğu üçün, onda biz göstərməyə çalışmalıyıq ki, tərifləndiyimiz insan əvvəlcədən qəbul etdiyi niyyətə uyğun hərəkət edir. Tez-tez belə hərəkət edən insan kimi görünmək də yaxşıdır; buna görə də təsadüfləri və bilərəkdən olmayan səhvləri bizim niyyətimizə daxil olan bir şey kimi qələmə verməliyik və əgər bunlara bənzər çoxlu halları misal gətirə bilsək, onda onlar məziyyət və niyyətli hərəkət əlaməti kimi görünərlər.

Tərif hər hansı bir insanın böyük məziyyətlərini izhar etmək üçün vasitədir; bu səbəbdən də göstərmək lazımdır ki, təriflənən insanın fəaliyyəti məziyyət xarakteri daşıyır. Enkomi isə işlərin özünə aiddir (xarici xarakterin başqa cəhətləri, məsələn, nəcib mənşə və tərbiyə səbəb rolunu oynayır, belə ki, yaxşı əcdadlardan yaxşı nəslin törəməsi və belə tərbiyə görmüş insanın məhz bu cür olması təbiidir) Elə buna görə də biz enkomilərdə nə isə etmiş insanları mədh edirik, fəaliyyət isə məlum əxlaqi xarakterin əlamətidir; axı biz belə fəaliyyət göstərməmiş adamı da tərifləyə bilərdik, əlbəttə ki, onun belə fəaliyyət göstərə biləcəyinə əmin olsaydıq. Macarismos "bəxtiyarlığın tərifi" və eydamonismos "xoşbəxtliyin tərifi" adlanan şeylər öz aralarında oxşardırlar, amma tərif və enkomi cəhətdən oxşar deyildirlər: necə ki, xoşbəxtlik anlayışı özündə məziyyət anlayışını daşıyır, eləcə də macarismos və eydamonismos da tərifi və ya enkomini əhatə etməlidir.

Tərif və məsləhət öz görkəmlərinə görə bənzərdirlər, ona görə ki, məsləhət verən zaman nəsihət olan şey ifadə üsulu dəyişən zaman tərifə çevrilir: madam ki, biz hərəkət etməli olduğumuzu və necə olmalı olduğumuzu bilirik, onda bunu məsləhət kimi vermək üçün bizə ifadələr və onların yerlərini dəyişdirmək lazımdır, məsələn, "biz taleyin verdiyi ilə deyil, özümüzün əldə etdiyi ilə fəxr etməliyik". Bu müddəanın tərif xarakterli ifadəsi belədir: "O, ona tale tərəfindən bağışlananla deyil, özünün əldə etdiyi ilə fəxr edir". Ona görə də, sən tərifləmək istəyəndə bax gör ki, sən nə məsləhət verə bilərsən, məsləhət vermək istəyəndə isə gör nəyi tərifləyə bilərsən. O ki, qaldı ifadə üsuluna, o, burada zəruri olaraq əks olacaq, çünki, yerdəyişmə birinci halda qadağan xarakterli, ikinci halda isə qadağan xarakteri olmayan ifadələrə aiddir. Bir sıra əlverişli şəraitləri də nəzərə almaq lazımdır, məsələn, bilməliyik ki, tərifləmək istədiyimiz insan tək hərəkət edib, ya bu işdə birinci olub və ya bəzi insanlar ona kömək göstəriblər, çünki, bunların hamısı gözəldir. Hərəkətin edildiyi vaxtı göstərməklə də (məhz nəzərə çarpdırmaqla) faydalanmaq olar, yəni filan şey qeyri-əlverişli vaxta və şəraitə baxmayaraq həyata keçirildi. Eyni bir işin öhdəsindən tez-tez gələn adam da təriflənir: bu həm çətindir, həm də ona sübutdur ki, təriflənən müvəffəqiyyətə görə təsadüfə deyil, özünə borcludur. Həm də elə insanlar da tərifə layiqdir ki, onların şərəfinə müəyyən həvəsləndirmə və alqışlama üsulları icad olunsun və həyata keçirilsin, məsələn, şərəfinə nəğmə bəstələnib, tərənnüm edilən ilk insan olan Hippolax kimi, şərəfinə Aqorada[62] heykəllər qoyulan ilk insanlar olan Harmodi və Aristogiton kimi. Əks xarakterli hallara münasibətdə də eynilə belə mülahizələrin əhəmiyyəti var. Əgər insanın özünə görə danışmağa söz tapmırsansa, onu başqaları ilə müqayisə et, məhkəmədə danışmağa adət etməmiş İsokrat da belə edirdi. İnsanı məşhur adamlarla müqayisə etmək lazımdır, çünki, əgər həmin insan hörmətə layiq adamlardan yaxşıdırsa, o, bundan ancaq qazanacaq. Mübaliğə ədalətli olaraq tariflərdə istifadə olunur, ona görə ki, tərif üstünlük anlayışı ilə bağlıdır, üstünlük isə gözəl olan şeylərin sırasına daxildir, buna görə də əgər insanı məşhur adamlarla müqayisə eləmək olmazsa, onda onu ümumiyyətlə başqa adamlarla müqayisə etmək lazımdır, çünki, üstünlük məziyyət əlamətidir. Hər üç növdən olan nitqlər üçün eyni olan üsullardan biri olan mübaliğə ən çox epideyktik nitqlərə uyğundur, çünki, burada natiq danılmaz fakt kimi qəbul olunmuş hərəkətlərlə üzləşməli olur, ona bu hərəkətləri əzəmət və gözəlliklə ancaq bürümək qalır. Misal-

lara gəldikdə isə, onlar məşvərətçi nitqlərə daha çox uyğundurlar, çünki biz gələcək haqqında mühakimələri keçmişdə olanlarm əsasında ehtimallar quraraq söyləyirik. Entimemalar isə məhkəmə nitqləri üçün ən çox yararlı olandır. Çünki, keçmiş öz qeyri-aydınlığı nəticəsində səbəb və sübutların göstərilməsini tələb edir.

Bütün tərif və tənqidlərin əsasını təşkil edən müddəalar təqribən bunlardan ibarətdir; tərif və ya tənqid edərkən məhz bu mülahizələri nəzərdə tutmaq lazımdır, enkomi və tənqid üçün mövzu da buradan götürülür: axı madam ki, nitqin tərif növü məlumdur, onda əks müddəaların olması da şübhəsizdir, belə ki, tənqid yuxarıda göstərilən müddəaların əksi olan müddəalar əsasında söylənilir.

**10.** *Məhkəmə nitqləri. – Ədalətsiz əməllərin səbəbləri; bu əməllərə səbəb olan əhvali-ruhiyyə; bu əməllərə məruz qalan adamlar. – Ədalətsiz hərəkət etmək nə deməkdir? – Pis əməllərin motivləri, nöqsan və özünü ələ ala bilməmək. – İradi və qeyri-iradi əməllər. – İnsanın bütün fəaliyyətinin motivləri. Təsadüfilik, təbiilik, məcburiyyət, vərdiş etmək anlayışları. – Düşünülmüş şəkildə, əsəbiləşdirmənin təsiri altında və həvəsin təsiri altında baş verənlər.*

Bundan sonra ittiham və müdafiəyə aid əqli nəticələrin çıxarılacağı müddəaların miqdarı və təbiəti haqqında danışmaq lazımdır. Burada üç bəndə diqqət vermək lazımdır: insanları ədalətsizlik hərəkət etməyə təhrik edən səbəblərin təbiəti necədir və miqdarı nə qədərdir; insanlar hansı əhvali-ruhiyyənin təsiri altında ədalətsiz hərəkət edirlər; biz necə insanlara qarşı ədalətsiz edirik və həmin insanlar hansı vəziyyətdədirlər. İndi isə ədalətsizlik anlayışını müəyyən edək və göstərilmiş bəndlərin hər birini ardıcıllıqla araşdıraq.



Deyək ki, ədalətsiz hərəkət etmək qanuna zidd olaraq başqa şəxsə qəsdən ziyan vurmaq deməkdir. Amma, qanunun iki növü var – xüsusi və ümumi. Mən yazılmış qanunu xüsusi adlandırıram, insanlar dövlətdə onun əsasında yaşayırlar; ümumi qanun isə elə bir şeydir ki, yazılmasa da bütün insanlar tərəfindən qəbul edilir. İnsanlar şüurlu olaraq və məcburiyyətsiz etdikləri şeyi könüllü şəkildə edirlər. İnsanların könüllü etdiklərinin heç də hamısı billərəkdən edilmir, amma, insanların bilərəkdən etdikləri hər şey onların tərəfindən könüllü şəkildə edilir, çünki, insan bilərəkdən etdiyi haqqında heç vaxt bixəbər olmur. Bizim təsiri altında ziyan vurduğumuz və ədalətsizlik etdiyimiz motivlər – nöqsan və özünü ələ ala bilməməkdir: biz bir neçə nöqsana malik olanda məhz nöqsanın obyektinə qarşı ədalətsiz oluruq, məsələn, necə ki, mənfəətpərəst pula qarşı, öz nəfsinə yiyə dura bilməyən cismani ləzzətlərə qarşı, nazla bəslənmişlər tənbəlliyə səbəb olan bütün şeylərə qarşı, qorxaq təhlükəyə qarşı (çünki, qorxaqlar qorxunun təsiri altmda öz yoldaşlarını təhlükəli dəqiqələrdə tərk edirlər). Şöhrətpərəst isə şan-şöhrətə qarşı ədalətsiz olur. Özündən tez çıxan adam qəzəbin təsiri altmda ədalətsiz hərəkət edir; qələbəni ehtirasla sevən insan qələbə naminə, kinli adam qisasın təsiri altında, nadan adam nəyin ədalətli, nəyin ədalətsiz olduğunu bilmədiyi üçün, abırsız adam yaxşı ada nifrət etdiyi üçün ədalətsiz hərəkət edir. Qalan insanlar da öz nöqsanlarına uyğun olaraq ədalətsizlik edirlər. Bütün bunlar ona görə aydındır ki, biz bu barədə qismən məziyyətlər, haqqında danışanda demişdik, qismən də ehtiraslar haqqında danışanda deyəcəyik. Ancaq onu demək qalıb ki, insanlar nəyin naminə, hansı əhvali-ruhiyyənin təsiri altında və kimə qarşı ədalətsiz olurlar. Beləliklə, əvvəlcədən belə bir məsələni araşdıraq: ədalətsizlik etməyə hazırlaşan insanlar nəyə doğru can atırlar və nədən qaçınırlar, ona görə ki, ittihamçı aydınlaşdırmalıdır: - insanları yaxın adamlarına qarşı ədalətsizlik etməyə məcbur edən motivlərdən məhz hansıları onun rəqibində var və on-

lar nə qədər vacibdir; müdafiə olunanlar sözügedən halda hansı motivlərin olmadığını aşkara çıxarmalıdır?

Bütün insanlar bəzi şeyləri iradi, bəzi şeyləri isə qeyri-iradi edirlər, qeyri-iradi etdiklərindən bəzisini təsadüfdən, digərini isə zərurətdən edirlər; zərurətdən etdiklərinin birini məcburiyyət qarşısında, digərini isə təbii tələbata görə edirlər. Beləliklə, insanların qeyri-iradi etdikləri hər şey ya təsadüfən, ya təbiətin tələbi gücünə, ya da məcburiyyət qarşısında baş verir. İnsanların iradi şəkildə və özlərindən asılı olan hərəkətlərin bəzisi vərdiş əsasında, digəri meylə görə (həm də şüurlu meylə görə), başqası isə şüursuz meyl əsasında baş verir. İstəmək nemətə can atmaqdır, çünki, hər kəs ancaq o halda arzulara qapılır ki, arzuladığı obyekti nemət hesab etsin. Şüursuz olan meyllərə isə qəzəb və ehtiras aiddir. Beləliklə, insanların bütün elədiklərini yeddi səbəb üzündən edirlər: təsadüfən, təbii tələblərə uyğun olaraq, məcburiyyət qarşısında, vərdiş əsasında, düşüncələrin, qəzəb və ehtirasın təsiri altında.[63] İnsanın yaşı, vəziyyəti və sair kimi motivləri təsnif etməyin faydası yoxdur, çünki, əgər gənclərə qəzəbli və ehtiraslı olmaq xasdırsa, onda onlar ədalətsiz hərəkətləri öz cavanlıqlarına görə deyil, qəzəb və ehtirasın təsiri altında edirlər. İnsanlar nə varlı olduqlarına görə nə də yoxsulluq üzündən ədalətsizlik etmirlər. Əlbəttə, elə olur ki, yoxsullar ehtiyac üzündən pul, varlılar isə vəsaitlərin artıqlığı üzündən zəruri olmayan zövqi-səfa arzulayırlar, amma, bu adamlar nə varlı olduqlarına görə, nə də yoxsul olduqlarına görə məlum hərəkəti etməyəcəklər, onlar bunu ehtirasın təsiri altında edəcəklər. Həm ədalətli insanlar, həm də ədalətsiz insanlar, həm də hərəkətləri mənəvi keyfiyyətləri (hexeis) ilə izah olunan insanlar yuxarıda göstərilmiş elə həmin motivlərin - ağlın və ya ehtirasın mülahizələrinin təsiri altında hərəkət edirlər; həm də bəziləri xeyirxah adətləri və ehtirasları, başqaları isə əks xarakterli adət və ehtirasları rəhbər tuturlar. Əlbəttə, bəzi mənəvi keyfiyyətlər ilə müəyyən nəticələr bağlı olur, digərləri ilə isə başqa cür, belə



ki, aza qane olan adamda məhz bu keyfiyyətlər nəticəsində zövqi-səfa haqqında düzgün rəy və istək olacaq, öz nəfsinə yiyə dura bilməyən adamda isə eyni şeyə qarşı olan rəy tamamilə əks olacaq. Bunun nəticəsində belə təsnifatları bir kənara qoymaq və belə mənəvi xüsusiyyətlərin adətən hansı nəticələrlə bağlı olduğunu nəzərdən keçirmək lazımdır, ona görə ki, əgər insan ağ və ya qaradırsa, böyük və ya kiçikdirsə, buradan heç bir nəticə çıxarmaq olmaz, əksinə, əgər insan gənc və ya qocadırsa, ədalətli və ya ədalətsizdirsə, bu artıq fərqdir. Eyni şeyi insanlarm xasiyyətləri arasındakı fərqi yaradan bütün şeylər haqqmda demək olar, məsələn, insan özünü varlı ya kasıb, xoşbəxt ya bədbəxt hesab edirmi. Amma, biz bunun barəsində sonra danışacağıq[64], indi isə daha əvvəl qeyd etdiyimiz məsələlərə toxunaq. Elə şey təsadüf adlanır ki, səbəbi müəyyən olunmasın, müəyyən bir məqsəd naminə və həmişə, əksər hallarda, müəyyən olunmuş qaydada baş verməsin. Bütün bunlar təsadüfilik (tychēs) anlayışımn tərifindən aydmdır. Biz elə şeyi təbii (physei) adlandırırıq ki, onun səbəbi məlum qaydaya tabe olaraq onun özündədir, ona görə də bu şey eyni tərzdə ya həmişə, ya da əksər hallarda baş verir. Qeyri-təbii şeylərə gəldikdə isə belə şeylərin hər hansı təbiət qanunları ilə uyğun şəkildə, ya da hər hansı bir başqa səbəb üzündən baş verib-verməməsini aydmlaşdırmağa heç bir ehtiyac yoxdur; elə görünə bilər ki, belə şeylərin səbəbi təsadüfdir.

Elə şeyi məcburiyyət adlandırırıq ki, biz onu özümüz, amma öz arzumuza və ağlımıza zidd olaraq edirik. Vərdiş (ethei) elə şeyə deyilir ki, insanlar onu tez-tez etdiklərinə görə edirlər. Düşüncə (dia logismon) əsasında elə şey baş verir ki, həmin şey bizə sadalanmış nemətlərdən[65] ən xeyirlisi kimi görünür və ya həmin şey gətirəcəyi faydaya görə ediləndə məqsəd, ya da məqsədə aparan vasitə kimi görünür, ona görə ki, bəzən özlərini saxlaya bilməyən insanlar da faydalı şeylər edirlər, amma fayda üçün deyil, ləzzət almaq üçün. Əsəbiləşdirilmənin (dia thymon) və özündən tez çıxmanın

(dia orgēn) təsiri altında qisas ilə bağlı işlər görülür. Qisas ilə cəza arasında fərq var: cəza cəzalanan şəxsə görə həyata keçirilir, qisas isə qisasçının özünə görə, yəni onun qəzəbini söndürmək üçün. Qəzəbin nə olduğunu ehtiraslar haqqında traktatda[66] aydınlaşdıracayıq. İstəyin təsiri altında bizə xoş gələn hər şeyi edirik; xoş olan şeylərin sırasına alışdığımız, mehr saldığımız şeylər də daxildir, ona görə ki, vərdiş etdiklərinə görə öz təbiətlərinə görə xoş olmayan çox şeyi həvəslə edirlər.

Beləliklə, bütün deyilənlərin nəticəsində bizə məlum olur ki, insanların özü-özünə etdikləri hər şey nemətdir və ya nemət kimi görünür və ya xoşdur, ya da xoşagələn kimi görünür. Amma, insanlar öz-özünə etdikləri hər şeyi könüllü etdiklərinə və məcburiyyət nəticəsində isə öz-özünə heç nə etmədiklərinə görə insanların könüllü etdikləri hər şeyi əsil nemətlərin sırasına və ya nemət kimi görünənlərin sırasına, həqiqətən də xoş olan, ya da xoş görünən şeylərə aid etmək olar. Mən nemətlərin sırasına həqiqi və ya belə görünən şərdən qurtulmağı da, böyük şərin daha kiçik şərlə əvəz olunmasını da əlavə edirəm, çünki, belə şeylər müəyyən mənada arzuolunandır, mən, həm də xoşagəlməz, ya da belə görünən şeylərdən xilas olunmağı, ya da çox xoşagəlməz şeyin az xoşagəlməz şeylə əvəz edilməyini də xoş olan şeylərə aid edirəm. Beləliklə, faydalı və xoş şeyləri nəzərdən keçirmək lazımdır, bilmək lazımdır ki, onlar nə qədərdir və necədir. Faydalı olan şeylər haqqında biz daha əvvəl məşvərətçi xarakterli nitqlərdən danışan zaman söz açmışdıq; indi isə xoş olan şeylər haqqında danışaq. Bunun üçün hər bir məlum predmetə münasibətdə nə çox qeyri-müəyyən, nə də həddindən çox xırdaçı olmayan tərifləri kifayət hesab etmək olar.



### *11. Məmnuniyyətin tərifi. Xoşluğun müxtəlif kateqoriyaları.*

Məmnuniyyətə (hēdone) ruhun bir hərəkəti və onun ruhun təbii durumuna sürətli və hissolunan şəkildə yerləşməsi kimi tərif verək[67], narazılığı isə buna əks olan bir şey kimi müəyyənləşdirək. Əgər bütün buna oxşarlar məmnuniyyətdirsə, onda aydındır ki, yuxarıda göstərdiyimiz ruhi vəziyyətin yaratdığı hər şey xoşdur, onu məhv edən, ya da əks xarakterli ruhi vəziyyət yaradan hər şey isə xoş deyil. Buradan belə bir nəticə çıxır ki, öz təbii vəziyyətinə qayıtmaq və xüsusilə təbiətinə uyğun baş verən bir şeyi özünə qaytarmaq əksər hallarda xoşdur. Vərdişlər də xoşdur, ona görə ki, vərdişlərimiz bir növ təbii əhəmiyyətə malik olur, vərdiş bir qədər təbiətə yaxın olduğuna görə "tez-tez" anlayışı "həmişə" anlayışına yaxındır, təbiət "həmişə" anlayışma, vərdiş isə "tez-tez" anlayışına aiddir. Zorakılıqsız edilən şeylər xoşdur, ona görə ki, zorakılıq təbiətə ziddir; məhz bu əsasda bütün zəruri olanlar əzabdır və çox haqlı olaraq deyiblər ki:

> Hər cür zərurət öz təbiətinə görə əziyyətdir.[68]

Əgər insanlar vərdiş etməyiblərsə, qayğılar, himayə və səylər xoşagəlməzdir və bütün bu şeylər zəruri, məcburi şeylər sırasına daxildir; amma son halda vərdiş onları xoşagəlimli edir. Yuxarıda göstərilənlərə öz xarakterinə görə əks olanlar xoşdur; buna görə də xoş olan şeylərin sayına yüngülxasiyyətlilik, fəaliyyətsizlik, qayğısızlıq, zarafat və yuxu daxildir, məhz ona görə ki, bu şeylərdən heç birinin zərurət ilə əlaqəsi yoxdur. İstəyin obyekti olan hər şey də xoşdur, ona görə ki, istəklər məmnuniyyətə can atmaqdır. İstəklərdən bəziləri ağılsızdır, başqaları isə ağıllı; ağılsız istəklərin sırasına elələrini daxil edirəm ki, insanlar onları istəyin predmeti haqqında olan bu və başqa rəylərdən asılı

olmayaraq istəyirlər; buraya təbii adlandırılan, yəni bizim bədənimizin tələb etdiyi istəklər daxildir, məsələn, qida istəyi, aclıq, susuzluq və hər bir ayrıca qida növünə həvəs; bura həm də zövq, şəhvət predmetləri ilə bağlı istəklər, eləcə də lamisə, qoxu bilmə, görmə və eşitmə predmetləri ilə bağlı istəklər də daxildir.

Ağıllı istəklər elələridir ki, inandırmanın təsiri altında yaranırlar. Ona görə ki, biz haqqında eşitdiyimiz və xoşagələn olduğuna əmin olduğumuz bir çox şeyləri görməyə və almağa can atırıq. Ləzzət hissi məlum təəssüratın sınaqdan keçirilməsində olduğu üçün, təsəvvür etmək isə müəyyən mənada hissin zəif forması olduğu üçün nəyi isə xatırlayan, ya da nəyə isə ümid bəsləyən insanda həmişə xatırladığı, ya da ümid bəslədiyi şey haqqında müəyyən təsəvvür vardır: əgər bu belədirsə, onda aydındır ki, nəyi isə xatırlayan, ya da nəyə isə ümid bəsləyən insanlarda məmnunluq yaranır, ona görə ki, bu halda onlar məlum qəbildən olan hissləri keçirirlər. Beləliklə, bütün xoş olanlar mütləq ya əsil məmnunluğun hiss olunmasında, ya keçmiş məmnunluğun xatırlanmasında, ya gələcəkdə olacaq məmnunluğa bəslənən ümiddə cəmlənir, ona görə ki, insanlar indini hiss edir, olub-keçmişi xatırlayır və gələcəyə ümid bəsləyirlər. İnsanların xatırladıqlarından xoş olanı təkcə baş verdiyi zaman xoş olanı deyil, həm də nə isə xoşagəlməz şey də ola bilər. Əlbəttə ki, əgər ondan sonra baş verənlər bizim üçün kifayət qədər xoş olubsa. Məhz buna görə də deyiblər:

Ölümdən can qurtarmış adam üçün
Öz fəlakətini xatırlamaq xoşdur.[69]
Və:
Sərgərdan kimi çox gəzib dolanan
və çox şeyə qatlaşan adam üçün
Hətta ötüb keçən əzab-əziyyətlərdə də
sevinc var.[70]



Buna səbəb odur ki, şərin olmamağının özü də artıq xoşdur. Bizim gözlədiyimiz şeylərdən bizə ən çox xoş olanı odur ki, onun olması ya güclü məmnunluq, ya fayda (həm də dərd ilə bağlı olmayan fayda) ilə bağlı olsun. Ümumiyyətlə, olmasının bizə sevinc gətirdiyi hər şey adətən həm biz bu şeyi xatırlayan zaman, ya da onun olacağına ümid bəsləyən zaman bizə ləzzət verir; buna görə də qəzəb haqqında Homerin dediyi kimi qəzəblənmək də xoşdur:

O, baldan da şirin olub insanın sinəsinə axır.[71]

Buna görə də biz o adama qəzəblənirik ki, ondan qisas ala bilmirik, bizdən daha güclü olan insanlara isə biz ya heç qəzəblənmirik, ya da az dərəcədə qəzəblənirik.

İstəklərin çox hissəsi ilə müəyyən məmnunluq hissi bağlıdır: biz onu ya istəyimizin necə təmin edildiyini yada salanda, ya da onun gələcəkdə təmin olunacağına ümid edən zaman keçiririk: məsələn, qızdırma içində susuzluqdan əzab çəkən xəstələr keçmişdə susuzluqlarını necə yatırdıqlarını xatırlayaraq və bunu gələcəkdə edəcəklərinə ümid edərək məmnunluq hiss edirlər.

Eynilə belə, sevgililər öz məhəbbətlərinin predmeti ilə şifahi söhbət edərək, ya da yazışaraq və ya hər hansı başqa bir qaydada onunla məşğul olaraq həzz alırlar, ona görə ki, sonradan onlar bütün bu halların xatirələri ilə yaşayaraq, sanki doğrudan da onların yanında sevimli insanın olduğunu hiss edirlər. Bütün insanlar üçün məhəbbət onunla başlanır ki, onlar təkcə sevdikləri insanın onların yanında olmasından həzz almır, həm də onun yoxluğu zamanı, onu xatırlayaraq, onun yoxluğuna görə dilxor olanda belə həzz alırlar. Həm qəm-qüssədə, həm də göz yaşlarında da müəyyən qəbildən olan həzz var: qüssə sevilən insanın yoxluğu nəticəsində yaranır, amma, onu xatırlayanda, onun nə etdiyini və necə olduğunu yada salaraq bir növ onu seyr eləyəndə insan həzz alır, buna görə də şair doğru deyib:

O, elə dedi ki, hamı ağlamaq istədi.[72]

Qisas da xoşagələn şeydir, ona görə ki, bir şeyə nail olmaq xoş olduğu halda, ona nail olmamaq çox ağırdır. Qisas almaq imkanları olmayan insanlar qəzəblənərək hədsiz dərəcədə qəmlənirlər və əksinə, qisas alacaqlarına ümidləri olanda məmnun olurlar. Qələbə qazanmaq da xoşdur və bu təkcə qələbəni sevən insanlar üçün deyil, həm də ümumiyyətlə hamı üçündür, ona görə ki, bu halda şəxsi üstünlük haqqında fikir yaranır ki, bunu hamı az və ya çox dərəcədə arzulayır. Əgər qələbə xoşdursa, onda buradan zəruri olaraq nəticə çıxır ki, güləş və yarış da daxil olmaqla oyunlar da xoşdur, ona görə ki, bu oyunlarda tez-tez qələbə qazanmaq olur; buraya aşıq-aşıq, top, zər atma və dama oyunları da daxildir. Eyni şeyi ciddi əyləncələr haqqında demək olar: onlardan bəziləri vərdiş halını alaraq xoş olurlar, digərləri isə dərhal məmnunluq verirlər, məsələn itləri qısqırtmaq və ümumiyyətlə hər cür ov, ona görə ki, mübarizə olan yerdə qələbə də var; bu əsasda məhkəmələrdə çəkişmək və mübahisə etmək işi elə adamlara məmnunluq verir ki, onlar vaxtlarını belə keçirməyə vərdiş ediblər və bu işə qabiliyyətləri var.

Hörmət və yaxşı mənada şöhrət ən xoşagələn şeylərin sırasına daxildir; hər kəsə elə gəlir ki, o, yaxşı adamın olmalı olduğu kimidir, əgər o, onu tərifləyən və ona ehtiram göstərən adamları doğrucul hesab edirsə, bundan əminlik daha da artır. Belə halda bizə yaxın adamlar bizim üçün bizə uzaq olan adamlardan və az tanış olan adamlardan daha çox, bizim vətəndaşlar bizə yad olanlardan çox, bizim müasirlərimiz bizim varislərdən çox, dərrakəlilər dərrakəsizlərdən çox və çoxları az olanlardan çox əhəmiyyət kəsb edir, ona görə ki, bizim sadaladığımız insanları onların əksi olan insanlardan daha doğrucu hesab etməyə əsas var. Əgər insan hər hansı bir kateqoriyadan olan varlıqlara (məsələn, uşaqlara



və ya heyvanlara) saymazyana yanaşırsa, onda onlar tərəfindən göstərilən ehtirama və onlarm arasında yaxşı ad-sana, heç olmazsa şöhrətin özünün xatirinə görə də heç bir əhəmiyyət verməyəcək, əgər, o, bu şeylərə qiymət versə də, bunu nə isə başqa şeyin xatirinə edir.

Dost da xoş olan şeylər sırasma aiddir, ona görə ki, bir tərəfdən sevmək xoşdur: şərabdan həzz almayan heç kim onu sevmir; digər tərəfdən isə sevilmək də xoşdur – bu zaman insan elə fikirləşir ki, o yaxşıdır və bunu bütün hiss etməyə qabil olan insanlar arzulayırlar, sevilmək isə insanın özü-özünə qiymətli olması deməkdir. Təəccüb obyekti olmaq isə artıq ona görə xoşdur ki, hörmət onunla bağlıdır. Yaltaqcasına tərifin obyekti olmaq da xoşdur, elə yaltağın özü də, ona görə ki, o, pərəstişkar və dost kimi görünür. Eyni bir şeyi tez-tez eləmək də xoşdur, bizim dediyimiz kimi bütün vərdişlər xoşdur. Dəyişikliklərə məruz qalmaq xoşdur, ona görə ki, dəyişikliklər şeylərin təbiəti ilə həmahəngdir, daimi yeknəsəqlik mövcud əhval-ruhiyyəni hədsizliyə qədər böyütdüyünə görə belə deyirlər: "hər şeydə dəyişikliklər xoşdur".[73] Bunun nəticəsində müəyyən vaxt fasilələrindən bir görünən şeylər xoşdur, fərqi yoxdur ki, onlar insan və ya cansız əşya olsun – ona görə ki, bu indiki zamanla müqayisədə bəzi dəyişikliklər yaradır; bundan başqa bizim məlum zaman fasiləsindən sonra gördüyümüz şeylər bizə nadir bir şey kimi görünür. Öyrənmək və valeh olmaq da əksər hallarda xoşdur, ona görə ki, valehliyin özündə artıq öyrənmək istəyi var, buna görə də valehlik predmeti tezliklə istək predmetinə çevrilir, öyrənmək isə təbiətin qanununa əməl etmək deməkdir. Xoş olan şeylərin sırasına xeyirxahlıq etmək və onu qəbul etmək də daxildir, ona görə ki, xeyirxahlıq görmək istədiyin şeyi almaq deməkdir, xeyirxahlıq etmək isə həmin şeyə şəxsən malik olmaq, özü də başqalarından çox yüksək dərəcədə malik olmaq deməkdir. İnsanlar bunların hər ikisinə can atırlar. Xeyirxahlıq etmək xoş olduğuna görə yaxın adama yardım göstərmək, ümumiyyətlə, yarım-

çıq qalan şeyləri tamamlamaq xoşdur. Öyrənmək və valeh olmaq xoşdursa, onda buna oxşar hər şey də zəruri olaraq xoş olacaq, məsələn, təqlid məhz: rəssamlıq, heykəltəraşlıq, poeziya və ümumiyyətlə hər cür yaxşı təqlid, hətta təqlid obyekti öz-özlüyündə maraqlı deyilsə də; bu halda biz təqlid obyektinin özündən deyil, əqli nəticə fikrindən məmnun olacayıq ki, bu, yəni təqlid, ona, yəni təqlid obyektinə bərabərdir, ona görə də burada nə isə dərk olunur. Qəfil dəyişikliklər də xoşdur, təhlükələrdən çətinliklə yaxa qurtarmaq da həmçinin xoşdur. – ona görə ki, bütün belə şeylər təəccüb doğurur.

Təbiətlə uzlaşan hər şey xoş olduğuna görə, bütün doğma olanlar təbiətcə bir-birinə uyğun olduğuna görə, onda bütün doğma və ona uyğun olanların əksəriyyəti xoşdur, məsələn, insan insana, at-ata, gənc gəncə xoş olur, buradan da belə məsəl meydana çıxıb ki, "yaşıd yaşıdı güldürür", "hərə öz tayını axtarır"[74], "heyvan heyvanı tanıyır" və "qarğa həmişə qarğa ilə gəzir" – və sair çoxlu məsəllər də var. Oxşar və doğma olan bütün şeylər bir-ğiri üçün xoş olduğu üçün və hər bir insan bunu özünə qarşı münasibətdə daha çox hiss etdiyi üçün, onda bütün insanlar zəruri olaraq daha və ya az özlərini sevən olurlar, ona görə ki, bunların hamısı əsasən öz-özünə qarşı münasibətdə mövcuddur. Madam ki, bütün insanlar özlərini sevəndir, onda hər bir insan üçün zəruri olaraq ancaq ona məxsus olan şeylər xoş olur, məsələn, öz işləri və sözləri; buna görə də insanlar əksər hallarda yaltaqları və pərəstişkarları sevirlər, şöhrətpərəst və öz uzaqlarını sevən olurlar: axı, uşaqlar bizim yaratdığısız əsərlərdir. Yarımçıq işi tamamlamaq da xoşdur, ona görə ki, bu halda həmin iş artıq bizim şəxsi işimiz olur. Hakimiyyət çox xoş olduğu üçün, müdrik görünmək xoşdur, belə ki, hakimiyyətin əsası bilikdədir, müdriklik isə çoxlu gözəl şeyləri bilməkdir. Bundan başqa, insanlar əksərən şöhrətpərəst olduqlarına görə buradan belə bir nəticə çıxır ki, yaxın adamları məzəmmət etmək də, ağalıq etmək də xoşdur. İnsan üçün



onun rəyinə görə mahir olduğu bir şeylə məşğul olmaq da xoşdur, şair belə deyib:

> Və həmin işə o bağlanır
> Günün çox hissəsini ona sərf etməklə
> Həmin işdə o özü-özünü ötüb keçir.[75]

Həm zarafatlar, müxtəlif dincəlmələr və gülüş eynilə xoş olduğuna görə, onda gülüş doğuran hər şey – həm adamlar, həm sözlər, həm də işlər xoş olacaq. Gülməli olanlar haqqında məsələyə biz ayrıca "Poetika"da baxmışıq.[76] Beləliklə, bizim xoş olan haqqında demək istədiklərimiz bunlardır. Xoşagəlməz şeylərə gəldikdə isə, bu anlayış dediklərimizin əksi olan müddəalardan aydın olacaq.

**12.** *Ədalətsiz hərəkətin müxtəlif meyarları. – İşi ağırlaşdıran səbəblər. – Yazılı və yazılmamış qanunların pozulması.*

Həqiqət haqqında təlim qoy belə qaydada şərh olunsun. Hər bir ədalətsiz hərəkət onu yaradan mənəvi pozğunluğun səviyyəsi çox olduqca daha da ədalətsizləşir; buna görə də bəzən ən əhəmiyyətsiz hərəkətlər çox böyük cinayət sayıla bilər, məsələn, Kallistrat Melanopu onda günahlandırırdı ki, o, məbədi tikən fəhlələri hesabda üç müqəddəs yarım - obol qədər aldatmışdır.[93] Biz ədalət sahəsində əks təzahürləri görürük. Hərəkətin belə qiymətləndirilməsi uyğun imkanların mövcudluğundan irəli gəlir (ec toy enyparchein tēi dynamei), yəni: üç müqəddəs yarım - obol oğurlayan adam hər cür cinayətlərə qabil hesab oluna bilər.

Bəzən, hərəkətin müqayisəli vacibliyi belə qaydada müəyyən olunur, bəzən isə hərəkətə onun vurduğu ziyana görə qiymət verilir.

Elə cinayətlər çox böyük sayılır ki, onlara bərabər olan cəza olmasın: hər bir cəza onun qarşısında cüzi görünsün.

Həm də elə cinayətlər böyük sayılır ki, o cinayətin vurduğu zərərdən şəfa tapmaq mümkün olmasın, çünki, onların əvəzini çıxmaq çətin və qeyri-mümkündür. Böyük cinayətlər sırasına həm də elələri daxildir ki, bu cinayətin əvəzində verilən cəza zərərçəkəni heç cür məmnun edə bilmir, çünki, ona edilmiş pisliyin yarası sağalmazdır, məhkəmə və cəza isə bir növ şəfa (iasis) tapmaq üçündür.

Böyük cəzaya elə ədalətsizlik etmiş insan və elə halda layiqdir ki, bu işdə zərərçəkmiş və incimiş şəxs özü-özünə ağır cəza vermiş olsun; Sofokl[94] intihar etmiş Evktemonun müdafiəsi üçün söylədiyi nitqdə demişdir ki, o, təqsirli şəxs üçün zərərçəkənin özünə layiq bildiyi cəzadan kiçik cəza verilməsi ilə qane olan deyil.

Bəzən hərəkətin ciddiliyi belə mülahizələrlə əlaqəli qiymətləndirilir ki, bu cür cinayəti başqa kimsə əvvəllər etməyib, ya da çox az adam belə işə ürək edib, ya da cinayətkar eyni bir cinayəti bir çox dəfə edib. Əgər hər hansı hərəkətin qabaqlanması və cəzalandırılması üçün yeni üsullar axtarmaq və icad etmək lazım gəlirsə, bu da çox vacibdir; məsələn, Aqrosda elə adam cəza çəkir ki, ona görə yeni həbsxana tikilib. Böyük vəhşiliklə edilmiş hərəkət də daha ciddi əhəmiyyətə malikdir; cinayət həm də o zaman daha ağır olur ki, qabaqcadan düşünülmüş şəkildə həyata keçirilsin və ya onun haqqında hekayə dinləyicilərdə acımaq hissi əvəzində qorxu hissi yaratsın.

Hər hansı bir hərəkətə qiymət verərkən ritorikanın istifadə etdiyi mülahizələr həm də ondan ibarətdir ki, hər hansı bir insan bir çox şeyi pozub, məsələn, andı, müqaviləni, zaminliyi, nikah hüququnu pozub, ona görə ki, bu halda biz bir çox ədalətsiz hərəkətlərin məcmusu ilə üzləşirik.

Təqsiri ağırlaşdıran səbəblərdən biri də odur ki, ədalətsiz hərəkət qanunsuz hərəkət edən şəxslərə cəza Verilən yerdə baş versin; məsələn, yalançı şahidlər belə edirlər, əgər onlar məhkəmənin özündə qanunsuz hərəkət edirsə, onda bunu etməkdən harada özlərini saxlaya billəcəklər? İnsanların xüsusiylə utandığı hərəkətlər də ciddidir; eləcə də insanın öz xeyirxahına pislik etməsi də ciddi hərəkətdir: burada onun təqsiri ona görə çoxdur ki, birincisi, o, şər iş görür və, ikincisi, xeyir iş görmür.



Yazılmamış qanunları pozan hərəkət də ciddi əhəmiyyət kəsb edir. Ona görə ki, ən yaxşı mənəvi keyfiyyətlərə malik insan məcburiyyətsiz və ədalətli olur, yazılmış qanun isə məcburiyyət xarakteri daşıyır, yazılmamış qanuna isə bu ziddir. Digər tərəfdən, insanın təqsirini məhz elə bir səbəb artıra bilər ki, onun hərəkəti yazılı qanunlara zidd olsun, ona görə ki, cəza ilə hədələyən qanunları pozan şəxs, cəza tələb etməyən qanunları da poza bilər.

Beləliklə, biz cinayəti və yüngülləşdirən şeylər haqqında danışdıq.

### 13. *Beş növdən olan qeyri-texniki sübutlar: qanun, şahidlər, sövdələşmələr, işgəncə, andlar. – Onlardan necə istifadə etməli?*

Bizim yuxarıda izah etdiklərimizdən sonra "qeyri-texniki" adlandırdığımız sübutların qısa xülasəsini sıra ilə vermək lazımdır; onlar xüsusi olaraq məhkəmə nitqləri sahəsinə aiddirlər. Belə sübutlar beşdir: qanunlar, şahidlər, sövdələşmələr, işgəncə altında ifadələr, andlar.

Hər şeydən əvvəl ittiham edərkən və müdafiə olunarkən qanunlardan necə istifadə etmək lazım olduğundan danışaq. Aydındır ki, yazılı qanun işin vəziyyətinə uyğun gəlməyən zaman həqiqət ilə daha çox uzlaşan və daha ədalətli olan ümumi qanunlardan istifadə etmək lazımdır, bunu o mülahizələrlə etmək lazımdır ki, "özünün ən yaxşı anlayışına görə mühakimə etmək"[95] yazılı qanunlardan qəti olaraq istifadə etməmək deməkdir, həqiqət və ümumi qanun əbədi mövcuddur və heç vaxt dəyişmir, ona görə ki, həm həqiqət,

həm də ümumi qanun təbiətlə uyğundur, yazılı qanunlar isə tez-tez dəyişir.

Məhz buna görə Sofoklun "Antiqona"sında biz bu məşhur kəlamı tapırıq: Antiqona yazılmamış qanunun ziddinə görə deyil, Kreontun qərarına zidd olaraq qardaşını basdırdığı üçün özünə bəraət qazandırır.

Bu qanunlar nə dünən, nə də bu gün icad olunmayıb, amma əbədi mövcuddurlar;

Mən kimin naminə olursa olsun,
onları saymaya bilmərəm[96],

O, həm də bunu ona görə edir ki, həqiqi və faydalı olan ədalətlidir, həqiqi və faydalı kimi görünən isə yox, buna görə də yazılı qanun həqiqi qanun deyil, ona görə ki, qanunun vəzifələrini yerinə yetirmir, həm də ona görə ki, hakim bir növ gümüşə əyar (nişanə) qoyan adam kimi saxta ədaləti əsil ədalətdən ayırmağı bacarmalıdır, həm də ən yüksək mənəvi keyfiyyətlərə malik adam üçün yazılmamış qanunlarm yazılı qanunlar üzərində üstünlüyünü rəhbər tutmaq xasdır.

Bu zaman baxmaq lazımdır ki, bu qanun hər hansı bir başqa məşhur qanuna və ya özü-özünə zidd olmasın, necə ki, bəzən bir qanun bəzi qərarları necə olmasına baxmayaraq qəbul edir, başqası isə qanunazidd olan qərarları qadağan edir. Əgər qanun ikimənalı xarakter ilə fərqlənirsə, onda onu həm bu, həm də digər istiqamətdə şərh etmək olar, belə halda onun hansı şərhinin ədalət və fayda növləri ilə uzlaşacağım müəyyən etmək lazımdır və sonra isə bundan istifadə etmək lazımdır. Əgər qanunun qəbul edilməsinə səbəb olan səbəblər artıq yoxdursa, qanun isə hələ də qüvvədədirsə, belə halda bunu aydınlaşdırmaq və belə yolla bu qanunla mübarizə aparmaq lazımdır.

Əgər yazılı qanun işin vəziyyətinə uyğundursa, onda demək lazımdır ki, "özünün yaxşı düşüncəsi ilə mühakimə etmək" andı qanunun əleyhinə mühakimə etmək üçün içilmir, bu ona görə olur ki, hakim qanunun nə dediyini bilmədiyi hallarda andı pozan adam olmasın.



Onu da əlavə etmək olar ki, hamı özü-özünə nemət olanı deyil, ona nemət kimi görünəni axtarır və qanunların almamağının və ya onlardan istifadə etməməyin heç bir fərqi yoxdur, yerdə qalan sənətlərdə, məsələn, tibbdə, həkimi aldatmağın heç bir faydası yoxdur, ona görə ki, həkimin səhvi bir o qədər ziyanlı olmur, nəinki hakimiyyətə tabe olmamaq vərdişi və nəhayət, qanunlardan ağıllı olmağa can atmaq məhz elə şeydir ki, ən məşhur qanunlar ilə qadağan olunur.

Beləliklə, biz, qanun haqqında məsələni nəzərdən keçirdik.

Şahidlərə gəldikdə isə onlar iki cür olur: qədim və yeni, sonuncular öz növbəsində yalan ifadə vermək nəticəsində özləri bu və ya digər halda risk edənlərə və bu zaman riskə məruz qalmayanlara bölünür. Qədim şahidlər adı altında şairləri və başqa şanlı kişiləri nəzərdə tuturam ki, onların ittihamları ümumən məşhurdur.

Məsələn, afinalıların hamısı Salamin barəsində Homerin şahidliyindən istifadə edirdilər və tenedoslular da bu yaxınlarda korinfli Periandrın[97] Sigey sakinlərinə qarşı şahidliyinə müraciət etmişdilər. Kleofont da eynilə belə qaydada Solonun elegiyalarından Kritinin əleyhinə istifadə edərək deyirdi ki, onun evi çoxdan azğınlığı ilə seçilir, yoxsa Solon heç vaxt belə şey yazmazdı:

Qırmızıtelli Kritiyə de ki, öz atasına qulaq
assın[98]

Baş vermiş hadisələrə aid şahidlər belədir. Gözlənilən hadisələrə dair şahid kimi gələcək üçün açılan falları izah edən adamlar çıxış edirlər, məsələn, Femistokl deyirdi ki, taxta divar gəmilərlə döyüş deməkdir.[99] Bundan başqa, dediyimiz kimi zərb-məsəllər də şahid kimi xidmət edirlər, məsələn qocalarla dostluq etməyi xoşlamayan adam üçün "heç

vaxt qocalara yaxşılıq etmə" məsəli, öldürülmüş ataların oğullarını da öldürməyə məsləhət görən adam üçün isə "Atanı öldürüb, oğullarını sağ qoyan adam ağılsızdır"[100] məsəli şahid kimi xidmət edir.

Yeni şahidlər – hamıya məlum adamlar müəyyən rəyi ifadə ediblər: onların rəyi məhz bu məsələlərə dair məhkəmə çəkişməsi aparan insanlara fayda verir, məsələn, Evbul məhkəmədə Xaretə qarşı Platonun Arxibi[101] haqqında dediyi sözlərlə çıxış edib deyib ki, onun sayəsində dövlətdə açıq-aşkar əxlaqsızlıq inkişaf edib.

Yeni şahidlərin sırasına elə adamlar da daxildir ki, onlar yalanı aşkara çıxaracağı halda, təhlükəyə düşməyə risk edirlər. Belə adamlar ancaq hər hansı hadisənin olub-olmaması məsələsində şahid kimi xidmət edirlər, amma faktın xüsusiyyətlərini müəyyənləşdirən zaman onlar şahid ola bilməzlər, məsələn, hər hansı bir hərəkətin ədalətli və ya ədalətsiz olması, faydalı və faydasız olması məsələlərinin həlli zamanı. Buna bənzər hallarda işlə əlaqəsi olmayan şahidlər daha çox inam qazanırlar, ən etibarlı şahidlər qədim şahidlər sayılır, ona görə ki, onları heç nə ilə ələ almaq olmur.

Şahidləri olmayan adam üçün sübutların yerini qayda tutmalıdır ki, həqiqətə bənzər şeylərin əsasında mühakimə etmək lazımdır, bunun özü "öz yaxşı düşüncənə görə mühakimə et" deməkdir, bu həm də "pula görə ehtimallara yanlış məna vermək və ehtimalları əsassız təsdiqləmək olmaz" deməkdir. Arxasında şahidləri duran insan isə öz növbəsində şahidləri olmayan adama deyə bilər ki, ehtimallar məsuliyyət daşıya bilməzlər, əgər ancaq sözlər əsasında işi araşdırmaq mümkün olsaydı, şahidlik etmək lazım olmazdı.

Şahidliklərə gəldikdə isə, onlar qismən natiqin özünə, qismən də rəqibinə aid ola bilər, eləcə də qismən faktın özünə, qismən də rəqiblərin xarakterinə aid ola bilər: yəqin ki, belə olduqda faydalı şahidliklər sarıdan çatışmamazlıq olmaz, onların işə birbaşa dəxli olmasa da, məhkəmədə iddiaçı olanın şəxsiyyətinin düzgünlüyünün, ya da onun rəqibinin şəxsiyyətinin alçaqlığının mənəvi xarakteristikasını verməyə xidmət edə bilər.



Qalan mülahizələr iddiaçı olana ya dostcasına, ya da düşməncəsinə, ya da etinasız münasibət bəsləyən, yaxşı və ya pis reputasiyasından istifadə edə bilən və ya heç birindən istifadə etməyən şahidlər barəsindədir – bütün bu mülahizələri və başqa onlara oxşar fərqlərini biz entimemaları çıxartdığımız həmin ən ümumi müddəalar əsasında[102] yaratmalıyıq.

Sövdələşmələrə gəldikdə isə, natiqlər üçün onların barəsində danışmağı o zaman faydalı olar ki, natiq onların böyük və kiçik əhəmiyyətini təsəvvür edə bilsin və ya onların inama layiq olub-olmadığını göstərə bilsin. Əgər sövdələşmələr natiqin xeyrinədirsə, onda onları etibarlı və qanuni qüvvəsi olan kimi göstərmək lazımdır; əgər onlar rəqibin xeyrinə danışırlarsa, onda əks olanı sübut etmək lazımdır.

Sövdələşmənin etibarlı və etibarsız olması şahidlər haqqında olan mühakimələrdən heç nə ilə fərqlənmir, ona görə ki, sövdələşmələr, onları imzalayan və ya saxlayan şəxslərin necə olmasından asılı olaraq etibarlılıq xarakteri alırlar. Madam ki, sövdələşmə mövcudluğu təsdiq olunub və o bizim üçün əlverişlidir, onda onun əhəmiyyətini artırmaq lazımdır: axı, sövdələşmə özəl və xüsusi qanundur və sövdələşmələr qanuna deyil, məhz qanunlar elə sövdələşmələrə qüvvə verir ki, onlar qanunla uzlaşır. Ümumiyyətlə, qanunun özü müəyyən qəbildən olan qanundur. Odur ki, sövdələşmələrə etibar etməyən ya onu ləğv edənlər qanunu pozmuş olurlar. Həm də, insanlar arasında könüllü münasibətlərin böyük hissəsi sövdələşmə əsasında durur, odur ki, sövdələşmənin qüvvədən düşməsi ilə insanların öz Aralarında münasibət yaratmaq imkanının özü də aradan qalxır.

Bu halda hansı başqa mülahizələrin yararlı olmasını görmək asandır.

Əgər qanun sizin üçün əlverişsiz, rəqibiniz üçün isə əlverişlidirsə, bu halda sizin üçün əlverişsiz olan qanuna qarşı istifadə etməyə yararlı olan etirazlar lazımdır, məhz belə demək olar: madam qanunlar düzgün qoyulmayıb, madam qanunvericilər səhvə yol veriblər. Onda biz özümüzü qanunlara tabe olmağa borclu hesab etmirik və buna görə də sövdələşməni özümüz üçün məcburi saymaq mənasızlıqdır, bundan başqa nəyin ədalətli olduğunu hakim müəyyən edir, buna görə də onun üçün sövdələşmə deyil, ədalətə daha uyğun olan şey lazımdır, ədalətli olanı isə nə yalanın, nə də məcbur etmənin köməyi ilə təhrif etmək olmaz. Ona görə ki, o, şeylərin öz mahiyyətindən irəli gəlir, sövdələşmələr isə çox vaxt yalan və məcburetmə əsasında yaranırlar. Sonra baxmaq lazımdır ki, məlum sövdələşmələr hər hansı bir yazılı və ya ümumi qanuna, yazılı qanunlardan isə hər hansı bir yerli və ya əcnəbi qanuna zidd deyil, bundan başqa onun hər hansı başqa sövdələşmələrə, əvvəl və daha gec bağlanmış sövdələşmələrə zidd olmadığına baxmaq lazımdır. Belə halda təsdiq etmək olar ki, üstünlük ya daha gec bağlanmış sövdələşmələrin tərəfindədir, ya da daha əvvəlkilər düzgündür, daha gec bağlanmış müqavilələrin düzgün olmamasına gəldikdə isə buna hansının daha faydalı olması baxımından yanaşmaq lazımdır. Bundan başqa sövdələşməni fayda nöqteyi-nəzərindən müzakirə etmək lazımdır – görəsən o, hakimlərin faydasına əks deyil ki, bir sıra çoxlu buna bənzər etirazlar etmək olar, onları deyilənlərdən asanlıqla əldə etmək olar.

İşgəncə müəyyən mənada şahidlik olur; o nə isə inandırıcı görünür, ona görə ki, özündə müəyyən zərurəti saxlayır. Ona münasibətdə bir sıra cürbəcür mülahizələr söyləmək olar: əgər işgəncə bizim üçün sərfəli ola bilərsə, onun əhəmiyyətini artırmaq lazımdır və təsdiq etmək lazımdır ki, bütün şahidlik növlərindən təkcə o həqiqi hesab oluna bilər. Əgər işgəncə sizə deyil, rəqibiniz üçün sərfəlidirsə, belə halda, bu qəbildən olan şahidliklərin həqiqiliyinə, ümumiyyətlə, işgəncələrin xarakteri haqqında mühakimələr yolu ilə etiraz etmək lazımdır: demək lazımdır ki, işgəncə altında yalan, məcburiyyət altında eynilə həqiqət kimi asanca söylənir, bu zaman daha möhkəm olanlar inadla həqiqəti gizlədir, digərləri isə işgəncədən tez qurtarmaq üçün asanlıqla yalan deyirlər. Bu zaman hakimlərə məlum olan və həqiqətən baş vermiş oxşar misalları əldə hazır tutmaq lazımdır. Demək lazımdır ki, işgəncə həqiqətin aşkarlanmasına yardım edə bilməz, ona görə ki, inadkar və möhkəm insanlar mənən güclü olaraq igidcəsinə işgəncəyə dözür, qorxaq və ürkək adamlar isə, hələ işgəncə görməmiş, ondan qorxur, buna görə də işgəncənin özündə heç bir etibarlı şey yoxdur.

Andlara gəldikdə isə, burada dörd halı bir-birindən fərqləndirmək lazımdır: ya bir tərəf o biri tərəfdən and içməyi tələb edir və eyni zamanda da onların belə tələbini qəbul edir; ya bunların heç biri yoxdur; ya bunlardan biri var, o biri yoxdur, yəni, özləri and içməyi tələb edərək, özləri and içmir, ya da özləri and içərək, and içməyi tələb etmir. Bundan əlavə, başqa qəbildən olan hal da ola bilər – daha əvvəl iddiaçı və ya onun rəqibi andı içmiş ola bilər. Ona görə də and içməyi tələb etmirlər ki, insanlar asanlıqla yalandan and içə bilir və andı içməklə rəqibi öz vəzifələrindən azad edirlər, halbuki, and rəqib tərəfindən içilmədiyinə görə, iddiaçı məzəmmət etməyə güvənə bilər. O, deyə bilər ki, hakimlər tərəfindən məruz qaldığı təhlükəyə daha çox üstünlük verir, ona görə ki, hakimlərə inanır, rəqiblərə isə yox.

And tələbini o şərtlə rədd etmək olar ki, o, pul almağa görə həyata keçirilsin və məhkəmədə danışan adam pis adam olsaydı, lazımi andı içərdi, ona görə ki, heç bir səbəb üzündən pis olmaqdansa, heç olmazsa, müəyyən bir şeyin xatirinə pis olmaq olar, əgər, mən bilsəm ki, and içərək arzuladığımı alacağam, içməsəm isə almayacağam, onda mənim and içməkdən imtina etməyimi andı pozmaq qorxusu ilə yox, mənim gözəl mənəvi keyfiyyətlərim ilə izah etmək olar.

Bu halda, Ksenofanın kəlamları yararhdır; - allahsız insan dindar insana meydan oxuyanda, tərəflər qeyri-bərabərdir[103], biz burada elə bir halla üzləşirik ki, sanki, güclü adam zəif adamı döyüşə, daha doğrusu, döyülməyə çağırır.

Əgər biz öz rəqibimizin and içmək tələbini qəbul ediriksə, biz bunu onunla izah edə bilərik ki, özümüzə inanırıq, amma rəqibimizə qarşı qətiyyən inam hiss etmirik. Burada yenə də Ksenofanın kəlamını elə dəyişdirərək demək olar ki, vəziyyət bərabərləşsin, əgər kafir adam and içməyi tələb edirsə, dindar adam isə andı içirsə, onda işdə and içmədən imtina etmək qəribə olar, ona görə ki, bu işin özündə hakimlərdən and içməyi tələb edirsən.

Əgər biz rəqibimizdən and içməyi tələb ediriksə, bunu izah etmək üçün demək olar ki, işi Allaha tapşırmaq istəyi - mömin istəkdir, biz başqa hakimlər arzulamağa heç bir ehtiyac duymuruq, ona görə ki, işin həlli rəqibin özünə həvalə olunur və başqalarından and içməyi tələb etdiyin zaman bunu özünün istəməməsi mənasızdır.

Yuxarıda göstərilmiş halların hər birinə dair nə danışmaq lazım olduğunu dedik, həm də, iki hadisənin birində birləşməsi zamanı nə demək lazım olduğunu dedik, məsələn: əgər insan andı qəbul edirsə, amma özü onu içmək istəmirsə və ya özü and içərək onu rəqibindən qəbul etmək istəmirsə, ya da o, həm and içmək, həm də qəbul etmək istəyirsə, ya da nə onu, nə də bunu etmək istəmirsə, nə demək lazımdır. Bu hallar göstərdiyimiz halların uzlaşmasından yaranır, buna görə də onlara aid dəlillər də hər bir ayrıca götürülmüş hala aid dəlillərin uzlaşmasından əmələ gəlir.

Əgər insanın əvvəl içdiyi and indi içdiyi and ilə ziddirsə, onda o, özünə bəraət qazandırmaq üçün deyə bilər ki, bu andı pozmaq deyil, ona görə ki, cinayət bir növ könüllü olan şeydir, yalandan and içmək cinayət etmək deməkdir, amma zorakılıq və aldatmanın təsiri altında baş verən hadisələr məcburi xarakter daşıyır. Buradan həm də andı pozmağa



aid də nəticə çıxarmaq olar, onun mahiyyəti insanın dodaqlarının nə dediyində deyil, onun nə niyyətdə olmağındadır.

Əgər bizim rəqibin əvvəllər içdiyi and indikinə ziddirsə, onda demək olar ki, bu adam andma sadiq deyil. and içdiyi hər şeyi inkar edir (anairei) hakimlər isə andı içən kimi qanunları yerinə yetirirlər; bundan başqa, hakimlərə baxıb əlavə etmək lazımdır: "Onlar sizdən elə andlara əməl etməyi tələb edirlər ki, onları içən kimi, siz ədaləti icra edirsiniz, amma onlar özləri içdiyi andlara əməl etmirlər". Amplifikasiyadan istifadə edərək çox şey və buna oxşar çox şey demək olar. "Qeyri-texniki" sübutlar haqqında deməyi mümkün olan bütün şeylər bundan ibarətdir.

### *14. Ədalətsiz hərəkətlərə səbəb olan əhvali-ruhiyyələr. – Cinayət və hərəkətlərin cəzasız qalmasına yardım edən şərtlər.*

Beləliklə, insanları ədalətsiz hərəkət etməyə təhrik edən səbəblər bunlardır. İndi isə insanların hansı əhvali-ruhiyyədə olarkən ədalətsiz hərəkət etdiyi və kimə qarşı onların belə etdiyi haqqında damşaq.

İnsanlar məlum hərəkətin baş verməsinin heç nəyi nəzərə almayaraq mümkünlüyünü və özləri üçün mümkünlüyünü nəzərə alaraq ədalətsiz hərəkət edirlər; bundan başqa, onlar hərəkətlərinin üzə çıxmayacağını və ya aşkar olunsa, cəzasız qalacaqlarını, ya da ona görə cəzalansalar da, bu cəzanın hərəkət nəticəsində onların özləri və ya yaxınları üçün olacaq faydadan az olacağını fikirləşdikləri zaman da ədalətsiz hərəkət edirlər. Daha sonra biz deyəcəyik[77] ki, mümkün olan və mümkün olmayan məhz nədir, ona görə ki, bu fikirlər bütün qəbildən olan nitqlər üçün əhəmiyyət kəsb edir.

Ədalətsiz hərəkətləri cəzasız törətməyi ən çox özləri üçün mümkün sayan adamlar yaxşı danışmağı bacaran, zirək, belə mübarizə aparmağa çoxlu təcrübəsi olan, çoxlu do-

stları və pulu olan adamlardır. İnsanlar özlərini o zaman güclü hesab edirlər ki, onları qane edən şərtlər olsun; bu olmayanda, onların əgər lazımlı dostları, xidmətçiləri və ya cinayət şəriki varsa, onda bu onlara ədalətsizliyi törətməyə, bunu gizlətməyə və buna görə cəza almamağa imkan verir. Bu həm də o zaman mümkün olur ki, incitdiyimiz şəxslə, ya da hakim ilə dost olaq: dostlar bir tərəfdən ədalətsizliyə qarşı ehtiyat tədbirləri görmürlər, digər tərəfdən isə işi məhkəməyə çatdırmadan barışırlar. Hakimlərə gəldikdə isə, onlar dost olduqları şəxslərə yarınır, ya da onları heç tənbeh etmir, ya da əhəmiyyətsiz cəza verirlər.

Öz günahlarını elə adamlar asanlıqla gizlədirlər ki, onların keyfiyyətləri onların boynuna qoyulmuş ittihamlar ilə zidd olsun, məsələn, gücsüz adam üçün zorakılıq ilə bağlı cinayəti, kasıb və eybəcər adam üçün isə zinakarlıq ilə bağlı cinayəti gizlətmək asandır. Həddindən çox aşkar və gözə çarpan olanı da gizlətmək asandır, belə şeyləri insanlar sezmirlər, çünki, onları qeyri-mümkün hesab edirlər. Heç kəsin hələ eləmədiyi növ cinayətləri də eynilə belə gizlətmək asandır, ona görə ki, belə şeylərdən heç kim qorunmur – hamı adətkarda olduğumuz cinayətlərdən qorunur, bunu eyni ilə adi xəstəliklərə münasibətdə edirlər, amma heç kəs heç vaxt keçirmədiyi xəstəliyə qarşı ehtiyat tədbirləri görmür. Elə insanlara hücum etmək asandır ki, onların ya heç düşməni yoxdur, ya da lap çoxdur: birinci halda hücum edən şəxs o əsasla aşkar olunmayacağına ümid bəsləyir ki, onun qurbanı heç bir ehtiyat tədbiri görmür, ikinci halda isə o, ona görə aşkar olunmamış qalır ki, müdafiə vəziyyətində olan insanlara hücum etmək məlum adam tərəfindən qeyri-mümkün iş kimi təsvir olunur, müqəssir isə öz müdafiəsi üçün deyə bilər ki, o heç vaxt belə işə cürət edə bilməzdi.

Cinayəti həm də elə adamlar asanlıqla edə bilərlər ki, onlar ya cinayətin həyata keçirilməsi üsulu, ya baş verdiyi yer, ya da yaranmış əlverişli şərait sayəsində qaçıb gizlənə bilirlər. Cinayətə həm də elə adamlar ürək edirlər ki, onların cinayət aşkar olacağı halda məhkəməsiz yaxa qurtarmaq, ya vaxt qazanmaq, ya da hakimləri ələ almaq imkanları olsun, həm də elələri cinayət etməkdən qorxmur ki, cəza veriləndə də onun yerinə yetirilməsinin qarşısını almaq, ya da onun yerinə yetirilməsi üçün uzunmüddətli möhlət almaq imkanı olsun; nəhayət elələri də cinayət edirlər ki, ifrat yoxsulluqlarına görə itirməyə heç nələri yoxdur. Bundan başqa, elə cinayət etməyə qərar verirlər ki, onlara cinayətdən alınan mənfəət şübhəsiz, əhəmiyyətli və ya yaxın kimi görünür, cinayətə görə verilən cəza isə əhəmiyyətsiz, doğru olmayan və ya uzaq kimi görünür.

Cinayətdən alınan mənfəət ilə ona verilən cəza uyğun olmayanda belə cinayətləri etməyə həmişə adam tapılır; məsələn, tiranlıq belədir; eyni şeyi elə cinayətlər haqqında demək olar ki, onların həyata keçirilməsi toxunmaqla hiss olunan mənfəət verir, amma onlara görə verilən cəza ancaq rüsvayçılıq olur. Və yaxud əksinə, bəzən elə halda cinayət etməyə cəsarət edirlər ki, onun həyata keçməsi müəyyən mənada şan-şöhrət gətirir, məsələn, həm atası, həm də anasına görə bir dəfəyə qisas almağa müvəffəq olmuş Zenon kimi[78], bunun cəzası isə ya pul, sürgün və ya buna bənzər başqa şeylə verilir.

Adamlar göstərilmiş motivlərin hər hansı birinin təsiri altında və göstərilmiş əhval-ruhiyyələrin hər hansı birində ədalətsiz hərəkət edirlər, amma bunlar elə həmin eyni adam deyil, tamam əks xarakterli şəxslərdir. Həm də elə adamlar cinayət etməyi qərara alırlar ki, onlar tez-tez ya öz cinayətlərini gizlətməyə, ya da cəzasız qalmağa müvəffəq olublar. Tez-tez bu işdə uğursuzluq qazananlar da cinayət etməyə qərar verirlər, ona görə ki, belə işlərdə bəziləri müharibədə olduğu kimi nəyin bahasına olursa-olsun qələbə əldə etməyə qabildirlər. Həm də elə hallarda cinayət etməyə qərar verirlər ki, o vaxt cinayətdən dərhal sonra məmnunluq baş verir, sonra, bir qədər gec nə isə xoşagəlməz bir şeyi hiss etmək lazım gəlir və ya cinayət etrməyə o vaxt qərar verirlər ki, bu

o vaxt olur ki, mənfəət yaxın, cəza isə uzaqda olsun. Özlərini saxlaya bilməyən adamlar belə vəziyyətə düşürlər, özünü saxlaya bilməmək isə bizim istəklərimizin predmeti olan hər şeyə aid ola bilər. Cinayət həm də elə hallarda baş verir ki, o vaxt həm cinayət, həm də ona görə verilən cəza ilə bütün xoşagəlməz şeylər dərhal insanın başına gəlir, məmnunluq və faydanı isə ancaq gec, amma daha uzun çəkən vaxt üçün əldə edilir, belə qəbildən olan şeylərə özlərini saxlaya bilən və daha ağıllı adamlar can atırlar.

Cinayət həm elə adamlar tərəfindən həyata keçirilir ki, onların öz hərəkətlərini təsadüf, ya zərurət ilə, ya təbiətin qanunu, ya da vərdişilə izah edə bilsinlər – ümumiyyətlə elə hallarda ki, cinayətin deyil, səhvin baş verdiyini sübut etməyə imkan olsun. Ədalətsizlik həm də elə hallarda baş verir ki, o vaxt mərhəmət əldə etmək mümkün olsun. Ədalətsiz hərəkət etməyə həm də ehtiyacı olan adamlar qərar verirlər, həm də ehtiyac iki cür olur: yoxsul adamlarda olduğu kimi ən zəruri şeylərə, ya da varlılarda olduğu kimi lazımsız şeylərə. Cinayət etməyə həm də elə adamlar qərar verirlər ki, onların ya çox yaxşı, ya da çox pis şöhrəti olsun, birincilər bunu edən zaman hesab edirlər ki, onlardan heç kim şübhələnməz, ikincilər isə fikirləşirlər ki, bu işdən onların şöhrəti azalmaz.

İnsanlar belə əhval-ruhiyyələrlə cinayət etməyə qərar verirlər.

Cinayətin obyekti olan adamlar və şeylər adətən belə olurlar: onlar bizdə olmayan şeylərə malik olurlar və bu zaman iş həmin şeylərin nə isə zəruri və ya həzz verən bir şey olmasından asılı deyil.

Ədalətsizlik həm yaxın, həm də uzaq olan adamlar qarşı həyata keçirilir, birinci halda qisas tez, ikinci halda isə gec baş verir, məsələn, karfagenlilərin qarət ediləcəkləri halda baş verəcək hadisə kimi[79] "Ehtiyat tədbirləri görməyən, qorunmayan, həddindən çox sadəlövh adamlar da haqsızlığa məruz qalırlar, ona görə ki, bu halda hamının diqqətindən tez gizlənmək olar, qayğısız insanlar ona görə haqsızlığa məruz, qalırlar ki, işi məhkəmə ilə aparmaq üçün qayğıkeş adam olmaq lazımdır, vicdanlı adamlar isə ona görə haqsızlığa məruz qalırlar ki, onlar öz mənfəətlərinə görə mübahisəyə girməyə qabil deyildirlər. Çoxları tərəfindən təhqir olunmuş, amma işi məhkəməyə çatdırmayan adamlar da haqsızlığa məruz qalaraq məsəldə deyildiyi kimi asanlıqla miziyalıların[80] qənimətinə çevrilirlər. Heç vaxt təhqir olunmamış, ya da onlara tez-tez məruz qalan adamlar da haqsızlığa məruz qalırlar, ona görə ki, həm onlar, həm də bunlar heç bir ehtiyat tədbiri görmür - birincilər hesab edirlər ki, heç kəs, heç vaxt onları təhqir etməyəcək, ikincilərin fikrinə görə isə artıq heç vaxt heç kəs onları təhqir etməyəcək. Böhtana məruz qalmış və ya böhtanlanmağı asan olan insanları da incitmək asan olur, ona görə ki, belə adamlar adətən hakimlərdən qorxaraq prosesə başlamır və özlərinə qarşı heç kəsdə inam yarada bilmirlər; bu adətən özlərinə qarşı ümumi nifrət və paxıllıq yaratmış adamların başına gəlir. Ədalətsizlik həm də elə insanlara qarşı çevrilir ki, onlara qarşı bizdə nə isə olsun – bu onların əcdadlarına da, özlərinə də, ya da dostlarına aid ola bilər, onlar bizi incitdiklərinə görə, ya da bizim özümüzü, ya da bizim əcdadlarımızı, ya bizə yaxın adamları incitmək istədiklərinə görə biz onlara qarşı ədalətsizlik etmək istəyirik, zərb-məsələ görə kin-kidurətə ancaq bəhanə lazımdır. Həm düşmənləri, həm də dostları (incidirlər) ona görə ki, birinciləri incitmək asan, ikinciləri isə incitmək xoşdur, dostları olmayan, nə yaxşı danışmağı, nə də iş aparmağı bacarmayan adamları da incitmək asandır, ona görə ki, belə insanlar işi məhkəmə yolu ilə aparmağa can atmır, ya barışığa gedir, ya da heç nəyi axıra qədər çatdırmırlar. Çox vaxt elə insanlarla ədalətsiz rəftar edirlər ki, onlar üçün məhkəmə eləmək üçün vaxt sərf etmək namünasibdir, məsələn, öz əlləri ilə özləri üçün çörək pulu qazanan əcnəbilər və sənətkarlar, çünki bu adamlar aza qane olaraq barışır və işə tez xitam verirlər. Ədalətsizlik elə

adamlara qarşı asanlıqla edilir ki, onlar özləri də çox şeydə və ya indi onlara qarşı ədalətsizlik edilən şeydə ədalətsizlik ediblər, əgər bir şəxs başqalarına qarşı ədalətsizlik etməyə vərdiş edibsə və onun özünə qarşı da məhz belə hərəkət olunubsa, onda ədalətsizlik demək olar ki, ədalətsizlik kimi görünmür, məsələn, necə ki, hamım təhqir etməyə vərdiş etmiş adamı bir nəfərin təhqir etməsi. Bizi incidən, ya da incitmək istəyən, ya da incidəcək adamlarla da ədalətsiz rəftar edirik; bu halda ədalətsizliyin özündə nə isə xoş və gözəl bir şey olur və demək olar ki, ədalətsiz kimi görünmür. Biz həm də elələrini asanlıqla incidirik ki, onların alçalması ya bizim dostlarımıza, ya bizim sevdiklərimizə, ya bizim ağalara, ya da ümumiyyətlə asılı olduğumuz və hər hansı bir mənfəət ala biləcəyimiz adamlara xoş olsun. Biz həm də elə adamlara qarşı ədalətsizlik edirik ki, onları artıq mühakimə etmişik və onlarla əlaqələri kəsmişik. Kallipp Diona[81] qarşı münasibətdə belə hərəkət etmişdir, ona görə ki, belə hərəkətlər ədalətsiz görünmür. Eynilə belə biz elə adamlar ilə rəftar edirik ki, biz onları incitməsək də, başqaları incidəcək, belə ki, bu halda tərəddüd qeyri-mümkün görünür; rəvayətə görə Enesidem məhz belə etmişdir, o, hansı isə bir şəhəri əsarət altına almış Qelona kottabi göndərərək onu özünü görmək üçün nəzərdə tutduğu işi onu qabaqlayaraq etdiyi üçün təbrik etmişdir.[82] Haqsızlıq çox vaxt elə hallarda baş verir ki, o zaman bu incidilmiş adamlar üçün çoxlu yaxşılıq etməyə imkan versin, ona görə ki, bu hallarda fessasiyalı Yason demişkən – günahları təmizləmək asandır, hərdən ədalətsiz hərəkət etmək lazımdır ki, çoxlu ədalətli iş görməyə imkanın olsun.[83]

İnsan elə ədalətsiz hərəkətləri asanlıqla etməyi özünə rəva bilir ki, onları etmək hamıda, ya da bir çoxunda vərdişə çevrilsin, ona görə ki, bu halda bağışlanmağa ümid var. Biz elə predmetləri oğurlamağı asanlıqla qərara alırıq ki, onları gizlətmək və xərcləmək asan olsun. Məsələn, ərzaq ehtiyatları, bura həm də formasını, rəngini və tərkibini dəyişməklə asanlıqla başqa hala salına bilən predmetlər, bir çox yerlərdə asanlıqla gizlədilə bilən predmetlər; bu sıraya həm də bir yerdən başqa yerə rahat aparıla bilən, kiçik həcmli yerlərdə gizlədilə bilən şeylər, həm də əksər hallarda oğrularda tapılan şeylərin oxşarları daxildir. İnsan çox vaxt başqalarını elə təhqir edir ki, təhqir olunmuşlar onların barəsində danışmağa utanırlar, məsələn, bizim arvadlarımıza, ya özümüzə, ya oğullarımıza qarşı binamusluq ediləndə çox vaxt biz elə hərəkətlər edirik ki, onların məhkəmə yolu ilə təqibi prosesini başlayan adam tərəfindən məhkəmələrdə dava çəkməyə olan adi ehtiras kimi görünə bilər. Buraya az əhəmiyyətli və bağışlanması yüngül olan hərəkətlər aiddir.

**15.** *Ədalətin və ədalətsizliyin müəyyən olunmasının ikitərəfli üsulu. - Xüsusi qanun və ümumi qanun. – Ədalətsiz hərəkətlərin iki kAteqoriyası. – Yazılmamış qanunların iki növü. – Həqiqət anlayışı.*

Ədalətsiz hərəkət edən adamların əhval-ruhiyyəsi haqqında ədalətsizliyə məruz qalan şəxslər və əşyalar haqqında və onların baş verməsinin səbəbləri haqqında göstərə biləcəyimiz bütün mülahizələr təqribən bunlardır. Hər şeydən əvvəl ədalət ilə uzlaşan və uzlaşmayan, hər qisimdən olan hərəkətləri araşdıraq.

Ədalət və ədalətsizlik anlayışları ikitərəfli iki üsulla müəyyənləşdirilir: qanunun iki kateqoriyasına uyğun və onların toxunduğu insanlara uyğun. Mən təsdiq edirəm ki, xüsusi qanun və ümumi qanun mövcuddur.[84] Mən elə qanunu xüsusi adlandırıram ki, onu hər bir xalq özü üçün qoyub; bu qanun həm yazılmış, həm də yazılmamış olur.[85] Təbii qanunu isə mən ümumi qanun adlandırıram. Hamı üçün ümumi, öz təbiətinə görə ədalətli və ədalətsiz elə bir şey var ki, bütün xalqlar tərəfindən olduğu kimi qəbul olunur, baxmayaraq ki, bu barədə onların arasında heç bir saziş və hətta heç bir əlaqə yoxdur. Yəqin ki, qadağan olunmasına

baxmayaraq Polinikin cənazəsinin basdırılmasına tamamilə razı olduğunu təsdiqləyən Antiqona məhz belə növ ədaləti nəzərdə tuturdu[86], belə ki, bu yaranmış hal təbii ədalət sahəsinə aiddir.

O, nə bu gün, nə də dünən yaranıb;
o, əbədi yaşayır və heç kəs deyə bilməz ki, o, gəlib.[87]

Bu əsasda Emnedokl bütün canlı məxluqları öldürməyi qadağan edir; belə növdən olan hərəkət bəzilərinin gözündə ədalətli, digərlərinin gözündə isə ədalətsiz görünə bilməz; amma bu qanun bütün insanlar üçün məcburi olaraq bütün geniş efir və ölçüsüz yer məkanında *qüvvəyə malikdir.*[88]
Alkidamant öz Messena nitqində də eyni şeyi deyir.[89] Cinayətlər törədildiyi şəxslərə qarşı münasibətdə ikitərəfli qaydada müəyyən olunur: nə etmək lazımdır və nə etmək lazım deyil, bütün cəmiyyətə aid ola bilən, ya da onun bir üzvünə aid ola bilər; buna uyğun olaraq ədalətlə uzlaşan və ona əks olan hərəkətlər də iki növdən ola bilər: onlar ya bir müəyyən şəxsə, ya da bütöv cəmiyyətə aid ola bilər; zinakarlıq və adam döyən insan hər hansı bir müəyyən şəxsə qarşı ədalətsizlik edir, hərbi qulluqdan yayınan insan isə bütün cəmiyyətə qarşı ədalətsiz hərəkət edir.
Beləliklə, bütün ədalətsiz hərəkətləri bütövlükdə cəmiyyətə aid olan və cəmiyyətin bir və ya bir neçə üzvünə aid olan hərəkətlərə böldükdən sonra ədalətsizliyin obyekti olmağın nə olduğu məsələsinə qayıdaq. Ədalətsizliyin obyekti olmaq bunu özbaşına olaraq edən şəxs tərəfindən ədalətsizliyə məruz qalmaq deməkdir, belə ki, biz daha əvvəl[90] ədalətsizliyin törədilməsini özbaşınalıq kimi müəyyən etmişdik. Ədalətsiz hərəkətin obyekti mütləq haqsızlığa məruz qalır və həm də öz istəyinə zidd olaraq, haqsızlıq anlayışı yuxarıda deyilənlərdən aydındır (çünki, biz yuxarıda öz-özünə xeyir və şərin nə olduğunu müəyyən etmişdik), eləcə də özbaşınalıq (biz demişdik ki, insanın bilə-bilə etdiyi bütün hərəkətlər özbaşınalıqdır[91]) anlayışının nə olduğu da aydındır.



Beləliklə, bütün hərəkətlər zəruri olaraq ya bütün cəmiyyətə, ya da onun ayrıca üzvünə aid olur və insan tərəfindən ya tam xəbərsiz və istəyinə zidd olaraq, ya da könüllü və tam şüurlu surətdə həyata keçirilir, bu son hərəkətlərdən bəziləri qəsdən, digərləri isə affekt halında törədilir.
Qəzəb haqqında biz ehtiraslar haqqında traktatda danışacağıq, insanların nəyi bilərəkdən və hansı əhval-ruhiyyəyə belə etdiyi haqqında əvvəl danışmışdıq.[92]
Çox vaxt insanlar məlum hərəkəti törətdiklərini boyunlarına alsalar da, hərəkətin məlum qiymətləndirilməsi və qiymətləndirilmənin özü ilə razılaşmırlar, məsələn, insan təsdiq edir ki, o, nəyi isə götürüb, amma oğurlamayıb və ya o, birinci vurub, amma təhqir etməyib, ya da kimilə isə əlaqədə olub, amma zina etməyib, ya da oğurluq edib, amma küfr etməyib, ona görə ki, onun oğurladığı Allaha məxsus deyil, ya da, o, başqasının tarlasını şumlayıb, amma bu tarla ictimai deyil, ya da o, düşmənlərlə əlaqədə olsa da, xəyanət etməyib – bütün buna bənzər halları nəzərə alaraq müəyyən etmək lazımdır ki, oğurluq, təhqir, zina nə deməkdir, bu onun üçün lazımdır ki, biz nəyin isə olduğunu, ya da nəyin isə olmadığını sübut etmək istədiyimiz haqqında həqiqəti aşkara çıxaraq.
Bütün oxşar hallarda əsas məsələ odur ki, məlum hadisə ədalətsiz və pisdir, ya yox: axı, insanın ədalətsizliyi və yararsızlığı niyyətində olur, təhqir və oğurluq kimi ifadələr isə qabaqcadan niyyətin olduğunu göstərir: heç də həmişə başqa adamı vuran adam bununla onu təhqir etmiş olmur, bu o zaman düz olar ki, o, bunu başqa bir məqsədlə etsin, məsələn, öz-özünə ləzzət vermək üçün, heç də həmişə nəyi isə gizli şəkildə götürmüş adam oğurluq etmiş olmur, bu ancaq o zaman olur ki, o, bunu edəndə başqasına zərər vurmaq və götürülmüş şeyi mənimsəmək arzusunda olsun.

Başqa hallara münasibətdə demək olar ki, onlar nəzərdən keçirdiyimiz hallar kimidir.

Ədalətli və ədalətsiz olanlar iki növ olduğu üçün və yazılı qanunlarm nə barəsində bəhs etdiyini artıq dediyimiz üçün, onda bizə ancaq yazılmamış qanunlardan danışmaq qalır. Onlar iki qəbildən olur: onlardan bəziləri məziyyət və nöqsanların ifrat büruzə verilməsini nəzərdə tutur ki, onlarla tərif və məzəmmət, şərəfsizlik və şan-şöhrət, ümumi hörmətin izharı buna xeyirxahlara münasibətdə minnətdarlıq, yaxşılığa yaxşılıqla cavab vermək, dostlara kömək və s. daxildir – bağlıdır. Yazılmamış qanunların yerdə qalanları isə xüsusi yazılmış qanunda olan çatışmamazlıqları doldurur, belə ki, həqiqət ədalətin sahəsinə aid edildiyinə görə yazılmış qanunlara baxmayaraq ədalətli olan bir şeydir.

Yazılı qanunda olan belə çatışmamazlıqlara bəzən qanunvericilər tərəfindən könüllü şəkildə yer verilir, bəzən isə bu onların iradəsinə zidd şəkildə olur: qanunun çatışmamazlıqları onlarm nəzərindən qaçanda bu iradəyə zidd olur, onlar əldə olan hadisəyə dair heç bir təlimat verə bilməyəndə isə bu könüllü olur, ona görə ki, onların qərarı ümumilik xarakteri daşımahdır. Verilmiş hal isə həmişə olana deyil, əksər hallarda olana aiddir. Eyni şeyi o hallara aid də demək olar ki, onlarm barəsində hər hansı bir göstəriş vermək çətindir, çünki onlar çox hədsizdir, məsələn, dəmir ilə xəsarət yetirməyi qadağan etməklə müəyyən etmək çətindir ki, bu qadağan hansı uzunluqda və məhz necə dəmiri nəzərdə tutur: belə hesablamalar üçün heç insan həyatı çatmaz.

Beləliklə, nə vaxt ki, dəqiq qərar vermək mümkün deyil, bununla belə qanunverici qərar çıxarmaq zəruridir. Belə hallarda ümumi ifadələr işlətmək lazımdır. Buradan belə nəticə çıxır ki, əgər əlində dəmir üzük olan kim isə başqa adama əl qaldırırsa, ya da ona zərbə vurursa, onda yazılı qanuna görə o, təqsirkardır və ədalətsiz hərəkət edir – həqiqət məhz budur.



Əgər bizim tərəfimizdən anlayış həqiqət anlayışıdırsa, onda buradan aydın olur ki, həqiqətə uyğun olan və ona uyğun olmayan nədir və hansı insanlar həqiqət anlayışına (oycepieiceis) uyğun gəlmir. Mərhəmətə layiq hər şey həqiqət anlayışına uyğundur. Bundan başqa, həqiqət səhvlərə, ədalətsiz hərəkətlərə və bədbəxt hadisələrə eyni qiymət verməməyi tələb edir. Bədbəxtliklərin sırasına bütün niyyətsiz və heç bir pis fikir olmadan baş verən hadisələr aiddir; səhv nəticəsində baş verən bədbəxt hadisələrin sırasına isə nöqsan nəticəsində deyil, niyyət nəticəsində baş verənlər daxildir; ədalətsiz hərəkətlər sırasma isə həm niyyət, həm də nöqsanlılıq nəticəsində baş verən bütün hadisələr daxildir, ona görə ki, ehtirasın təsiri altmda edilən hər şey nöqsan hesab olunur.

Həqiqət ondadır ki, insanın zəiflikləri bağışlansın, həm də ondadır ki, qanun deyil, qanunverici, qanunun hər nöqtəsi deyil, qanunvericinin fikri nəzərdə tutulsun, hərəkətin özünü deyil, onu edən insanın niyyətini, özü də bir hissəsini deyil, bütövlükdə nəzərdə tutsun, ona görə ki, diqqəti məlum hadisədə insanın özünü necə göstərməsinə deyil, onun həmişə, ya da əksər hallarda necə olmasına versin. Həqiqət həm də ondadır ki, edilmiş yaxşılıq çəkilmiş pislikdən tez yaddan çıxmasm, bizə edilmiş yaxşılığı da etdiyimiz yaxşılıqdan daha tez yaddan çıxartmamalıyıq. Həqiqət həm də ondadır ki, bizə qarşı edilən ədalətsizliklərə səbirlə dözək və əməllə deyil, sözlə məhkəmə quraq, nəhayət, ictimai məhkəmədənsə, münsiflər məhkəməsinə müraciət edək, ona görə ki, münsif həqiqət, hakim isə qanun haqqında fikirləşir; münsiflər məhkəməsi məhz ona görə yaradılıb ki, həqiqət zəfər çalsın.

## İKİNCİ KİTAB

1. *Ritorikanın məqsədi. – Nitqə inandırıcı xarakter verən şərtlər. – Natiqə qarşı inam yaradan səbəblər. – Ehtirasın tərifi. - Hər bir ehtirası nəzərdən keçirmək üçün lazım olan üç nöqteyi-nəzər.*

Beləliklə, bu əsaslara istinad edərək nəyə isə təhrik etmək və ya nədən isə çəkindirmək, tərifləmək və pisləmək, günahlandırmaq və bəraət qazandırmaq lazımdır, bu təsəvvür və müddəalar isə dəlillərin sübutuna yardım göstərir, ona görə ki, onlara görə və onların köməyi ilə entimemalar qurulur, bunu hər qəbildən olan nitqlərin hər biri üçün demək olar. Ritorikanın özü qərarın (crisis) çıxarılması üçün mövcud olduğundan – axı həm məşvərətçi işlərdə müəyyən qərara gəlirlər və məhkəmə də həmçinin öz qərarını çıxarır, - buna görə təkcə nitqin sübutedici və inam yaradıcı olmasının qayğısına qalmaq lazım deyil, həm də özünü müəyyən xarakterli insan kimi göstərmək və hakimdə müəyyən üsulla əhval-ruhiyyə yaratmaq lazımdır, ona görə ki, nitqin inandırıcı olması üçün çox vacibdir ki, (xüsusilə məşvərətçi nitqlərdə, daha sonra məhkəmə nitqlərində), natiq müəyyən xarakterli olsun və dinləyicilər başa düşsünlər ki, o, onlara qarşı müəyyən qaydada yanaşır, eləcə də, dinləyicilər ona qarşı müəyyən qaydada rəğbət göstərsinlər. Özünü müəyyən xarakterli insan kimi göstərmək natiq üçün məşvərətçi nitqlər də faydalıdır, dinləyicilərdə müəyyən münasibət yaratmaq isə məhkəmə nitqlərində faydalıdır, ona görə ki, iş sevginin təsiri altında olana, qəzəbin idarə etdiyi adama, hirslənəndə, mülayim əhvallıya eyni cür görünməyəcək, ya tamam müxtəlif, ya da əhəmiyyətinə görə müxtəlif görünəcək. İnsan mühakimə etdiyinə sevgi ilə yanaşanda ona elə gəlir ki, o, ya tamam təqsirsizdir, ya da az təqsirlidir; əgər ona nifrət edirsə, onda ona elə gəlir ki, o, müqəssirdir; insan



onun üçün xoş olan nəyə isə can atanda və ya nəyə isə ümid bəsləyəndə, ona elə gəlir ki, bu olacaq və yaxşı olacaq, biganə və narazı adama isə hər şey tərsinə görünəcək. Danışana qarşı inam yaradan üç səbəb mövcuddur, ona görə ki, qüvvəsinə sübutsuz inandığımız məhz bu qədər şey var – bu şüur, məziyyət və rəğbətdir; insanlar dediklərində və məsləhət verdiklərində səhv edirlər, bunu ya bu səbəblərin cəm halında hamısma görə, ya da onların ayrılıqda birinə görə edirlər, onlar ya öz düşüncəsizliyinə görə, ya da düzgün düşünməyərək, ya da düzgün düşünərək, amma öz mənəvi yaramazhqları nəticəsində düşündüklərini demirlər, ya da, nəhayət, onlar ağıllı və vicdanlıdırlar, rəğbət bəsləmirlər, axı niyə bildiyin halda ən yaxşı məsləhəti verməməyin mümkündür? Bu üç səbəbdən başqa heç biri yoxdur. Beləliklə, əgər dinləyicilərə elə gəlsə ki, natiq bütün bu keyfiyyətlərə malikdir, onlar mütləq ona qarşı inam hiss edəcəklər. İnsanların niyə ağıllı və mənəvi cəhətdən yaxşı görünə bilməsinin səbəbini bilmək üçün məziyyətlər haqqında traktata müraciət etmək lazımdır[1], ona görə ki, eyni bir üsul ilə həm özünü, həm də başqa adamı müəyyən xarakterli insan etmək olar; rəğbət və dostluq haqqında isə ehtiraslar haqqında traktatda danışmaq lazımdır[2]. Ehtiraslar elə şeylərdir ki, onların təsiri altında adamlar öz qərarlarmı dəyişdirir, onlarla razılıq və narazılıq hissləri, məsələn, qəzəb, mərhəmət, qorxu və bütün buna bənzəyən və əks olan hisslər bağlıdır. Onların hər birinə üç nöqteyi-nəzərdən baxmaq lazımdır, məsələn, qəzəb: insanlar hansı vəziyyətdə qəzəblənirlər, adətən kimə qarşı qəzəblənirlər və nəyə görə. Əgər biz bu bəndlərdən hamısını deyil, birini və ya ikisini aydınlaşdırsaq, qəzəbi oyada bilmərik; başqa ehtiraslar haqqında da eynilə belə demək olar. Yuxarıda söz açdığımıza münasibətdə biz ümumi prinsipləri qeyd etmişdik, biz burada da bunu edərək, ehtirasları yuxarıda göstərilmiş üsulla nəzərdən keçirəcəyik.

**2.** *Qəzəbin tərifi. – Etinasızlığın tərifi; onun üç növü. – İnsanların qəzəbləndiyi vəziyyət. İnsanlar kimə və nəyə görə qəzəblənirlər? – Natiq öz məqsədi üçün ehtirasdan necə istifadə etməlidir?*

Qoy qəzəbə (orge) belə tərif verilsin: - qəzəb etinasızlıq etmək lazım olmadığı halda ya bizim özümüzə, ya da bizim malik olduqlarımıza etinasızlıq kimi göstərilənin əvəzinə cəza kimi verilən şeyə narazılıqla qarışıq can atmaqdır. Əgər qəzəb anlayışı belədirsə, onda qəzəblənən insan həmişə mütləq hər hansı bir müəyyən insana qarşı qəzəblənir, məsələn, ümumiyyətlə insana qarşı deyil, Kleona qarşı qəzəblənir və ona görə qəzəblənir ki, bu adam qəzəblənən adama, ya da onun yaxın adamlarından birinə qarşı nə isə edib və ya etmək istəyib; qəzəb həmişə müəyyən məmnunluq hissi ilə bağlıdır, bu cəza vermək ümidi ilə əlaqədardır, belə ki, can atdığın şeyə çatacağını düşünmək xoşdur. Heç kəs ona qeyri-mümkün görünən şeyə can atmır, qəzəblənən adam da ona mümkün kimi görünənə can atır. Buna görə də qəzəb haqqında yaxşı deyilib:

Baldan da şirin olan o, insanın sinəsinə axır
Bundan sonra isə sinədə tonqal kimi tüstülənir.[3]

Bundan bir növ məmnunluq baş verir və bu həm də ona görə baş verir ki, insan qisas fikri ilə yaşayır; bu halda edilən təsəvvür yuxuda görünən təsəvvür kimi məmnunluq verir.

Amma, etinasızlıq bizə dəyərsiz görünənə münasibətdə düşüncənin verdiyi qərardır, ona görə ki, xeyir və şəri və onlarla təmasda olanları biz diqqətəlayiq hesab edirik, onlara tamam aid olmayan və ya çox az olan şeyləri biz tamamilə dəyərsiz hesab edirik. Etinasızlığın üç növü var: nifrət, öz bildiyini etmək və təhqir. Nifrəti göstərən adam elə bununla etinasızlığım da aşkar edir, ona görə ki, insanlar onların



gözündə əhəmiyyətsiz olan şeylərə nifrət edirlər, əhəmiyyətsiz şeylərə isə insanlar məhəl qoymurlar. Öz bildiyini edən yekəbaş adamda da yəqin ki, nifrət büruzə verir, ona görə ki, öz bildiyini etmək başqalarınm arzusuna maneçilik törətməyi özü üçün nəyin isə çatmasına görə deyil, onun başqasına çatmaması üçün maneçilik etməkdir; həm də o, burada özü üçün nə isə almaq məqsədi ilə hərəkət etmədiyinə görə, o, öz rəqibinə qarşı etinasızlıq edir, yəqin ona görə ki, nə özünə qarşı onun ziyan vermək qabiliyyətinə malik olduğunu hesab etmir (əgər belə olsaydı, o, ona etinasızlıq etməzdi, ondan qorxardı) nə də həmin adamın ona müəyyən qədər fayda verəcəyinə inanır (əgər belə olsaydı, o, həmin adamın dostu olmağa çalışardı). Təhqir edən insan da öz etinasızlığını göstərir, ona görə ki, təhqir etmək elə şeyləri etmək və deməkdir ki, onların yönəldiyi adamın xəcalət çəkib utanmasına səbəb olur, həm də bu təhqir olunanı artıq baş verəndən başqa bir şeyə də məruz qoymaq məqsədi ilə deyil, bunu özünün ləzzət almağı məqsədi ilə edir. Eyni şeyə görə eyni şeyi edən adamlar isə təhqir etmir, qisas alırlar. Təhqir edən insanlarda məmnunluq hissi ona görə yaramr ki, onlar, başqalarını təhqir edərkən, bundan öz təsəvvürlərində təhqir olunmuşlardan daha da yüksəyə qalxırlar. Məhz buna görə cavanlar və varlı adamlar asanlıqla təhqir edirlər – onlara elə gəlir ki, təhqir etməklə, daha çox üstünlüyə malik olurlar.

Təhqir həm də başqasının şərəfini alçaltmaq ilə bağlıdır, başqasınm şərəfini alçaldan şəxs həm də etina etmir, ona görə ki, nə yaxşı, nə də pis mənada heç bir dəyəri olmayan, heç bir hörmətə malik deyil. Buna görə də Axil qəzəblə deyirdi:

Böyük Atrid Aqamemnon mükafatı
məndən aldı və mənimsədi
Bununla məni çox pis təhqir etdi.
Yenə də:

Argivlilərin içində Aqamemnon məni elə
Hörmətdən saldı ki,
Elə bil ki, mən yeni köçüb gələnəm ya
Da mənfur yadelli.[4]

Göründüyü kimi, o, məhz buna görə qəzəblənir. İnsanlar özlərinə qarşı hörməti elə adamlardan tələb edirlər ki, mənşə, qüdrət, igidlik sarıdan və ümumiyyətlə bir insanın başqalarından üstün olduğu hər şeydə ondan geridə qalsınlar. Məsələn, necə ki, varlı adam pul sarıdan kasıbdan, mahir natiq isə danışmağı bacarmayandan, əlində hakimiyyəti olan ona tabe olandan və özünü hakimiyyətə layiq hesab edən tabe olmağa layiq olanlardan üstündür. Buna görə də şair deyir:

Hökmdar Kronidin yetişdirməsi olan çarın qəzəbi
ağırdır.
Eləcə də:
Amma, o, qəzəbi aşkarlayana qədər
Qəlbində gizli saxlayır.[5]

Axı onlar məhz öz üstünlüklərinə görə qəzəblənirlər. Bundan başqa, insan elə şəxslər tərəfindən özünə hörmət edilməsini tələb edir ki, onlardan belə xidmət görməkdə özünü haqlı hesab edir; belə adamlar isə onun qulluq göstərdiyi, ya da qulluğu başqasının vasitəsilə, ya da onun yaxınlarınm biri vasitəsilə göstərdiyi, ya da göstərmək istədiyi adamlardır.

Beləliklə, yuxarıda deyilənlərdən artıq aydındır ki, insanlar hansı vəziyyətdə, kimə və nəyə görə qəzəblənirlər. Onlar narazılıq hissi keçirəndə qəzəblənirlər, ona görə ki, narazılıq hiss edən insan nəyə isə can atır. Bu zaman onun hər hansı şeyə, məsələn, susuz adamın susuzluğu yatırmasına, birbaşa əks-təsir göstərməsindən və ya dolayı əks-təsir



göstərməsindən asılı olmayaraq, o, eyni şeyi edir, yəni maneçilik törədir.

Əgər kim isə insana mane olursa, ya da yardım göstərmirsə, ya da nə isə başqa şeylə onun zəhləsini tökürsə, onda, o, bu insanların hamısına qarşı qəzəblənir. Buna görə də, xəstə, ac, müharibə aparan, aşiq olmuş, həsrətli insanlar, ümumiyyətlə nəyin isə həsrətini çəkən və ona çatmaq imkanı olmayan insanlar qəzəbli və əsəbi olurlar, bu, onların belə vəziyyətinə laqeyd münasibət bəsləyən adamlara qarşı daha çox olur, məsələn, necə ki, xəstə onun xəstəliyinə qarşı belə münasibətdə olan adamlara, ac isə aclığa belə münasibət göstərənlərə, döyüşən müharibəyə belə münasibət göstərən adamlara, aşiq sevgiyə belə münasibət göstərən adamlara və eyni ilə başqa adamlara da belə münasibət göstərir: hər kəs öz əsil əzabı ilə hər bir insana qarşı qəzəblənməyə hazırdır. İnsan həm də o zaman qəzəblənir ki, gözlədiyinin əksi olan bir şey olsun, ona görə ki, insanın başına qəfil gələn hadisə onu daha çox dilxor edir, eynilə insanın məhz gözlədiyi şey qəfil baş verəndə də, o, həddindən çox sevinir. Buradan aydın olur ki, insanı hansı şərtlər, hansı vaxt, əhval-ruhiyyədə və hansı yaşda qəzəbə daha çox meylli edir, insanlar harada və necə və nə qədər dərəcədə bu şərtlərdən asılı olur və tez qəzəblənirlər.

Beləliklə, insanların hansı vəziyyətdə asanlıqla qəzəbləndiyini araşdıraq. İnsanlar onları ələ salan, onları biabır edən və onlarla zarafat edənlərə qarşı qəzəblənirlər, ona görə ki, belə insanlar onlara qarşı etinasızlıq göstərirlər. İnsanlar həm də elələrinə qarşı qəzəblənirlər ki, etinasızlıq əlamətləri daşıyan hərəkətləri ilə onlara ziyan vururlar, belə hərəkətlər isə mütləq qisas xarakteri daşımayan və onları törədən insanlara fayda verməyən hərəkətlərdir. Ona görə ki, bu hərəkətlər göründüyü kimi etinasızlıq xatirinə edilir. Biz həm də elə insanlara qəzəblənirik ki, onlar bizim böyük əhəmiyyət verdiyimiz şeylər haqqında pis danışır və onlara alçaq nəzərlə baxırlar, məsələn, öz fəlsəfi məşğələləri ilə fəxr

edən insanlar kim isə onların fəlsəfəsinə belə münasibət bəsləyən zaman qəzəblənirlər, öz xarici görkəmləri ilə (ideai) fəxr edən insanlar onların xarici görkəminə qarşı kimin isə belə münasibət bəslədiyi zaman və buna bənzər başqa hallarda qəzəblənirlər. Əgər biz şübhələnsək ki, ələ salındığımız şey bizdə tamam yoxdur, ya da cüzi dərəcədə var və ya başqalarına elə gəlir ki, bu bizdə heç yoxdur, onda burada biz daha çox qəzəblənirik. Əgər, biz hesab etsək ki, ələ salındığımız şey bizdə artıqlaması ilə var, onda biz rişxəndlərə fikir vermirik. Belə hallarda biz dostlarımıza başqalarından daha çox qəzəblənirik, ona görə ki, onların tərəfindən pislik görməkdənsə, yaxşılığı görməyi daha təbii hesab edirik. Biz həm də adətən bizə qarşı hörmət və ehtiram göstərən adamların bizə başqa cür münasibət göstərməsi zamanı da qəzəblənirik, bizə elə gəlir ki, onların bizdən zəhləsi gedir, yoxsa onlar əvvəlki kimi davranardılar. Biz həm də bizim etdiyimiz yaxşılığa görə əvəzində bir şey görmədiyimiz və əvəzəəvəz verməyən adamlara, eləcə də bizdən aşağı olduqları halda, bizim ziddimizə hərəkət edən adamlara qarşı da qəzəblənirik, göründüyü kimi, belə adamlar bizə nifrət edirlər: bəziləri ona görə ki, bizə özlərindən aşağıda duran adam kimi baxırlar, digərləri belə hesab edirlər ki, onlara yaxşılığı onlardan aşağı səviyyədə olan duran adamlar ediblər. Biz o zaman daha çox qəzəblənirik ki, bizə etinasızlığı tamam miskin olan adamlar etsinlər, ona görə ki, qəzəb bizə etinasızlıq etməyə layiq olmayan adamlar tərəfindən edildiyi zaman yaranır. Bizdən aşağıda duran adamlar məhz bizə qarşı etinasızlıq etməməlidirlər. Biz haqqımızda yaxşı danışmayan və ya bizə qarşı dostcasına rəftar etməyən dostlarımıza qarşı da qəzəblənirik və onlar bizə qarşı əks mövqedə duranda və bizim onlara ehtiyacımız olduğunu hiss etməyəndə biz daha çox qəzəblənirik, məsələn necə ki, Antifontun tragediyasında Pleksipp ona görə Meleaqra[6] qəzəblənirdi ki, hiss etməmək etinasızlıq əlamətidir və qayğısına qaldığımız adamların ehtiyacları bizim diqqətimizdən qaçmamalıdır. Biz həm



də bizim bədbəxtliklərimizə sevinənlərə, bizim fəlakətlərimiz zamanı özlərini ümumiyyətlə yaxşı hiss edən adamlara qarşı qəzəblənirik, ona görə ki, belə münasibət düşmənə, ya da bizə etinasız adama xasdır. Bizim qəzəbimiz həm də elə adamlara qarşı yönəlir ki, onlar bizi dilxor edərək, qətiyyən bunun qayğısına qalmırlar; biz buna görə də bizə pis xəbər gətirənlərə, eləcə də bizim başımıza gələn bəlaları sakitcə seyr edən və ya qulaq asanlara qarşı da qəzəblənirik, ona görə ki, belə insanlar bizə nifrət edən, ya da düşmən olan insanlarla eynidirlər, belə ki, dostlar öz şəxsi bəlalarına baxmayaraq bizim dərdimizə şərik çıxır və hamısı qəm hiss edirlər. Biz həm də elələrinə qarşı qəzəblənirik ki, onlar beş qəbildən olan şəxslərin iştirakında bizə qarşı etinasızlıq etsinlər: bizimlə rəqib olanların, bizim heyran olduğumuzların, heyranlıq predmeti olmaq istədiyimiz şəxslərin, həya etdiyimiz şəxslərin və bizdən həya edən şəxslərin; belə şəxslərin hüzurunda kim isə bizə etinasızlıq edəndə biz daha çox qəzəblənirik. Bundan başqa, biz elələrinə qəzəblənirik ki, onlar, bizim müdafiə etməməyimiz ayıb olan şəxslərə, məsələn, bizim valideynlərimizə, uşaqlarımıza, arvadlarımıza, tabeliyimizdə olan şəxslərə qarşı etinasızlıq etsinlər. Biz həm də bizə təşəkkür etməyənlərə də qarşı qəzəblənirik, ona görə ki, bu halda etinasızlıq ədəb qaydalarına ziddir, biz həm də ciddi danışdığımız zaman istehza edənlərə qarşı da qəzəblənirik, belə ki, istehzanın özündə nə isə nifrətə bənzər bir şey gizlədir. Biz həm də başqalarına yaxşılıq etdiyi halda, bizə yaxşılıq etməyən adamlara qarşı da qəzəblənirik. Ona görə ki, insanı hamıya layiq gördüyünə layiq görməmək, ona etinasızlıq etmək deməkdir. Huşsuzluq da qəzəbə səbəb ola bilər, məsələn, adların unudulması, baxmayaraq ki, bu xırda şeydir. İş ondadır ki, unutqanlıq etinasızlığın əlaməti kimi görünür: o, müəyyən mənada başısoyuqluğun nəticəsidir, başısoyuqluq isə müəyyən mənada etinasızlıqdır.

Beləliklə, biz insanların kimə, hansı vəziyyətdə və hansı səbəblər üzündən qəzəbləndiyini dedik.[7] Aydındır ki, nati-

qin vəzifəsi insanları elə bir hala gətirməkdir ki, bu halda insanlar qəzəblənsinlər və natiq onları inandırmalıdır ki, dinləyicilərin qəzəbləndikləri şeyə rəqiblərin aidiyyəti var və bu rəqiblər məhz qəzəblənməli olduğumuz adamlar kimidir.

3. *"Mərhəmətli olmaq" anlayışı. – İnsanlar kimə və nəyə görə mərhəmətli olurlar? - İnsanlar hansı əhvali-ruhiyyədə mərhəmətli olurlar? Natiq bu ehtirasdan öz məqsədi üçün istifadə etməlidir?*

"Qəzəblənmək" (orgidzesthai) anlayışı "mərhəmətli olmaq" (praynesthai) anlayışına və qəzəb də mərhəmətə (praotēs) əks olduğu üçün, nəzərdən keçirmək lazımdır ki, insanlar hansı vəziyyətdə olanda mərhəmətli olurlar, kimə qarşı mərhəmətli olurlar və nəyin nəticəsində mərhəmətli olurlar. "Rəhmə gəlmək" anlayışını qəzəbin dayandırılması və sakitləşməsi kimi müəyyən edək. Əgər insanlar onlara etinasızlıq edən insanlara qarşı qəzəblənirlərsə (etinasızlıq isə bir növ iradi bir şeydir) onda aydındır ki, insanlar belə bir şey etməyənlərə və ya bunu qeyri-iradi edənlər və ya belə görünənlərə və həm də elədiyinin əksini eləmək istəyənlərə, həm də bizə qarşı elə bil özünə qarşı münasibət bəsləyən adamlara – ona görə ki, heç kəs haqqında fikirləşmirlər ki, o, özü-özünə qarşı etinasızlıq edir – eləcə də etiraf edənlərə və peşman olanlara (bu halda insanlar elədikləri üçün peşmançılığı bir növ mükafat kimi alaraq qəzəblərini soyudurlar) qarşı mərhəmətli olurlar. Buna sübutu qulların cəzalandırıldığı zaman tapmaq olar: biz ən çox bizə etiraz edən və öz təqsirini boynuna almayanları cəzalandırırıq, özlərinin cəzaya layiq olduqlarını boyun alanlara qarşı isə daha qəzəblənirik. Bunun səbəbi odur ki, aşkar olam inkar etmək həyasızlıqdır, həyasızlıq isə etinasızlıq və nifrətdir, ona görə ki, biz çox nifrət etdiyimizdən utanmırıq. Biz həm də elələrinə qarşı mərhəmətli oluruq ki, o, özünü bizə münasibətdə əksiltsin və bizə zidd olmasın. Hesab edirik ki, bu insanlar



özlərinin bizdən daha zəif olduqlarım etiraf edirlər, daha zəif etinasızlığa meyl edə bilməz. Özlərini kiçildən adamlara qarşı qəzəbin sönməsini itlərin misalmda da görə bilərik, onlar heç vaxt yerə oturanları dişləmirlər.[8] Biz həm də, biz ciddi olan zaman bizə ciddi yanaşanlara qarşı münasibətdə mərhəmətli oluruq: bizə elə gəlir ki, belə insanlar bizim qayğımıza qalır və bizə qarşı etinasız yanaşmırlar. Kimlərin ki, bizim üçün etdikləri xidmətinin əhəmiyyəti onlarm bizim qarşımızdakı günahmdan çoxdur və kimlər ki, bizi dilə tutur və bizə yalvarır, biz onlara qarşı mərhəmətli oluruq, ona görə ki, belə insanlar bizdən aşağıdır. Biz həm də elə insanlara qarşı mərhəmətliyik ki, onlar heç kimə, ya da yaxşı adamların heç birinə, ya da bizim kimi olan adamların heç birinə qarşı təkəbbürlə, istehza və etinasızlıqla yanaşmırlar. Ümumiyyətlə, mərhəmətli əhval-ruhiyyənin yaranmasma səbəb olan şeyi biz buna əks olan anlayışdan götürməliyik. Biz qorxduğumuz və ya utandığımız adamlara nə qədər ki, bu hissləri hiss edirik, qəzəblənə bilmirik, ona görə ki, eyni zamanda həm qorxmaq, həm də qəzəblənmək olmaz. Qəzəbin təsiri altında nə isə etmiş adamlara da biz ya heç qəzəblənmirik, ya da az qəzəblənirik, ona görə ki, təsəvvürümüzə görə onlar bunu etinasızlıq nəticəsində etməyiblər. Çünki, heç kəs qəzəblənən zaman etinasızlıq hiss etmir: etinasızlığa dilxorluq aid deyil, amma qəzəb dilxorluqla birləşib. Bizə hörmətlə yanaşanlara qarşı da biz mərhəmətli münasibət bəsləyirik.

Aydındır ki, vəziyyəti qəzəbə əks olanlar mərhəmətlidir, belə vəziyyət isə zarafatı, gülüşü, bayramı, səadəti, uğuru, gözü toxluğu, ümumiyyətlə, dərd-qəmsiz vəziyyəti, təkəbbürsüz məmnunluğu və sadə arzuları müşayiət edir. Mərhəmətli əhval-ruhiyyə həm də elə hallarda meydana çıxır ki, bu zaman qəzəb köhnəlir və sakitləşir, ona görə ki, zaman qəzəbi soyudur. Hər hansı bir şəxsə daha əvvəllər verilmiş cəza da başqa bir şəxsə qarşı yönəldilmiş daha güclü qəzəbi eyni cür yumşaldır. Məhz buna görə də xalq Filokra-

ta[9] qəzəblənən zaman o, ona verilmiş suallara ağıllı cavablar vermişdir. Ondan soruşmuşdular: "Nəyə görə sən özünü təmizə çıxarmırsan?" Cavab: - "Hələ vaxtı deyil." - "Bəs vaxtı haçan olacaq?" - "Nə vaxt görsəm ki, başqa adama böhtan atırlar". Axı, insanlar öz qəzəblərini başqa birinin üstünə tökəndə yumşalırlar, məhz Erqofilin başına belə hadisə gəlmişdi: baxmayaraq ki, insanlar Kallisfendənsə[10] ona qarşı çox qəzəbli idilər, məhz ona bəraət verdilər, ona görə ki, bir gün əvvəl Kallisfeni ölümə məhkum etmişdilər. Yazığımız gələnlərə, həm də böyük fəlakətlərə məruz qalanlara qarşı da mərhəmətli oluruq, ona görə ki, bu fəlakətlər bizim onlara qəzəb nəticəsində edəcəyimizdən böyükdür; bu halda biz bir növ məmnun qaldığımızı fikirləşirik. Biz həm də o vaxt mərhəmətli oluruq ki, öz fikrimizə görə haqlı deyilik və ədalətli olaraq dözürük, ona görə ki, qəzəb heç vaxt ədalətli olana qarşı yönəlmir, əlimizdəki halda, bizim fikrimizcə, biz ədalətə zidd olaraq əziyyət çəkmirik, qəzəb isə, dediyimiz kimi, məhz bunun nəticəsində yaranır. Bunu nəzərə alaraq, iş ilə cəza verməzdən əvvəl söz ilə cəza vermək lazımdır; belə halda, hətta cəzalandırılan qullar da az hiddətlənirlər. Biz fikirləşəndə ki, cəza alan şəxs, bu cəzanı məhz bizə görə və məhz bizə etdiklərinin əvəzi olaraq çəkdiyni bilməyəcək, onda bu halda qəzəbimiz yumşalır, ona görə ki, qəzəb hər hansı bir müəyyən şəxsə qarşı yönəlmiş olur, bu da ki, qəzəbin tərifindən aydındır. Buna görə də şair ədalətli olaraq demişdir:

Şəhərləri dağıdan Odissey odur.[11]

Elə bil ki, onun rəqibi nəyə görə və kim tərəfindən cəzalandırıldığını hiss edənə qədər o, özünü intiqamı alınmış adam kimi hiss etməyəcəkdi. Beləliklə, biz qəzəbimizi hiss etməyənlərə, həm də ölülərə qarşı qəzəblənmirik, bu zaman onu nəzərə alırıq ki, onlar ən dəhşətli fəlakətə məruz qalıblar və ağrı hiss etməyəcəklər, eləcə də bizim qəzəbi də hiss



etməyəcəklər, halbuki, qəzəblənənlər məhz bunu istəyirlər. Buna görə də, şair ölən dostuna görə qəzəblənən Axilli sakitləşdirmək üçün Hektor haqqında yaxşı demişdir:

Axill cansız cəsədi öz qəzəbi ilə təhqir edir.[12]

Aydındır ki, öz dinləyicilərini yumşaltmaq istəyən natiqlər öz nitqlərində bu ümumi müddəalara əsaslanaraq çıxış etməlidirlər; bu yolla onlar dinləyicilərdə lazımi əhvali-ruhiyyə yarada bilərlər, dinləyiciləri qəzəbləndirən şəxsləri isə ya dəhşətli adam kimi, ya hörmətə layiq adam kimi, ya daha əvvəl müəyyən xidmət göstərmiş adam kimi, ya öz iradəsinə zidd hərəkət etmiş adam kimi, ya da öz hərəkətindən çox peşman olmuş adam kimi təqdim edə bilərlər.

4. *"Sevmək" anlayışının və "dost" anlayışının tərifi. – İnsanlar kimi və nəyə görə sevirlər? – Dostluğun növləri və dostluğun xidmətə münasibəti. – Düşmənçilik və nifrət anlayışı, onların qəzəbə münasibəti. – Natiq bu anlayışlardan öz məqsədi üçün necə istifadə edə bilər?*

İnsanlar kimi sevirlər və kimə nifrət edirlər və niyə? - Bu barədə biz dostluq (philia) və sevgi (philelin) anlayışlarını müəyyən edəndən sonra danışacağıq. Qoy sevmək insanın nemət hesab etdiyi şeyləri özü üçün deyil, kimin üçün isə arzulaması və imkan daxilində bu nemətləri ona verməyə səy göstərməsi hesab olunsun. Dost isə sevən və qarşılıqlı olaraq sevilən adamdır. Bir-birinə qarşı belə münasibətdə olduqlarını hiss edən insanlar özlərini dost hesab edirlər. Madam ki, bu müddəalar müəyyən edilib, onlar bizimlə bir yerdə sevincimizə sevinən və qəmimizə qəmlənən və bunu nəyə görə isə deyil, bizim özümüzə görə edən adam labüd olaraq dost

hesab olunacaq. Hamı arzuları həyata keçəndə sevinir və işlər tərsinə olanda isə qəmlənirlər, buna görə də qəm və sevinc arzuların əlaməti hesab olunur. eyni nemət və bəlalara malik adamlar və eyni adamlarla dost və eyni adamlarla düşmən olan adamlar da dostdurlar, Ona görə ki, belə insanlar labüd olaraq eyni istəklərə malikdirlər. Beləliklə, özü üçün arzuladığını başqası üçün arzulayan adam həmin adamın dostu kimi görünür.

Biz həm də ya özümüzə, ya da həyatmda iştirak etdiyimizlərə yaxşılıq edənləri də sevirik. – Əgər böyük xeyirxahlıq göstərilibsə və bu həvəslə edilibsə, ya da hər hansı şəraitdə bizə görə belə hərəkət edilibsə; biz həm də bizə yaxşıhq edəcəklərindən şübhələndiyimiz adamları da sevirik. Biz həm də dostlarımızın dostlarını da və bizim sevdiyimiz adamları sevən adamları, eləcə də bizim sevdiyimiz adamların sevdiyi adamları da sevirik.

Biz həm də bizim düşmən olduqlarımıza düşmən olan və nifrət etdiklərimizə nifrət edən və bizə nifrət edənlərin nifrət etdiyi adamları sevirik. Bütün belə adamlar üçün nemət haqqmda olan təsəvvürlər bizimkilər ilə eynidir, ona görə də, onlar bizim üçün nemət olanı arzulayırlar, bu isə dediyimiz kimi dostluğun xüsusiyyətidir.

Biz həm də pul cəhətdən, ya da təhlükəsizlik cəhətindən kömək etməyə hazır olan insanları sevirik; buna görə də əliaçıq, mərd və ədalətli adamlar belə hörmətə layiq olurlar, başqalarından asılı olmayaraq yaşayan adamlar məhz belə adam sayılırlar, əllərinin zəhməti ilə yaşayan və onların içində xüsusi olaraq öz çörəklərini torpağın becərilməsi və başqa sənətlərlə qazanan adamlar da belə sayılırlar. Biz həm də sadə adamları sevirik, ona görə ki, onlar ədalətsiz deyil, sakit adamları da məhz bu səbəblər üzündən sevirik. Biz həm də dost olmaq istədiyimiz adamları da sevirik, əgər onlar da bizim hiss etdiyimiz kimi bunu istəyirlərsə, onların sırasına öz məziyyətləri ilə seçilən, bütün adamlar arasmda, ya da yaxşı adamlar arasında, ya da hörmət etdiyimiz adamlar



arasında, ya da bizə hörmətlə yanaşan adamlar arasında yaxşı ad-san qazanmış adamlar daxildir.

Biz həm də elələrini sevirik ki, onlarla yaşamaq və vaxt keçirmək xoş olsun: nəzakətli, başqalarının səhvlərini üzə vurmayan, mübahisə etməyi və dalaşmağı xoşlamayan, (çünki bütün bu qəbildən olan adamlar döyüşməyi sevirlər, madam ki, insanlar döyüşürlər, onda təsəvvür etmək olar ki, onların əks istəkləri nədir) məhz belə adamlardır.

Biz həm də zarafat etməyi bacaran və yerini bilənləri də sevirik, ona görə ki, zarafatın yerini bilən və duzlu zarafat etməyi bacaran adamların hər ikisi öz yaxınlarma eyni məmnunluğu verirlər. Biz həm də bizdə olan yaxşı keyfiyyətləri, xüsusilə də bu keyfiyyətləri itirməyə qorxduğumuz zaman tərifləyən adamları sevirik. Öz xarici görünüşündə, geymində və özünün bütün həyatı boyu təmizkar və səliqəli olan adamlar da, bizim səhvlərimizi və bizə göstərilmiş yaxşılıqları başımıza qaxmağı vərdiş etməyən adamlar (çünki, başa qaxan adamlar ifşa edəndirlər) da sevilirlər. Biz həm də kinsiz, inciklikləri yadda saxlamayan və tez barışan adamları da sevirik, belə hesab edirik ki, onlar başqalarına qarşı necədirlərsə, bizə qarşı da elə olarlar, biz həm də acıdil olmayan adamları, bizə yaxın adamların və bizim özümüzün pis keyfiyyətlərinə deyil, yaxşı keyfiyyətlərinə diqqət verən adamları sevirik, çünki ancaq yaxşı adam belə edir. Biz həm də elə adamları sevirik ki, biz hirslənəndə və ya məşğul olanda bizimlə mübahisə etməsin, çünki, "belə adamlar toqquşmalara meylli deyildir. biz həm də elələrini sevirik ki, bizə müəyyən qədər diqqət versinlər, məsələn, bizə hörmət edən, ya da bizi ciddi adam hesab edənləri, ya da bizim üçün sevinənləri (onların belə hərəkətləri bizim ciddi və ya xoşagəlimli görünmək istədiyimiz xüsusi vaxtlarda daha dəyərlidir).

Biz həm də bizə uyğun olanları, bizimlə eyni şeylə məşğul olanları da sevirik, amma o şərtlə ki, bu adamlar bizi təngə gətirməsinlər və çörəklərini də bizimlə eyni şeydən çı-

xartmasınlar, çünki belə olduqda "dulusçu dulusçunun dalınca deyinir"[13]. Biz həm də elələrini sevirik ki, bizim arzuladığımız şeyi arzulasınlar və hər ikimizin bu arzuya çatmağa imkanı olsun, əgər bu imkan yoxdursa, yenə də eyni şey olacaq. Biz həm də elə adamları sevirik ki, cəmiyyətdəki reputasiyamız onlardan asılı olsa da, bu münasibətdən utanmayaq və biz, həm də doğrudan da utanmalı olan şeylərə görə utandığımız adamları da sevirik. Biz həm də rəqabət apardığımız və paxıllıq deyil, yarış obyekti olduğumuz adamları da sevirik və onlarla dost olmaq istəyirik.

Biz həm də nə isə yaxşı bir şeydə kömək etdiyimiz adamları da sevirik, əlbəttə ki, bundan bizim özümüz üçün böyük zərərin olmaması şərti ilə. Biz həm də elələrini sevirik ki, onlar həm üzdə, həm də arxada bizə eyni sevgi ilə yanaşsınlar, buna görə də hamı ölülərə belə münasibət bəsləyənləri sevir. Ümumiyyətlə, biz öz dostlarına çox bağlı və onları atmayan adamları da sevirik, çünki, yaxşı adamlar arasında məhz yaxşı sevə bilənlər daha çox sevilirlər. Biz həm də bizim qarşımızda ikiüzlülük etməyən adamları da sevirik, məsələn: öz çatışmamazlıqları haqqında danışan adamları, ona görə ki, dediyimiz kimi, biz reputasiyamızın asılı ola biləcəyi şeylərə görə dostlarımızdan utanmırıq; beləliklə, əgər belə hallarda adam utanırsa, demək o sevmir, utanmayan adam isə sevənə oxşayır. Biz həm də bizdə qorxu hissi yaratmayan və güvəndiyimiz adamları da sevirik, ona görə ki, heç kəs qorxduğu adamı sevmir. Sevginin növləri – yoldaşlıq, qohumluq, əqrəbalıq və s. Əgər xidmət xahişi gözləmədən edilibsə və onu etdikdən sonra sərgiyə qoyulmayıbsa (çünki, belə olduqda elə gəlir ki, bu xidmət başqabir şeyə görə deyil, adamın özünə görə edilib) belə xidmət dostluq yaradır.[14]

Düşmənçilik və nifrətə gəldikdə isə aydındır ki, onları əks anlayışların köməyi ilə nəzərdən keçirmək lazımdır. Düşmənçiliyi qəzəb, təhqir və böhtan yaradır. Qəzəb bilavasitə özümüzə aid olan şeylərdən yaranır, düşmənçilik isə bunsuz da yarana bilər. Ona görə ki, madam biz həmin in-



sam bu cür hesab edirik, biz ona nifrət edirik. Qəzəb həmişə ayrı-ayrı obyektlərə qarşı yönəldilir, məsələn, Kallinin, ya da Sokratın əleyhinə, nifrət isə bütöv qəbildən olan obyektlərə qarşı yönəldilir, məsələn, hamı oğruya, ya da böhtançıya nifrət edir. Qəzəb zamanla müalicə olunur, nifrət isə sağalmazdır. Birincisi, dilxorluq yaratmaq üçün edilən səydir, ikincisi isə pislik etmək üçün edilən səydir, çünki, qəzəblənən adam öz qəzəbini hiss etdirməyə çalışır, nifrət edən adam üçün bunun heç bir fərqi yoxdur. Dilxorluğu yaradan hər şey özünü büruzə verir, amma, böyük pislik, ədalətsizlik və ağılsızlıq özünü hiss etdirmir, belə ki, nöqsanın olması bizi qətiyyən narahat etmir. Qəzəb dilxorluqla birləşib, nifrət isə onunla birləşməyib: qəzəblənən insan dilxor olur, nifrət edən insan isə bunu hiss etmir; birincisi, əgər nifrət etdiyi adamın payına çoxlu xoşagəlməz şeylər düşərsə, yumşala bilər, ikincisi isə heç bir halda yumşalmayacaq, ona görə ki, birincisi arzulayır ki, qəzəbləndiyi şəxs nəyə görə isə zərər çəksin, ikincisi isə arzulayır ki, onun düşməni yerli-dibli olmasın.

Yuxarıda deyilənlərdən aydın olur ki, müəyyən adamlar, əgər doğrudan da dost və düşməndirlərsə, bunu sübut etmək olar, həm də onlar dost və ya düşmən deyildirlərsə də, onları belə göstərmək olar, ancaq sözdə olan dostluğu və ya düşmənçiliyi də məhv etmək olar, eləcə də qəzəb və düşmənçiliyin təsiri altında tərəddüd edənləri də istənilən sənətə çəkmək olar.

**5.** *Qorxunun tərifi. – İnsanlar nədən qorxurlar? – "Dəhşətli olan" anlayışına nə uyğun gəlir və niyə? – hansı əhval-ruhiyyədə insanlar qorxu keçirirlər? – Cəsarət anlayışı və onun tərifi. – İnsanlar nə vaxt və niyə cəsarətli olurlar?*

İnsanların nədən və kimdən və hansı əhval-ruhiyyədə qorxduğu aşağıda göstərilənlərdən aydın olacaq. Qoy qorxu

(phobos) bizi məhv edə biləcək və ya yaranan xoşagəlməz hiss və ya həyəcan olsun: axı insanlar heç də bütün pisliklərdən qorxmurlar; məsələn, ədalətsiz və tənbəl olmaqdan qorxmurlar, ancaq elələrindən qorxurlar ki, onlar əzab, güclü dilxorluq verə bilərlər və ya məhv edə bilərlər, özü də bu o zaman olur ki, bu bəlalar heç də uzaqdan hədələmir, elə yaxındadırlar ki, qaçılmaz görünürlər. Uzaqda olan bəlalardan insanlar o qədər də qorxmurlar. Hamı bilir ki, ölüm qaçılmazdır, amma o, yaxında olmadığı üçün heç kəs onun haqqında fikirləşmir.[15]

Əgər qorxu bundan ibarətdirsə, onda bizim təsəvvürümüzdə dağıtmağa və zərər vurmağa, böyük əzablara səbəb olmağa imkanı olan hər şey labüd olaraq qorxulu olacaq. Buna görə də belə şeylərin, hətta əlamətləri də qorxuludur, ona görə ki, bu zaman qorxulu olanlar çox yaxın kimi görünür. Nə isə qorxulu şeyin yaxınlıqda olması təhlükə adlanır; hər hansı bir pislik etmək imkanında olan insanların düşmənçiliyi və qəzəbi belədir: aydındır ki, onlar belə halda pislik etməyi elə arzulayırlar ki, demək olar ki, onu həyata keçirməyə yaxın olurlar. Qüvvəyə malik ədalətsizlik də belədir, ona görə ki, ədalətsiz insan can atdığı şeyə görə ədalətsizdir. Təhqir olunmuş məziyyət də qüvvəyə malik olanda belə olur: aydındır ki, madam o, təhqir olunub, onda, o, həmişə qisas almağa can atır, hazırkı halda isə o bunu edə bilər. Bizə qarşı nə isə pis bir şey etməyə imkanı olan adamların qorxusu da belədir, ona görə ki, belə adamlar da bizə qarşı hər hansı bir pislik etməyə hazır qalmağa məcburdurlar. Bir çox insanlar mənfəət üzündən pis və zəif iradəli təhlükə anında isə qorxaq olduqlarına görə, onda ümumiyyətlə başqa adamın asılılığında olmaq qorxuludur, hər hansı bir dəhşətli iş görmüş adam üçün onun bu işindən xəbərdar olan insanlar ona görə qorxuludurlar ki, onu ələ verə bilərlər, ya da tərk edə bilərlər. İncidə bilən adamlar da incidilə bilən adamlar üçün qorxuludur, ona görə ki, əksər insanlar imkan olan kimi incidirlər. İncidilmiş adamlar, ya da



özlərini belə hesab edənlər də qorxuludur, ona görə ki, belə insanlar həmişə əlverişli anı gözləyirlər. Madam incidənlərin gücü var, onda onlar da qorxuludur, ona görə ki, onlar intiqamdan qorxurlar, belə şey isə dediyimiz kimi qorxuludur.

Bizim əldə etmək istədiyimiz hər şeyi əldə etmək istəyən rəqib, əgər həmin şey hər ikimizə çatmasa, qorxuludur, ona görə ki, rəqiblərlə daim mübarizə aparılır. Bizim üçün elə adamlar qorxuludur ki, onlar bizdən daha güclü adamlar üçün də qorxulu olsunlar və həm də onlara zərər vura bilsinlər. Elə həmin səbəb üzündən də, bizdən daha güclü adamların qorxduğu adamlar, eləcə də bizdən daha güclü adamları məhv etmiş adamlar da qorxuludur. Bizdən zəif adamlara hücum edənlər də qorxuludur: onlar bizim üçün ya bu an, ya da gücləndikcə qorxuludurlar.

Bizim tərəfimizdən incidilmiş adamların, bizim düşmənlərin və rəqiblərin içindən bizim üçün qorxulu olanlar coşqun, ürəyiaçıq olanlar deyil, sakit, kinayəli və məkrli olanlardır, ona görə ki, onların nə vaxt qisas alacaqlarına yaxın olduqları nəzərə çarpmır, buna görə də heç vaxt onlarm bu işə uzaq və ya yaxm olduğundan baş açmaq olmur.

Səhv edənin səhvini düzəldə bilməməsi, bu səhvin düzəldilməsinin ya tamam mümkün olmaması, ya da bizdən deyil, bizim düşmənlərimizdən asılı olması kimi bütün hallar da qorxulu və bir daha qorxuludur. Köməyin göstərilə bilməməsi və ya çox çətin olması da qorxuludur. Ümumiyyətlə desək, başqa adamlarda baş vermiş və ya baş verə biləcək, bizdə acıma hissi yaradan şeylərin hamısı qorxuludur.

Demək olar ki, qorxulu olan və bizim qorxduğumuz şeylərdən əsas olanları bunlardır.

İndi isə insanların hansı vəziyyətdə olarkən qorxu keçirdikləri haqqmda danışaq. Əgər qorxu həmişə hər hansı bir əzabın gözlənilməsi ilə bağlıdırsa və bu bizi öldürə də bilərsə və biz bunu hökmən keçirməliyiksə, onda belə əzabı çəkməyəcəklərindən əmin olan insanların heç birinin qorxu çəkməyəcəyi aydmdır: onlar nə düşündükləri kimi başlarına

gəlməyəcəklərdən, nə onların fikrincə, onları əzab çəkməyə məcbur edə bilməyəcək insanlardan, nə də onlarm fikrinə görə onları hədələməyən əzablardan qorxmurlar.

Buradan belə nəticə çıxır ki, elə adamlar qorxu çəkir ki, onlar zərər çəkəcəklərini düşünür, həm də hansı isə adamlardan və hansı isə şeylərdən və hansı isə zamanda qorxurlar. Elə insanlar özlərini əzab-əziyyət üçün əlçatmaz hesab edirlər ki, həqiqətən və ya həqiqi kimi görünən dərəcədə əlverişli şəraitin yüksək nöqtəsində olsunlar (bu zaman onlar məğrur, etinasız və cəsarətli olurlar; var-dövlət, fiziki qüvvə, dostlarm çoxluğu və hakimiyyət onları belə hala salır), eləcə də artıq bütün mümkün bədbəxtliklərin hamısından keçib getdiklərini hesab edən adamlar və həm də buna görə gələcəyə münasibətdə bir növ döyülməkdən yarımcan olmuş adamlar kimi keyimiş adamlar da belə hesab edirlər.

Qorxu keçirmək üçün insanın həyəcanını keçirdiyi şeyin xilası üçün bir qədər ümidi olmalıdır; buna sübut kimi onu göstərmək olar ki, qorxu insanları düşünməyə məcbur edir, ümidsiz olan şey haqqında isə heç kəs düşünmür. Buna görə də, natiq öz dinləyicilərini məhz belə vəziyyətə gətirməlidir ki, natiqə sərfəli olan anda onlar qorxu keçirsinlər; o, dinləyiciləri əzab-əziyyətə məruz qala biləcək adamlar kimi təsvir etməlidir, bunun üçün o, dinləyicilərin diqqətini ona cəlb etməlidir ki, onlardan daha qüdrətli insanlar əzablara məruz qalıblar, onlar kimi insanlar isə elə adamlardan və elə şeylərdə və elə hallarda əziyyət çəkiblər və ya çəkirlər ki, bunu heç vaxt gözləmirdilər.

Madam qorxunun, qorxulu şeylərin nə olduğu, eləcə də insanlarm hansı vəziyyətdə qorxu[16] çəkdiyi aydındır, onda cəsarətli olmağın nə demək olduğu, insanların nəyə qarşı cəsarətli olması və hansı əhval-ruhiyyədə onlarm cəsarətli olması da aydm olacaq, ona görə ki, cəsarət qorxuya əksdir və böyük cəsarət isə qorxulu olana əksdir. Belə olduqda cəsarət ümiddir, həm də bu zaman qurtuluşun çox yaxın olduğu, bütün qorxulu olanların isə uzaq və ya qəti mövcud olmayan şey olduğu təsəvvür olunur. Cəsarətli olmaq bütün qorxulu olanları uzaq və cəsarət verən bütün şeylərin isə yaxın olduğunu hesab etmək deməkdir. Cəsarət həm də o halda meydana çıxır ki, o zaman nəyi isə düzəltmək və yardım etmək üçün çoxlu üsullar olsun və ya üsullar əhəmiyyətli olsun, ya da həm o, həm də bu bir yerdə olsun. Biz özümüzü onda cəsarətli hiss edirik ki, heç vaxt ədalətsizliyə məruz qalmayaq və özümüz də heç vaxt ədalətsiz hərəkət etməyək, rəqiblərimiz ya heç olmasm, ya da gücsüz olsunlar, ya da gücləri olsa da bizə dostcasına münasibət bəsləsinlər, ona görə ki, əvvəllər ya özləri bizə yaxşılıq etmiş olsunlar, ya da özləri bizdən yaxşılıq görmüş olsunlar və maraqları bizimkilərlə eyni olan insanlar çoxluq təşkil etsin, ya da qüvvəcə qalanlardan üstün olsun və ya bu hər iki hal bir yerdə olsun. Cəsur əhval-ruhiyyə insanlarda o hallarda yaranır ki, o zaman onlar heç vaxt uğursuzluğa düçar olmadıqlarmı, ya da bir çox dəfə dəhşətli vəziyyətlərə düşsələr də, xoşbəxt şəkildə onlardan çıxdıqlarını dərk etsinlər. Ümumiyyətlə, insanlar təhlükələrə iki səbəbdən birinə görə soyuq yanaşırlar: onu sınaqdan keçirmədiklərinə görə və necə kömək etmək lazım olduğunu bildiklərinə görə. Dəniz səyahətləri zamanı tufan görməmiş insanlar və öz təcrübələrinə görə xilas üçün vasitələrdən xəbəri olan insanlar gözlənilən təhlükələrə belə baxırlar. Biz özümüz də elə hallarda cəsarətli oluruq ki, məlum şey bizim kimilər üçün və ya bizdən daha zəiflər üçün və özümüzü onlardan qüvvəcə üstün hesab etdiyimiz adamlar üçün qorxulu olmasın, o halda belə hesab edirik ki, biz onların özlərinə və ya onlardan güclü olanlar, ya da onlara uyğun insanlara üstün gəlmiş olaq). Biz həm də o vaxt cəsarətli oluruq ki, o vaxt sahib olması insanları qorxulu edən vasitələrin həm kəmiyyəti, həm də keyfiyyəti cəhətdən biz üstün olaq (onlarm sırasına kifayət qədər var-dövlət, fiziki qüvvə, güclü dostlar, ölkənin möhkəm müdafiə olunması, mübarizə üçün bütün və ya ən vacib üsullara malik olmaq

daxildir). Biz həm də o halda cəsarətli oluruq ki, keçmişdə heç kimi incitməyəydik, ya da az adam incidəydik, ya da qorxmadığımız adamları incidəydik. Biz həm də ümumiyyətlə tanrılar bizə hamilik edən zaman cəsarətli oluruq və bu bir çox şeydə, eləcə də əlamətlərdə və orakulların fallarında ifadə olunur: qəzəb cəsarətlə birləşir, bizim haqsız çıxarılmağımız və incidilməyimiz haqqında düşüncəmiz qəzəbi oyadır; tanrıları isə biz incidilmişlərin köməkçisi kimi təsəvvür edirik. Biz həm də o zaman cəsarətli oluruq ki, özümüz hücum edən zaman nə indi, nə də sonra heç bir müvəffəqiyyətsizliyə uğramayacağımızı və ya əksinə, həmişə uğur qazanacağımızı hesab edək.

**6.** *Həyanın tərifi. – Utanılacaq şey nədir və nəyə görə utanılmalıdır? - İnsanlar kimdən və nəyə görə utanırlar? – İnsanlar hansı vəziyyətdə utanırlar?*

Beləliklə, biz nəyin qorxu və nəyin cəsarət yaratması haqqında danışdıq. Bundan sonra danışacaqlarımızdan isə bizim nədən utandığımız və nədən, kimin qarşısında və hansı vəziyyətdə həya (aischynē) hiss etmədiyiniz aydm olacaq. Qoy həya indiki, keçmiş və gələcək pisliklərin – nəticəsi olan şərəfsizlik üzündən çəkilən əzab və ya pərtlik olsun, həyasızlıq isə eyni şeyə müəyyən mənada nifrət və laqeydlikdir. Əgər həya bizim onu müəyyən etdiyimiz kimidirsə, onda insan ona və ya onun diqqət verdiyi adamları utanmalı kimi görünən, bütün pisliklərdən mütləq utanmalıdır. Birincisi, pis mənəvi keyfiyyətlərdən meydana çıxan bütün hərəkətlər belədir. Məsələn, qalxanı atmaq və ya döyüş meydanından qaçmaq, ona görə ki, bu qorxaqlığın nəticəsidir; etibar olunmuş əmanəti mənimsəmək, ona görə ki, bu ədalətsizlikdən irəli gəlir; lazım olmayan adamlar ilə lazım olmayan yerdə və lazım olmayan vaxt yaxmlaşmaq, ona görə ki, bu pozqunluqdan irəli gəlir. Əhəmiyyətsiz şeylərdən, kasıblar və ölülər kimi müdafiəsizlərdən mənfəət ummaq da utanmalı



olan şeydir, "ölünü də soymaq" məsələsi buradan yaranıb, ona görə ki, bu rüsvayçı mənfəətpərəstlik və xəsislik nəticəsində meydana çıxır. Pul ilə yardım etmək imkam olduğu halda yardım etməmək, ya da imkan olduğundan az yardım etmək, eləcə də bizdən daha az imkanlı olan adamlardan yardım almaq, özü borc istəmək həddində olan adamlardan borc almaq və həmin adam borcunu geri istəyəcəyi zaman yenə ondan borc istəmək və göründüyü kimi bizdən borc istəməyə gələndən əksinə borc istəmək və gözümüz düşən şeyi bizə versinlər deyə tərifləmək və məqsədimizə çatmasaq da tərifi davam etdirmək – bütün bunlar tamahkarlıq əlaməti olaraq utanılacaq şeylərdir.

İnsanları onların üzünə tərifləmək yaltaqlıq əlamətidir; yaxşı olanı həddindən çox tərifləmək və pis olanı isə çox malalamaq, insanın dərdi üçün onun öz yanında həddindən çox acımaq və bütün belə olan şeylər utanılacaq şeylərdir, ona görə ki, hamısı yaltaqlıq əlamətidir. Utamiacaq şeylərə həm də, bizdən daha qoca və zərif insanların və bizdən yaxşı vəziyyətdə olan insanların və ya ümumiyyətlə daha zəif insanlarm gördüyü işlərdən qaçmaq da aiddir, ona görə ki, bütün bunlar ərköyünlük və çətinliyə dözməmək əlamətidir. Başqasından kömək almaq və tez-tez almaq, eləcə də etdiyin köməyi başa qaxmaq da utanılacaq şeydir, ona görə ki, alçaqlıq əlamətidir. Daim özündən danışmaq, özünü gözə soxmaq və özgə malını özünkü kimi qələmə vermək də utanılacaq şeylərdir, ona görə ki, bütün bunlar lovğalıq əlamətidir. Buraya həm də başqa mənfi mənəvi keyfiyyətlərdən irəli gələn, onların əlaməti olan və onlara oxşayan hər şey aiddir, ona görə ki, bütün bunlar rüsvayçı və abırsızdır.

Bundan başqa hamının, ya da bütün bizə bərabər insanların, ya da onlarm çox hissəsinin (bərabər deyəndə mən eyni qəbilədən olanları, həmvətənləri, həmyaşıdları, ümumiyyətlə bizimlə bərabər şəraitdə olan hamını nəzərdə tuturam) malik olduğu gözəl keyfiyyətlərə qəti malik olmamaq rüsvayçılıqdır; hər halda, məsələn, onlarm səviyyəsində təh-

silli olmamaq, eləcə də buna bənzər başqa keyfiyyətlərə malik olmamaq da eyibdir. Bütün bunlar o zaman daha böyük eyib olur ki, bu nöqsan insanın öz günahı ucbatından olsun, əgər, o, onunla əlaqədar baş verənlərin, baş vermişlərin və baş verəcəklərin hansında isə özü təqsirkardırsa, onda bu birbaşa onun mənəvi cəhətdən naqisliyindən irəli gəlir.

İkincisi, utanmaq hissi həm də şərəfsizlik və rüsvayçılığa aparan bir şeyi insanların məhz keçirmiş olduqları, keçirdikləri və keçirəcəkləri zaman başqa insanlardan çəkdiklərinin nəticəsində yaranır, məsələn, nə vaxt ki, insanlar öz bədənləri ilə xidmət göstərirlər və ya rüsvayçı hərəkətlərin obyekti olurlar, bu hərəkətlər isə ancaq təhqir etmək üçündür. Bu hərəkətlər pozğunluqdan irəli gəlirsə, könüllü və ya qeyri-iradi olmasından asılı olmayaraq onlar rüsvayçıdır; əgər onlar zorakılıq nəticəsində baş veribsə yenə də rüsvayçıdır, ona görə ki, dözmək və müdafiə olunmamaq mərdliyin yoxluğu və qorxaqlığı göstərməkdir.

Beləliklə, insanlar bütün bunlardan və buna bənzər şeylərdən utanırlar. Abırsızlıq şərəfsizlik haqqında təsəvvür olduğu üçün və məhz şərəfsizliyin nəticəsini deyil, özünü nəzərdə tutduğu üçün və bu zaman heç kəsi öz-özlüyündə rəy (doxa) deyil, ancaq kimin isə ifadə etdiyi rəy maraqlandırdığı üçün, onda belə bir nəticə çıxır ki, insan ancaq sayıbseçdiyi adamlardan utanır. İnsan ona hörmət edən, özünün hörmət etdiyi, heyranlıq predmeti olmaq istədiyi adamlar və rəqabət apardığı adamlar – ümumiyyətlə, rəylərinə nifrət etmədiyi adamlar ilə hesablaşır. İnsanlar adlı-sanlı şeylərin sırasından yaxşı bir şeyə sahib olan adamlara və ya malik olduqları müəyyən bir şeyi istədikləri adamlara heyran olurlar və özləri də onların heyranlıq predmeti olmaq istəyirlər, məsələn, sevgililər belə vəziyyətdə olurlar. İnsanlar özlərinə tay olan adamlarla rəqabət aparırlar, amma həqiqəti bilən müdrik adamların (qoca və savadlı adamlar məhz belədir) rəyinə qulaq asırlar. İnsanlar daha çox başqalarının gözü qabağında və aşkar etdiklərindən utanırlar, "utanmaq gözdə



olar" məsəli məhz buradan yaranıb. Buna görə də biz daim bizimlə olacaq adamlardan və bizə diqqət verən adamlardan utanırıq, ona görə ki, həm bu, həm də digər halda biz bu insanların gözləri qarşısındayıq. Biz həm də bizimlə eyni çatışmamazlıqları olmayan adamlardan da utanırıq, ona görə ki, belə insanların bizimlə razılaşmayacağı aydındır. Biz həm də müəyyən səhvi etmiş insanlara qarşı mərhəmətli davranmayanlardan da utanırıq, çünki, insan necə deyərlər, özünün etdiyi hərəkətə görə yaxınlarından hesab istəməlidir, buradan belə nəticə çıxır ki, insan ancaq özünün etmədiyinin hesabını soruşmalıdır. Biz həm də gördüyünü hamıya yaymağa adət etmiş adamlardan da utanırıq, çünki, hər hansı bir işdə nəzərə çarpmamaq və xəbər obyekti olmamaq eyni şeydir. Adətən incik, qisas üçün əlverişli an gözləyən adamlar və böhtançılar baş verənləri hamıya bildirməyə meyl edirlər; çünki, onlar madam heç bir günahı olmayan insanlara toxunurlar, onda təqsiri olan insanlara daha tez toxuna bilərlər.

Buraya həm də öz yaxın adamlarının səhvlərindən daimi diqqət predmeti edən adamlar da daxildir, masqaraçı adamlar və komik şairlər məhz belədirlər; müəyyən dərəcədə isə onlar dedi-qoduçu və boşboğazdırlar. Biz həm də heç vaxt rədd cavabı almadığımız adamlardan utanırıq, ona görə ki, belə insanlar qarşısında biz xüsusi hörmətə malik insan vəziyyətindəyik. Buna görə də biz bizə ilk dəfə xahişlə müraciət edən şəxslərdən də utanırıq, ona görə ki, biz onların gözündə alçalmaq üçün heç nə etməmişik. Bizimlə təzəlikcə dost olmaq istəyən insanlar məhz belədir, ona görə ki, onlar bizim keyfiyyətlərimizin ən yaxşısını görürlər; buna görə də Evripidin zirakuzlulara[18] cavabı çox ədalətlidir. Eləcə də bizim köhnə tamşlarımızın sırasından olan, bizim haqqımızda pis bir şey bilməyən adamlar da belədir.

Biz təkcə yuxarıda göstərilən rüsvayçı hərəkətlərdən deyil, həm də onların əlamətlərindən utanırıq, məsələn, təkcə zinakarlıqdan deyil, həm də onun əlamətlərindən, təkcə

utanılacaq hərəkətlərdən deyil, həm də utanılacaq sözlərdən, təkcə yuxarıda göstərilən adamlardan deyil, həm də xəbər verə biləcək adamlardan (məsələn, onların xidmətçiləri və dostları) da eyni dərəcədə utanırıq. Ümumiyyətlə isə biz əsaslı rəyini saymadığımızlardan utanmırıq, çünki, heç kəs nə uşaqlardan, nə də heyvanlardan utanmır və eyni bir şey üçün həm tanışlardan, həm də yad adamlardan eyni cür utanmırıq: tanışlar qarşısında biz ancaq elə şeylərdən utanırıq ki, onun qanun qarşısında da həqiqətən utandırıcı olduğunu biləк. İnsanlar belə əhvali-ruhiyyədə utanırlar: birincisi, əgər onların qarşısında, bizim dediyimiz kimi onların utandığı insanlar durursa, bizim dediyimiz kimi, bu insanlar elə insanlardır ki, hansılarına ki, biz hörmət edirik və onlar da bizə hörmət edirlər və onlar üçün biz heyranlıq predmeti olmaq istəyirik, bundan başqa elələridir ki, biz onlardan nəyin isə xahişini etmişik, həm də, biz onların gözündə bədnam olsaq, həmin xahiş rədd ediləcək; və əgər bu insanlar ya baş verənləri, ya görürlərsə, ya da elə yaxındadırlarsa ki, mütləq hər şeyi öyrənəcəklər. (Samossa torpaqlarının[19] bölüşdürülməsindən xalq yığıncağında damşan Kidi, afinalılara deyirdi ki, onlar təsəvvür etsinlər ki, yunanlar buradadırlar, buna görə də onlar qəbul ediləcək qərarı nəinki eşidəcəklər, həm də görəcəklər). Buna görə də pis gündə biz heç vaxt öz rəqiblərimizin gözü qarşısında olmaq istəmirik, çünki, rəqiblərin adətən bizə qarşı diqqətləri kəskin olur (thaymastai gar hoi dzēlōtai). Biz hələ özümüzün, ya da əcdadlarımızın, ya da yaxın olduğumuz hər hansı başqasının adətən utanılacaq hərəkətləri və ya şeyləri olanda utanırıq. Buraya ümumiyyətlə əvəzində utandığımız bütün şəxslər daxildir, bunların sırasına bizim saydıqlarımız, eləcə də bizə hər hansı bir münasibəti olanlar, bizim müəllimi və məsləhətçisi olduğumuz adamlar, bizim rəqabət apardığımız adamlar da daxildir, ona görə ki, utanmağın təsiri altında biz belə adamlar qarşısında çox şeyi edirik və çox şeyi etmirik. İnsanlar onların hərəkətlərinə bələd olan adamların



gözü qarşısında olmalı olanda və onların diqqət predmetinə çevriləndə daha çox utanırlar. Məhz buna görə də Dionisinin[20] əmri ilə ölüm cəzasına məhkum olmuş şair Antifont onunla birlikdə ölümə məhkum adamların şəhər darvazalarının yanından keçərkən üzlərini örtdüklərini gördükdə demişdir: "Siz nəyə görə üzünüzü örtürsünüz? Bəlkə ona görə ki, onlardan biri sizi sabah görməsin? Utanmaq haqqında bunu demək olar. Utanmazlıq haqqında anlayışı isə biz əks müddəalardan əldə edə bilərik.

### 7. *Xeyirxahlığın (xidmətin) tərifi, onu kimə və nə zaman göstərmək lazımdır? - Natiq öz məqsədi üçün bu anlayışdan necə istifadə edə bilər?*

Xeyirxahlığın nə olduğunu müəyyənləşdirəndən sonra aydın olacaq ki, insanlar kimə, nəyə görə və hansı vəziyyətdə minnətdar olurlar. Qoy xeyirxahlıq (charis), yəni, onu həyata keçirən insana xeyirxahlıq etdiyini deməyə imkan verən hərəkət, ehtiyacı olan insana edilən xidmət olsun, amma bu xidmət başqa bir xidmətin əvəzi kimi və onu göstərən adama müəyyən mənfəət gətirmək üçün deyil, xidmət göstərilən adamın mənfəəti üçün göstərilir.

Əgər xidmət ona çox ehtiyacı olan adama göstərilirsə, ya da vacib və çətin şeylərə toxunursa, ya da o məhz müəyyən bir momentdə göstərilibsə, ya da xidməti göstərən adam onu birinci, ya tək, ya da daha böyük səviyyədə göstəribsə onda bu mühüm xidmətdir. Ehtiyac müəyyən bir şeyə can atmaqdır, xüsusilə elə şeylərə ki, onların yoxluğu müəyyən əzablara səbəb olur: ehtiraslar, məsələn, məhəbbət belədir, eləcə də insanın fiziki əzablar və təhlükələr zamanı hiss etdiyi ehtiraslar da belədir, ona görə ki, təhlükəyə məruz qalan və əzab çəkən insan onlardan qaçınmaq üçün ehtiraslı arzu hiss edir. Məhz buna görə yoxsulluq və ya sürgün zamanı insanın köməyinə gələn insanlar hətta onların köməyi cüzi olsa belə xidmət göstərmiş hesab olunurlar, ona görə ki,

ehtiyac böyük və vaxt isə qiymətlidir; məsələn, Likeyada həsir[21] vermiş adam belə hərəkət etmişdir. Beləliklə, madam insanların kimə, nəyə görə və hansı vəziyyətdə təşəkkür etdikləri aydındır, onda xidmət məhz belə şeylərə, əgər beləsi olmasa, onda onlara bərabər və ya mühüm olanlara aid olmalıdır, bəzi insanların belə ehtiyac və məyusluq içində olduğunu və başqalarının isə onlara belə ehtiyacı aradan qaldırmaq üçün yardım etmiş olduğunu və etdiyini göstərərək buradan bir nəticə çıxarmağın lazım olduğu aydındır. Həm də, xidmətin əhəmiyyətini necə aradan götürmək və insanı təşəkkür etməkdən azad etmək üçün nə etmək lazım olduğu da aydındır: demək olar ki, bu adamlar ya xidməti öz şəxsi mənfəətlərinə görə ediblər (bu isə dediyimiz kimi xidmət deyil), ya da onlar şərait ilə əlaqədar belə hərəkət ediblər, ya da belə hərəkət etməyə məcbur idilər, ya da onlar xidməti sadəcə olaraq etməyiblər, müəyyən bir fikirlə, ya da fikirsiz etməyə məcbur qalıblar, hər iki halda xidmət başqa bir şeyin naminə göstərilib, buna görə də xidmət kimi adlandırıla bilməz.

Bu zaman bütün kateqoriyaları nəzərə almaq lazımdır, ona görə ki, madam xidmət filan şeydir və ya filan həcmdədir, ya da hər hansı keyfiyyətlərə malikdir, ya da nə vaxt isə, ya da harda isə baş veribsə, onda xidmət elə xidmətdir.

Sübut kimi belə mülahizələri göstərmək olar ki, daha az vacib olan halda bizə xidməti göstərmədilər, ya da düşmənlər üçün eyni şeyi və ya nə isə ona bərabər şeyi etdilər, ya da ondan böyük xidməti göstərdilər, çünki, bunun özünün də bizim özümüzə görə edilmədiyi aydındır, ya da əgər şüurlu şəkildə nə isə pis bir şey edilibsə də, heç kəs pis şeylərə ehtiyacı olduğunu boynuna almaz.

**8.** *Əzabın tərifi. – Bu hissi kim keçirə bilər və keçirə bilməz? – Kim və nə rəhm hissi yarada bilər?*



Beləliklə, biz, xeyirxahlıq etməyin və etməməyin nə olduğu barəsində də danışdıq.

İndi isə bizdə rəhm (eleos) yaradan şeylər haqqında, kimə və hansı vəziyyətdə olarkən rəhm hiss etməyimiz barəsində danışaq. Qoy rəhmi insanı layiq olmadığı halda yaxalayan, nəticəsi ölüm, ya da ziyan olan, bizim özümüzü, ya da bizə yaxın olanları yaxalaya biləcək və həm də çox yaxında görünən fəlakətin görünüşü qarşısında yaranan müəyyən qəbildən olan qəmginlik hesab edək. Axı, aydındır ki, insan rəhmi hiss etmək üçün, hesab etməlidir ki, onun özünün, ya da yaxınlarından birinin göstərdiyimiz şəkildə, ya da ona oxşar şəkildə, ya da ona yaxın şəkildə fəlakətə düşməyi mümkündür.[22] Ona görə də tamamilə məhv olmuş adamlar rəhm hiss etmirlər; onlar hesab edirlər ki, daha başlarına bundan artıq şey gələ bilməz, çünki artıq olan olub; eləcə də özlərini tam xoşbəxt hesab edən insanlar da rəhm hiss etmirlər, amma özlərini təkəbbürlü aparırlar: madam onlar özlərini bütün nemətlərə sahib hesab edirlər, onda heç bir pisliyə məruz qalmamaq kimi nemətə də sahibdirlər, çünki, bu da nemətlərin sırasına daxildir. Özlərinin zərər çəkə biləcəyinin mümkün olduğunu hesab edənlərin sırasına isə artıq zərər çəkmiş və ölümdən qurtarmış insanlar, düşüncə və təcrübə cəhətdən daha yetkin insanlar, zəif adamlar və daha çox qorxaq adamlar, eləcə də savadlı adamlar (çünki belə adamlar düzgün düşünürlər) daxildir. Valideynləri, ya da uşaqları, ya da arvadları olanlar da bu sıraya daxildir, çünki, onların hamısı bizə yaxındır və qeyd olunmuş fəlakətlərə düçar ola bilərlər. Həm mərd ehtirasların (məsələn, qəzəb və cəsurluğun) təsiri altında olmayan, həm də yüksək təkəbbürlü əhval-ruhiyyədə olmayan adamlar nə gələcəyi, nə də zərər çəkə biləcəklərini düşünmürlər, amma öz ovqatlarına görə onlar orta mövqe tuturlar. Buraya həm də tam qorxunun təsiri altında olan insanlar da daxildir, çünki, qorxu keçirmiş insanların başı öz şəxsi vəziyyətlərinə qarışdığı üçün onlar rəhm hiss etmirlər. Rəhm hissini ancaq elə insanlar hiss edir

ki, onlar müəyyən adamları yaxşı hesab etsinlər, çünki, heç kimi yaxşı hesab etməyən insan hamını bədbəxtliyə layiq hesab edəcək. Ümumiyyətlə, biz elə şəraitdə rəhm edirik ki, bu vaxt bizim, ya da bizə yaxın adamların məruz qaldığı bənzər fəlakəti yada salaq, ya da onun bizim və ya bizə yaxın adamların başına gələcəyini düşünək.

Beləliklə, biz insanların hansı vəziyyətdə rəhm hiss etdiklərini dedik. Bizdə rəhm hissini oyadan şeylərə gəldikdə isə onlar tərifdən məlumdur: məhvə səbəb olacaq bütün dərdli və əzablı şeylər, eləcə də insanın həyatına son qoya biləcək şeylər rəhm hissini oyadır; buraya həm də təsadüf nəticəsində baş verən bütün böyük fəlakətlər daxildir.

Əzablı və ardınca ölüm gətirən şeylər sırasına müxtəlif qəbildən olan ölümlər, yaralar, döyülməklər, qocalıq, xəstəliklər və aclıq daxildir, təsadüfən baş verənlərin sırasına isə dostların olmaması və ya az sayda olması daxildir; dostlar və yaxınlar ilə məcburi ayrılıq, rüsvayçılıq, zəiflik, şikəstlik, bəlanın məhz yaxşı bir şey gözlədiyin tərəfdən gəlməsi, eyni bir bəlanın tez-tez təkrarı, artıq dərd çəkmiş insana nemətin yetişməsi də (məsələn, Diopifin ölümündən sonra İran şahının göndərdiyi hədiyyələrin ona çatması), nəhayət, elə vəziyyət də rəhm hissi yaradır ki, ya heç bir yaxşı şey olmur, ya da o vaxt olur ki, artıq ondan istifadə etmək mümkün deyil.

Belə və buna bənzər şeylər rəhm hissini yaradır. Biz tanış adamlara qarşı rəhm hiss edirik, əlbəttə ki, əgər onlar bizə çox yaxındırlarsa. Çox yaxınlara isə biz elə yanaşırıq ki, elə bil bu bədbəxtlik öz başımıza gəlib; deyilənlərə görə Amazis[24] də məhz buna görə oğlunun edam olunmağa aparıldığını görərkən ağlamır, amma sədəqə diləyən dostunu görərkən ağlayır: sonuncu onda rəhm, əvvəlki isə dəhşət hissi yaratmışdır. Dəhşətli olan rəhm doğuran şeydən fərqlidir, o, rəhm hissini məhv edir və çox vaxt əks ehtirasların yaranmasına səbəb olur. Bədbəxtlik bizim özümüzə yaxın olan zaman da biz rəhm hiss edirik. Biz elə adamlara qarşı rəhm



hiss edirik ki, onlar yaş, xarakter, qabiliyyət, mənşə və vəziyyətinə görə bizə uyğun olsun, çünki, bütün belə adamları görəndə bizə elə gəlir ki, eyni şey bizim də başımıza gələ bilər. Ümumiyyətlə, burada da qeyd etmək lazımdır ki, biz elə adamlara qarşı rəhm hiss edirik ki, özümüz üçün qorxduğumuz şey onların başına gəlsin.[25] Əgər yaxın görünən əzab-əziyyətlər rəhm hissi yaradırsa, on min il əvvəl olmuş və ya on min il sonra olacaqlar, ya tamam rəhm hissini oyatmır, ya da əhəmiyyətsiz dərəcədə oyadır, çünki, gələcəkdə olanları görməyəcəyik, keçmişdə olanlar isə yadımızdan çıxıb, onda buradan belə bir nəticə çıxır ki, öz görkəmləri, səsi, libası və ümumiyyətlə oyunu ilə təəssürat yaradan adamlar güclü dərəcədə rəhm hissi oyada bilərlər, belə ki, onlar adamların gözü qarşısında olub-keçmiş və ya olacaq hər hansı bir bədbəxtliyi təsvir edərkən ona nail olurlar ki, o, çox yaxın görünür. Yaxınlarda baş vermiş və tezliklə baş verəcək bədbəxtliklər də rəhm hissini kifayət qədər oyada bilir. Buna görə də biz bədbəxtliyin əlamətlərinə görə, məsələn, bədbəxtliyə düçar olmuş insanların paltarına və buna oxşar şeylərə görə və dərdli insanların, məsələn, artıq can verənlərin söz və hərəkətlərinə görə də rəhm hiss edirik. Yaxşı insanlar belə vəziyyətdə olanda isə biz xüsusi olaraq rəhm hiss edirik. Bütün bu səbəblər bizdə rəhm hissini gücləndirir, çünki, belə hallarda bəla bizə yaxın və bizə layiq olmayan bir şey kimi görünür və bundan başqa o, bizim gözümüzün qabağında olur.

**9.** *Hiddətin tərifi, hiddətin paxıllığa münasibəti. – Kim və nə üçün insanlarda hiddət hissi yaradır? - Hansı əhvali-ruhiyyədə insanlar asanlıqla hiddətlənirlər? – Natiq bu anlayışdan öz məqsədi üçün necə istifadə edə bilər?*

Təəssüf hissinə əsasən hiddət hissi əks kimi götürülür, çünki, haqsız yerdə bədbəxtliklərə məruz qalanları görəndə

yaranan qəm hissinə əks olan hiss haqsız xoşbəxtliyə görə yaranan qəm hissidir. Bu ehtirasların hər ikisi vicdanlı xarakterə xas olan şeylərdir, çünki, haqsız olaraq bədbəxt olan adamları görərkən qəm və rəhm hiss etmək və haqsız olaraq xoşbəxt yaşayan adamlara qarşı isə hiddətlənmək vacibdir, belə ki, layiq olmadan almaq ədalətsizlikdir; məhz buna görə biz hiddət hissini tanrılara da aid edirik. Elə görünə bilər ki, belə olan şəkildə paxıllıq hiddətlənməyə yaxın və ona bərabər bir anlayış kimi rəhm hissinə əksdir, əslində paxıllıq tamam ayrı bir şeydir: paxıllıq eynilə bizi narahat edən qəmdir, o, xoşbəxtliyi görəndə yaranır, amma ona layiq olmayan adama qarşı deyil, bizə bərabər və uyğun insanın xoşbəxtliyinə qarşı yaranır. Bütün bu anlayışlar üçün eyni olan bir fikir var ki, onlar bizə yaxın olan adamlara toxunur və bundan bizim başımıza pis bir şey gələcəyini nəzərə almır, çünki, əgər pis adamın xoşbəxt yaşaması nəticəsində bizim başımıza pis bir şeyin gələcəyindən bizdə narahatlıq, ya da kədər hissi yaranırsa, bu artıq hiddət və paxıllıq deyil, qorxu hissi olacaq. Aydındır ki, bu ehtiraslar ilə əlaqədə onlara əks olan ehtiraslar var: haqsız yerə dərd çəkən insanları görüb dilxor olmuş insan əks qəbildən olan adamların dərd çəkməyini görəndə sevinəcək, ya da kədərlənməyəcək, məsələn, heç bir düz adam qatillərin və ya ata qatillərinin cəza aldığı zaman dilxor olmayacaq, çünki, belə halda biz sevinməliyik, eynilə belə, layiq olduqları xoşbəxtliyə çatan adamları da görəndə sevinməliyik, bunların hər ikisi ədalətlidir və yaxşı adamı sevinməyə məcbur edir, çünki, bu zaman insanda ona bərabər olanın bəxtinə düşmüş şeyin mütləq onun da bəxtinə düşəcəyinə ümid yaranır. Bütün bu cizgilər eyni bir xarakterə xas olanları göstərir, əks olanlar isə əks xarakterə xas olanları, ona görə ki, eyni bir adam həm bədxah, həm də paxıl olur, hər hansı bir şeyin həyata keçirilməsinə və mövcudluğuna dilxor olan kəs, mütləq həmin şeyin məhvinə və ya olmamasına sevinəcək. Buna görə də bütün bu ehtiraslar rəhm hissinin yaranmasına mane olur; onlar yuxarıda göstərilən səbəblərə görə fərqlənirlər, odur ki, rəhm hissini oyatmamaq üçün hər şey etməyə yararlıdırlar. Hər şeydən əvvəl hiddətlənmək haqqında, yəni kimə, nəyə görə və hansı vəziyyətdə insanların hiddətləndiyi haqqmda, sonra isə qalan şeylər barəsində danışaq. Deyilənlərdən aydındır ki, əgər hiddətlənmək haqqı olmayan kimi görünən xoşbəxtliyin qarşısında kədərlənməkdirsə, onda hər şeydən əvvəl aşkardır ki, hər cür xoşbəxtliyə qarşı hiddətlənmək olmaz: biz o insana qarşı hiddətlənməyəcəyik ki, o, ədalətli, mərd və ya məziyyətlərə sahib olsun, eləcə də bunlara əks xarakterdə olan insanlara qarşı da rəhm hiss etməyəcəyik; hiddət ancaq yaxşı adamların və təbiətin pay verdiyi nemətlərə (bura alicənab mənşə, gözəllik və buna bənzər şeylər daxildir) sahib insanların layiq olduğu var-dövləti, qüdrəti görəndə yaranır. Amma, çoxdan mövcud olan şeyi biz müəyyən qədər təbii bir şey kimi qəbul etdiyimiz üçün, insanlar həmin nemətə təzəlikcə sahib olmuş və nəticədə xoşbəxt yaşayanlara qarşı daha çox hiddətlənirlər; təzəliklə varlanmış adamlar çoxdan, nəsildən-nəslə var-dövlətə sahib olan adamlara nisbətən daha çox dilxorluq yaradırlar; eyni şeyi hakimiyyətə, qüdrətə, çoxlu dosta, yaxşı övladlara və başqa buna bənzər nemətlərə sahib olan adamlar haqqmda da demək olar. Hər hansı bir nemət sayəsində başqa bir nemətin ələ gəlməsi halında da eynilə belə olur, buna görə də təzəlikcə varlanmış adamların öz varları sayəsində hakimiyyəti əldə etmələri və ata-babadan varlı olanların isə hakimiyyətdən kənarda qalmaları adamları çox dilxor edir. Başqa hallarda da eynilə belə olur və bunun səbəbi ondadır ki, ikincilər öz mülkiyyətlərinə sahib olan adam görkəminə malik kimi görünürlər, birincilər isə yox; həmişə eyni görkəmdə olan həqiqi kimi görünür, buna görə də adını çəkdiyimiz adamlardan birincilərin onların mülkiyyətində olan şeylərə sahib olan adam görkəmi yoxdur. Heç də hər bir nemət hər bir adama layiq deyil, amma burada müəyyən analogiya və uyğunluq var, məsələn, gözəl silah ədalətli deyil, cəsur adam üçündür, on-

da, əla tərəf-müqabilə malik olmaq təzəcə varlanmış adamlara deyil, alicənab mənşəli insanlara daha çox uyğundur; əgər yaxşı insanın bəxtinə nə isə uyğun olmayan bir şey düşürsə, bu çox təəssüf yaradır, əgər zəif daha güclü adamla çəkişirsə, xüsusən onlar eyni vəziyyətdədirsə, bu da eynilə təəssüfləndiricidir, buna görə də deyilib:

Telemonun oğlu Ayaksla döyüşməkdən qaçınırdı:
Əgər o, güclü kişi ilə döyüşsəydi, Zevsi qəzəbləndirərdi[27]

Əgər bu belə deyilsə də, nədə olur olsun, daha zəif insan daha güclü insanla çəkişəndə, məsələn, musiqiçi ədalətli adam ilə çəkişəndə adam təəssüflənir, çünki, ədalət musiqidən üstündür.

Deyilənlərdən aydındır ki, insanlar kimə və nəyə görə hiddətlənirlər: bu bizim göstərdiyimiz və onlara uyğun hallarda olur. İnsanların özləri isə o halda hiddətlənirlər ki, onlar böyük nemətlərə layiq olsunlar və onlara sahib olsunlar, çünki, öz aralarında bərabər olmayan insanların eyni nemətlərə layiq olması ədalətsizdir. İkincisi, vicdanlı və ciddi insanlar daha tez hiddətlənirlər, ona görə ki, onlar düzgün mülahizələrə malikdirlər və bütün ədalətsiz olanlara nifrət edirlər; bundan başqa hər hansı bir məqsədə can atan şöhrətpərəst insanlar can atdıqları şeyin ona layiq olmayan insanlara çatdığını görəndə hiddətlənirlər. Ümumiyyətlə, özlərini bir şeyə layiq bilən insanlar başqalarını həmin şeyə layiq bilmirlər və buna görə də onlara qarşı asanlıqla hiddətlənirlər. Buna görə də qul qəlbli, alçaq, şərəfsiz insanlşar asanlıqla hiddətlənmirlər, ona görə ki, onların özlərinə layiq bildikləri elə bir şey yoxdur.

Deyilənlərdən aydındır ki, hansı qəbildən olan insanların bədbəxtliyi, fəlakəti və uğursuzluğu başqalarını sevindirəcək və ya dilxor etməyəcək, çünki, şərh olunmuşlardan ona əks olanlar aydın görünür; əgər nitq hakimlərdə belə



əhvali-ruhiyyə yaratsa və göstərsə ki, mərhəmət diləyən insanlar və onların nəyin xatirinə mərhəmət diləməsi buna layiq deyil, onda onlara qarşı mərhəmətli olmaq mümkün olmayacaq.

**10.** ***Paxıllığın tərifi. – Paxıllıq nədir? – Paxıllığı yaradan nədir? – Paxıllığı yaradan kimdir? – Paxıllıq hakimlərin qərarına necə təsir edə bilər?***

Əgər paxıllıq (phthones) bizə uyğun insanların yuxarıda qeyd etdiyimiz nemətlərdən həzz alaraq xoşbəxt yaşadığını gördüyümüz zaman yaranan müəyyən növ kədərdirsə, bu kədər paxıllıq edənin özünə heç bir şey vermək məqsədi güdmürsə və ancaq həmin adamları nəzərdə tutursa, onda insanların nəyə görə, kimə və hansı vəziyyətdə paxıllıq etdiyi aydındır. Paxıllığı elə adamlar hiss edirlər ki, onlar üçün ancaq özlərinə tay olan və ya belə görünən adamlar mövcuddur. Tay deyəndə mən mənşəcə, qohumluğa görə, yaşa görə, istedada görə, şöhrətə görə, vara görə uyğun olanları nəzərdə tuturam. Demək olar ki, hər şeyə sahib olan adamlar da paxıllıq edirlər, buna görə də yüksək vəzifəli və xoşbəxt adamlar hamının onların mülkiyyətindən istifadə etdiyini düşünərək paxıllıq edirlər. Eləcə də nəyə görə isə xüsusi hörmət qazanmış adamlar da (əsasən müdrikliyə və ya müvəffəqiyyətə görə) paxıl olurlar. Şöhrətpərəst adamlar da bu hissə malik olmayanlardan daha çox paxıl olurlar. Saxta müdriklər də paxıl olurlar, ona görə ki, onların şöhrətpərəstliyinin obyekti müdriklikdir və ümumiyyətlə hər hansı bir sahədə şan-şöhrətli olmaq istəyən adamlar bu münasibətdə paxıl olurlar. Qorxaq adamlar da həmçinin paxıl olurlar, ona görə ki, onlara hər şey əzəmətli və əlçatmaz görünür.

Biz elə nemətləri sadaladıq ki, insanlar onlara görə paxıllıq edirlər: İnsanlar harada ki, şan-şöhrəti sevirlər, harada şöhrətpərəstliyə meyl edirlər və müvəffəqiyyətin bütün növlərində -- bütün bu hallarda demək olar ki, paxıllıq var,

xüsusən də elə şeylərə qarşı olur ki, insanlar onları əldə etməyə çalışırlar və onlarla başqalarından ya bir qədər üstündürlər, ya da bir qədər geridə qalırlar. İnsanların kimə paxıllıq etdiyi də aydındır (biz bu barədə də demişik): insanlar zaman, məkan, yaşa görə və ad-sana görə onlara yaxın olanlara qarşı paxıllıq edirlər, məhz buna görə də deyilir: "Qohum-əqrəba paxıllıq da edə bilir".[28]

Rəğabət apardıqlarına qarşı da paxıllıq edirlər, ona görə ki, saydığımız kateqoriyadan olan şəxslərlə rəqabət aparırlar: bizdən on min illər əvvəl yaşamış adamlara, ya da bizdən on min illər sonra yaşayacaq adamlara, ya da artıq vəfat etmişlərə gəldiksə isə onlara heç kim paxıllıq etmir, eynilə Herkules sütunlarının[29] yanında yaşayanlara da heç kim paxıllıq etmir. Biz elələrinə paxıllıq etmirik ki, bizim və ya başqalarının fikrinə görə onlar bizdən çox az üstün olsunlar, ya da bizdən çox geridə qalsınlar.

Bu cür işlərlə məşğul olan adamlara qarşı biz eyni şəkildə yanaşırıq. Madam insanlar döyüşdə və sevgidə olan rəqibləri ilə və ümumiyyətlə onların can atdığı şeyi əldə etmək istəyənlər ilə yarışırlar, onda insanlar mütləq bu şəxslərə daha çox paxıllıq edirlər, necə deyərlər, "dulusçu da dulusçuya paxıllıq edir".[30] Biz həm də elələrinə paxıllıq edirik ki, onların əldə etdikləri və ya müvəffəqiyyətləri bizim üçün tənə yeri olsun; axı belə insanlar bizə yaxındır və bizə bənzərdir: burada aydındır ki, biz öz təqsirimiz üzündən məlum nemətə sahib deyilik, ona görə də bu fikir bizi kədərləndirərək paxıllıq yaradır. Biz həm də elələrinə paxıllıq edirik ki, bizim sahib olmalı olduğumuz, ya da sahib olduğumuz şeyi onlar da əldə ediblər və ya ona sahibdirlər; buna görə də qocalar gənclərə paxıllıq edirlər, nəyə isə çox xərc tökmüş adamlar isə həmin işə daha az xərc tökmüş adamlara paxıllıq edirlər. Nəyə isə hələ çatmaqda olan, ya da tamam çatmayan adamlar da elə həmin şeyə tez çatanlara paxıllıq edirlər. Belə insanların nəyə görə, kimə görə və hansı vəziyyətdə sevindikləri aydındır: bəzi hallarda onlar dilxor olurlar, ona



görə ki, nəyə isə sahib deyillər, əks hallarda isə onlar sevinəcəklər, çünki, nəyə isə sahibdilər. Belə olan halda, əgər hakimlər belə əhvali-ruhiyyədə olsalar və onlardan mərhəmət diləyən və ya hər hansı bir nemətin bağışlanmasını istəyən insanlar isə yuxarıda göstərdiyimiz insanlar kimi olsalar, onda sonuncular hakimiyyətdə olanlardan heç bir mərhəmət görə bilməzlər.

11. *Yarışmaq (dzēlos) hissinin tərifi. –Kim yarışa bilər? – Ona nə səbəb olur? – Kim ona səbəb olur? – Bu hissin nifrətə münasibəti.*

Buradan aydındır ki, insanlar hansı əhval-ruhiyyədə, kimə və nəyə qarşı yarışırlar. Yarışmaq hissi şöhrət ilə bağlı və özümüzün əldə edə biləcəyi nemətləri öz təbiətlərinə görə bizə oxşar insanlarda olmasını görəndə bizdə yaranan müəyyən məyusluqdur ki, bu nemətlərin – başqalarında olduğu üçün deyil, məhz özümüzdə olmadığına görə yaranır. Məhz buna görə də yarışmaq bərabərləşməyə canla-başla edilən istək kimi yaxşı bir şeydir və yaxşı adamlarda olur, paxıllıq isə alçaq bir şey olub ancaq alçaq insanlarda yaranır. Birinci halda insan yarışma hissinin təsiri altında nemətlərə özü çatmaq istəyir, ikinci halda isə paxıllığın təsiri altında can atır ki, onun yaxını bu nemətdən istifadə etməsin. Yarışmaya (dzēlos) meyli olan adamlar labüd olaraq sahib olmadıqları nemətlərə özlərini layiq bilən adamlardır ki, çünki heç kəs mümkün olmayan şeyi arzulamır. Buna görə də belə adamlar, yəni yarışmağa meylli adamlar gənc və böyük qəlbli adamlar olurlar. Onların sırasına həm də mərd kişilərə layiq nemətlərə və hörmətə sahib olan adamlar da daxildir. Qeyd etdiyimiz nemətlərin sırasına var-dövlət, çoxlu dost, hakimiyyət və başqa buna bənzər nemətlər daxildir. Madam onlar yaxşı adamdırlar, onda onlar belə nemətlərə çatmağa canla-başla səy göstərirlər, ona görə ki, bu nemətlər yaxşı adamların malı olmahdır.

Həm də elə adamlar yarışmağa meyllidirlər ki, başqaları onları bu nemətlərə layiq bilsin. Əcdadları, ya da qohumları, ya da yaxınları, ya da həmvətənləri, ya da vətənləri hörmətli olan adamlar da eyni ilə belə münasibətdə çox qısqancdırlar, ona görə ki, bunu özlərinə yaxın və özlərini isə buna layiq bilirlər. Əgər yarışmaq hissi hörmətdə olan nemətlərə qarşı yaranırsa, onda məziyyətləri və yardımı ilə fayda gətirmək və başqalarına xeyirxahlıq etmək üçün mümkün olan hər şeyi buraya mütləq daxil etmək lazımdır, ona görə ki, insanlar xeyirxahlara və yaxşı məziyyətli adamlara hörmət edirlər; bu sıraya həm də bizim yaxınlarımızın, ya da istifadə edə biləcəyi bütün nemətləri də daxil edə bilərik, məsələn, sağlamlığa nisbətən var-dövlət və gözəllik daha çox uyğun gələn nemətlərdir.

Həm də aydındır ki, yarışmaq hissini oyadan insanlar kimdir: onlar bu və bunlara bənzər nemətlərə sahib olan adamlardır. Bu nemətlər, yuxarıda göstərdiyimiz kimi belədir: mərdlik, müdriklik və hakimiyyət, ona görə ki, əlində hakimiyyət olanlar bir çoxları üçün xeyirxahlıq edə bilər; sərkərdələr, natiqlər və ümumiyyətlə buna oxşar gücə malik olanlarm hamısı belədir. Onlara həm də hamının dost olmaq istədikləri adamlar, hamının təəccübləndiyi, ya da bizim təəccübləndiyimiz adamlar, eləcə də şair və yazıçıların vəsf etdiyi və şöhrətləndirdiyi adamlar da daxildir. Kimin üçün isə yarışan, ya da kimin üçün isə yarışma obyekti vəziyyətində olan adamlar yarışmanı oyadan bütün əşya və şəxslərə nifrət bəsləyirlər. Buna görə də onlar çox vaxt hörmət qazanmış nemətlər olmadan qazanılmış uğurdan istifadə edən adamlara nifrət edirlər.

Biz ehtirasların nəyin köməyi ilə yaranması və yox olması haqqında danışdıq ki, ondan inandırma üsulları yaranır. Bundan sonra isə insanların ehtirasları, onların keyfiyyətləri, yaşı və taleyi ilə xasiyyətlərinin necə uyğun olduğunu şərh edəcəyik.



**12.** *İnsanların müxtəlif yaşlarda xasiyyətləri (xarakter cizgiləri): gəncliyə xas cizgilər.*

Mən qəzəb, istək və buna bənzər qəlb hərəkətlərini ehtiras adlandırıram ki, onların haqqında əvvəl məziyyətlər və nöqsanlar kimi keyfiyyətlərdən[31] danışan zaman bəhs etmişdik, həm də ayrı-ayrı şəxsiyyətlərin nəyi üstün tutması və onların nəyə qabil olması haqqında da əvvəl danışmışdıq. Yaş – bu gənclik, yetkinlik və qocalıqdır. Alicənab mənşədən olmağı, var-dövləti, hakimiyyəti və buna əks şeyləri və ümumiyyətlə uğuru (eytychia) və uğursuzluğu (dystychia) mən təsadüfi iş (tychē) hesab edirəm.

Gənclər öz xasiyyətlərinə görə istəklərə, eləcə də istəklərini yerinə yetirməyə meyllidirlər və onlar cismani istəklərdən isə ən çox məhəbbətdən həzz almaq istəklərinə əməl etməyə meyllidirlər və bu cəhətdən öz nəfslərini saxlaya bilmirlər. Ehtiraslara qarşı münasibətdə onlar dəyişkəndirlər və onlardan tez doyurlar, onlar çox güclü arzulayırlar və tezliklə arzulara son qoyurlar; onların arzuları çox alovlu olsa da, xəstələrin susuzluğu və aclığı kimi o qədər də güclü olmur. Onlar ehtiraslı, tez özündən çıxan və qəzəbə meylli olurlar. Onlar qəzəbdən zəifdirlər, qəzəbi cilovlaya bilmirlər. Ona görə ki, öz şöhrətpərəstliklərinə görə etinasızlığa dözə bilmirlər və özlərini incidilmiş hesab edəndə hiddətlənirlər. Onlar şərəf və ehtiramı sevirlər, amma qələbəni daha çox sevirlər, ona görə ki, gənclik üstünlüyə can atır, qələbə isə bir növ üstünlükdür. Mənfəətpərəstliyə nisbətən onlar bu iki keyfiyyətə daha çox malikdirlər: onlar heç mənfəətpərəst deyillər, ona görə ki, Pittakın Amfiaraya[32] qarşı kəlamında deyildiyi kimi "hələ ehtiyac görməyiblər. Onlar acıqlı deyil, mehribandırlar, ona görə ki, hələ çoxlu alçaqlıqlar görməyiblər. Onlar tez inanandırlar, ona görə ki, hələ çox şeydə aldadılmayıblar. Onlar ümidlərlə doludurlar, ona görə ki, gənclər şərabdan sərxoş olmuş adamlar kimi qaynardırlar; onlar həm də ona görə belədirlər ki, hələ çox şeydə uğursuz-

luğa düçar olmayıblar. Onlar əsasən ümidlərlə yaşayırlar, ona görə ki, ümid gələcəyə aiddir, xatirələr isə keçmişə; gənclərin isə gələcəyi uzun, keçmişi isə qısadır: ilk gün heç nəyi xatırlamamaq olar, amma hər şeyə ümid bəsləmək olar. Dediyimizin nəticəsi kimi onları tez aldatmaq olar: onlar ümidin təsirinə asan düşürlər. Onlar fövqəladə cəsurdurlar, ona görə ki, ümidlərlə dolu və alovludurlar; bu keyfiyyətlərdən birincisi onları əmin olmağa, ikincisi isə qorxmamağa məcbur edir. Qəzəbin təsiri altında olan heç kəs qorxu hiss etmir, nə isə yaxşı bir şeyə ümid bəsləmək isə cəsur olmaq deməkdir. Gənc adamlar utancaq olur: onlar sırf qanun ruhunda tərbiyə olunublar və başqa nemətlər haqqında təsəvvürə malik deyillər. Onlar alicənabdırlar, ona görə ki, həyat hələ onları alçaltmayıb və onlar ehtiyaca məruz qalmayıblar; özünü böyük nemətlərə layiq bilmək alicənablıqdır və bu, ümidlərlə dolu insana xasdır. Öz məşğuliyyətlərində onlar gözəl olanı faydalı olandan üstün tuturlar, ona görə ki, onlar haqq-hesabdan daha çox qəlblərinin hökmü ilə yaşayırlar; haqq-hesab faydalı olana, məziyyət isə gözəl olana aiddir. Gənclər başqa yaşda olan adamlara nisbətən dostları, ailəni və yoldaşları daha çox sevirlər, ona görə ki, birgəyaşayışdan zövq alır və heç nə haqqında fayda nöqteyi-nəzərindən fikir yürütmürlər, elə dostları haqqında da belə düşünmürlər. Onlar hər şeydə Zilonun kəlamına[33] zidd olaraq ifrat və israf kimi səhvə yol verirlər: onlar sevir və həddindən çox nifrət edirlər və bütün qalan şeylərdə də belədirlər. Onlar özlərini bilici hesab edir və bunu təsdiq edirlər; onların hər şeyi həddindən ziyadə etməsinin səbəbi budur. Onlar ədalətsizliyi də acığa görə deyil, təkəbbürlərinə görə edirlər. Onları incitmək asandır, ona görə ki, hamını vicdanlı və çox yaxşı hesab edirlər: onlar öz yaxınlarını öz şəxsi saflıqları ilə ölçürlər, buna görə də hesab edirlər ki, layiq olmadıqları halda incidiliblər. Onlar lağlağı etməyi və kəskin söz deməyi xoşlayırlar, çünki hazırcavablıq cilalanmış təkəbbür deməkdir.



13. *Qocalığa xas olan cizgilər*

Gənclərin xasiyyətləri belədir. Daha qoca və ahıl olan adamların xasiyyətlərinə gəldikdə isə, onların xasiyyətləri demək olar ki, əsasən yuxarıda şərh olunmuş cizgilərin əksindən tərtib olunmuşdur: belə ki, onlar çox illər ömür sürüblər və çox şeydə aldadılıblar və səhv ediblər, insanın gördüyü işlərin böyük hissəsinin əhəmiyyətsizliyi üzə çıxdığından onlar heç nəyi müsbət təsdiqləmir və hər şeyi lazım olduğundan az edirlər. Onların hamısı "fərz edirlər", amma heç nə "bilmirlər"; öz qərarsızlıqlarına görə həmişə "ola bilər" və "bəlkə də" əlavə edir və hər şey haqqında belə deyərək heç nə haqqında qəti fikir yürütmürlər. Onlar pisxasiyyətdirlər, ona görə ki, pisxasiyyətlilik hər şeyi pis tərəfdən başa düşməkdir. Onlar heç kəsə inanmadıqlarına görə hər şeydən şübhələnirlər, inanmamaq isə təcrübələrinin nəticəsidir. Buna görə də onlar nə güclü sevir, nə də nifrət edirlər, amma Biantın[34] məsləhətinə uyğun elə sevirlər ki, sanki nifrət etməyə hazırlaşırlar və elə nifrət edirlər ki, sanki sevməyə hazırlaşırlar. Onlar cəsarətsizdirlər, ona görə ki, həyat onları tam ram edib: onlar böyük və qeyri-adi heç bir şey arzulamırlar, onlara ancaq mövcudluqları üçün faydalı olan lazımdır. Onlar əliaçıq deyillər, ona görə ki, əmlak zəruri olan şeylərdən biridir, bununla belə onlar öz təcrübələrindən bilirlər ki, əldə etmək çətin, itirmək isə necə də asandır. Onlar qorxaqdır və ancaq qabaqcadan ehtiyat edirlər; onlar gənclərə əks şəkildə köklənibləр: onları illər soyudub, gənclər isə alovludur; beləliklə, qocalıq qorxaqlığa yol açır, çünki qorxunun özü soyumaqdır. Onlar həyata bağlıdırlar və son günlərinə yaxınlaşdıqca bu bağlılıq daha da artır, ona görə ki, arzu həmişə olmayan və insanların ən çox ehtiyacı olan şeyə, xüsusilə istədikləri şeyə aid olur. Onlar lazım olduğundan daha çox eqoistdirlər, ona görə ki, bu əslində müəyyən qəbildən olan qorxaqlıqdır. Onlar lazım olduğundan daha çox

gözəl olan üçün deyil, faydalı olan üçün yaşayırlar, ona görə ki, onlar eqoistdirlər, belə ki, faydalı olan insanın özü üçün nemətdir, gözəl olan isə heç kəsdən asılı olmayan bir nemətdir.[35] Onlar utancaq olmaqdan daha çox həyasızdırlar, ona görə ki, gözəl və faydalı olana eyni cür yanaşmırlar, onlar reputasiyanı yaradan şeylərə məhəl qoymurlar. Onlar təcrübəli olduqlarına görə ümidlərə qapılmırlar, çünki gündəlik ümidlər əsasən əhəmiyyətsizdir və çox vaxt puça çıxır; onlar həm də qorxaq olduqlarına görə belədirlər. Onlar daha çox ümid ilə deyil, xatirələrlə yaşayırlar. Çünki onlar üçün həyatın qalan hissəsi qısadır, yaşadıqları hissə isə uzundur, ümid gələcəyə, xatirələr isə keçmişə aiddir. Onların çox danışmaqlarının səbəbi də bundadır: onlar daim olub-keçənlər haqqında danışırlar, ona görə ki, xatirələrə dalarkən həzz hiss edirlər. Onların qəzəbi alovludur, amma gücsüzdür, onlarda ehtirasların bəziləri yoxa çıxıb, başqaları isə öz gücünü itirib, buna görə də onlar arzulanmağa və öz arzularına uyğun hərəkət etməyə meylli deyil, onlar ancaq mənfəətə uyğun hərəkət edirlər. Buna görə də, bu yaşda insanlar sakit görünürlər, çünki, onların ehtirasları zəifləyib və mənfəətə tabe olub. Onlar öz həyatlarında qəlblərinin deyil, daha çox mənfəətin hesabını rəhbər tuturlar, çünki, haqq-hesab faydalı olanı, qəlb isə məziyyəti nəzərdə tutur. Onlar təkəbbürləri deyil, acıqları hesabına ədalətsiz hərəkət edirlər. Qocalara da əzab çəkmək xas olan şeydir, amma bu gənclərin çəkdiyi əzabın səbəbinə görə deyil: gənclərdə bu insanpərvərliyə görədir, qocalarda isə gücsüzlükdən, çünki, onlar bütün bədbəxtliklərə özlərinə yaxın olan bir şey kimi baxırlar, bu isə dediyimiz kimi, insanın əzab çəkməyini mümkün edir. Buna görə də onlar deyingən olur, nə zirəklik, nə də güləyənlik etmirlər, ona görə ki, deyingənlik güləyənliyə əksdir.

Gənclərin və qocaların xasiyyətləri belədir, hamı öz xasiyyətinə uyğun nitqlərə və özləri kimi yaxşı münasibət bəslədiyinə görə, burada deyilənlərdən aydındır ki, natiqlər



həm özlərinin, həm də nitqlərinin belə görünməsi üçün öz nitqlərində nə etməlidirlər.

### 14. *Yetkin yaşa uyğun xarakter cizgiləri*

Yetkin yaşlı adamlara gəldikdə isə, aydındır ki, onlar öz xasiyyətlərinə görə göstərilmiş iki yaş arasında olacaq və nə onun, nə də digərinin ifratçılığa malik olmayacaq, nə də həddindən çox cəsurluq göstərməyəcəklər (çünki, belə keyfiyyət ötkəmlikdir), nə də artıq dərəcədə qorxaqhq etməyəcəklər, amma həm buna, həm də ona lazımi olduğu qədər diqqət verəcək və hamıya nə etibar, nə də etibarsızlıq göstərmədən, ancaq həqiqətə daha çox uyğun fikirləşərək, nə sırf gözəl olan üçün, nə də sırf faydalı olan üçün deyil, həm onun, həm də digəri üçün birlikdə yaşayaraq, nə xəsisliyə, nə də israfçılığa meyl etmədən lazım olan ölçünü rəhbər tutacaq. Onlar həm qəzəbə, həm də arzulara eyni qaydada münasibət göstərirlər. Onlar cəsarətlərini ağılla, ağıllarını isə cəsarət ilə birləşdirirlər. Gənclərdə və qocalarda bu keyfiyyətlər ayrılmış şəkildə olur, çünki, gənclər mərd və özbaşma, qocalar isə ağıllı və qorxaq olurlar. Ümumiyyətlə desək, yetkin yaşda olanlar gənclərdə və qocalarda ayrı-ayrılıqda olan bütün faydalı keyfiyyətlərə sahibdirlər, gənclərin və qocaların həddindən çox və ya az dərəcədə sahib olduqları keyfiyyətlərə gəldikdə isə onlar belə keyfiyyətlərə uyğun və orta dərəcədə sahibdirlər. Bədən öz çiçəklənən vaxtına otuz ilə otuz beş yaş arasında, qəlb isə qırx doqquz yaşında çatır.[36]

### 15. *Nəcib mənşədən olan insanlara xas xarakter cizgiləri*

Gənclik, qocalıq və yetkinlik haqqında, bu yaşlardan hər birinin hansı xarakterə malik olması barəsində bunları demək olar. İndi isə taledən (tychēs) asılı olan nemətlər

haqqında danışaq, belə ki, onlarm nəticəsində məlum xarakter yaranır.

Mənşənin (eygeneia) nəcibliyi xarakterə elə təsir edir ki, nəticədə bu adam çox şöhrətpərəst olur: nəyə isə sahib olan bütün insanlar özlərinin bu malını qənaətlə yığırlar, mənşənin nəcibliyi isə əcdadların şan-şərəfli vəziyyətidir. Nəcib mənşəli insanlar hətta onların əcdadları kimi adamlara da həqarətlə baxırlar, ona görə ki, əcdadların əməlləri çox uzaqda qaldığı üçün, daha şərəfli görünür və həmin əməlləri yaxında etmişlərin yanında lovğalanmaq üçün daha çox əsas verir. "Nəcib mənşə" adı nəslin adlı-sanlı olmasın, "xarakterə görə nəciblik" adı isə təbiətlə müqayisədə cırlaşmanın getmədiyini göstərir, bu da əsasən nəcib mənşəli insanlarda baş vermir, belə ki, adətən onlar özlüyündə xüsusi bir şeyi təmsil etmirlər (eyteleis).

Görkəmli kişilərin nəslində bir növ torpağın yaratdığı əsərlərdə olduğu kimi bəzən məhsul olur və əgər nəsil yaxşıdırsa, ondan bir müddət görkəmli kişilər çıxır, amma sonra onlar yoxa çıxır, gözəl, istedadlı nəsillər cırlaşaraq dəlisov xarakterlərlə nəticələnir, məsələn: Alkiviad və Böyük Dionisinin nəsli kimi; Kimonun, Periklin və Sokratın[37] sanballı nəslinin xələflərində isə cırlaşmaq nəticəsində səfehlik və keylik əmələ gəlib.

### 16. *Varlı adamlara xas olan xarakter cizgiləri.*

Var-dövlət ilə bağlı xarakter gəldikdə isə onu hamı asanlıqla görə bilər: varlı adamlar təkəbbürlü və lovğa olaraq müəyyən mənada vardan asılı olurlar. Onlar özlərini elə tuturlar ki, elə bil bütün nemətlərə sahibdirlər; var-dövlət bütün qalan nemətlərin dəyərləndirilməsi üçün bir növ meyardır, buna görə də, elə görünür ki, nemətlərin hamısı pul ilə alma bilər. Onlar dəbdəbəyə və özlərini tərifləməyə meyllidirlər, özü də dəbdəbənin özünə görə dəbdəbəyə və öz rifahım hamıya nümayiş etdirmək xatirinə meyllidirlər; onlar özlərini öyən və pis tərbiyə görmüş olurlar, çünki, bütün adamlar adətən nəyi sevdikləri və nəyə təəccüb etdikləri haqqında daim danışırlar və buna görə də onlar, yəni varlı adamlar fikirləşirlər ki, hamı onların qayğılarına bənzər qayğı çəkir. Bununla belə, onlar bu cür fikirləşməkdə haqlıdırlar, çünki, sərvəti olan adamlara ehtiyacı olan adamlar çoxdur. Simonidə "varlı olmaq yaxşıdır, ya müdrik?" sualını verən Giyeronun arvadına müraciətdə deyilmiş kəlam buradan yaranıb.[38] Simonid deyir: "Varlı olmaq yaxşıdır, ona görə ki, müdriklərin daim varlıların qapısı ağzında durduqlarını görürük". Varlılar həm də onunla fərqlənirlər ki, özlərini hökmranlıq etməyə layiq görürlər, çünki, onların fikrincə, insanları hakimiyyətə layiq edən şeyə malikdirlər. Ümumiyyətlə, var-dövlətin verdiyi xarakter düşüncəsiz və xoşbəxt adamın xarakteridir. Təzəcə varlanmış adamların xarakteri çoxdan varlanmış adamların xarakterindən məhz onunla fərqlənir ki, təzəcə varlanmış adamlar böyük və pis dərəcəli nöqsanlara sahibdirlər, çünki, təzəcə varlanmış olmaq bir növ tərbiyəsiz varlı adam deməkdir. Onların törətdikləri ədalətsiz hərəkətlər kindən deyil, təkəbbür və öz nəfsinə yiyə dura bilməməkdəndir (məsələn, adam döymək və zinakarlıq).

### 17. *Qüdrətli (hakimiyyətdə olan), xoşbəxt (bəxti gətirən) adamlara xas xarakter cizgiləri*

Eyni surətdə aydındır ki, hakimiyyətlə əlaqədar xarakterin bütün əsas cizgilərini demək olar, ona görə ki, hakimiyyət var-dövlətin sahib olduğu eyni cizgilərə, hətta daha yaxşılarına sahibdir. Hakimiyyətə sahib olan adamlar öz xarakterlərinə görə varlı adamlardan mərd və şöhrətpərəstdirlər, ona görə ki, onlar hakimiyyətdə olmalarının nəticəsində yerinə yetirilməsi mümkün olan işlərə can atırlar. Onlar daha qayğıkeşdirlər, çünki hakimiyyətə aid olan hər şeyə nəzarət edərək çox çalışıb-çabalayırlar. Onlar özləri böyük

vüqar və təşəxxüslə tuturlar, çünki onların yüksək rütbəsi onları daha təkəbbürlü edir; məhz buna görə də onlar özlərini məhdudlaşdırırlar. Onlarm vüqarı yumşaqlığı ilə seçilir, təşəxxüsləri isə ədəbi ilə fərqlənir. Onlar ədalətsiz davrananda da onların hərəkətləri əhəmiyyətli görünür.

Xoşbəxt (eytychia), uğurlu adamın xarakterinə gəldikdə isə, o, qismən göstərdiyimiz xarakter cizgilərinə malikdir, ona görə ki, ən ali şey kimi görünən xoşbəxtlik hakimiyyətə və yaxşı uşaqlara malik olmağa aid olunur; xoşbəxtlik öz ardınca fiziki nemətlər bolluğu gətirir. Xoşbəxtliyin təsiri altında insanlar heç kəsi bəyənməyən və düşüncəsiz olurlar; xoşbəxtlik ilə xarakterin ən gözəl bir cizgisi bağlıdır ki, bu da məhz xoşbəxt insanlar allahsevən olurlar; onlar bəxtlərinin belə gətirməsi nəticəsində əldə etdiklərinə görə tanrıya inanır və ona lazımi qaydada münasibət bəsləyirlər.

Biz xarakter cizgiləri haqqmda yaşa və xoşbəxtliyə uyğun şəkildə damşdıq; əks olan isə əks olandan aydın olur, məsələn, kasıb və bədbəxt, hakimiyyətə malik olmayan adamm xarakteri.

### 18. *Hər bir natiqin öz nitqinə təqib etdiyi məqsəd. – Hər üç növdən olan nitqlərdə yararlı olan sübutetmə üsulları*

İnandırıcı nitqlər qərar qəbul etmək üçün tətbiq olunur (ona görə ki, bildiyimiz və haqqında qərar qəbul etdiyimiz şey üçün heç bir nitq lazım deyil), bu isə o halda olur ki, o vaxt kim isə nitqin köməyi ilə hər hansı bir şəxsi ya dilə tutur, ya da çəkindirir, məsələn, adamlar hakimi dilə tutaraq və inandıraraq belə edirlər; ümumiyyətlə, kimi inandırırlarsa, demək o da hakimdir; və fərqi yoxdur, adam öz nitqini rəqibinə müraciətlə deyir, ya da təklif olunmuş mövzuda danışır, ona görə ki, nitqdən istifadə edərək əks rəyləri darmadağın etmək lazımdır, nitqin düşməni əks rəylərdir. Epideyktik nitqlərdə də belə qaydada hərəkət etmək lazımdır, çünki, nitq dinləyicidə bir növ hakimi görür. Ətrafında mübahisələr və məsləhətləşmələr gedən mövzu əsas məsələ olur.



Daha əvvəl, məşvərətçi[39] nitqlərdən danışan zaman biz dövlət quruluşu növlərinə uyğun xarakterlər haqqmda danışdıq, odur ki, biz indi dinləyicilərin xasiyyətlərinə uyğun, etik nitqləri necə və nəyin köməyi ilə tərtib etməli olduğumuzu araşdırmahyıq.

Madam hər bir nitq növünün xüsusi məqsədini göstərdik[40] və onların hamısı haqqında rəy və mühakimələri topladıq ki, məşvərətçi, epideyktik və məhkəmə nitqlərində natiqlər inandırma üsullarını onlardan əxz edir, madam, bundan başqa biz araşdırdıq ki, nəyin köməyi ilə nitqləri etik eləmək olar, onda bizim üçün ancaq ümumi prinsiplər haqqmda danışmaq qalır, çünki, hamıya öz nitqlərində mümkün olan və mümkün olmayan şeylər haqqmda mühakimələrdən istifadə etmək və bəzilərinə nəyin isə olduğunu, başqalarma nəyin isə olacağmı göstərmək vacibdir. Bundan başqa, böyüklük haqqmda top bütün nitqlər üçün ümumidir, belə ki, mübaliğə və kiçiltmə fiqurlarından bütün natiqlər – həm inandıran, həm çəkindirənlər, həm tərif və məzəmmət edənlər, həm də təqsirləndirən və bəraətləndirənlər istifadə edirlər.

Bunu nəzərdən keçirərək biz ümumiyyətlə entimemalar haqqında, əgər bir şey tapsaq, misallar haqqında danışmağa cəhd edəcəyik ki, qalanlarını da əlavə edərək ən əvvəldən qarşımıza qoyduğumuz vəzifəni yerinə yetirək.

Dediyimiz kimi[41] toplardan epideyktik nitqlərə daha çox mübaliğə topu, məhkəmə nitqlərinə "baş vermiş" topu xasdır, çünki baş vermişə görə qərar çıxarılır, məşvərətçi nitqlərə isə "mümkün" və "gələcək" xasdır.

## 19. *"Mümkün olan" və "mümkün olmayan" anlayışları. – Bu anlayışlara uyğun gələn nədir? – Ehtimala əsaslanan sübutlar (keçmişə və gələcəyə dair). – Böyük və kiçik olan haqqında*

Əvvəlcə mümkün olan və mümkün olmayan haqqında danışaq. Əgər əks olan tərəflərdən biri mövcud ola bilərsə, onda o biri tərəf də mümkün görünə bilər, məsələn, əgər insan üçün sağalmağa imkan varsa, onda xəstələnməyə də imkan var, çünki, eyni bir imkan (qabiliyyət) hər iki əks tərəfə aiddir, onlar elə buna görə də əksdirlər. Əgər bir şey mümkündürsə, onda ona uyğun başqa şey də mümkündür. Əgər daha çətin şey mümkündürsə, onda daha asan şey də mümkündür. Əgər nə isə yaxşı və gözəl görkəmdə ola bilərsə, onda o, ümumiyyətlə, adi halda da ola bilər, çünki, yaxşı evin yaradılması adi evin yaradılmasından çətindir.

Bir şeyin əvvəli yarana bilirsə, onun sonu da yarana bilər, çünki, mümkün olmayan şeylərdən heç nə yaranmır, nə də yarana bilməz, məsələn: diametrin ortaq ölçüləri yarana bilməz və yaranmır. Sonu mümkün olan şeyin əvvəli də mümkündür, çünki, hər şey əvvəldən başlanır. Həyat ya da törəmək nəticəsində yaranan bir şey varsa, onda əvvəldə gələnin olması da mümkündür, məsələn, kişi yaranıbsa, onda uşaq da yarana bilər, çünki sonuncu əvvəl gəlir. Əgər uşağın yaranması mümkündürsə, onda kişi də yarana bilər, çünki, uşaq başlanğıc deməkdir. Təbiətən sevgi və ehtiras predmeti olan şey də mümkündür, çünki, böyük əksəriyyətlə heç kim mümkün olmayan şeyləri arzulanır. Elm və incəsənətin predmeti olan şeylər də ola bilər, var və yarana bilər. Həm də elə şey mümkündür ki, onun başlanğıcı bizim məcbur edə bildiyimiz və ya inandıra bildiyimiz adamlarm ixtiyarında olsun, bizim qüvvəcə üstün olduğumuz, əmrimizdə olan, ya da dost olduğumuz adamlar beləlaridir. Hissələri mümkün olan tam da mümkündür və çox halda tamı mümkün olanm hissələri də mümkündür, çünki əgər prosxizma, kefalida və



xiton[42] yarana bilərsə, onda ayaqqabı da yarana bilər, əgər ayaqqabı yarana bilərsə, onda prosxizma və kefalida da yarana bilər. Əgər cins mümkün olan şeylərin sırasına daxildirsə, onda növ də mümkündür, əgər növ mümkün olan şeydirsə, onda cins də mümkündür; əgər gəmi mümkündürsə, onda triera da mümkündür, əgər triera mümkündürsə, onda gəmi də mümkündür. Əgər təbiətlərinə görə qarşıhqlı nisbətdə olan iki şeydən biri mümkündürsə, onda onlardan ikincisi də mümkündür, məsələn, əgər iki misal mümkündürsə, onda onun yarısı da mümkündür, əgər yarı mümkündürsə, onda iki misli də mümkündür. Əgər hər hansı bir şey təcrübəsiz və hazırlıqsız halda yaradıla bilibsə, onda məharətin və təcrübənin köməyi ilə daha çox mümkün ola bilər, məhz buna görə də Aqafon deyib:

Ancaq bir şeyi məharətlə eləməliyik
O biri bizə zərurət və qismətdən özü çatacaq.[43]

Daha pis, daha zəif və daha az dərrakəli insanlar üçün mümkün olan, onlara əks olan insanlara daha da çox mümkündür. İsokrat da belə demişdir ki, Evfinin öyrəndiyi şeyi, onun özünün icad edə bilməməsi qəribə olardı.[44] Mümkün olmayana gəldikdə isə, aydındır ki, bu deyilənlərin əksinə olanlar ona aid olmalıdır.

Nəyin isə baş verdiyinin sübutunu aşağıdakıların köməyi ilə etmək olar. Birincisi, əgər hadisələrin təbii axarında az rast olunan şeylər baş verirsə, onda tez-tez rast olunan şeylər də baş verə bilər. Əgər adətən sonra baş verən şeylər baş veribsə, deməli, əvvəl olmalı olanlar da baş verib, məsələn, əgər kim isə nəyi isə unudubsa, deməli, haçansa onu bilib. Əgər birisi nəyi isə düzəltməyi arzulayırsa və bunu bacara bilirsə və arzusunu yerinə yetiribsə, bu o deməkdir ki, hamı nəyi isə arzulayanda imkan tapan kimi arzusunu yerini yetirəcək və heç nə ona mane olmayacaq. Yenə də, əgər insan nəyi isə arzulayırsa və kənardan ona heç nə mane ol-

mursa, əgər o, mümkün olanı arzulayırsa, əgər o, qəzəblənirsə, əgər əlləşə bilirsə, onda o, məqsədinə çatacaq, çünki, əksər insanlar can atdıqları şeyi edirlər; ancaq yaxşı şeyləri arzulayan, mənəvi cəhətdən yaxşı adamlar öz hövsələsizlikləri ucbatından bunu etməyə yararsızdırlar. Əgər birisi nə isə etmək niyyətinə düşürsə, təbiidir ki, o, niyyətini həyata keçirəcək. Əgər hər hansı bir şey öz təbiətinə görə başqa bir şeydən əvvəl və ya başqa bir şeyin nəticəsində baş verirsə, məsələn, əgər ildırım guruldayırsa, deməli, şimşək artıq çaxıb, əgər insan nə isə bir şey edibsə, onda bunu etmək üçün cəhd edib; bütün bu hadisələrin bəziləri zərurət, digər çox hissəsi isə təsadüf xarakteri daşıyır. Baş verməyənə dair sübutları isə aydmdır ki, deyilənlərin əksi olanlardan götürürük.

Olacağa gəldikdə isə, aydındır ki, burada məsələ eynidir: bizim üçün mümkün olan və arzuladığımız, bizim ehtirasımız, qəzəbimiz və haqq-hesabımız ilə bu işin mümkünsüzlüyünün birləşməsinə uyğun gələn, eləcə də bizim niyyət və səylərimizin sahəsində yerləşən (ona daxil olmayan şeylərdən daha çox baş verir) şeylər olacaq. Əgər öz təbiətinə görə nədən isə əvvəl baş verən şey artıq baş veribsə, məsələn, əgər səma buludlarla örtülübsə, onda çox ehtimal ki, yağış yağacaq. Əgər adətən başqa bir şeyə görə olan şey baş veribsə, məsələn, bünövrə salınıbsa, deməli ev də tikiləcək.

Şeylərin nəhəngliyinə və balacalığına, böyüklüyünə və kiçikliyinə və ümumiyyətlə iriliyinə və xırdalığına gələndə isə burada bizim üçün hər şey əvvəl dediklərimizdən aydındır, çünki, biz məşvərətçi nitqlər haqqmda danışanda nemətlərin böyüklüyündən və ümumiyyətlə böyük və kiçik olan şeylərdən söz açmışdıq, hər bir nitq növünün özünə aid nemət şəklində məqsədi olduğu üçün (gözəl olan və ədalətli olan anlayışları kimi), onda aydındır ki, verilmiş sübutların köməyi ilə hər bir nitq növünü gücləndirmək (ayxẽseis) lazımdır. Böyüklük və üstünlük haqqında, ümumiyyətlə dediklərimizdən əlavə tədqiqat aparmaq, boş danışmaq demək olardı.



Çünki, təcrübə üçün özəl hadisələr ümumi hadisələrdən daha çox əhəmiyyətə malikdir.

Mümkün və mümkün olmayan haqqında, nəyin isə baş verib-verməməsi haqqında, olacağı və ya olmayacağı haqqında, eləcə də şeylərin böyüklüyü və kiçikliyi haqqmda məhz bunu demək lazımdır.

20. *Misal və entimema. – Misalların, müqayisələrin və təmsillərin (ibrətli həkayələrin) iki növü. – Misallardan necə və nə zaman istifadə etmək lazımdır?*

Madam biz inandırma üsullarının xüsusi halları üçün olanlar haqqında damşmışdıq, onda indi bütün hallar üçün ümumi olan üsullardan danışaq. Ümumi inandırma üsulları ikili növdə olur: misal və entimema, belə ki, misal entimemanın bir hissəsidir. Beləliklə, əvvəl misal haqqında deyək, ona görə ki, misal istiqamətləndirməyə oxşayır, istiqamətləndirmə isə əvvəldir.

İki cür misallar var: misalın birinci növünün mahiyyəti odur ki, əvvəllər baş vermiş faktlar göstərilir, digər növündə isə natiq onları özü yazır; natiqin yazdığı ya ibrətli həkayə, ya da təmsil ola bilər, onlara misal kimi Ezopun təmsillərini, Liviya təmsillərini[45] göstərə bilərik. Faktları da belə misal gətirmək olar: demək olar ki, İran şahına qarşı müharibəyə hazırlaşmaq lazımdır və ona Misiri tutmağa imkan verməк lazım deyil, çünki, əvvəllər Dari[46] Misiri işğal etməmiş Yunanıstana keçmirdi, amma onu işğal etdikdən sonra keçirdi. Kserks[47] də eynilə Yunanıstanın üstünə Misiri işğal etməmiş getmədi, Misiri tutduqdan sonra isə hücum etdi, odur ki, indi hakimiyyətdə olan da Misiri işğal etsə Yunamstana keçəcək, buna görə də, ona bunu etməyə imkan vermək olmaz. İbrətli həkayə (müqayisə) – bu Sokratın üsuludur, məsələn, əgər birisi desə ki, hakimiyyəti püşk yolu ilə seçmək lazım deyil, çünki, bu ona bənzəyir ki, püşk yolu ilə yarışlar üçün

atletliyə qabil olan adamlar deyil, püşkə düşən adamları götürsünlər, ya da gəmiçilər arasında püşk atmaq yolu ilə gəmini idarə edəcək şəxsi seçsinlər, elə bil bunu bu işi bilən adam yox, püşkü udan adam etməlidir. Təmsil isə Stesixorun Falarid haqqında hekayəsinə və Ezopun demaqoqların[48] müdafiəsinə yazdığı hekayəyə oxşayır. Himeranın sakinləri Falaridi qeyri-məhdud hakimiyyətli sərkərdə seçərək ona cangüdən təyin etmək istəyən zaman Stesixor buna qarşı müxtəlif dəlillər gətirərək onlara otlağa təklikdə sahib olan at barəsində təmsili danışır; Maral otlağı zay etməyə başlayanda, at maraldan qisas almaq üçün hansı isə adamdan ona bu işdə kömək edib-etməyəcəyini soruşur: o, cavab verir ki, edə bilər, o şərtlə ki, atı yüyənləsin və özü əlində nizə onun üstündə otursun. At buna razılaşandan və o, atın üstünə oturandan sonra maraldan qisas almaq əvəzinə at özü köləliyə düşür. "Siz də belə, muğayat olun ki, düşmənlərdən qisas almaq əvəzinə, atın düşdüyü vəziyyətə düşməyəsiniz: madam ki, siz qeyri-məhdud hakimiyyətli sərkərdə seçmisiniz, demək artıq yüyəniniz var; əgər siz ona üstəlik cangüdənləri də versəniz və üstünüzə oturmağa qoysanız, onda Falaridin qulları olacaqsınız". Samos adasında camaatın ölümə məhkum etmək istədiyi demaqoqu müdafiə edən Ezop danışır ki, çayı keçmək istəyən tülkü yarğana düşür; oradan çıxa bilməyən tülkü uzun müddət əzab çəkir və onun dərisinə çoxlu gənə yapışır, oradan keçən kirpi onu görür və ona yazığı gəlir və gənələri təmizləməyi təklif edir, ancaq tülkü buna razılaşmır. Niyə sualına isə belə cavab verir: "Bu gənələr artıq məndən doyublar və az qan sorurlar, əgər onları təmizləsən, onda ac olan yeniləri gələcək və mənim olan – qalan qanımı da soracaqlar". Ey Samosa kişiləri bu adam da, artıq sizə heç bir ziyan vura bilməz, ona görə ki, o, varlıdır. Əgər onu öldürsəniz, onda başqa kasıblar gələcəklər və ictimai sərvəti oğurlayaraq sizi müflis edəcəklər". Təmsillər xalq yığıncaqlarında istifadə olunur; onların bir yaxşı tərəfi var: adətən hər hadisə üçün uyğun gələn, keçmişdə baş vermiş faktları tapmaq çətindir, amma təmsilləri isə tapmaq daha asandır, onları həm də pritçaları yazmaq lazımdır, əlbəttə ki, bunun üçün oxşar cizgiləri görmək lazımdır ki, bunu fəlsəfənin köməyi ilə asanlıqla etmək olar. Xəyal sahəsində misallar tapmaq asandır, amma faktlara əsaslanaraq nə isə məsləhət vermək daha faydalıdır, çünki gələcəyin böyük hissəsi keçmişə oxşardır.



Misallardan ancaq o hallarda istifadə etmək olar ki, o vaxt sübutlar üçün entimemaların olmasın, çünki inandırmaq üçün hər hansı sübut lazımdır, entimemalar olanda isə misalları entimemalardan sonra epiloq kimi yerləşdirərək onlardan şahid kimi istifadə etmək lazımdır. Əgər onları əvvəldə qoysaq, onda onlar istiqamətləndirməyə bənzəyəcəklər, bəzi müstəsna halları nəzərə almasaq, ritorik nitqlərə istiqamətləndirmə xas deyil; onları sonda yerləşdiriləndə şəhadətə bənzəyirlər, şahid isə həmişə inam yaradır. Buna görə də, misalları əvvəldə yerləşdirən adamlar daha çox misal gətirməlidirlər, onları sonda yerləşdirənlər üçün isə biri kifayətdir, çünki inama layiq şahid hətta tək olsa belə faydalıdır. Beləliklə, biz misalların neçə növünün olduğunu və onlardan necə və nə vaxt istifadə etmək lazım olduğunu dedik.

### 21. *Kəlamın tərifi, onun entimemalara münasibəti. Kəlamların dörd növü. - Kəlamlardan necə istifadə etmək lazımdır? – Kəlamların istifadəsinin iki faydalı tərəfi*

Kəlamların istifadəsinə gəldikdə isə, kəlamın nə olduğunu müəyyən edəndən sonra tamamilə aydın olacaq ki, nəyə dair, nə vaxt və kimə kəlamlardan nitqlərdə istifadə etmək münasibdir. Kəlam təsdiq olunmuş fikirdir, amma ayrı-ayrı hallara, məsələn, İfikratın necə adam olmasına aid olmayıb, ancaq ümumi əhəmiyyətə malikdir; həm də bütün sahələrə də aid deyil (məsələn, düzün əyriyə əks olmasına), ancaq məişət işləri ətrafında olanlara aiddir; kəlamlar fə-

liyyətimizdə nəyi seçməyi, nədən isə uzaq durmağı bizim üçün nəzərdə tutur. Entimemalar belə işləri əhatə edən sillogizm olduğu üçün, entimemanın nəticə və dəlillərindən sillogizm formasını götürsək, onların kəlama çevriləcəyini demək olar, məsələn:

Təbiətdən sağlam düşüncəyə malik kişi gərək heç vaxt uşaqlarına
O qədər bilik verməsin ki, onlar həddindən çox müdrik olsunlar.

Bu kəlamdır, amma, ona səbəbi və izahı əlavə etsək ki, bu niyə belədir, onda onlar birlikdə entimema təşkil edəcəklər,

Məsələn:

Belə ki, onların nümayiş etdirdikləri avaraçılıqdan başqa
Onlar həm də öz həmvətənlərində düşməncəsinə həsəd hissi yaradırlar.[49]

Həmçinin:
Elə kişi yoxdur ki, hər şeydə xoşbəxt olsun.[50]
Həmçinin:
Elə kişi yoxdur ki, tam azad olsun.[51]
Bu kəlamdır, amma ona aşağıdakını əlavə edəndə entimema olur:
Biri sərvətin qulu olur, o biri isə talenin.[52]

Əgər çəkilən misallar kəlamdırsa, onda dörd kəlam növünü qəbul etmək vacibdir, çünki, kəlam həm epiloqla, həm də epiloqsuz ola bilər. Onların arasmdan paradoksal, ya da mübahisəli olan bir şey haqqında bəhs edənlərin sübuta ehtiyacı var, içində paradoksal heç bir şey olmayan başqaları isə epiloqsuzdurlar. Sonunculardan bəzilərinin epiloqa qətiyyən ona görə ehtiyacı yoxdur ki, nə dedikləri əvvəldən məlumdur və bu əksəriyyətin rəyidir, məsələn:



Bizə elə gəlir ki, kişi üçün ən yaxşı şey sağlam olmaqdır.[53]

Digərlərinin epiloqa ona görə ehtiyacı yoxdur ki, onları deyən kimi, onların mənası ilk baxışdan aydın olur, məsələn:

Əsil sevən odur ki, ömürlük sevsin.[54]

Epiloqlu kəlamların bəziləri entimemanın bir hissəsini təmsil edirlər, məsələn:

Təbiətdən sağlam düşüncəyə malik kişi gərək heç vaxt...[55]

Başqaları entimematik xarakter daşıyır, amma entimemaların hissələrini təşkil etmirlər: məhz onlar daha geniş məlumdurlar; onların hamısında onlarda söylənilənlərin səbəbi görünür, məsələn:

Ölümsüz qəzəb bəsləmə özün ölümlü olduğun halda...[56]

Çünki, "bəsləmə" sözü kəlam, ona birləşən "ölümlü olduğun halda" sözləri isə səbəbin izahıdır. Ölümlü ölüm haqqında düşünməlidir, ölümsüzlük haqqında yox"[57] kəlamı da eynilə belədir.

Deyilənlərdən aydındır ki, neçə növ kəlam var və onlardan hər biri nəyə yaşayar; iş mübahisəli və paradoksal şeylərə aid olanda epiloqsuz kəlam işlətmək olmaz, amma, ya epiloqu əvvəldə qoyaraq kəlamdan nəticə kimi istifadə etmək lazımdır (məsələn: mənə gəlincə isə, madam nə həsəd predmeti olmaq, nə də tənbəllik etmək lazım deyil, onda mən hesab edirəm ki, yaxşı tərbiyə almaq lazım deyil), ya da

axırda gələni əvvəl demək, sonra deyiləni isə əvvələ qoymaq lazımdır. İş paradoksal şeylərə deyil, aydın olmayan şeylərə aid olanda səbəbin ən qısa izahını kəlama qataraq istifadə etmək olar. belə hallarda lakonik kəlamlar və tapmaca görkəmində olan kəlamlar yararlıdır. Məsələn: Stesixor lokriyalılara belə deyib:

"Sizə təkəbbürlü olmaq yaraşmır, qoy cırcıramalar yerdən oxumasınlar". Yetkin insanlara yaşa görə və təcrübəsinə görə kəlamlardan istifadə etmək uyğundur. Belə yaşa çatmayan insanlara kəlam işlətmək, eləcə də əsatir danışmaq olmaz, bu ədəbsizlikdir, təcrübəsi olmayan şeydən kəlam demək isə dərrakəsizlik və tərbiyəsizlik əlamətidir. Kənd sakinlərinin tərbiyəsi kəlamların icalmda xüsusilə bacarıqlı olduğu və onlardan rahat istifadə etmələri buna sübutdur. İş ümumidə olmayanda "ümumən" demək şikayət və mübaliğə edilən zaman istifadəyə uyğundur; bu zaman "ümumən" ifadəsini ya əvvəldə, ya da sübutlardan sonra işlətmək lazımdır.

Geniş yayılmış və hamının istifadə etdiyi kəlamlardan istifadə etmək məsləhətdir (əlbəttə ki, əgər onlar yararlıdırsa). Məhz ona görə ki, hamılıqla işlədilən kəlamlar ədalətli görünür, onlar bir növ hamı tərəfindən olduğu kimi qəbul olunurlar, məsələn: qabaqcadan heç bir qurban vermədən öz əsgərlərini təhlükənin üstünə getməyə ruhlandıran sərkərdə onlara belə deyə bilər:

Ən yaxşı ancaq vətən üçün vuruşmaqdır,

Əsgərlər düşməndən zəif olsalar da onları döyüşə getməyə ruhlandıran isə belə deyə bilər:

Eniali hamı üçün eynidir.[59]

Heç bir günahı olmayan düşmən uşaqlarını öldürməyə əmr edən sərkərdə isə belə deyə bilər:

O kəsin ağlı yoxdur ki, atanı öldürüb
Uşaqlarını isə sağ qoysun.[60]



Bundan başqa, bəzi atalar məsəlləri eyni zamanda həm də kəlamdır, məsələn, "attikalı qonşu"[61] məsəli. Gəzən kəlamlara (mən gəzən kəlam kimi belələrini nəzərdə tuturam: "öz-özünü tanı, "artıq heç nə"[62]) zidd olan kəlamlardan da istifadə etmək lazımdır. Bunu o vaxt etmək lazımdır ki, misal gətirilən kəlam ya əxlaqi cəhətdən yaxşı görünsün, ya da ehtirasın təsiri altında deyilsin. Kəlamın mənbəyi ehtirasdır, məsələn, birisinin qəzəbin təsiri altında "öz-özünü tanımalısan" kəlamının yalan olduğunun söyləməsi halında olduğu kimi: "əgər filankəs öz-özünü tanısaydı, onda heç vaxt sərkərdə olmaq qabiliyyətində olduğunu hesab etməzdi".[63]

Əxlaqi mənada ən yaxşı kəlama bunu nümunə göstərmək olar: qəbul olunduğu kimi demək olmaz ki, elə sev, elə bil nifrət etmək niyyətindəsən, ondansa elə nifrət etmək lazımdır ki, elə bil sevmək niyyətindəsən. Bu zaman öz fikrini sözlərinlə aydın ifadə etməlisən, fikir aydın ifadə olunmayıbsa, ona epiloq şəklində izahat əlavə etmək lazımdır, məsələn: elə sevmək lazım deyil ki, qəbul edildiyi kimi olsun, elə lazımdır ki, elə bil əbədi sevmək niyyətindəsən, çünki, başqa cür sevmək məkrli adamlara xasdır. Ya da belə ifadə etmək olar: "mənə bu geniş yayılmış kəlam xoş gəlmir, çünki, əsil dost elə sevməlidir ki, elə bil o, əbədi sevmək niyyətində olub: "Eynilə bu kəlam mənə xoş gəlmir: "həddindən çox heç nə", çünki, pis adamlara ifrat dərəcədə nifrət etmək lazımdır. Kəlamlar nitqlər üçün böyük köməkdir, birincisi, ona görə ki, dinləyicilər şöhrət düşkünüdür, çünki birisi ümumi danışanda dinləyicilərdə artıq ayrıca hallar üçün yaranmış rəylərə uyğun danışanda, dinləyicilər sevinirlər. Mənim dediklərim sizə bunun ardınca dediklərimdən sonra aydın olacaq, həmdə sizə kəlamları hansı üsullarla axtarmaq lazım olduğu da aydın olacaq. Bizim dediyimiz kimi, kəlamlar ümumi əhəmiyyətli fikirdir, dinləyicilər isə xüsusi hallara münasibətdə onlarda yaranmış şəxsi rəylərə natiq ümumi əhəmiyyət verəndə sevinirlər; məsələn, pis qonşuları, ya da

pis uşaqları olan birisi natiqin belə sözləri ilə razılaşır ki, "qonşuluqdan çətin şey yoxdur" və ya "uşaq doğmaqdan cəfəngiyyat şey yoxdur". Beləliklə, natiq hansı şərtlərin hansı rəyləri qabaqcadan yaratdığını nəzərə almalı və onların barəsində ümumi nöqteyi-nəzərdən danışmalıdır. Kəlamların nitqdə işlədilməsinin birinci üstünlüyü belədir; ikinci üstünlük daha vacibdir: kəlamlar nitqlərə xarakter verir. Elə nitqlər özündə natiqin xarakterini əks edir ki, onlarda onun niyyətləri aydın olsun, bütün kəlamlar isə belədir, çünki, kəlamları misal gətirən şəxs onların vasitəsiylə ümumiyyətlə niyyətlər haqqmda fikrini bildirir. Odur ki, əgər kəlamlar öz əxlaqi mənasına görə yaxşıdırsa, onda kəlamlar onları misal gətirən adamın əxlaqi cəhətdən yaxşı xarakterli olduğunu göstərir.

Biz bunları kəlamlar haqqında deməyə lazım bildik: Kəlam nədir? Neçə növü var? onlardan necə istifadə etmək olar və onlar necə fayda verir.

İndi isə ümumiyyətlə entimemalar, onları hansı üsullarla axtarmaq lazım olduğu haqqında, sonra isə top haqqında danışaq, ona görə ki, bu şeylərin hər biri xüsusi bir qəbildəndir.

### 22. *Entimema, onun zəruri xassələri – Nəyin əsasında entimemaları qırmaq lazımdır? – Entimemanın iki növü*

Biz daha əvvəl[64] demişdik ki, entimema sillogizmdir və hansı şəkildə sillogizmdir və dialektik sillogizmdən nə ilə seçilir. Entimemaları mühakimələri çox uzaqdan götürərək, ya da mümkün olan hər şeyi qoşaraq tərtib etmək lazım deyil, çünki, birinci halda entimemalar uzunluğa görə anlaşılmaz alınacaq, ikinci halda isə sadəcə boşboğazlıq olacaq, belə ki, bayağı şeylər deyiləcək. Məhz bu səbəbdən savadsız insanlar kütlənin gözündə savadlılardan daha çox inandırıcıdır, şairlərin[65] dediyi kimi: savadsız adamlar kütlə qarşısında daha



melodik danışırlar; bəziləri (yəni savadlı adamlar) ümumi məsələlərdən ümumi nöqteyi-nəzərdən danışırlar, digərləri isə (yəni savadsız adamlar) kütləyə yaxın olan şeylər haqqında bildiklərini deyirlər. Beləliklə, faydalı görünən hər şeyin əsasında deyil, müəyyən kateqoriyadan olan şeylərin əsasında danışmaq lazımdır, məsələn, hakimlərə, ya da rəyləri ilə hakimlərin hesablaşdığı adamlara həqiqi kimi görünənlərin əsasında – bu ona görədir ki, məhz belə şeylər hamıya, ya da əksəriyyətə şübhəsiz kimi görünür; bununla bərabər entimemaları təkcə zəruri olandan deyil, həm də əksər hallarda olanlardan da tərtib etmək lazımdır.

Hər şeydən əvvəl bilmək lazımdır ki, siyasi və ya hər hansı bir sillogizmləri hansı səbəb üzündən demək və qurmaq lazımdır, madam ki, sillogizmi qurmaq üçün sərəncamında heç nə yoxdur, onda uyğun gələn dəlillərin hamısını, ya da bəzilərini əlimizin altında saxlamalıyıq. Mən burada belə bir halı nəzərdə tuturam: məsələn, biz afinalılara müharibəni davam etdirmək, ya da etdirməmək haqqmda məsləhəti afinalılarm qüvvələrinin necə olduğunu, nədən ibarət olduğunu – dəniz, ya da quru qoşunlarından, ya da hər ikisindən olduğunu, qüvvələrin nə qədər böyük olmasını, onların gəlirlərinin necə olduğunu, dost və düşmənlərinin kim olduğunu, əvvəl hansı müharibələri apardıqlarım və necə apardıqlarmı və başqa bu cür sualların cavablarını bilməyərək necə verə bilərdik. Ya da ki, Salamin dəniz döyüşü, ya da Marafon döyüşü, ya da Heraklidlər[66] üçün edilən şeylər, ya da buna bənzər başqa şeylər bizim hafizəmizdə həkk olmasaydı, biz onları necə tərifləyə bilərdik, ona görə ki, hamı tərifi gözəl əməllərə və ya belə görünən əməllərə əsaslanaraq edir. Eynilə belə, əks xarakterli faktlar əsasında da məzəmmət edirlər və bu zaman afinalıların əleyhinə belə şeylərin olub-olmadığını, məsələn, onların yunanları əsarət altına aldığını, ya da eqinetliləri və potideyləri, barbarlarla müharibə[67] zamanı öz müttəfiqlərini köləyə çevirdiklərini, ümumiyyətlə bu qəbildən olan bütün günahları nəzərdən keçirir-

lər. Eynilə bu cür, ittiham edən və müdafiə olunan insanlar da əldə olan faktlara əsaslanaraq ittiham edir və müdafiə olunurlar. Həm afinalılara, həm lakedemoniyalılara, həm insana, həm tanrıya fərq qoymadan belə yanaşmaq lazımdır: Axillə məsləhət verərkən, tərifləyərkən, yada məzəmmət edərkən, onu həm günahlandırarkən, həm də müdafiə edərkən – bütün bu hallarda həqiqi, ya da həqiqi kimi görünən faktları götürmək lazımdır ki, onların əsasmda ya tərif, ya da məzəmmət edilsin (əgər yaxşı və ya utanmalı bir şey varsa), ya ittiham, ya da bəraət olunsun (əgər ədalətsiz və ya ədalətli nə isə bir şey varsa), ya da məsləhət verilsin (əgər nə isə faydalı və ya ziyanlı bir şey varsa). Buna uyğun olaraq bütün başqa məsələlərdə belə mühakimələrəi yürütmək olar, məsələn, ədalətin nemət olub-olmaması haqqında – bu zaman ədalət və nemət anlayışlarmda olanlarm əsasında danışmaq lazımdır. Göründüyü kimi hamı daha çox, ya da az dərəcədə ciddi sillogizm qurmasmdan asılı olmayaraq (çünki onlar öz sübutlarını hər yerdən deyil, hər bir məsələyə aid əldə olanlardan götürürlər). Sübutlar bu qayda üzrə əsaslandırır və madam aydmdır ki, nitqin köməyi ilə başqa cür sübut etmək mümkün deyil, onda aydmdır ki, bunu nəzərə alaraq bizim "Topikdə"[68] dediyimiz kimi, "hər şeydən əvvəl hər bir məsələyə dair, nəyin olması və nəyin daha vacib olması haqqmda seçmə sübutlar həmişə əldə hazır olmahdır". Təsadüfi olaraq meydana çıxan məsələlərə gəldikdə isə dəlilləri eynilə belə qaydada axtarmaq lazımdır, bu zaman diqqəti qeyri-müəyyən bir şeyə deyil, sözügedən məsələdə olana vermək, işə mümkün qədər çox yaxın olan, mümkün qədər çox sayda dəlilləri şərh etmək lazımdır, çünki faktlara əsaslanan nə qədər çox dəlil olsa, onda sübut etmək bir o qədər asan olur və onlar məsələyə nə qədər yaxın olsalar, bir o qədər də faydalı olarlar, həm də bir o qədər ümumi olmazlar. Mən ümumi sübutlar deyəndə bunları nəzərdə tuturam, məsələn, Axillin ya insan olduğuna, ya yarımallahlar sırasına daxil olduğuna, ya da Troya əleyhinə müharibəyə yola düşdüyünə görə təriflənməsi; bütün bunlar bir çox başqalarına da aid olan cizgilərdir, ona görə də Axilli tərifləyən onu heç də Diomeddən[69] çox tərifləmir. Xüsusi sübutlar deyəndə isə mən Axilldən başqa heç kəsin başına gəlməyənləri nəzərdə tuturam, məsələn, Axillin ən yaxşı troyalı Hektoru və heç kəsi gəmidən düşməyə qoymayan çox güclü Kikni[70] öldürməsi, yürüşə gedən ən gənc hökmdar olması və heç bir and ilə məcbur edilməməsi kimi faktlarını və bütün buna bənzər sübutları.



Beləliklə, sübutları seçməyin bir üsulu budur və bu birinci topik üsuldur. İndi isə entimema elementləri haqqında danışaq: mən eyni şeyi həm entimemanın elementi, həm də topu adlandırıram. Əvvəlcə nədən başlamağın zəruri olduğunu demək lazımdır. Entimemaların iki növü var: bəziləri göstərən (yəni, nəyin isə mövcud olub-olmadığını göstərən), digərləri isə ifşaedicidir. Onlar bir-birindən eynilə dialektikada sübut (elegchos) ilə sillogizm kimi fərqlənirlər. Nümunəvi entimema rəqiblərin qəbul etdiyi mühakimələr əsasında qurulmuş sillogizmdir, ifşaedici entimema isə rəqiblərin qəbul etmədiyi mühaikmələr əsasında qurulmuş sillogizmdir. Demək olar ki, bütün faydalı və zəruri olan şeylərə dair toplar var, belə ki, hər bir məsələyə dair xüsusi mühakimələr var. Beləliklə, bizim əlimizdə əvvəlcədən qurulmuş mühakimələr var ki, onların əsasında yaxşı, ya pis, gözəl ya nöqsanlı, ədalətli, ya ədalətsiz haqqında, həm də xarakterlər, ehtiraslar və əxlaqi keyfiyyətlər haqqında entimemalar qurmaq lazımdır.

Ümumiyyətlə, entimemaları başqa nöqteyi-nəzərdən də gözdən keçirək. Bu zaman ifşaedici, göstərən entimemaların toplarım görüntülü entimemaların toplarından fərqləndirməliyik (hansılar ki, entimema deyillər, çünki sillogizm deyillər). Bunu izah edərək entimemaların həlli məsələsini və onlara əks təsirlərin haradan götürülməsi məsələsini araşdıraq.

23. *Entimemaları qurmaq üçün nitqdə istifadə olunan müxtəlif toplar. – İfşaedici entimemaların üstünlüyü*

Nümunəvi entimemalar üçün bir top əks olan anlayışdan ibarətdir; baxmaq lazımdır ki, əks olan üçün əks olan varmı, əgər əks olan varsa, sübut məhv edilməlidir, məsələn, "aza qane olmaq yaxşıdır, belə ki, nəfsə sahib olmamaq pisdir" sübutu belədir. Ya da Messena nitqində[71] olduğu kimi: "əgər indiki bəlaların səbəbi müharibədirsə, onda sülh bağlanan kimi biz özümüzə gəlməliyik".

Əgər özü istəmədən bizə pislik edənə qarşı qəzəblənmək ədalətsizlikdirsə,

Onda birisi bizə məcbur qalaraq yaxşılıq edəndə

Ona qarşı özümüzü minnətdar hesab etməyə məcbur deyilik.[72]

Və

Əgər insanlar qarşısında həqiqətəbənzər şəkildə yalan danışmaq mümkündürsə,

Onda sən əks olanı da ehtimal etməlisən ki,

Nə qədər, həqiqi olan, insanlarm gözünə qeyri-həqiqi kimi görünür.[73]

Digər top isə eyni qrammatik hallardan alınır, çünki belə hallarda bir şey eyni şəkildə, ya ola bilər, ya da ola bilməz, məsələn, belə bir mülahizə: "heç də bütün ədalətli olanlar yaxşı deyil, əks halda ədalətlə edilən hər şey yaxşı olardı, belə ki, ədalətli şəkildə ölmək bir az da olsa, arzuolunan deyil: daha bir top iki predmetin qarşılıqlı münasibətindən alınır, məsələn, əgər iki şəxsdən birinin gözəl və ədalətli hərəkət etdiyi faktdırsa, onda digər şəxsin bu hərəkətin təsirini öz üzərində hiss etməsi də faktdır, əgər bir şəxsin nəyi isə əmr etməsi faktdırsa, onda digər şəxsin də əmri yerinə yetirməsi faktdır, məsələn, iltizamçı (vergiyığan) Diomedont vergilər haqqında deyirdi: "əgər siz satmağa utanmırsınızsa – biz də



almağa utanmırıq". Əgər nəyi isə sınaqdan keçirmiş biri üçün bunun gözəl və ədalətli keçməsi faktdırsa, onda bu işi həyata keçirən üçün də bunun gözəl və ədalətli olması faktdır. Amma, burada düzgün olmayan bir nəticə də ola bilər, çünki, birisi ədalətli olaraq nəyə isə məruz qalıbsa, onda o, ədalətli olaraq zərər çəkib, amma, ola bilər ki, o, bu zərəri gərək məhz sənin tərəfindən görməyəydi. Buna görə də ayrıca baxmaq lazımdır ki, zərər görmüş şəxs zərər görməyə və zərər vurmuş isə zərər vurmağa layiqdirmi, artıq bundan sonra iki tərəfdən hansına isə uyğun olan faktlardan istifadə etmək lazımdır, çünki belə hallarda bəzən ziddiyyətlər yaranır, məsələn, Teodiktin " Alkmeon" əsərində:

Məgər sənin anana qarşı nifrət hiss etməmiş fani varmı?

Alkmeon cavab verir:

Amma burada müxtəlif nöqteyi-nəzərdən baxmaq lazımdır.

Alkmeon Alfasibeyanın sualına belə cavab verir:

Onlar onu ölümə məhkum etdilər, amma, onu mənim öldürməyim haqqında qərar çıxarmadılar.

Demosfenin və Nikanorun[75] qatillərinin məhkəməsi də belə qəbildən olan faktlardır: hakimlər qatillərin onu öldürməkdə ədalətli olduqları haqqında qərar çıxardılar, onda belə göründü ki, onun ölümü ədalətli olub. Eyni şeyi Fiva[76] şəhərində öldürülmüş adam haqqında da demək olar, ölümdə müqəssir bilinən şəxs təklif edir ki, onun ölməsinin ədalətə uyğunluğu mühakimə olunsun, axı necə ola bilər ki, ölməsi ədalətli olan şəxsi öldürmək ədalətsiz olsun.

Daha bir top böyük və kiçik anlayışmdan yaranır, məsələn: "əgər hətta tanrılar hər şeyi bilmirsə, onda çox çətin ki, insanlar da hər şeyi bilsinlər". Bu o deməkdir ki, əgər insanda böyük dərəcədə olmalı olan nə isə yoxdursa, onda aydındır ki, həmin şey onun az dərəcədə olmalı olduğu insanda da olmaz. "Öz atasını döyən, yaxınlarını da döyər" nəticəsi isə ondan irəli gəlir ki, əgər az varsa, onda çox da var,

belə ki, ataları yaxın adamlardan daha az döyürlər. Belə də sübut eləmək olar, ya da başqa cür: əgər insanda böyük dərəcədə sahib olduğu nə isə yoxdursa, ya da kiçik dərəcədə sahib olduğu nə isə varsa, həm bunu, həm də onu göstərmək lazımdır; nəyin isə olduğunu, ya da nəyin isə olmadığını sübut etmək lazım gəlir. Bu top o halda qüvvəyə malikdir ki, o zaman müəyyən bir şey hər iki tərəfdə nə böyük dərəcədə, nə də kiçik dərəcədə olmasın, buna görə də deyiblər:

Sənin də atan təəssüfə layiqdir, çünki o, uşaqlarını itirib

Bəs öz şərəfli xələfini itirmiş Oyney də təəssüfə layiq deyilmi.[77]

Elə məhz buna görə deyirlər ki, əgər Tesey ədalətsizlik etməyibsə, onda Aleksandr da onu etməyib, əgər Tindaridlər[78] ədalətsiz hərəkət etməyibsə, onda Aleksandr da belə etməyib, əgər Hektor Patrokla qarşı ədalətsizlik etməyibsə, onda Aleksandr da Axillə qarşı belə etməyib. Əgər hər hansı bir iş üzrə mütəxəssislər əhəmiyyətsiz deyildirlərsə, onda filosoflar da əhəmiyyətsiz deyildirlər. Əgər sərkərdələr onları tez-tez ölümə məhkum etdiklərinə görə nifrətə layiq deyildirlərsə, onda sofistlər də buna layiq deyildirlər. Əgər ayrıca bir adam sizin şöhrətinizin qeydinə qalırsa, onda siz də yunanların qeydinə qalmalısınız.

Digər top isə həmin dövrün məlumatlarından alınır, məsələn, İfikrat Harmodiyə[79] qarşı çıxışında deyirdi:

"Əgər mən işi görməzdən əvvəl sizdən heykəli istəsəydim siz onu mənə verərdiniz? Mən işi görəndən sonra da siz onu mənə verməyəcəksiniz? Nəyi isə nəzərdə tutanda vəd verməyin və istədiyinizi əldə edəndən sonra vədimizi zorla geri götürməyin". Fivalıların Filippi Attikaya buraxmamalı olduqları haqqında da eyni şeyi demək olar, çünki, Filipp fokeyalılara qarşı onlara yardım etməzdən əvvəl bunu onlardan xahiş etsəydi, onlar bunu vəd edərdilər.[80] Əgər Filippi onların müqavimət göstərmək ehtimalını nəzərdən qaçıraraq, onlara bel bağladığına görə buraxmasaydılar, bunun heç bir mənası olmazdı.



Daha bir top isə o vaxt alınır ki, bizə qarşı deyilmişi biz yenidən onu deyənə qaytarmış olaq. Bu üsulun çox şeyə malik olması "Tevkr"[81] tragediyasından görünür.

İfikrat bu üsuldan Aristofonta[82] qarşı istifadə edərək ondan soruşur ki, o, donanmanı pula sata bilərdimi. Onun mənfi cavabından sonra isə deyir: "Sən Aristofont satmazdın, amma mən İfikrat isə satardım". Amma, bu üsul üçün zəruri şərait lazımdır ki, bizə baxanda rəqib daha çox ədalətsizlik etməyə qabil adam kimi görünsün, əks halda fraza gülməli görünə bilər, məsələn, Arisfidin[83] tərəfindən edilmiş ittihama birisi İfikratın dediyi ilə cavab versəydi, bu gülməli olardı; bu üsul ancaq onda yararlıdır ki, o zaman artıq ittihamçıya qarşı inamsızlıq yaransın. Ümumiyyətlə, ittihamçı ittiham olunandan yaxşı olmağı arzulayır, ittihamçını məhz bu tərəfdən ifşa etmək lazımdır. Ümumiyyətlə, özün etdiyin, ya da edə biləcəyin şeyə görə başqalarını məzəmmət etmək, ya da başqalarını özün etmədiyin və həm də edə bilməyəcəyin isə sövq etmək cəfəngiyyatdır.

Daha bir top isə anlayışların tərəfindən alınır, məsələn, Sokratın "demonion"[84] anlayışı nədir? Bu tanrıdır, ya tanrının yaratdığıdır? Amma, burası da var ki, demonionun tanrının yaratdığı varlıq olduğuna inanan mütləq canlıların varlığına da inanmış olur. İfikrat[85] da belə düşünür, onun fikrincə, insanların ən yaxşısı həm də ən alicənab olanıdır, çünki, Harmodi və Aristohiton alicənab bir şey edənə qədər onlarda alicənab bir şey yox idi. İfikrat rəqibindənsə özünün Harmodi və Aristohitona daha çox oxşar olduğunu sübut etmək üçün əlavə edir: "Mənim işlərim Harmodi və Aristohitonun işlərinə səninkilərdən daha çox oxşayır". Aleksandrda" da belə deyilir: "hamı razılaşar ki, öz nəfslərinə sahibolmayan adamlar bir adamın bədəni ilə qane olmurlar". Sokratın Arxelayin[87] yanına getmək istəməməsinin səbəbi də

özünün dediyi kimi belədir: "göstərilmiş yaxşılığın və edilmiş pisliyin əvəzini verə bilməmək eyni cür alçaqlıqdır". Bütün bu adamlar sillogizmləri damşdıqları barəsində qurur, bu və digər anlayışlara tərif verərək onların nədən ibarət olduğunu araşdırırlar.

Daha bir top sözə aid olan bir neçə mənanm əsasında qurula bilər, bu barədə biz "Topikdə" "yaxşı" sözündən bəhs edəndə danışmışdıq.

Daha bir top paylaşmadan alınır, məsələn, əgər hamı üç səbəb üzündən – ya bu, ya o, ya da o biri - ədalətsiz hərəkət edirsə, birinci iki səbəb üzündən hazırkı halda ədalətsiz hərəkət etmək mümkün deyil, üçüncüsü haqqında isə ittihamçıların özləri heç nə demir.

Daha bir top istiqamətləndirmədən götürülür, bunu Peparefiya nitqindən görmək olar, orada deyilir ki, uşaqlara aid həqiqəti hər yerdə qadınlar üzə çıxardırlar. Elə – Afinada da natiq Mantinin oğula qarşı başladığı işi ana aydınlaşdırır, eləcə də Fivada İsmeni və Stilbonun arasında olan mübahisəsini Dodonida həll edir, o, uşağın İsmeninin oğlu olduğunu deyir və buna görə də Fettaliski İsmeninin[88] oğlu olduğunu təsdiq edirlər. Teodiktin[89] "Qanun"undan da eyni şey görünür: "əgər biz öz atlarımızı adamların atlarına pis baxan adamlara və öz gəmilərimizi də başqa adamların gəmilərini məhv etmiş adamlara tapşırmırıqsa və əgər bütün hallarda eyni cür hərəkət etmək mümkündürsə, onda başqa şəxslərin rifahını pis qoruyan adamların köməyindən şəxsi xilasımız üçün istifadə etmək –olmaz. Alkidamantın sübut etdiyi kimi, hamı müdriklərə ehtiram göstərir: paroslular Arxiloxa ehtiram göstərirlər (baxmayaraq ki, o, böhtançı olub), xioslular isə onların həmvətənləri olmasa da Homerə, mitilenalılar qadın olmasına baxmayaraq Safoya ehtiram edirlər, lakedemodiyalılar Xilonu gerontlar şurasma seçirlər, halbuki elmi çox az sevirdilər, Lampsak sakinləri Anaksaqoru yadelli olmasma baxmayaraq dəfn etdilər və indiyə qədər onu yad edirlər... afinalılar Solonun, lakedemoniyalılar isə Likyrgun qanunları yaşadıqları zaman rifah içində idilər, Fivada da şəhəri filosoflar idarə etməyə başlayandan sonra dövlətdə firavanlıq başlandı".[90]

Daha bir top işin özündən, ya ona bənzəyəndən, ya da ona əks olan iş üzrə çıxarılmış məhkəmə hökmündən də götürülə bilər, xüsusən, əgər bu hökmü hamı və həmişə deyirsə, əgər belə deyilsə, heç olmazsa onu insanların çoxu, ya da müdrik adamların hamısı, ya da onların çoxu, ya da yaxşı adamlar və hakimlərin özləri, ya da sözlərinə hakimlərin qiymət verdiyi adamlar, ya da elə adamlar ki, onlarm qərarına qarşı çıxmaq mümkün olmasın, məsələn: hakimiyyətdə olan adamlar, ya da eləri ki, onların qərarına qarşı çıxmaq yaxşı hesab olunmur, məsələn: tanrılar, ata, müəllimlər söyləmiş olsun. Avtokl Miksidemidə qarşı belə demişdi: "hətta Evmenida Areopaqın məhkəməsinə gəlməyə razılıq verdi, Miksidemid isə yox". Ya da Safo ölümün pis şey olduğunu sübut edərək deməsi: "tanrılar özləri belə düşünürlər, çünki başqa cür olsaydı, onlar da bizim kimi ölərdilər". Ya da, nəyin isə barəsində həddindən çox özündən razı halda fikir söyləmiş Platona Aristippin dediyi kimi: "bizim yoldaşımız heç vaxt buna bənzər bir şey edə bilməzdi" (burada, "yoldaş" deyəndə Sokrat nəzərdə tutulur).

Qeqesipolid də əvvəlcədən Olimpiya orakulundan soruşduğunu Delfada da tanrıdan soruşaraq deyir ki, yəqin o, (yəni Apollon) da atası ilə eyni fikirdədir, yoxsa əks olan bir fikri demək çox ayıb olardı. İsokrat da Yelenaya yazmışdı ki, o, məziyyətləri olan qadındır, çünki Tesey onun belə olduğunu qəbul edib, ilahələrin üstünlük verdiyi Aleksandr haqqında da belə deyib. İsokratın dediyinə görə Yevaqor da məziyyətlərə sahibdir, çünki, Konon kasıb vəziyyətə düşəndə heç kəsə müraciət etmədən Yevaqorun[91] yanına gedir.

Daha bir top hissələrdən götürülür və "Topik"də olduğu kimi, ruhun necə olması haqqında məsələ həll olunur. Ona görə ki, ruh həm belə, həm də elə ola bilər. Buna misalı Teodiktin "Sokrat"[92] əsərindən götürmək olar, orada deyi-

lir: "o, hansı tanrıya qarşı günah işlədib? Dövlətin ehtiram göstərdiyi tanrılardan hansına ehtiram göstərməyib?"

Əksər hallarda eyni bir şeydən sonra ya nə isə yaxşı, ya da nə isə pis bir şey gəldiyinə görə daha bir top nəyə isə inandırmaq və ya çəkindirmək nəticəsində ittiham etmək və ya müdafiə etməkdən, təriflәmək və ya məzəmmət etməkdən ibarətdir, məsələn, əgər desək ki, təhsilin nəticəsi pis olur, çünki, insan həsəd obyektinə çevrilir və ya deyə bilərik ki, təhsilin nəticəsi yaxşı olur, çünki insan müdrik olur. Beləliklə, savadlı olmaq lazım deyil, ona görə ki, həsəd predmeti olmaq lazım deyil, bununla belə savadlı olmaq lazımdır, ona görə ki, müdrik olmaq lazımdır.

Kalippin[93] məharəti bu topda idi, o, bundan başqa mümkün olandan götürdüyü sübutlar və haqqında danışdığımız başqa sübutlardan da istifadə edirdi.

Daha bir top o vaxt yaranır ki, bu vaxt hər hansı, həm də bir-birinə əks olan iki şeyi ya məsləhət görmək, ya da ondan çəkindirmək və hər ikisinə indi göstərdiyimiz üsulu tətbiq etmək lazım gəlir. Göstərdiyimiz və əlimizdə olan halın fərqi ondan ibarətdir ki, orada əks qoyulan elementlərin necə olmasının fərqi yoxdur, burada isə həqiqi əks olanlar olmalıdır; məsələn, bir kahinə öz oğluna siyasi nitqlər deməyə icazə verməyərək demişdir: "Əgər sən ədalətli olanı desən, sənə insanlar nifrət edəcək, ədalətsiz söz desən isə tanrılar".[94] Amma, həm də demək olar ki, bu nitqləri necə demək lazımdır, çünki, əgər ədalətli danışsan, səni tanrılar sevəcək, ədalətsiz danışsan isə insanlar. Bu tamamilə "bataqlıq və duz almaq"[95] məsəli ilə eynidir. İki əks olan şeyin hər birinin ardınca nə vaxt müəyyən xeyir və müəyyən şər gəlirsə, həm də hər ikisinin nəticələri qarşılıqlı şəkildə əksdirsə, bu blaisðsis adlanır (sözün əsil mənasında hərəsi bir tərəfə əyilmiş ayaqlar).

Daha bir top o vaxt yaranır ki, onda insanlar eyni şeyi həm sözdə, həm də ürəklərində təriflәməsinlər. Sözdə bütün



ədalətli və gözəl olan şeyləri təriflәsələr də, ürəklərində ancaq daha faydalı olanı arzulasınlar.

Burada ikitərəfli sillogizm qurmaq olar; bu üsul paradokslara münasibətdə daha çox yararlıdır.

Daha bir top analogiyaya görə olacaq şeydən çıxarılan nəticədən alınır, məsələn, İfikratın çox gənc oğlunu boydan uca olduğuna əsaslanaraq dövlət mükəlləfiyyətlərində iştirak etməyə məcbur etmək istəyirdilər, onda İfikrat deyir ki, əgər onlar ucaboylu uşaqları kişi hesab edirlərsə, onda yəqin ki, balacaboylu kişiləri də uşaq hesab edirlər. Teodekt də öz "Qanununda" belə deyirdi: "siz muzdlulara onların şücaətinə görə vətəndaşlıq verirsiniz, məsələn, Strabaka və Xaridemə, bəs bəzi muzddulları gördükləri dəhşətli işlərə görə sürgünə göndərməyəcəksiniz?

Daha bir top belə bir mülahizədən alınır: nəyin isə nəticələri eynidirsə, onda onları törədən səbəblər də eynidir, məsələn, Ksenofan deyirdi ki, tanrıların doğulduğunu iddia edənlər də, tanrıların öldüyünü iddia edənlər də küfr edirlər, çünki həm bu, həm də digər halda belə çıxır ki, müəyyən vaxtda tanrılar mövcud olmur[96]. Ümumiyyətlə, təsdiq etmək lazımdır ki, müxtəlif səbəblərin nəticələri eyni olur: siz İsokrat haqqında deyil, onun məşğuliyyəti haqqında hökm çıxardacaqsınız – fəlsəfə ilə məşğul olmaq lazımdırmı? Eynilə belə, demək olar ki, "torpağı və suyu vermək özünü köləliyə verməkdir", ya da "ümumi sülhdə iştirak etmək qoyulmuş şərti yerinə yetirməkdir"... bu zaman iki üsuldan faydalı olanı götürmək lazımdır.

Daha bir top onun nəticəsində alınır ki, insanlar heç də həmişə əvvəllər düşündükləri kimi düşünməyərək, əvvəl düşündüklərinin tamam əksini düşünürlər. Məsələn: "əgər biz sürgündə olarkən vətənə qayıtmaq üçün vuruşmuşuqsa, onda görəsən biz vətənə döndükdən sonra vuruşmamaq üçün doğrudanmı yenidən sürgünə gedəcəyik?" entimemasında olduğu kimi. Əslində, adamlar bəzən vətəndə qalmağı o şərtlə üstün tuturdular ki, əvəzində vuruşa bilsinlər, bəzən

isə vuruşmamağı üstün tutur və bu hüququ sürgün bahasına əldə edirdilər.

Daha bir top nəyin isə nəticəsində olan və ya ola biləcək bir şeyin olduğu və ya baş verdiyi haqqında müddəadan ibarətdir, məsələn, birisi nəyi isə hər hansı bir şəxsə o məqsədlə bağışlayır ki, sonradan bu şəxsi dilxor etmək üçün həmin hədiyyəni geri alsın, buna görə də deyilir: "Tanrılar bir çox insanlara öz xeyirxahlıqlarına görə çoxlu uğurlar göndərmirlər, ona görə göndərirlər ki, onlar daha böyük bəlalara düçar olsunlar"[97]. Antifontun "Meleaqr" tragediyasından olan sözlər də buradandır: "Onlar burada heyvanları öldürmək üçün yığılmayıblar, ona görə yığılıblar ki, Meleaqrın[98] Yunanıstan qarşısındakı şücaətinin şahidləri olsunlar". Teodektın "Ayaks" əsərindən olan sözlər də buradandır: "Diomed Odisseyə hörmət etdiyinə görə onu özünə yoldaş seçməyib, o məqsədlə seçib ki, yoldaşı qoçaqlıqda ondan bir qədər geridə qalsın".[99] Ona görə ki, onun məhz buna görə belə etməsinin ehtimalı var.

Məhkəmə çəkişmələri və məşvərətlərdə ümumi olan daha bir top yardım göstərən və maneçilik törədən səbəbləri, eləcə də təsiri altında insanların nəyi isə etdikləri və ya etməkdən qaçındıqları səbəbləri nəzərdən keçirməkdən ibarətdir; bu səbəblər elədir ki, onlar əldə olanda gərək bir şey eləyəsən, əldə olmayandan isə eləmək lazım deyil, məsələn, əgər nə isə insanın özü üçün, ya da onun dostları üçün mümkün, asan və faydalıdırsa, ya da düşmənləri üçün zərərli və faydasızdırsa, ya da əmələ görə cəza əməlin özündən kiçikdirsə. Adamlar bu motivlərə əsaslanaraq həvəslənir, əks motivlərə əsaslanaraq isə rədd edirlər. İnsanlar elə həmin motivlərə əsaslanaraq ittiham edir və bəraət qazanırlar: özlərini təmizə çıxaran zaman nəyin isə baş verməsinə mane olan səbəblərə istinad edirlər, yardım edən səbəblərə isə istinad edərək ittiham edirlər. Pamfil və Kallippin[100] bütün sənəti bu üsuldan ibarətdir.



Daha bir top elə şeylərdən alınır ki, onlar baş verdikləri halda özlüyündə mümkün olmayan kimi görünürlər; bu top ona əsaslanır ki, belə şeylər mövcud olmasaydılar, ya da mövcud olmağa yaxın olmasaydılar, bu cür görünməzdilər. Bundan başqa, top həm də ona daha çox əsaslanır ki, insanlar mövcud olana, ya da mümkün olana inanırlar; əgər nə isə inam yaratmırsa və mümkün deyildirsə də, hər halda həqiqi ola bilər, çünki, şey təkcə mümkün olan və həqiqiyə oxşayan olduğuna görə həqiqi deyildir, məsələn Pitf[101] şəhərindən olan Androklun qanunu tənqid etdiyi zaman onun sözlərinə qarşı qalxan hay-küyə belə cavab vermişdir: "qanunların ancaq onlara düzəliş verən qanunlara ehtiyacı var, ona görə ki, balıqların da duza ehtiyacı var, halbuki duzlu mühitdə yaşayan varlıqların duza ehtiyacı olması mümkün olmayan və ağlasığmaz görünür, eləcə də zeytunun da yağa ehtiyacı var, baxmayaraq ki, yağın alındığı şeyin yağa ehtiyacı olması qeyri-adi görünür".

Digər top ifşaedici olub ziddiyyətlərin nəzərdən keçirilməsindən ibarətdir, bu ziddiyyətlər bütün zaman, hərəkət və nitqlərdən aydın görünməlidir və bu ziddiyyəti ya rəqibin ayağına yazmaq olar, məsələn: "o, sizi sevdiyini deyir, amma Otuzlar sui-qəsdində iştirak edir; ya da özümüzə aid etmək olar, məsələn: "o, deyir ki, mən məhkəmə çəkişmələrini sevirəm, amma sübut edə bilmir ki, mən haçansa ya özümə, ya da rəqibimə qarşı heç olmazsa bir çəkişmə aparmışam" və ya məsələn: "bu adam heç vaxt, heç nəyi borc verməyib, mən isə bir çoxunu köləlikdən azad etmişəm".

Əvvəllər barəsində haqlı və ya haqsız şəkildə böhtan yaranmış adamlara və şeylərə dair daha bir top var ki, bu top yaranmış rəyin təhrif olunmasının səbəbinin izahından ibarətdir, çünki, həmişə nəyin isə nəticəsində başqa cür görünən şey olur. Məsələn, öz oğlunu öpməsi nəticəsində bir qadın haqqında şayiə çıxır ki, o, oğlu ilə əlaqədədir, amma bunun səbəbi deyilən zaman böhtan aradan qalxır. Hələ

Teodektin «Ayaksında» Odissey Ayaksa deyir ki, niyə Ayaks cəsur olduğu halda belə görünmür.

Daha bir top səbəbdən yaranır; bu top belə bir sübutdan ibarətdir: əgər nə isə varsa, onda onun səbəbi də var və nə isə yoxdursa, onda onun səbəbi də yoxdur; çünki, səbəb və onun səbəb kimi xidmət etdiyi şey birgə mövcuddur və səbəbsiz heç bir şey mövcud ola bilməz, məsələn, Frasibul Leodamantı ittiham edir ki, onun adı Akropol sütununa yazılıbmış və o, bu yazını Otuzların hakimiyyəti zamanı pozub, özünü təmizə çıxaran Leodomant isə bildirir ki, bunun heç bir mənası yoxdur, əgər onun xalqa nifrəti haqqında sütunda yazılsaydı, Otuzlar ona daha çox inanardılar.

Daha bir top məsləhət olunandan, ya da indi elədiklərindən, ya da artıq eləmiş olduqlarmdan daha yaxşı və başqa cür eləmək olardımı, ya da indi eləmək olarmı kimi müzakirədən ibarətdir, çünki, aydındır ki, əgər bu belədirsə, onda adam filan şeyi eləməyib, belə ki, heç kim könüllü və şüurlu şəkildə pis şeyə üstünlük vermir. Amma belə mülahizə düzgün deyil, çox vaxt sonradan aydın olur ki, necə daha yaxşı eləmək olardı, əvvəl isə bu aydm olmur.

Daha bir top insanların daha əvvəl edilmiş nəyə isə əks olan şeyi eləmək istədikləri zaman, hər iki variantı bir yerdə nəzərdən keçirməsindən ibarətdir, məsələn, Ksenofan ondan Levkoteya üçün qurban kəsmək və onun üçün yas saxlamağın lazım olub-olmadığını soruşan eleatlara məsləhət verir ki, əgər onlar Levkoteyanı ilahə hesab edirlərsə onun üçün yas saxlamasınlar, əgər insan hesab edirlərsə qurban kəsməsinlər.[103]

Daha bir top buraxılmış səhvlər əsasmda ittiham, yada bəraət olunmaqdan ibarətdir, məsələn, Karkinin "Medeya" əsərində Medeyanı öz uşaqlarını öldürməkdə ittiham edirlər, çünki onlar ortada görünmürdülər; Medeya öz ifadəsini uşaqların aradan götürülməsində tapmış bir hərəkət edir. Medeya isə özünü onunla təmizə çıxarmağa çalışırdı ki, uşaqları deyil, Yasonu öldürmək istəyirdi və əgər o, bunu etməyib, o birini etsəydi, səhv etmiş olardı.[104] Feodorun bütün sənəti əvvəl başdan bu top və entimema növündən ibarətdir.[105]

Digər top isə addan əldə olunur, necə ki, Sofokl deyir:

Bu Sideronun eynidir, üstəlik eyni adı da daşıyır.[106]

Adətən tanrıları tərifləyən zaman belə deyirlər, Konon bu qayda ilə Frasibulu "məsləhət verməyə cəsur" adlandırır, Herodik isə Frasimaxa "Sən həmişə mübarizədə cəsursan" və Pola isə "Sən həmişə dayçasam" deyir.[107] Herodik həm də qanunverici Drakon haqqmda deyib: "onlar elə sərtdir ki, elə bil onlar insanın deyil, drakonundur" Evripidin Hekubası isə Afrodita haqqında belə deyib:

İnsanların rəyinə görə kor ehtiras görəsən
Afroditada Afrosinyadan deyil ki".[109]
Xeremon isə belə deyir:
Adım gələcəkdə olacaq fəlakətdən götürmüş Penfey.[110]

İfşaedici entimemalar nümunəvi entimemalardan daha geniş istifadə olunur. Çünki, ifşaedici entimema əks rəylərin qısa külliyyatından ibarətdir, onlar yanaşı duranda dinləyicilər üçün daha anlayışlı olurlar. Amma, həm ifşaedici, həm də göstərən sillogizmlərdən ən çox təəssürat yaradanlar eləridir ki, lap əvvəldən dinləyici tərəfindən sezilmiş olsunlar, ona görə yox ki, onlar çox səthidirlər, ona görə ki, dinləyicilər nəticəni qabaqcadan hiss edərkən sevinirlər. Ən çox təəssürat yaradanlar həm də eləridir ki, nitqdə o qədər gec meydana çıxırlar ki, dinləyicilər onları deyilən kimi başa düşürlər.

## 24. *Görüntülü entimemalar. – Görüntülü entimemalar üçün istifadə oluna bilən müxtəlif toplar*

Madam belə halların olması mümkündür ki, o vaxt biri sillogizm olsun, o biri isə sillogizm olmayıb ancaq onun görüntüsü olsun, onda birinin entimema olması, o birinin isə entimema olmayıb ancaq onun kimi görünə bilməsi labüddür, çünki, entimema müəyyən qəbildən olan sillogizmdir. Görüntülü entimemalarm toplarından biri ifadə üsuluna aiddir. Bu topun bir növü dialektikada olduğu kimi sillogizm qurmadan son nəticəni çıxarmaqdan ibarətdir, məsələn: beləliklə, filan şey və filan şey yoxdur, buna görə də filan-filan və filan-filan zəruri olaraq mövcuddur. Belə sıxılmış və entimemalara əks olan fikir entimema kimi görünür, ona görə ki, belə ifadə üsulu entimema sahəsinə aiddir.

O, ifadə sxeminə görə entimema kimi görünür. Şərhə sillogizm forması vermək üçün bir çox sillogizmlərin əsas nəticələrini göstərmək faydalıdır, məsələn: "o, bəziləri xilas etdi, digərlərindən intiqam aldı, yunanları azad etdi".[111] Bu nəticələrin hər biri başqa müddəalarla sübut olunub, amma, əgər bu nəticələri birləşdirsək, bizə elə görünür ki, onlardan hansı isə bir nəticə çıxır. Görüntülü entimemaların digər növü adların uyğunluğuna əsaslanıb, məsələn: tutaq ki, siçanın mükəmməl heyvan olduğunu deyirik, çünki, dini ayinlərin ən hörmətlisi onun adı ilə adlandırılıb və misteriya bütün dini ayinlərin ən hörmətlisidir. Ya da birisi iti tərifləyərək onu köpək və ya Pan bürcü ilə müqayisə edən zaman Pindarın aşağıda dediyi sözlərə əsaslanırsa:

> O kəs bəxtəvərdir ki, olimp allahları onu böyük ilahənin daim dəyişən köpəyi adlandırsınlar.[112]

Ya da "heç bir itə sahib olmamaq çox ayıbdır" fikrindən nəticə çıxarsaq ki, it hörmətli varlıqdır. Ya da ki, tanrıların ən çox ünsiyyətdə olanının Hermes olduğunu demək,



ona görə ki, ancaq onu "ümumi" Hermes[113] adlandırırlar. Ya da, nitqin (loqos) hər şeydən üstün olduğunu deyəndə ona əsaslansaq ki, yaxşı insanlar var-dövlətə deyil, hörmətə (logoy) layiqdir; logoy axioy ifadəsi təkcə bir mənada işlənmir.

Digər top isə nitqdə ayrılmışları müqayisə etmək, ya da öz aralarında bağlı olanları ayırmaq üçün nəzərdə tutulub; belə ki, çox vxat ayrı-ayrı şeylər eyni cür görünür, buna görə də faydalı olanı etmək lazımdır. Məsələn, Evtidemin mühakiməsi belədir: "o, bilir ki, Pireydə triera var, çünki, bu predmetlərin hər ikisinin mövcudluğundan xəbərdardır". Ya da desək ki, hərfləri bilən sözü də bilər, belə ki, söz elə eyni şey deməkdir. Ya da belə bir mülahizə: "əgər nəyin isə iki misli zərərlidirsə, onda iki dəfə az misli də xeyirli ola bilməz", çünki, iki yaxşı şeyin birləşməsindən bir pis şeyin əmələ gəlməsi mənasızlıqdır. Belə formada entimema ifşadır, amma, növbəti formada o, şəhadət olacaq: "ona görə ki, bir yaxşı şey iki pis şeyi tərtib edə bilməz. Bütün bu top paraloqizmə çevrilir. Polikratın Frasibulaya onun Otuz tiranı devirdiyi haqqmda dediyi sözlər də belədir, çünki, burada Polikrat[114] hər şeyi bir yerə cəmləyir. Teodektin "Oresti"[115] də belə deyir, çünki, onlar parçalama nəticəsində yaranır; öz ərini öldürmüş qadının ölməsi məhz ona görə ədalətlidir ki, oğul atasımn qisasını alsın. Məgər məhz bu baş vermədimi? Amma, bu bir yerdə birləşdiriləndə ədalətli xarakterini itirir. Bu həm də məlumat boşluğundan da baş verə bilər, çünki, izah olunmayıb ki, qadını kim öldürməlidir.

Daha bir top faktı qorxutmaq yolu ilə təsdiq, ya da inkar etməkdən ibarətdir. Bu o zaman olur ki, natiq məlum hərəkətin ümumiyyətlə birisi tərəfindən edildiyini göstərmədən işi böyüdür, çünki, bu onu düşünməyə vadar edir ki, ya ittiham olunan bu hərəkəti etməyib (əgər işi ittiham olunan böyüdürsə), ya da ittiham olunan bunu edib (əgər ittihamçı belə şəkildə öz qəzəbini büruzə verirsə). Əgər dinləyici iş sübut olunmamış səhv olaraq düşünürsə ki, ittiham olunan

nəyi isə edib, ya da nəyi isə etməyib, onda bu entimema deyil.

Daha bir top əlamətdən alınır, belə ki, burada sillogizm yoxdur, məsələn, tutaq ki, birisi sevgililərin dövlət üçün faydalı olduğunu o əsasla deyir ki, Harmodiya və Aristoqitonun[116] sevgisi tiran Hipparxı devirib. Ya da birisinin Dionisinin pis adam olmasına əsaslanaraq ona oğru deməsini götürək, bu düzgün sillogizm deyil, ona görə ki, hər bir pis adam oğru deyil, amma hər bir oğru pis adamdır.

Daha bir top tamam təsadüfi vəziyyətlərdən alınır, məsələn, Polikratın[117] kamanı çeynədiklərinə görə siçanların faydalı olduqlarını deməsi kimi. Ya da birisi desə ki, qonaqlığa dəvət yüksək hörmət əlamətidir, çünki, Axil Tenedosda axeylilərə məhz dəvət almadığına görə qəzəblənmişdi; o, ona qarşı edilmiş təhqirə görə qəzəblənmişdi ki, bu dəvət olunmamaq yolu ilə baş vermişdi.

Daha bir top nəticələr əsasında yaranır, məsələn, Paris haqqında məsələdə nəticə belədir; Paris o əsasla yüksək ruhlu adam sayılır ki, o, insanlarla ünsiyyətə nifrət edərək İdada[119] tənha vaxt keçirirmiş. Bu yüksək ruhlu adamlara xas olan xüsusiyyət olduğu üçün Paris də belə görünə bilər. Ya da, hər hansı bir adamın gecələr bəzənib gəzməyi xoşlaması haqqında nəticə çıxarmaq, çünki, zinakarlar bu xüsusiyyətlərlə fərqlənirlər. Belə bir mülahizə də yuxarıdakılarla eynidir: madam dilənçilər məbədlərdə oxuyub-oynayırlar və sürgün olunmuş adamlar harada istəsələr yaşaya bilərlər və xoşbəxt görünən adamlar da oxuyub-oynayır və istədikləri yerlərdə yaşayırlar. Onda dilənçilər və sürgün olunanlar da xoşbəxt görünə bilərlər. Burada bütün fərq ondan ibarətdir ki, bu iş necə baş verir; buna görə də bu top buraxılma topu ilə uyğun gəlir.

Daha bir top səbəb olmayan səbəbin qəbul edilməsindən ibarətdir, məsələn, əgər hər hansı bir şey o əsasla səbəb kimi qəbul edilsə ki, sözügedən şeylə eyni zamanda, ya da ondan sonra olub; burada "ondan sonra", "onun nəticəsində" kimi qəbul edilir. Xüsusilə dövlət işlərində belə olur, məsələn, Demad[120] Demosfenin idarəçiliyini o əsasla cürbəcür bəlaların səbəbi sayırdı ki, onun hakimiyyətindən sonra müharibə başlandı.

Daha bir top vaxt və hərəkət tərzinin cəhətlərini nəzərə almadan yaranır, buna misal kimi belə sübutları gətirə bilərik: guya Aleksandar Yelenanı haqlı olaraq qaçırıb, ona görə ki, atası ona ər seçmək imkanı verib, amma ola bilər ki, o, bu imkanı həmişəlik verməyib, ancaq birinci dəfə üçün verib[121], çünki ata ancaq bu həddə qədər ixtiyara malikdir. Ya da, tutaq ki, birisi azad adamlarm döyülməsinin cinayət olduğunu desə, bu heç də bütün hallarda cinayət olmayacaq, ancaq o halda olacaq ki, ədalətə zidd olan birisi əlbəyaxa davaya başlasın. Bundan başqa, burada sofist xarakterli nitqlərdə olduğu kimi görüntülü sillogizm bəzi şeylərin mütləq və ya qeyri-mütləq təqdim edilməsindən deyil, şərti kimi təqdim edilməsindən meydana çıxır, məsələn, dialektikada sübut olunur ki, mövcud olmayanlar mövcuddur, çünki mövcud olanlar mövcud olmayanlar kimi mövcuddur, ya da gizli olanlar aşkardır, çünki, gizli olanlar elə gizli olan kimi aşkardır. Eynilə ritorikada da görüntülü entimema mütləq həqiqətəuyğun olana (eicos) deyil, nisbi həqiqətəuyğun olana əlavə kimi mövcuddur. Bu Aqafonun dediyi kimi tam anlayış deyil:

Fanilərin başına gələn çoxlu həqiqətəuyğun olmayan şeyləri
Yəqin ki, həqiqətəuyğun şey adlandırmaq olar.[122]

Çünki, həqiqətəuyğun şeylərə zidd şeylər olur, buna görə də həqiqətəuyğun gəlməyən həqiqətəuyğun olur. Əgər bu belədirsə, onda həqiqətəuyğun olmayan həqiqətuyğun olacaq, amma şərti olaraq: sofist xarakterli nitqlərdə sözügedən predmetin, hərəkətin məqsəd və obrazınm aradan buraxılması yalana gətirib çıxarır, burada da yalan nəticə o

səbəbdən alınır ki, həqiqətəuyğun burada mütləq həqiqətəuyğun deyil, nisbidir. Karaksin[123] sənəti də bu topdan yaradılıb: o, elə hallarda yararlıdır ki, ittiham olunanın ona qarşı qoyulan ittihamda heç bir təqsiri olmasın, məsələn, əgər zəif bir adam kimi isə döyməkdə ittiham olunursa, onu belə bir əsasla müdafiə etmək olar ki, bu həqiqətəuyğun deyil; ya da əgər güclü bir adam kimi isə döyməkdə ittiham olunursa, yenə də müdafiə üçün bəhanə var ki, bu həqiqətəuyğun deyil, çünki, bu həqiqətəuyğun görünməli idi. Başqa hallarda da eyni şey olur: insamn ittihama aidiyyatı ya olur, ya da olmur, həm bu, həm də digəri həqiqətəuyğun görünür, həm də birincisi, şərtsiz həqiqətəuyğundur, ikincisi isə şərtli, yəni bizim yuxarıda dediyimiz kimi. Bu məhz elə şeydir ki, buna qaranı ağartmaq deyirlər. Bunun nəticəsi olaraq insanlar haqlı şəkildə Protaqorun sənətini pisləyirdilər, onun sənəti yalan və həqiqətəuyğun saxta görüntüsündən ibarətdir, belə şeyə ritorika və sofistikadan başqa heç bir sənətdə rast gəlmək olmaz.

Biz əsil və görüntülü entimemalardan danışdıq. İndi isə deyilənlərlə əlaqədar olaraq entimemaların məhv edilməsindən danışmaq lazımdır.

### 25. *Sillogizmlərin məhv edilməsinin (lysis) iki üsulu*

Sillogizmi ya əkssillogizmi qurmaqla, ya da etiraz etməklə məhv etmək olar. Əks olan sillogizmə gəldikdə isə, aydındır ki, onu bizim göstərdiyimiz elə həmin toplar əsasında qurmaq olar, çünki, sillogizmlər mümkün olan müddəalardan yaradılmalıdır və belə görünən bir çox müddəa bir-birinə ziddir. Etirazlar "Topikdə" olduğu kimi dörd üsulla edilir: onlar ya predmetin özündən, ya ona oxşar olandan, ya ona əks olandan, ya da artıq müzakirə olunmuş predmetdən götürülür. Mən predmetin özündən götürülmüşü etiraz adlandırıram, məsələn, belə bir halda: əgər sevgi barəsində qurulmuş entimema sevginin gözəl olması mənasındadırsa, onda ikili etiraz mümkündür: ya ümumiyyətlə demək olar ki, hər bir nöqsan pis olan bir şeydir, ya da qeyd etmək olar ki, pozğun sevgi halları olmasaydı, "kavno sevgisi"[125] ifadəsi də olmazdı.

Etiraz sözügedənə əks olan anlayışdan götürülür, məsələn, yaxşı insanın öz bütün dostları üçün xeyirxahlıq etməsi haqqında entimema qurulan zaman etiraz etmək olar ki, pis adamlar da öz dostlarına pislik etmirlər.

Etirazlar oxşarlıq anlayışından götürülür (iqtibas olunur), məsələn, əgər pislik görmüş insanların həmişə nifrətlə dolu olması haqqında entimema qurulubsa, onda buna etiraz etmək olar, çünki, yaxşılıq görmüş insanlar da heç də həmişə sevgi ilə dolu olmurlar.

Məşhur şəxslərin qərarları etiraz kimi istifadə oluna bilər, məsələn, əgər birisi belə bir entimema desə ki, sərxoşları bağışlamaq lazımdır, çünki, onlar hərəkət edərkən nə etdiklərini bilmirlər. Buna etiraz etmək olar ki, belə olan halda Pittak[126] təqdirəlayiq deyil, əks halda o, sərxoş vəziyyətdə törədilmiş hərəkətlərə görə böyük cəzaların verilməsi haqqında qanun çıxartmazdı.

Beləliklə, entimemalar dörd mənbədən irəli gəlir, bu dörd mənbə bunlardır: həqiqətəuyğunluq, misal, sübut, əlamət. Həqiqətən də olanm, ya da əksər hallarda olanm əsasında tərtib olunan entimemalar həqiqətəuyğun olana əsaslanan entimemadır, bir və ya bir çox hallarm bənzəri əsasmda istiqamətləndirmə yolu ilə (nə zaman ki, biz ümumi müddəanı götürür, sonra onun əsasında xüsusi bal üçün nəticə çıxardırıq) alınan entimema isə sübuta əsaslanan entimemadır. Əlamətlərin köməyi ilə yaranan entimemalar mövcud olan və mövcud olmayan, ümumi və xüsusi anlayışlardan irəli gələn entimemadır. Həqiqətəuyğunluq elə şeydir ki, həmişə olmasa da, əksər hallarda olur. Aydındır ki, belə entimemaları onlara qarşı etirazı qoymaqla həmişə məhv etmək olar, həm də etiraz heç də həmişə həqiqət olmur, onun görüntüsü də ola bilər, belə ki, etiraz edən entimemanı

təkcə həqiqətəuyğun olmadığına görə məhv etmir, ona görə edir ki, o, zəruri deyil. Buna görə də bu paralogizmdən istifadə həmişə müdafiə olunan üçün ittihamçıdan daha çox sərfəlidir, belə ki, ittihamçı həqiqətəuyğun olanın köməyi ilə sübut edir; bu iki şey heç də eyni deyil, yəni entimemanın həqiqətəuyğun olmadığına görə məhv eləmək, ya da zəruri olmadığına görə məhv eləmək: əksər hallarda olan şeylər həmişə etiraza səbəb olur, çünki, əks halda o həqiqətəuyğun olmazdı, daim mövcud olardı və zərurət xarakteri daşıyardı. Madam entimema bu üsulla məhv olunur, onda hakim düşünür ki, iş həqiqətəuyğun deyil, ya da bizim dediyimiz kimi burada paralogizmdən istifadə edərək belə hesab edir ki, bu iş onluq deyil, çünki, hakim təkcə zəruri olanın əsasında deyil, həm də həqiqətəuyğun olanın əsasında da mühakimə etməlidir, məhz bu öz yaxşı nöqteyi-nəzərinə görə mühakimə etmək deməkdir. Nəyin isə zərurət olmadığı haqqında qərar çıxarmaq kifayət deyil, həm də onun həqiqətəuyğun olmadığını sübut etmək lazımdır. Bu vaxt baş tuta bilər ki, etirazın əsaslandığı şey əksər hallarda baş versin. Etiraz belə xarakteri iki şərtdən asılı olaraq daşıya bilər – vaxtdan, ya da işin özündən. Ən yaxşısı isə hər iki şərtin əldə nəqd olmasıdır, çünki hər hansı şey tez-tez belə şəkildə olanda daha həqiqətəuyğun olur.

Əlamətlər və bizim qeyd etdiyimiz əlamətlərə əsaslanan entimemalar hətta həqiqətən də mövcud olsalar belə, əvvəl dediyimiz kimi məhv olacaqlar. Sillogizm üçün heç bir əlamətin zəmin ola bilmədiyi isə bizə "Analitikadan"[127] aydındır.

Misallara əsaslanan entimemaları məhv etmək üçün eynilə həqiqətəuyğunluğa əsaslanan entimemalar üçün istifadə edilən tələb olunur: əgər əlimizdə misal ilə uzlaşmayan bir şey varsa, onda entimema artıq o mənada məhv olunub ki, həmin misal zərurət xarakteri daşımır (hətta iş əksər hallarda, ya da tez-tez başqa cür olsa da).



Əgər şeylər və hadisələr böyük əksəriyyətlə belə olursa, yəni rəqibin dediyi kimi baş verirsə, onda mübahisə edərək sübut etmək lazımdır ki, əlimizdə olan hadisə o biri hadisələrə bənzəmir, ya da onlarla eyni şəraitdə baş verməyib, ya da ümumiyyətlə onlardan nədə isə fərqlənir.

Sübutlara və sübutlara əsaslanan entimemalara gəldikdə isə, onları sillogizm üçün zəmin rolu oynamadıqlarına görə məhv eləmək olmaz; bu da bizə artıq "Analitikadan" məlumdur. Bircə iddia olunanın əslində olmadığın sübut etmək qalır. Amma onun mövcud olması şübhəsizdirsə və buna sübut varsa, onda iddia artıq danılmaz olur. O, vaxt artıq bütün sübutlar aydın olur.

### 26. *Mübaliğə və azaltma*

Mübaliğə və azaltma entimema elementi deyil; mən element və top[129] deyəndə eyni şeyi nəzərdə tuturam: özündə çoxlu entimema toplamış şey element və topdur. Mübadilə və azaltma özləri sübutetmə üçün entmemadırlar; nəyin isə böyük və ya kiçik olduğu kimi, eynilə sübutetmədə də nə isə yaxşı və ya pisdir, ədalətli və ya ədalətsizdir, ya da buna uyğun bir şeylər var. Bütün bunları nümayiş etdirən predmetlərin sillogizm və entimemaya aidiyyatı var, əgər bu predmetlərin hər biri entimemanın topu deyilsə, onda mübaliğə və azaltma da bu xüsusiyyətlərə malik deyil. Məhv edilə bilən entimemalar hansı isə xüsusi bir növdən olan entimema deyil, çünki, insanın entimemanı nəyi isə sübut, ya da nəyi isə etiraz edərək məhv etməyi, onun rəqibinin isə əksinə olaraq sübut etdiyi aydındır, məsələn, əgər birisi nəyin isə olduğunu sübut etsə, ikincisi bunun olmadığını sübut etməyə çalışacaq və ya birincisi sübut etsə ki, nə isə olmayıb, ikincisi sübut edəcək ki, nə isə olub.

Belə olan halda, burada heç bir fərq yoxdur, çünki həm bu, həm də digəri eyni vasitələrdən istifadə edir, məhz onlar nəyin olmadığını, ya da olduğu haqqında entimemala-

rı sübut kimi gətirirlər; etiraz isə entimema deyil, amma bizim "Topikdə" izah etdiyimiz kimi, etiraz hər hansı bir rəyin ifadə olunmasıdır. Buradan aydındır ki, rəqib sillogizm qaydalarına uyğun olaraq nəticə çıxarmayıb, ya da hər hansı bir yalan müddəanı həqiqi müddəa kimi qəbul edib.

Nitqin hazırlandığı zaman diqqət verilməli üç bənd var, buna görə də biz hesab edirik ki, misallar, kəlamlar, entimemalar və ümumiyyətlə düşüncə qabiliyyətinə aid olan hər şey haqqmda kifayət qədər danışdıq; indi ancaq nitqin qurulması və söylənməsi üsulunu şərh eləmək qalır.



## Üçüncü kitab

1. *Ritorik sənətə aid üç əsas məsələ. – Üslub (deklamasiya), onun yaxşı cəhətlərini şərtləndirən üç xüsusiyyət. – üslubun əsas əhəmiyyəti. – Poetik üslub ilə ritorik üslub arasındakı fərq.*

Natiq nitqinə münasibətdə müzakirə olunmalı üç bənd var: birincisi, inandırma üsulları haradan yaranacaq, ikincisi, üslub (le xıs) haqqında, üçüncüsü, nitqin hissələrini necə qurmaq lazımdır. Biz artıq inandırma üsulları haqqında və həm də onların neçə mənbədən yaranması və onların məhz üç mənbədən yaranması haqqında, bu mənbələrin necəliyi haqqında, onların niyə ancaq bu sayda olması haqqında danışmışdıq[1] (belə ki, məhkəmə hökmünü söyləyənlərin hamısı nəyə isə inandırılmış olurlar, ya öz təcrübələrinə görə, ya natiqləri bu cür əxlaqi xüsusiyyətlərə malik insan hesab etdiklərinə görə, ya da ona görə ki, iş sübut olunmuşdur). Biz həm də entimemaları haradan əldə etmək barəsində də danışmışdıq, onlar üçün mənbə rolunu ya xüsusi entimamalar, ya da toplar[2] oynayır. Bununla əlaqədar olaraq üslub haqqında danışmaq lazımdır, ona görə ki, nə demək lazım olduğunu bilmək kifayət deyil, həm də bunu necə demək lazım olduğunu da bilmək lazımdır; bu nitqin lazımi təsir bağışlamasma çox yardım edir. Şeylərin təbii axarına uyğun olaraq hər şeydən qabaq nəyin öz təbiətinə görə birinci olması məsələsi qoyulub, daha doğrusu, inandırıcılığın bəhrələndiyi şeylər haqqında, ikincisi, şərh zamanı onların yerləşdirilməsi üsulu haqqında, nəhayət, üçüncü yerdə isə tədqiqat predmeti olmasa da, daha çox qüvvəyə malik olan şey durur – deklamasiya məsələsi. Fragediya və rapsodiyaya hərəkət gec daxil olub, əvvəllər şairlər öz tragediyalarını özləri deklamasiya ediblər. Aydındır ki, bir çoxlarımn, eləcə də Qlavkon Teoslunun[3] da barəsində şərh etdikləri poetikanın şərtləri olduğu kimi, ritorika üçün də şərtlər mövcuddur. Bura-

da hərəkət səsdən ibarətdir; hər bir hiss üçün səsdən necə istifadə etmək lazım olduğunu bilmək lazımdır, məsələn, nə zaman uca səslə, nə zaman yavaş səslə, nə zaman orta səslə danışmaq lazım olduğunu, intonasiyalardan necə istifadə etmək lazım olduğunu (məsələn, kəskin, boğuq və orta) və hər bir hal üçün hansı ritmləri işlətmək lazım olduğunu bilmək lazımdır. Burada diqqət verilməli üç bənd var: qüvvə (megethos), harmoniya və ritm[4]. Yarışlarda məhz bunlar, yəni bununla fərqlənən natiqlər qələbə qazanırlar. Səhnələrdə aktyorların əhəmiyyəti şairlərdən çox olduğu kimi, dövlətin zaylığı nəticəsində siyasi yarışmalarda da belə olur. Bu barədə hələ sənət yaranmayıb, belə ki, üslub sahəsində müvəffəqiyyətlər daha gec əldə olunub və onu öyrənəndə bizə kobudsayağı görünür.

Ritorikanın bütün işi bu və ya digər rəyin yaranmasına yönəldiyi üçün, üslubun qayğısına, onun həqiqəti özündə qapatmış bir şey olduğu üçün deyil, onun zəruri olduğu üçün qalmalıyıq, çünki, nitqin nə kədər, nə də sevinc doğurmamasına can atmaq daha ədalətlidir: fakt silahı ilə elə vuruşmaq ədalətlidir ki, sübut sahəsindən kənarda qalan hər şey lazımsız olsun. Amma bizim bildiyimiz kimi, üslub dinləyicinin mənəvi zaylığı nəticəsində çox mühüm bir şeyə çevrilir. Hər cür təlim zamanı üslub zəruri olaraq çox da böyük olmayan əhəmiyyətə malikdir, çünki, hər hansı bir şeyin aydınlaşdırılması üçün fikrin bu və ya başqa tərzdə bildirilməsində fərq mövcuddur; amma, hər halda bunun adətən düşündükləri qədər əhəmiyyəti yoxdur: bütün bunlar xarici görkəmə aiddir və dinləyiciyə dəxli olan şeydir, çünki, heç kim bu üslublardan həndəsəni öyrənən zaman istifadə etmir. Madam onlardan istifadə edirlər, onda onlar aktyor sənəti kimi təsir yaradırlar. Bəzi şəxslər bu barədə ötəri danışmaq istəyiblər, məsələn, Frasimax[5] özünün "Əzablarm oyadılması" traktatında. Aktyorun məharəti təbiətdən vergidir və texnikadan az asılıdır; üsluba gəldikdə isə o, texnika nəticəsində əldə olunur. Buna görə də dəfnə çələngləri sözə sahib ola bilənlərə çatır, eynilə belə, dramatik sənət sahəsində də çələng deklamatorların payına düşür. Yazılı nitqin gücü fikirlərindən çox üslublubundadur. Təbii olaraq şairlər bu sahədə irəli gediblər; söz özlüyündə təqliddir, bizim orqanlarımızdan ən çox təqlidə qabil olan da səsdir, məhz buna görə də rapsodiya, dramatik və başqa sənətlər yaranmışdır. Amma, adi predmetlər haqqında bəhs etdikləri halda, şairlərin öz üslubları ilə şöhrət qazandıqları üçün, onda göründüyü kimi, ən əvvəl poetik üslub yaranmışdır (məsələn, Qorqidə[6] olduğu kimi). İndi də bir çox savadsız adamlar belə hesab edirlər ki, məhz beləəri ən zərif danışanlardır. Əslində bu belə deyil, natiq nitqində və poeziyada olan üslub tamamilə fərqlidir, bunu faktlar da sübut edir; hətta tragediya müəllifləri belə artıq əvvəl işlətdikləri ifadələrdən istifadə etmirlər, onlar başqa vəznlərə nisbətən yambın danışıq dilinə daha yaxın olmasım nəzərə alaraq, tetrametrdən yamb vəzninə keçdilər, danışıq dilinə uyğun olmayan ifadələri eynilə belə kənara atdılar, halbuki, əvvəllər öz əsərlərini onlarla bəzəyirdilər və heksametrlərlə yazan şairlər indi də onlardan istifadə edirlər.[7] Buna görə də, artıq bu ifadələrdən özlərinin də istifadə etmədiyi insanları təqlid etmək gülüncdür.

Buradan aydın olur ki, biz üslub barəsində demək mümkün olan hər şeyi müfəssəl şəkildə araşdırmalıyıq, lakin, ancaq bəhs etdiyimiz sənətə aid olan şeylər haqqında danışmalıyıq. Qalan şeylər barəsində isə biz poetik sənət haqqmda olan əsərimizdə damşmışıq.

Üslubun yaxşı cəhəti – onun aydınlığıdır.

2. *Üslubun aydın olmasına kömək edən ifadələr. Nəzm və nəsr ilə söylənən nitqlər üçün yararlı olan nədir? – Prozaik nitqlər üçün hansı ifadələri işlətmək lazımdır? Sinonim və omonimlərin istifadəsi. – Epitet və metaforaların istifadəsi. – Metaforaları haradan əldə etmək lazımdır? – Epitetləri necə yaratmaq lazımdır?*

Bunu nəzərdən keçirərək müəyyən edəcəyik ki, üslubun yaxşı cəhəti onun aydın (saphḷ) olmasından ibarətdir; buna sübut kimi onu göstərmək olar ki, nitq aydm olmayanda öz məqsədinə çatmır. Üslub nə çox aşağı, nə də çox yüksək olmamalıdır, amma, nitqin predmetinə uyğun gəlməlidir. Poetik üslub də əlbəttə ki, aşağı səviyyəli üslub deyil, amma, o, natiq nitqinə uyğun deyil. İsim və fellərdən isə ümumi istifadədə olanlar öz aydınlıqları ilə seçilir. Poetik sənətə aid əsərimizdə[8] sadaladığımız digər şəxslər nitqi aşağı üslubda yaratmasalar da, ona bəzək-düzək vururlar, belə ki, gündəlik danışıqdan uzaqlaşmaq nitqin daha dəbdəbəli görünməsinə səbəb olur – insanlar üsluba əcnəbilərə və öz vətəndaşlarına yanaşan kimi yanaşırlar. Buna görə də dilə əcnəbi xarakteri vermək lazımdır, çünki, insanlar uzaqdan gələn şeylərə heyrətlənməyə meyllidirlər, heyrət doğuran şeylər isə xoşluq verir. Şeirlərdə belə təsir bağışlayan şey çoxdur və bu poeziya üçün yararlıdır, çünki, orada sözügedən predmet və şəxslər gündəlik həyatdan daha çox uzaqlaşdırılıblar. Amma, prozaik nitqdə belə vasitələr daha azdır, çünki, onların predmeti o qədər də yüksək şey deyil; əgər, bu halda, qul ya çox gənc adam, ya da əhəmiyyətsiz şeylərdən danışan adam yüksək ibarələrlə damşırsa, bu çox böyük ədəbsizlik olar. Amma, burada da şərh olunan predmetə uyğun olaraq sözü deyərkən səsi gah alçaltmaq, gah da yüksəltmək olar. Amma bunu da gözə çarpdırmadan, özünü süni deyil, guya təbii danışırmış kimi qələmə verməklə etmək lazımdır, çünki, təbiilik inandırma qabiliyyətinə malikdir, süni olan isə əksinə. Adamlar onlara qarşı elə bil nəyinsə qəsdində olan adam təsiri bağışlayan natiqə qarşı eynilə qarışdırılmış şərablara qarşı olan kimi etimadsız münasibət bəsləyirlər. Feodorun[9] səsi başqa aktyorların səsindən fərqləndiyi kimi natiqin üslubu da fərqlənməlidir, Feodorun səsi danışan adamın səsinə bənzədiyi halda, aktyorların səsləri tamam saxta səslənir. O adam öz məharətini yaxşı gizlədə bilir ki, öz nitqini adi danışıqdan alınmış ifadələrdən təşkil



etsin, buna ilk nümunə göstərən Evripid[10] məhz belə etmişdir.

Nitq isim və fellərdən təşkil olunur, poetik sənətə aid əsərdə nəzərdən keçirdiyimiz qədər isim növü mövcuddur[11], onların sırasından qeyri-adi ifadələri, ikimənalı sözləri və yeni yaradılmış sözləri nadir hallarda və çox az yerdə işlətmək olar. Onların məhz harada istifadə olunması haqqmda biz sonra[12] danışacağıq, ona görə ki, bu sözlərin istifadəsi nitqi adi nitqdən lazım olduğundan artıq dərəcədə fərqli edir. Doğma dilə mənsub, ümumi istifadədə olan sözlər, metaforalar[13] – prozaik nitq üslubu üçün yeganə faydalı olan materialdır. Bu onunla sübut olunur ki, hamı ancaq belə qəbildən olan ifadələrdən istifadə edir və metaforaların, ümumi istifadədə olan sözlərin köməyi ilə keçinir. Amma, aydındır ki, bunu məharətlə edəndə əcnəbi söz seçilmədən keçəcək və aydın məna daşıyacaq. Natiq nitqinin qiyməti məhz bundadır. İsimlərdən omonimlər sofistlər üçün faydalıdır, ona görə ki, onlarm köməyi ilə sofistlər pis fəndlərə əl atacaq; şairlər üçün isə sinonimlər yararlıdır; mən sinonimləri də ümumi istifadədə olan sözlərə aid edirəm, məsələn, poreyesthai "yola düşmək" və badidzein "getmək" kimi sözlər, onlanın hər ikisi eynimənalı və ümumi istifadədə olandır.

Bu terminlərin hər birinin nə olması haqqında, metaforanın neçə növü olması haqqında, həm də metaforanm həm nəsr, həm də nəzmdə böyük əhəmiyyəti haqqında artıq qeyd etdiyimiz kimi poetikaya[14] dair əsərimdə damşılıb, prozaik nitqdə vəznli nitqə nisbətən köməkçi vasitələrdən nə qədər az istifadə edildikcə, buna daha çox diqqət etmək lazımdır.

Metafora yüksək dərəcədə aydınlığa, xoşagəlimliliyə və yenilik gözəlliyinə yüksək dərəcədə malikdir və onu başqa şəxs adından mənimsəmək olmaz. Nitqə uyğun epitet və metaforalar işlətmək lazımdır, buna isə analogiyanın köməyi ilə çatmaq olar; əks halda metafora və epitetlər namünasib

kimi görünəcək, bunun səbəbi odur ki, bu iki anlayışın ziddiyyəti ancaq onlar yanaşı duranda daha çox aydın olur. Düşünmək lazımdır ki, alqırmızı plaş gəncə uyğundursa, bəs qocaya uyğun olan nədir, çünki, həm ona, həm də digərinə eyni şey yaraşmır. Əgər nəyi isə gözəl mənada təsvir etmək istəyirsənsə, onda bu qəbildən olan şeylərin içindən ən yaxşı olan predmetdən metafora iqtibas etmək (götürmək) lazımdır; əgər nəyi isə pis mənada göstərmək istəyirsənsə, onda metaforanı pis şeylərdən əldə etməlisən, sözügedən anlayışlar eyni qəbildən olan şeylərin əks tərəfləri olduğu üçün, məsələn, sədəqə verilməsini xahiş edən adamın sadəcə xahişlə müraciət etdiyini, xahişlə müraciət edən adamın isə sədəqə xahiş etdiyini demək olar, bunu o əsasla demək olar ki, hər iki ifadə xahişi bildirir, bu da göstərilmiş şəkildə hərəkət etmək deməkdir. Eynilə bu üsulla İfikrat da Kallini məşəlgəzdirən kahin deyil, Kibelanın dilənən kahini adlandırmışdı. Kalli cavabında bildirir ki, İfikrat məbədin ayinlərindən xəbərdar deyil, əks halda onu Kibelanın dilənən kahini deyil, məşəlgəzdirən kahini adlandırardı.[15] Həm bu, həm də digər vəzifə ilahəyə aiddir, ancaq, onlardan biri şərəflidir, digəri isə deyil. Eynilə belə kənar şəxslər Dionisini əhatə edənləri Dionisinin yaltaqları[16], onların özləri isə özlərini rəssam adlandırırlar. Həm bu, həm də digər ad metaforadır, amma, birincisi, buna çirkin məna verənlərdən gəlir, digəri isə onun əksini nəzərdə tutanlardan. Eynilə belə soyğunçular özlərini porist[17] (fövqəladə vergiyığan) adlandırırlar. Eyni əsasla ədalətsiz hərəkət etmiş adam haqqında demək olar ki, o, səhv edib, səhv edən adama isə ədalətsiz hərəkət etdiyini demək olar və oğurluq etmiş haqqında demək olar ki, o, götürüb, həm də demək olar ki, qarət edib. Evripidin Telefinin dediyi:

Qılıncın dəstəyi altında hökmranlıq edir və Miziyaya gəlir.[18]



ifadəsi kimi ifadələr uyğun deyil, çünki, "hökmranlıq etmək" ifadəsi lazım olduğundan əhəmiyyətlidir və heç nə ilə pərdələnməyib. Səhv xoşagələn səs əlamətləri olmayan hecaların özündə ola bilər, məsələn, Mis ləqəbli Dionisi öz elegiyalarında poeziyanı o əsasla Kalliopanın[19] harayı adlandırırdı ki, həm bu, həm də o səslərdən ibarətdir. Bu metafora ifadə olunmuş fikrin aydın olmamasına görə yaxşı deyil. Bundan başqa, adsız predmetlər üçün adları uzaqdan götürmək məsləhət deyil, elə qohum və eynicinsli predmetlərdən götürmək lazımdır ki, baxan kimi aydın olsun ki, madam ad götürülüb, onda hər iki predmet qohumdur, məsələn, məşhur tapmacada olduğu kimi:

Mən adam görmüşəm ki, misi odun köməyi
ilə adama yapışdırır.[20]

Bu əməliyyatın termini yoxdur, amma bu və o biri müəyyən dərəcədə yanına qoymaq, yapışdırmaq mənasındadır, buna görə də banka qoyulmasına yapışdırma deyirik.

Ümumiyyətlə, yaxşı tərtib olunmuş tapmacalardan gözəl metaforalar əldə etmək olar; metaforaların özləri tapmacalardan ibarətdir, buna görə də aydındır ki, tapmacalar yaxşı tərtib olunmuş metaforalardır. Adları gözəl predmetlərdən götürmək vacibdir. Likimninin[21] dediyi kimi, sözün gözəlliyi səsin özündə, ya da onun mənasındadır, sözün eybəcərliyi haqqında da eyni şeyi demək olar. Daha bir şərt var ki, onunla sofist qaydaları təkzib edilir. Brisonun[22] düzgün olmayan fikrinə görə, eyni bir şeyi bildirən sözləri bir-birinin yerində işlətmək heç də pis deyil. Bu səhvdir, ona görə ki, daha çox işlənən, daha çox uyğun gələn söz məsələni gözlərimizin qarşısında başqa sözlərdən daha tez təsəvvürə gətirə bilər. Bundan başqa, müxtəlif sözlər də predmeti eyni cür işıqlandırmır, buna görə də bu cəhətdən nəzərdə tutmaq lazımdır ki, bir söz o birindən ya gözəl, ya da eybəcərdir. Hər iki söz gözəl, ya da eybəcər mənası versə də, həmin şey-

in nə qədər gözəl, ya da eybəcər olduğunu bildirmir, ya da bildirəndə də birinin böyük, digərinin kiçik dərəcədə olduğunu deyirlər.

Metaforaları səsinə, mənasına görə gözəl olan, ya göz üçün, ya da başqa bir hiss üçün xoş olan bir şeyə malik sözlərdən əldə etmək lazımdır. Məsələn, şəfəq haqqında ifadələrdə fərq var: "çəhrayı barmaqlı gözəl", "al barmaqlı gözəldən" yaxşıdır", "qırmızı barmaqlı gözəl isə pisdir".

Epitetlər sahəsində də eyni şey hökm sürür: epitetləri pis və utanmalı şeylərin əsasında da qurmaq olar, məsələn, "ana qatili"" epiteti; amma, onları yaxşının əsasında da qurmaq olar, məsələn, "atasına görə qisasçı""[23] Qatır yarışlarında qalib gələn şəxs Simonidə cüzi qiymətə şeir yazmağı təklif edəndə, o, imtina edərək bəhanə gətirir ki, "yarımeşşəkləri"" vəsf etməyə çətinlik çəkir. Amma, ona kifayət qədər pul veriləndə belə yazır:

Salam olsun sizə, ey külək kimi madyanların
övladları.[24]

Halbuki, qatırlar həm də eşşəklərin övladları idi. Elə həmin məqsədlə kiçildici ifadələrə əl atmaq olar. Həm şəri, həm də xeyri əslində olduğundan daha kiçik göstərən ifadələr kiçildici adlanır; Aristofan öz "Babillilər""[25] əsərində zarafatla "qızıl əşya"" əvəzinə, "qızıl parçası"", "libas"" yerinə "libascıq"", "söyüş"" əvəzinə "söyüşcük"" və "naxoşluqcuq"" dediyi kimi.

Amma, burada da ehtiyatlı olmaq və həm bunda, həm də onda həddi bilmək lazımdır.

*3. Üslubun soyuqluğunun (təmtəraqlılığının) dörd səbəbi: mürəkkəb sözlərin, qeyri-adi ifadələrin işlədilməsi, lazım olmayan epitetlərdən və uyğun gəlməyən metaforalardan istifadə.*



Üslubun soyuqluğu (psychra) dörd səbəbdən baş verə bilər: birincisi, mürəkkəb sözlərdən istifadə etməkdən, məsələn, Likofronun[26] işlətdiyi "uca zirvəli torpağın çoxüzlü səma", "darcığırlı sahil" kimi ifadələrdən. Ya da Qorqinin dediyi "sədəqə diləməkdə mahir olan yaltaq" və "həqiqi, ya da yalandan and içənlər" kimi ifadələr. Ya da Alkidamantın "qəzəblə dolu qəlb", "od rənginə düşən sima" haqqında dedikləri, ya da hesab etməsi ki, "onların səyləri məqsədəuyğun olacaq" və həm də onun inandırıcı nitqi "məqsədəuyğun" hesab etməsi və dəniz səthini "tünd rəngli" adlandırması. Bütün bu ifadələr poetikdir, çünki iki sözdən tərtib olunub. Üslubun soyuqluğunun səbəbi məhz bundadır. Digər səbəb isə qeyri-adi ifadələrin işlədilməsidir, Likofronun Kserksi "div kişi", Skironu[27] "yirtici-kişi" adlandırması və Alkidamantın poeziyanın "oyuncaqlarından", "təbii günahdan", "öz ramedilməz fikirlərinin coşqunluğu ilə oyanmış" insan haqqında danışması buna misaldır.

Üçüncü səbəb isə uzun, ya da yersiz, ya da çox miqdarda epitetlərdən istifadə etməkdir, məsələn, poeziyada südü ağ adlandırmaq tamamilə mümkündür, nəsrdə isə belə epitetlər tamam yersizdir; epitetlərin çoxluğu ritorik məharəti aşkara çıxarır və bu sübut edir ki, onlardan həddən çox istifadə poeziyanın yaranmasına səbəb olur, belə ki, onlardan istifadə nitqin adi xarakterini dəyişdirir və üsluba yad bir çalar verir. Bu münasibətdə mötədilliyə (ortabablığa) can atmaq lazımdır, çünki, burada ifratçılıq sadə nitqdən (yəni epitetsiz) daha böyük pislikdir – ikinci halda nitq heç bir dəyərə malik deyil, birinci halda isə nöqsanlıdır. Məhz buna görə də Alkidamantın əsərləri soyuq görünür, o, epitetləri ədviyyat kimi deyil, yemək kimi istifadə edir. Alkidamantda epitetlər çox sıx və şişirdilmiş olduğu üçün gözə çarpır, məsələn, o, "tər" deyil, "nəm tər", "İstmi oyunlara" deyil, "İstmi oyunlarında təntənəli iclasa", "qanunlar" deyil, "dövlətin hakimi olan qanunlar", "sürətlə" deyil, "qəlbin sürətli hərəkətiylə" deyir; O, "muzey" haqqında deyil, "təbi-

ət muzeyi" haqqında, "qaranlıq mənəvi qayğıdan" danışır, kimi isə "mərhəmətin yaradıcısı" deyil, "ümumxalq mərhəmətinin yaradıcısı" adlandırır, natiqə isə "dinləyicilər üçün ləzzətin bölüşdürücüsü" deyir; o, nəyin isə "budaqlar altında" deyil, "meşənin budaqları altında" gizlənməsini", birisinin bədənini deyil, "bədəninin abrını" gizlətməsini söyləyir, ehtirası "qəlbin rəqibi" adlandırır; sonuncu ifadə (antiminos) eyni zamanda həm düzəltmə söz, həmdə epitetdir, buna görə də poeziyaya məxsusdur; Alkidamant eynilə bu cür, pozğunluğun ifrat dərəcəsini "bütün sərhələri aşmaq"" adlandırır. Poetik ifadələrin belə yersiz istifadəsi nəticəsində üslub gülməli və soyuq alınır, boşboğazlıq nəticəsində isə aydın olmur, çünki, birisi işi bu işi bilən adama izah edən zaman izahının qaranlığı ilə aydınlığı məhv edir. Adamlar mürəkkəb sözlərdən müəyyən anlayışın adı olmayanda, ya da mürəkkəb sözü düzəltmək asan olanda mürəkkəb sözlərdən istifadə edirlər, məsələn chronotribein "vaxt keçirmək" sözü belədir, amma belə sözlər çoxdursa, onda ifadə tamamilə poetik olur. İkiqat sözlərdən istifadə etmək həmişə difiramb[28] yazan şairlərə xas olub, belə ki, onlar gurultulu şeyləri sevirlər; Qədim sözlərdən istifadə isə epik şairlərə xasdır, çünki, belə sözlər təntənəli və inamlıdır. Bizim dediyimiz kimi, indi yazılan yambik şeirlərə metaforalardan istifadə xasdır. Elə metaforalar var ki, onlardan istifadə etmək olmaz, bəzilərini ona görə ki, mənaları gülməlidir (elə buna görə də komediya müəllifləri metafora işlədirlər), digərlərini ona görə ki, mənaları çox təntənəli və tragikdir; bundan başqa, uzaqdan götürülmüş metaforaların da aydın mənası olmur, məsələn: Qorqinin "solğun" və "qanlı" işlər barəsində yazdığı ifadələr kimi. Ya da: "sən bu işdə rüsvayçılıq əkdin və bədbəxtlik biçdin". Belə ifadə həddindən çox poetik görkəmə malikdir. Ya da, necə ki, Alkidamant fəlsəfəni "qanunlarm möhkəmlənməsi", "Odisseeyanı" isə "insan həyatının gözəl güzgüsü" adlandırır və "poeziyaya buna oxşar oyuncaqlar daxil etmir". Bütün buna bənzər ifadələr yu-



xarıda göstərilmiş səbəblər nəticəsində inandırıcı deyil. Uçarkən Qorqinin üstünü batırmış göyərçinə onun dediyi sözlər də daha çox tragikə yaraşardı, o, belə demişdi: "Filomela, ayıbdır".[29] Bunu edən quş üçün bu ayıb deyil; amma qız üçün ayıb ola bilərdi. Bu sözlərdə olan tənə quşun indi deyil, keçmiş həyatında nə olduğuna daha çox yaraşır.

### 4. *Müqayisə, onun metaforaya münasibəti. - Müqayisədən istifadə.*

Müqayisə (eic⎕n) də metaforadır, belə ki, onun və bunun arasında çox az fərq var. Şair Axill haqqında deyəndə ki, "o, şir kimi vuruşur" – bu müqayisədir. Amma, o, deyəndə ki, "şir cumdu" – bu metaforadır; onlarm hər ikisi cəsur olduğu üçün şair metaforadan istifadə edərək Axilli şir adlandırır. Müqayisə nəsr üçün də faydalıdır, amma çox az hallarda, çünki, o, ümumiyyətlə poeziya sahəsinə aiddir. Müqayisələrə yolu metaforalara verilən kimi vermək lazımdır, çünki, onlar da metaforadır və ancaq yuxarıda göstərdiyimizə görə metaforadan fərqlənirlər. Müqayisə üçün nümunə Androtionun İdriyaya[30] haqqında sözləri ola bilər: "o, zənciri qırılmış itlərə oxşayır, onların dişləmək üçün cummaqları necə təhlükəlidirsə, buxovlardan azad olmuş İdriya da elə təhlükəlidir".

Teodamant da Arxidamı Evksenlə[31] belə müqayisə edərək ona "minus həndəsi biliklər" deyirdi, o, bunu o əsasla deyirdi ki, bunun əksinin "Evksen=Arxidam+həndəsi biliklər" olduğunu hesab edirdi. Platonun "Dövlət" əsərində rast gəlinən müqayisələr də belədir: "ölüləri soyub yaraq-əsləhəni götürən adamlar, onlara daş atan adamlara dəyməyilə, daşları dişləyən itlərə oxşayırlar".[32] Xalq üçün edilən müqayisə də belədir, burada xalqı güclü, amma bir az ağır eşidən gəmi sükançısına bənzədirlər[33], şairlərin şeirlərinin müqayisəsi də belədir, - şeirlər təravətli, amma gözəl olmayan simalara bənzəyir, sonuncular solandan sonra əvvəl ol-

duqlarma bənzəməyəcəklər, birincilər isə - ölçüləri pozulanda. Periklin samosalılar barəsində etdiyi müqayisə də belədir: "onlar təklif olunan payı alaraq ağlamağa davam edən uzaqlara bənzəyirlər".[34] Beotiyalılar haqqmda müqayisə də belədir: "onlar palıdlara bənzəyirlər, palıdlar bir-birinə toxunub parçalandığı kimi, beotiyalılar da bir-biriləri ilə vuruşurlar".[35] Demostenin[36] xalqı gəmidə dəniz xəstəliyindən əziyyət çəkən adamlarla müqayisə etməsi də belədir. Həm də Demokratın[37] natiqləri "tikəni özləri yeyib tüpürcəyi uşaqların dodaqlarına sürtən" dayələrlə müqayisə etməsi də belədir. Antisfenin[38] çox incə olan Kefisodotu buxarlanan zaman ləzzət verən buxar ilə müqayisə etməsi də belədir. Bütün bu ifadələri həm müqayisə, həm də metafora kimi istifadə etmək olar və aydındır ki, müvəffəqiyyətlə istifadə olunmuş metaforalar eyni zamanda müqayisə, müqayisələr isə əksinə metafora olacaq – belə ki, müqayisə sözü olan "necə" burada işlənmir. Metaforaları həmişə oxşarlardan götürmək və eyni qəbildən olan iki predmetə tətbiq etmək lazımdır, məsələn, fial Dionisinin qalxanıdırsa, onda Aresin[39] qalxanını da fial adlandırmaq olar.

### 5. *Dilin düzgünlüyünün asılı olduğu beş şərt - yazılı nitqin asan oxunuşu və asan başa düşülməsi. – Nitqi anlaşılmaz edən səbəblər.*

Beləliklə, nitq bunlardan tərtib olunur. Üslub yunan dilində düzgün danışmaq qabiliyyətinə əsaslanır, bu isə beş şərtdən asılıdır. Birincisi, bağlayıcılarm düzgün istifadəsindən, onların düzgün yerləşdirilməsindən, yəni, onların öz təbiətlərinə uyğun bir-birinin ardınca gəlməli olduqları kimi və bəzi yazıçılarm tələb etdiyi kimi, əvvəl birilərinin, sonra isə digərlərinin gəlməsindən asılıdır, məsələn, men və egö men özlərindən sonra birincisi de-ni, ikincisi isə hode-ni tələb edir. Onları bir-birinin ardmca qoymaq lazımdır və tələb olunan qarşılıqlı nisbəti yadda saxlayaraq onları çox uzaq



məsafədə yerləşdirməmək və bir bağlayıcını zəruri olan digərindən əvvəl işlətmək lazımdır, çünki, bağlayıcıların belə istifadəsi nadir hallarda yararlı olur. "Mən isə, nə vaxt ki, o, mənə dedi, belə ki, Kleon mənim yamma xahiş və tələblərlə gəldi, yola düşdü, onları özümlə götürüb"". Bu cümlədə bağlayıcılarm çoxu izləməli olduqları bağlayıcılardan əvvəldə qoyulub, "yola düşdüm" sözündən əvvəl çox söz qoyulduğuna görə cümlə aydın deyil. Beləliklə, birinci şərt bağlayıcıların düzgün istifadəsindən ibarətdir. İkincisi, sözlərin təsviredici ifadələrindən deyil, özlərindən istifadə etməkdən ibarətdir. "Üçüncüsü, ikimənalı ifadələr işlətmək lazım deyid, bunu ancaq qəsdən etmək olar (məsələn, elə adamlar var ki, danışmağa söz tapmadıqları halda, özlərini elə aparırlar ki, guya nə isə danışırlar). Belə hallarda adamlar bunu poetik formada ifadə edirlər, məsələn, Empedokl həmişə belə edirdi. Eyhamlı ifadələr öz genişliyi ilə dinləyicilərin başını aldadır və bu zaman dinləyicilər orakulların qarşısında duraraq, onların gələcək haqqında verdikləri ikimənalı xəbərləri dinləyən və tam onlarla razılaşan xalqm hiss etdiyini hiss edirlər:

> Qalisi keçsə böyük səltənəti
> məhv edəcək.[40]

Orakullar ona görə iş barəsində ümumi cümlələrlə danışırlar ki, bu halda səhv ehtimalı azalır. "Cüt və tək"" oyununda olduğu kimi burada da dəqiq rəqəm deməkdənsə, "cüt"" və ya "tək"" deməklə, udmaq daha asandır, odur ki, dəqiq vaxt təyin etməkdənsə, nəyin isə baş verəcəyini qabaqcadan demək daha mümkün olan şeydir; buna görə də orakullar öz fallarında baş verəcək hadisələrin dəqiq vaxtını demirlər. Bütün bu hallar bir-birinə bənzəyir və əgər belə bir məqsəd yoxdursa, onlardan qaçmmaq lazımdır. Dördüncüsü, isimlərin cinslərini Protaqorun böldüyü kimi kişi, qadm və orta cinslərə ayıraraq düzgün istifadə etmək lazımdır, məsələn, "gəldi və danışaraq getdi" (elthoysa cai dialechtheisa). Beşincisi, sayda ardıcıllığı gözləmək lazımdır, buna

sözün çox olandan, ya da az olandan, ya da tək olandan getməsindən asılı olmayaraq əməl etmək lazımdır, məsələn, "onlar gələrək (elthontes) mənə zərbə vurmağa başladılar.

Ümumiyyətlə, yazılmış olan asan oxunmalı və anlaşılmalıdır, bu da eyni şey deməkdir. Çoxlu bağlayıcıları olan nitq, eləcə də durğu işarələrinin qoyulması çətin olan nitq bu xüsusiyyətlərə malik deyil, məsələn, Heraklitin[41] yazdığı əsərlər kimi. Onları oxumaq böyük zəhmətdir, çünki, nəyin nəyə, əvvəl gələnə, ya da sonra gələnə aid olduğu aydın deyil, məsələn, kitabın əvvəlində o, deyir: "Şüura gəldikdə isə, tələb olunana, insanlar həmişə anlamazdırlar". Burada aydın deyil, "həmişə" sözünü vergül işarəsi ilə nəyə birləşdirmək lazımdır.

Səhv həm də elə halda olur ki, bu zaman iki müxtəlif anlayışa onların heç birinə uyğun olmayan ifadə işlənsin, məsələn, səs və rəng üçün "görüb" ifadəsi hər iki anlayışa uyğun gəlmir, "sezib" ifadəsi isə uyğundur. Bundan başqa əsas şeyi başlanğıcda qeyd etməyib, çox şeyi araya salanda aydınlıq olmur, məsələn, əgər sən "mən danışıb yola düşmək niyyətindən idim və sonra isə bu şəkildə filan-filan şey oldu və filan şey oldu" əvəzinə "mən niyyətində idim ki, onunla filan şey və filan şey barəsində və filan cürə danışım, yola düşüm" desən aydınlıq olmaz.

6. *Üslubun genişliyinə və yığcamlığına nə təsir edir?*

Üslubun genişliyi (ogcon) anlayışı bildirən ad yerinə anlayışın tərifini vermək səbəb olur, məsələn, çevrə yerinə "bütün kənar nöqtələri mərkəzdən eyni məsafədə duran müstəvi sahə" desək. Üslubun yığcamlığına (syntomia) isə bunun əksi, yəni, adın tərif yerinə verilməsi səbəb olur. Nitqin genişliyi üçün belə etmək olar, əgər sözügedən şeydə nalayiq, ya da rüsvayçı nə isə varsa və bu anlayışdadırsa, onda onu ad ilə əvəz etmək lazımdır, əgər adda nalayiq bir şey varsa, onda onu anlayış ilə əvəz etmək lazımdır. Fikri metaforaların və epitetlərin köməyi ilə çatdırmaq olar, amma bu zaman poetik xarakterli şeylərdən çəkinmək lazımdır, həm də tək halda olanı cəm halda təsəvvür etməkdən də çəkinmək lazımdır, bunu şairlər edir, məsələn, bir dənə liman olduğu halda, onlar deyirlər:

Axey limanlarına...[42]
eləcə də
Bu məktubun çox açılan küncləri.[43]

Genişlik üçün iki sözü bir yerdə birləşdirmək və onların hər birinə isə ayrıca tərif vermək olar, məsələn, "arvadımdan, mənim olandan"; yığcamlıq üçün isə əksinə demək lazımdır – "arvadımdan". Geniş danışanda bağlayıcılardan da istifadə etmək lazımdır, yığcam danışanda isə onlardan istifadə etmək lazım deyil, amma bu zaman nitqi rabitəsiz eləmək də olmaz, məsələn belə demək olar: "yola düşmüş və danışmış", həm də belə demək olar: "yola düşərək danışmış" Antimaxın predmeti təsvir edən zaman onda olmayan keyfiyyətlər barəsində danışmaq tərzi də faydalıdır, məsələn, o, Tevmessa dağını vəsf edərək belə deyir:

Küləklərin buruldüğu bir kiçik təpə var.[44]

Bu yolla təsviri sonsuzluğa qədər uzatmaq olar. Həm də, lazım olsa məlum predmetin malik olmadığı yaxşı və pis keyfiyyətləri haqqında danışmaq olar. şairlər də öz "simsiz və lirasız melodiya" ifadəsini buradan götürüblər. Onlar bu ifadələri keyfiyyətlərin yoxluğu nəticəsində deməli olurlar; bu üsul oxşarlığa əsaslanan metaforalar üçün yararlıdır, məsələn, əgər desək ki, "boru lirasız melodiyadır".

7. *Üslub hansı xüsusiyyətlərə malik olmalıdır? – Buna necə çatmaq olar?*

Üslub lazım olan keyfiyyətlərə o zaman malik olar ki, hisslərlə (patheticē) dolu olsun, xarakteri (ethicē) əks etsin

və şeylərin həqiqi vəziyyətinə uyğun gəlsin. Sonuncu o vaxt olur ki, mühüm şeylər haqqında yüngülvari, yüngül şeylər haqqında isə təmtəraqlı danışılmasın və sadə ada (sözə) bəzək-düzək vurulmasın; əks halda üslub təlxəkcəsinə görünəcək; məsələn, Kleofont[45] belə edir – o, "hörmətli əncir ağacı" kimi ifadələrə bənzəyən ifadələrdən istifadə edir. Üslub o zaman hisslər ilə dolu olur ki, o, qəzəbli adamın dilindən çıxsın (əgər iş təhqirdən gedirsə) və hiddətlənən, həm də özünü saxlaya bilən adamın dilindən çıxmış olsun (söhbət allahsız, rüsvayçı şeylərdən gedirsə). Söhbət tərifli şeylərdən gedəndə isə onlardan qürurla, mərhəmət yaradan şeylərdən gedəndə isə fağırcasına danışmaq lazımdır; bunlara bənzəyən başqa hallarda da belə etmək lazımdır. Sözü gedən hala uyğun gələn üslub məsələyə həqiqətə bənzər görkəm verir, bu zaman insan səhv olaraq nəticə çıxarır ki, natiq doğru danışır, ona görə ki, eyni vəziyyətdə onun özü eyni şeyi təcrübədən keçirmişdir, odur ki, insan işlərin gedişini hətta, əslində bu belə olmasa da, natiqin təsvir etdiyi kimi qəbul edir. Dinləyici həmişə hiss ilə danışan natiqə hüsn-rəğbət bəsləyir, hətta bu natiq əsaslı bir şey danışmasa da; bir çox natiq məhz bu üsulla, ancaq boş hay-küyün köməyi ilə dinləyicilərə dərin təsir bağışlayır.

Fikirləri nişanların (sēmeiōn) köməyi ilə ifadə etmək danışanın xarakterini əks etdirir, çünki, hər bir vəziyyət və mənəvi keyfiyyət üçün uyğun olan dil var; vəziyyət deyəndə yaşı (məsələn: oğlan, kişi, ya da qoca), cinsi (məsələn: qadın, ya da kişi), milliyyəti (məsələn: lakoniyalı, ya da fessaliyalı) nəzərdə tuturam. Mən elə şeyləri mənəvi keyfiyyət adlandırıram ki, onlara görə insan həyatda başqa cür deyil, məhz belə olur, ona görə ki, insanın həyat tərzinin başqa cür deyil, məhz belə olması heç də mənəvi keyfiyyətlərin hər birindən asılı deyil və əgər natiq mənəvi keyfiyyətə uyğun ifadələr işlədirsə, o, öz mənəvi simasını aşkar edir, çünki, yonulmamış adamın və savadlı adamın eyni şeyi eyni ifadələrlə deməsi mümkün deyil. Nitqi tərtib edənlərin tez-tez istifadə etdiyi



üsullar müəyyən dərəcədə dinləyicilərə təsir edir. Kim bunu bilmir? Bu hamıya məlumdur. Bu halda dinləyici utandığından razılaşır ki, bütün qalan adamların iştirak etdiyi şeydə iştirak etsin. Bütün ifadə növləri yeri gələndə və gəlməyəndə işlədilə bilər.

Müəyyən ölçülərə riayət etməməyin dərmanı məlum qaydalardır ki, insan özü-özünü tənzimləməlidir, düzəliş verməlidir, ona görə ki, natiq nə etdiyini dərk edirsə, onda onun sözləri həqiqət kimi görünür. Bundan başqa, oxşar olan bütün vasitələrdən eyni zamanda istifadə etmək olmaz, çünki, belə olan tərzdə dinləyicilərdə inamsızlıq yarana bilər. Məsələn, əgər natiqin sözləri çox sərtdirsə, onları sərt səslə demək, simaya sərt ifadə vermək və buna oxşar digər vasitələrdən istifadə etmək olmaz. Bu qaydaya əməl edilməyəndə hər bir ritorik üsulun əslində nə olduğu aşkara çıxır. Əgər natiq bir vasitəni işə salaraq digərindən istifadə etmirsə, onda, o, hiss olunmadan eyni nəticəyə çatır; əgər sərt səslə xoş şeylərdən, xoş səslə isə qəddar şeylərdən danışırsa, onda, o, dinləyicilərin ona olan inamını itirəcək. Mürəkkəb sözlər, epitet bolluğu və az işlənən sözlər ancaq qəzəbin təsiri altında danışan natiq üçün yararlıdır; bədbəxtliyi "səma kimi hüdudsuz", ya da "dəhşətli" adlandırmaq bağışlana bilər. Bu həm də o zaman bağışlana bilər ki, natiq artıq öz dinləyicilərini ələ almış olsun və onları tərif, ya məzəmmət, qəzəb ya dostluq ilə ruhlandırsın, məsələn, İsokrat öz "Panеqirikinin"" sonunda bunu belə deyərək etmişdir: "şərəf və ehtiram"" (phēmxn de cai mnēmēn) və ya "cəsarəti çatanlara"" (etlēsan yerinə etolmēsan). Belə şeyi insanlar entuziazm vəziyyətində deyir və dinləyirlər, yəqin ki, eyni şeyi də hiss edirlər. Buna görə də belə ifadələr poeziyaya uyğundur, belə ki, poeziya ilahidən ilhamlandırılmış bir şeydir. Onları ya yuxarıda göstərilmiş hallarda, ya da ironiya çaları ilə istifadə etmək lazımdır (necə ki, bunu Qorqi etmişdir və onun "Fedrasında"" buna nümunələr var.[46]

*8. Üslub nə vəznli, nə də ritmsiz olmamalıdır.*

Üslubun formasına gəldikdə isə, o, nə vəznli, nə də ritmsiz olmamalıdır. Birinci halda nitq uydurulmuş kimi göründüyü üçün inandırıcı olmayacaq, amma, bununla belə dinləyicilərin diqqətini yayındıracaq, onları oxşar yüksəliş və enişlərin təkrarlanmasını gözə tutmağa məcbur edəcək (onlar eynilə uşaqlar kimi hərəkət edəcəklər: uşaqlar carçıların azadlığa buraxılan adamın kimi hami seçəcəyi sualım qabaqlayaraq "Kleonu!" deyərək qışqırırlar) Ritmdən məhrum üslubun natamam görkəmi var və ona tamamlanmış görkəm vermək lazımdır, amma vəznin köməyi ilə etmək lazım deyil, çünki, natamam olan hər şey xoşagələn deyil və anlaşılmazdır. Hər şey rəqəm ilə ölçülür, üslubun formasına münasibətdə rəqəm rolunu ritm oynayır, vəznlər isə onun bölmələridir; buna görə də nitq vəznə deyil, ritmə malik olmalıdır, əgər əksinə olsa, onda şeir[47] alınar. Ritm ciddi müəyyən olunmuş olmamalıdır, amma ritm ancaq məlum həddə qədər genişlənə bilərsə, bu belə olacaq. Ritmlərdən qəhrəmanlıq ritmi təntənəli xarakter daşıyır və danışıq dilinə xas olan harmoniyaya malik deyil. Yamb bir çox adamların məhz nitq formasıdır. Məhz buna görə də adamlar danışıqlarında bütün ölçülərdən içindən yambik şeirlərə daha çox üstünlük verirlər. Natiqin nitqi isə müəyyən qədər dəbdəbəli olmalı və nitqdən bir qədər yüksəkdə durmalıdır. Troxey komik rəqslərə uyğundur, bunu tetrametrlər sübut edir, çünki, tetrametrlər sıçrayışların ritmidir. Sonra peon[48] gəlir, ondan Frasimaxdan başlayaraq istifadə ediblər, amma peonun nə olduğunu izah edə bilməyiblər. Peon üçüncü ritmdir və yuxarıda göstərilənlərə aiddir, çünki üçün ikiyə nisbətini bildirir, yuxarıda göstərilən ritmlərdən biri birin birə, digərləri isə ikinin birə nisbətini göstərir; bu ritmlərə yarımlıq (orta) ritm də qoşulur ki, bu elə peonun özüdür, qalan ritmləri bir tərəfə qoymaq lazımdır, həm yuxarıda şərh olunmuş səbəblərə görə, həm də onların vəznli olduğuna görə; nəzərdə tutmaq lazımdır ki, qeyd etdiyimiz bütün ritmlərdən şeir yaratmayan təkcə peondun, buna görə də peondan hiss olunmadan istifadə etmək olur.[49] İndi ancaq bir növ peondan həm əvvəldə, həm də sonda istifadə edirlər, halbuki sonu əvvəldən fərqləndirmək lazımdır. Bir-birinə əks olan iki növ peon var ki, onlardan biri əvvəl üçün (onu məhz belə də istifadə edirlər) yararlıdır; bu məhz əvvəlində uzun hecanın, sonra isə üç qısa hecanın durduğu peondur, məsələn: Dãlŏgĕnĕs ẽitĕ lўcĭan ya da chnўsĕ – ocŏmd Hĕcqiĕ pai Dĭos. Peonun digər növündə isə ilk üç heca qısa, sonuncu isə uzundur, məsələn, mĕtq dĕ gãn hўdãtã töcĕqnŏn ẽphqnĭsĕ nўx.[50] Bu növ peon sonda yerləşdirilir, çünki, qısa heca öz natamamlığına görə sonluğu bir növ şikəst edir. Sonluğu uzun heca ilə bitirmək lazımdır, sonluq mirzənin, ya da hər hansı bir işarənin köməyi ilə deyil, ritmin özündən aydın olmalıdır.

Beləliklə, biz dedik ki, üslub yaxşı ritmə malik olmalıdır, ritmdən məhrum olmamalıdır, biz həm də dedik ki, hansı ritmlər və hansı şəraitdə üslubi ritmik edir.

*9. Rabitəli üslub və periodik üslub – sadə period və mürəkkəb period. - Mürəkkəb periodun iki növü, - Müqayisə, bərabərləşdirmə və bənzətmə (təşbih).*

Üslub mütləq, ya fasiləsiz (eiromene) və bağlayıcıların köməyi ilə əlaqələndirilmiş – difiramblarda prelyudiyalar (anabolai) belədir, ya da periodik olub qədim şairlərin antistroflarına oxşamalıdırlar. Fasiləsiz üslub – qədim üslubdir: "Aşağıda verilən əsər Furiyalı Herodotun tarixi şərhidir".[51] Əvvəllər bu üslubi hamı işlədirdi, indi isə ondan çox az adamlar istifadə edir. Mən elə üslubi fasiləsiz adlandırıram ki, əgər onun bəhs etdiyi predmet bitməsə, o, özlüyündə sonsuzdur; o, öz natamamlığına görə xoşagələn deyil, çünki hamı sonu görmək istəyir, məhz bu səbəbdən qaçışda yarı-

şanlar döngələrdə təngnəfəs olur və gücdən düşürlər. Halbuki, əvvəl, qarşılarında qaçışın son həddini gördəndə yorğunluq hiss etmirdilər. Fasiləsiz üslub məhz bundan ibarətdir; periodlardan tərtib olunmuş üsluba isə mən periodik üslub deyirəm. Mən period deyəndə müstəqil olaraq əvvəli və sonu olan və ölçüləri asan görünə bilən frazaları nəzərdə tuturam. Belə üslub xoş və anlaşıqlıdır; ona görə xoşdur ki, natamam nitqin əksini ifadə edir və dinləyiciyə həmişə elə gəlir ki, o, nəyi isə dərhal qavrayır və onun üçün nə isə sona yetib; heç bir şey hiss etməmək və heç nəyə gəlib çıxmamaq isə heç də xoşagələn şey deyil. Periodik nitq asan yadda qaldığı üçün anlaşılandır, buna səbəb odur ki, periodik nitq rəqəmlərə malikdir, rəqəm isə asanlıqla yadda qalır. Buna görə də hamı şeirləri nəsrdən daha yaxşı yadda saxlayır, çünki şeirlər rəqəmə malikdir və rəqəmlə ölçülürlər. Period fikirlə birlikdə sona yetməlidir, Sofoklun şeirləri kimi parçalanmalıdır:

Calydōn men hēde gaia Pelopias chthonos.[52]

belə parçalanma zamanı deyilən fikri demək istədiklərinə əks olan mənada başa düşmək olar, məsələn, misal gətirilmiş halda olduğu kimi fikirləşmək olar ki, Kalidon Peloponnesdə yerləşib. Period bir neçə üzvdən ibarət, ya da sadə ola bilər.

Bir neçə üzvdən (cōla) ibarət period tamamlanmış fraza görkəmində olur, o, ayrı-ayrı hissələrə bölünə bilər və yuxarıda misal göstərilmiş period kimi bölünmüş şəkildə deyil, birnəfəsə, tam deyilə bilər. Kolon periodun üzvü və onun hissələrindən biridir. Bir üzvlü periodu mən sadə adlandırıram. Nə periodun üzvləri, nə də periodlar nə qısaldılmış, nə də uzun olmamalıdırlar, çünki qısa fraza çox vaxt dinləyiciləri duruxdurur; doğrudan da, dinləyici özündə təsəvvür etdiyi həddə doğru irəli gedən zaman nitqin kəsilməsi nəticəsində geriyə oturur və elə bil maniəyə rast gələrək duruxur. Uzun periodlar isə dinləyiciləri dalda qalmağa məcbur edir: eynilə belə, gəzintiyə çıxan adamlar təyin olunmuş hüdudlardan kənara çıxaraq bir yerdə gəzintiyə çıxdıqları adamları geridə qoyurlar. Eyni şəkildə, uzun periodlar da bütöv bir nitqə çevrilir və prelyudiyaya bənzəmiş olurlar və bu zaman elə hal əmələ gəlir iki, Xioslu Demokrit Melanippidə rişxənd etmişdir:



Başqası üçün pislik etməyi düşünən, pisliyi özü üçün düşünür,
Elə uzun prelyudiya da onu yazanın özü üçün böyük pislikdir.[53]

Uzun periodları tərtib edənlər haqqında da eyni şeyi demək olar. Amma, çox qısa periodlar da period deyil, onlar dinləyiciləri irəliyə çox sürətlə aparırlar.

Bir neçə üzvdən ibarət period ya bölüşdürücü, ya da onun əksi olur. Bölüşdürücü perioda misal:

"Mən tez-tez ona təəccüb edirdim ki, təntənəli yığıncaqları qanuniləşdirən və gimnastik yarışları təsis edən kimdir".[54] Əks olan period elədir ki, onun hər iki üzvündə əks olanın biri digəri ilə yanaşı durur, ya da eyni bir üzv iki əks olanla birləşir, məsələn: "Onlar xidməti həm onlara, həm başqalarına, həm qalanlara, həm də onların ardınca gələnlərə göstərdilər; onlar ikincilərə onların evdə malik olduqlarından daha çox torpaq verdilər, birincilərə isə evdə kifayət qədər torpaq saxladılar".[55] Burada əks olan bunlardır: qalmaq, ardınca gəlmək, kifayət qədər, çox". Eynilə digər cümlədə də: "pula ehtiyacı olanlar üçün də və onlardan istifadə istəyənlər üçün də"[56] - "istifadə" ilə "əldə etmək" biri-birinə əks qoyulur. Yenə də: "çox vaxt elə olur ki, belə şəraitdə ağıllı adamlar da müvəffəqiyyətsizliyə düçar olur, ağılsızlar da müvəffəqiyyət qazanır".[57] Ya da: "onlar həmin an qələbəyə görə mükafat aldılar, bir qədər sonra isə dənizdə ağalığı əldə etdilər".[58] "O, öz qoşunlarını Hellespontun üstündən körpü salmaqla və Afon dağını qazmaqla materikdə üzməyə və dənizdə piyada yeriməyə məcbur etdi".[59] «Mənşəyinə görə vətəndaş olanları vətəndaşlıq hüququndan qanun hökmü ilə məhrum etmək»[60],"Onlardan bəziləri dəh-

şətli şəkildə həlak oldular, digərləri isə rüsvayçılıqla xilas oldular".[61] "Şəxsi həyatda barbar qulların xidmətindən istifadə etmək, siyasətdə isə bir çox müttəfiqin qula çevrilməsini seyr etmək"[62], "Ya həyatda ikən sahib olmaq, ya da ölümdən sonra buraxıb getmək".[63] Bir nəfər isə məhkəmədə Pifolay və Likofrona münasibətdə belə deyib: "Onlar nə qədər ki, evdə idilər, bizi satırdılar, amma bura gələndə isə özözlərini satdılar".[64] Bütün gətirilmiş misallar qeyd etdiyimiz təsiri bağışlayır. Belə ifadə üsulu xoşagələndir, çünki, əks olanları anlatmaq çox asandır, əgər onlar yanaşı dururlarsa, onda onları anlatmaq daha da asanlaşır, həm də ona görə ki, bu ifadə üsulu sillogizmə oxşayır, çünki, ifşa etmək əks olanların birləşməsidir.

Əks olmaq (antithesis) belə olan şeydir. Bərabərləşdirmə (parnisõsis) elə hala deyilir ki, bu zaman periodun hər iki üzvü bərabər olur. Bənzətmə (paromoiõsis) isə elə hala deyilir ki, o vaxt hər iki üzvün kənar hecaları bənzər olsun; bənzərlik mütləq ya əvvəldə, ya da axırda olmalıdır; əvvəldə adlar bənzər olur, axırda isə son hecalar, ya da eyni adın müxtəlif halları, ya da eyni bir ad. Əvvəldə olan bənzərliyə misallar: agron gar elaben agron par aytoy "o, ondan barsız tarla alıb",[65] dõrẽtoi t'epelonto pararrẽtoi t'epeessin – "Onları hədiyyələrlə rəhmə gətirmək, sözlərlə yola gətirmək olar".[66] Sonda olan bənzətməyə misallar: õiẽthẽsan ayton poidion tetocenai, all' aytoy aition gegonenai – onlar düşünmürdülər ki, o, uşağı doğub, düşünürdülər ki, o, buna səbəb olub", en pleistais de phrontisi cai en elachistais elpisin – "sonsuz qayğılar və cüzi ümidlərlə". Eyni ismin müxtəlif hallarda sonda durmasına misal: axios de stathnyai chalcoys, oys axios õn chalcoy – "o, mis heykələ layiqdir, halbuki mis pul qədər qiyməti yoxdur". Eyni sözün sonda təkrarlandığı hal: sy d'ayton cai dzõnta eleges cacõs nyn grapheis cacõs, - "o, həyatda olanda da onun haqqında pis danışırdın, elə indi də ondan pis şeylər yazırsan". Bənzərliyin bir hecada olduğu hal: ti an epathes deinon, ei andr'eides



argon – "əgər işsiz adam görsəydin nə cür narazılıq hiss edərdik?" Ola bilər ki, eyni bir fraza hər şeyi – həm əks olam, həm üzvlərin bərabərliyini, həm də sonsuzların bənzərliyini özündə cəmləsin. Periodların müxtəlif başlanğıcları Teodektin[67] əsərlərində sadalanıb. Amma saxta əks olanlar da ola bilir, məsələn, Epiarxın istifadə etdikləri: Gah onlarm ölkəsində olurdum, gah da onların yanında".[68]

*10. Zərif və yaxşı ifadələri haradan əldə edirlər? - Metaforaların hansı növü daha çox diqqətə layiqdir?*

Bu məsələni araşdıraraq demək lazımdır ki, zərif (asteia) və yaxşı (ta eydocimoynta lecteon) ifadələr haradan əldə edilir. Belə ifadələri icad etmək istedadlı, ya da bu işdə təcrübəsi olan adamın işidir, amma onlarm xüsusiyyətlərini göstərmək isə elmin işidir. İndi isə onlardan danışaq və onları sadalayaq. Bundan başlayaq – təbiidir ki, hər bir insana nəyi isə asanlıqla öyrənə bilmək xasdır, hər bir söz isə müəyyən mənaya malikdir, buna görə də, hər hansı bir bilik verən sözlər bizim üçün daha xoş gəlir. Qeyri-adi sözlər bizim üçün anlaşılmazdır, ümumi istifadədə olan sözləri isə biz başa düşürük. Bu cəhətdən metaforalar irəlidədirlər, məsələn, əgər şair qocalığı biçindən sonra qalmış saplaq adlandırırsa[69], onda, o, nəsil anlayışının köməyi ilə öyrədir və məlumat verir, çünki, həm bu, həm də o, bir növ solmuş şeylərdir. Şairlərin istifadə etdiyi bənzətmə də eyni təsiri bağışlayır, buna görə də onlar zərif görünürlər, əlbəttə, əgər onlar yaxşı seçiliblərsə. Bənzətmə, əvvəl dediyimiz[70] kimi, elə metaforanın özüdür, fərqi ancaq müqayisə edilən sözün birləşdirilməsindədir; bu da daha uzun olduğuna görə, "bunun o" olduğunu təsdiq etmədiyinə görə bəyənilmir, elə bizim şüurumuz da bunu tələb etmir.

Beləliklə, bizə elə o an bilik verə biləcək üslub və entimemalar zəruri olaraq zərif olacaqlar, elə buna görə də səthi entimemalar o qədər də hörmət qazanmayıb (biz elə entimemaları səthi adlandırırıq ki, hamı üçün aydın olsun və

onlarda bir şeyi tədqiq etməyə ehtiyac olmasın); söylənən zaman anlaşılmaz olan entimemalar da hörmətdə deyildir. Ancaq o entimemalar böyük hörmət qazanıblar ki, onların deyilişi müəyyən biliyin yaranmasına səbəb olsun (hətta bu biliklər əvvəllər olmasa belə), ya da elə entimemalar hörmət qazanıblar ki, onlara münasibətdə şüur bir az geridə qalır; çünki, bu son hallarda biz elə bil yeni biliklər əldə edirik, ilk iki halda isə yox. Belə entimemalar onlarda söylənənin mənasına görə hörmət qazanıb, nitqin xarici formasına gəldikdə isə, burada əks olanların istifadə olunduğu entimemalara daha çox əhəmiyyət verilir, məsələn, "onların ümumi sülhünü bizim şəxsi maraqlarımıza qarşı elan edilmiş müharibə hesab edərək"[71] – burada müharibə sülhə əks qoyulur. Entimema, əgər onda metafora varsa, ayrıca sözlərlə də təsir bağışlaya bilər, həm də metafora çox uzaqdan götürülməməlidir, çünki, bələsinin mənasını anlamaq çətindir; bundan başqa, entimema çox səthi olmamalıdır, ona görə ki, beləsi də heç bir təəssürat bağışlamır. Həm də elə entimema əhəmiyyətlidir ki, şeyi bizim gözlərimiz qarşısında təsvir etsin, çünki, diqqəti daha çox olacaq şeyə deyil, olan şeyə vermək lazımdır.

Beləliklə, bu üç şeyə səy göstərmək lazımdır: - metaforaya, əks qoymağa, əyaniliyə.

Metaforanın dörd növündən ən çox diqqətəlayiq olanlar analogiyaya əsaslanan metaforalardır; məsələn, Perikl deyirdi ki, "müharibədə həlak olmuş gənclər dövlət üçün itirilməsini, ilin fəsillərindən baharın itirilməsinin eynidir"[72] Leptin[73] də lakedemoniyalılar haqqında demişdi ki, "o, Elladanın bir gözündən çəp olmasına imkan verməyəcək". Xaret də Olinf müharibəsi haqqında hesabat verməyə tələsəndə Kefisodot[74] qəzəblənərək demişdi ki, o, xalq "qazanda qaynayan" zaman hesabat verməyə can atır. Vaxtilə afinalıları ərzaq ehtiyatı toplayaraq Evbeyaya getməyə çağıran natiq də deyirdi ki, Miltiadın qərarı "yürüşə çıxmaq"[75] olmalıdır. İfikrat da afinalıların Epidavr və bütün sahilyanı ölkə ilə



bağlandığı sazişdən narazılığını bildirərək deyirdi ki, "onlar müharibə dövründə ərzağı özləri özlərindən zorla alıblar" Pifolay[76] da paralı "xalqın toppuzu", Sesti isə "Pireyin ələyi" adlandırırdı. Perikl də, Eqinanı[77] – "Pireyin gözündəki irini" məhv etməyə çağırırdı. Mirokl[78] da hörmətli şəxslərdən birinin adını çəkərək demişdi ki, özü bu şəxsdən heç də pis deyil, çünki, həmin şəxs yüzün üçdə biri qədər faizdə pis hərəkət etdiyi halda, Miroklun özü yüzün onda biri qədər pis hərəkət edir. Anaksandridin ərə getməkdə gecikən qızları haqqında yazdığı yamb da eyni məna daşıyır:

Mənim qızlarım nikaha girmək möhlətini uzadıblar.[79]

Polievktin apopleksiyaya tutulmuş Spevsipp adlı birisi haqqında dediyi: "O, bir dəqiqəsini də sakit keçirə bilmir, baxmayaraq ki, tale onu beş deşikli xəstəliklə bağlayıb"[80] – sözlər də bu mənadadır. Kefisodot da triyeraları *alabəzək* dəyirman, Diogen-köpək isə yol yeməkxanaları - attika fiditiyalar adlandırırdı, Esion isə deyirdi ki, onlar "dövləti siciliyaya töküblər"[81] Bu ifadələr metaforik və əyanidir. "Bütün Yunanıstan haray çəksin" ifadəsi də müəyyən mənada metaforadır və əyanidir. Ya da Kefisodotun afinalılara verdiyi çoxlu yığnaqlara və xalq yığıncaqlarına yol verməkdən çəkinmək məsləhəti verməsi eyni şeydir. İsokrat da təntənəli yığıncağa qaçıb gələnlər haqqında eyni şeyi demişdi. Ya da epitafiyada "Salamində həlak olmuş döyüşçülərin məzarının üstündə onların qəhrəmanlığı ilə bir yerdə öz azadlığını da basdıran Yunanıstanın öz saçını qırxması şərəfli olardı"[82] sözlərinin yazılması. Əgər, o, desəydi ki, yunanlar göz yaşı tökməlidir, çünki onların qəhrəmanlığı basdırılıb – bu metaforik və əyani olardı, amma, sitat gətirilmiş sözlərin özündə qəhrəmanlığın azadlığına dair müəyyən ziddiyyət var. İfikrat də belə deyib: "Mənim nitqlərimin yolu Xaretin əməlləri arasından keçib gedir". Burada metafora analogiyaya görə işlənir və "arasından" ifadəsi isə frazanı əyani edir. "Təhlükəyə qarşı mübarizədə təhlükəni yardıma çağırmaq" ifadəsi frazanı əyani edən metaforadır. Xabrini müdafiə edən Li-

kolcont[83] demişdir: "Necə, məgər, siz onun şərəfinə ucaldılmış mis heykəlin yalvarışlarına güzəşt etməyəcəksinizmi?" Bu metafora əyani olsa da, həmişəlik deyil, hazırkı dəqiqə üçündür; Xabri təhlükədə olanda ona görə xahişi mis heykəl edir,dövlət işlərinin bu cansız abidəsi elə bil bir növ canlanır. "Onlar var qüvvələri ilə qorxaq olmağa çalışırlar"[84] ifadəsi də belədir, çünki, çalışmaq nəyi isə artırmaq deməkdir. Bu ifadə də eynilə belədir: "Allah şüuru qəlbdə bir məşəl kimi yandırıb", çünki hər iki söz əyani olaraq nəyi isə göstərir. Bu da eyni şeydir: "Biz müharibəni dayandırmırıq, təxirə salırıq"[85], həm bu, həm də o, həm təxirə salmaq, həm də belə sülh gələcəyə aiddir. Bu ifadə də buraya aiddir: "sülh sazişi daha qiymətli qənimətdir, nəinki müharibədə alınan qənimət"[86], çünki, sonuncu ya əhəmiyyətsiz şeylərə görə, ya da təsadüfi bir hala görə alınır, birinci isə bütün müharibəyə görə; həm o, həm də digəri qələbə əlamətidir. Belə bir ifadə də buraya aiddir: "dövlət üçün böyük cəza adamların məzəmmətidir, ona görə ki, cəza bizə ədalətli şəkildə vurulmuş ziyandır".

*11. **Bir daha uğurlu ifadələr və söz oyunu (asteia) haqqında. – Əyanilik nədir? Əyaniliyin metaforaya münasibəti. – Metaforaları haradan götürmək lazımdır? – Dinləyicilərin "aldadılması", apofteqmalar, tapmacalar, paradokslar, hərflərin yerlərinin dəyişdirilməsi və həmahəngliyə əsaslanan zarafatlar, omonimlər. – Müqayisə, onun metaforaya münasibəti. – Məsəllər və hiperbolalar, onların metaforaya münasibəti.***

Beləliklə, biz uğurlu ifadələrin analogiya üzrə qurulmuş metaforalardan və şeyləri əyani təsvir edən ifadələrdən alındığını dedik, indi isə, biz nəyi "əyani" adlandırdığımız və əyaniliyin nəyin nəticəsində yaranması barəsində danışaq. Mən deyirəm ki, o ifadələr şeyi əyani göstərir ki, onlar onu hərəkətdə göstərsinlər, məsələn, əxlaqi cəhətdən yaxşı adamın dördbucaqlı olması ifadəsi metaforadır[87], ona görə ki, hər iki anlayış tamamlanıb, amma hərəkəti göstərmirlər. "O,



gücünün çiçəkləndiyi dövrdədir", ifadəsi isə fəaliyyətin aşkarlandığını göstərir, eləcə də "səni, müqəddəs vilayətdə azad otlayan heyvan kimi..."[88] ifadəsi. Eləcə də bu ifadə:

O zaman yunanlar öz sürətli ayaqları
ilə sıçrayaraq.[89]

"sıçrayaraq" ifadəsi hərəkət bildirir və metaforadır, ona görə ki, onun özündə sürət anlayışı var. Homer belə ifadələrdən tez-tez istifadə edərək, metaforaların köməyi ilə cansızı canlı kimi göstərirdi. Bütün bu hallarda hərəkət bildirən ifadələrin istifadəsindən frazalar qazanır, məsələn, aşağıdakı hallarda:

Həyasız daş dağın üstündən geriyə – vadiyə
yönəlirdi.[90]

Və
Oxun acı ucu... geri atılır dəydiyi misdən.
İti ox acgözcəsinə uçdu nişanlanmış qurbanına
doğru.
Düşmənlərin içinə.

Və
Nizələr neştərləriylə torpağa saplandılar,
acgözcasına doymaq niyyətilə

Və
Acgözcasına irəli yönələrək
kürəyindən onun sinəsinə batdı.[91]

Bütün bu hallarda canlı kimi göstərilmiş predmetlər fəaliyyətdə görünürlər, belə ki, "aldatmaq", "daldalanmaq" və sair fəaliyyətin təzahürüdür. Şair onları analogiyaya görə metaforalarm köməyi ilə tətbiq etmişdir, çünki, daş Sizifə[92] necə münasibət bəsləyirsə, həyasız hərəkət edən də həyasız davrandığına qarşı elə hərəkət edir. Şair cansız predmetlər haqqında danışarkən müvəffəqiyyətli obrazlardan istifadə edir:

...coşur

Çoxsəsli burulğanın çoxlu guruldayan qozbel
dalğaları,
Köpükdən ağ-appağ, aramsız bir-birinin dalınca
qaçacaq.[93]

Burada şair hərəkət edən hər şeyi həm də canlı təsvir edir, hərəkət isə fəaliyyətdir.

Biz daha əvvəl dediyimiz kimi[94] metaforaları oxşar predmetlər sahəsindən götürməliyik, amma aşkar oxşar deyil, fəlsəfədə qəbul edildiyi kimi, sərrast ağlın xüsusiyyəti bir-birindən uzaq şeylərdə də bənzərliyi görməkdir, məsələn, Arxit[95] deyirdi ki, hakim və qurbangah eyni şeydir, ona görə ki, ədalətsizliyə məruz qalanlar həm bunun, həm də onun yanına qaçıb gedirlər. Ya da ki, əgər birisi desə ki, lövbər və krematra[96] eyni şeydir, həm bu, həm də digəri oxşar şeylərdir, amma biri-birindən vəziyyətləri ilə seçilirlər – biri yuxarıda, digəri isə aşağıda yerləşir. "Dövlətlər bərabərləşirdilər"[97] ifadəsində də biri-birindən çox uzaq qalan predmetlərin oxşarlığı, məhz qüdrətdə və üzdə olan səthi bərabərliyi qeyd olunur.

Məzəli ifadələrin (asteia) bir çoxu metaforaların köməyi və dinləyicilərin aldadılması vasitəsiylə əmələ gəlir. Dinləyici üçün o vaxt hər şey aydın olur ki, o, onun düşündüyünə zidd olan nə isə yeni bir şey öyrənsin, bu zaman şüuru elə bil ona deyir: "Bu necə də doğrudur! Mən isə yanılmışam". Apofteqmlərin zərifliyi məhz ondan irəli gəlir ki, onlar, onlarda bəhs edilən şeyi ifadə etmirlər, məsələn, Stesixorun kəlamı: "cırcıramalar özləri üçün yerdə oxuyacaqlar"[98]. Elə bu səbəb üzündən yaxşı tərtib olunmuş tapmacalar xoşagələndir, onlar müəyyən bilik verir və onlarda metaforadan istifadə edilir. Feodorun "yeni bir şey demək" (to caina legein) ifadəsi də buraya aiddir; bu o halda olur ki, o zaman fikir paradoksal olsun və Feodorun[99] dediyi kimi əvvəlcədən bərqərar olmuş rəylə uzlaşmasın (eynilə zarafatlarda dəyişdirilmiş sözlərin istifadəsi kimi); hərf və sözlərin



yerdəyişməsinə əsaslanan zarafatlar da eyni təsiri göstərə bilər, çünki, burada da dinləyici yanılır. Şeirlərdə də eyni şey olur, çünki onlar dinləyicinin nəzərdə tutduğu kimi bitmir, məsələn:

O, gedirdi, ayağında don vurmuş yerlər olsa da.[100]

Dinləyici gözləyirdi ki, ayağında don vurşmuş yerlər deyil, səndəllər deyiləcək. Belə ifadələr tələffüz ediləndən dərhal sonra anlanmalıdır. Sözlərdə hərflər dəyişdirilən zaman isə danışan dediyini deyil, təhrif edilmiş sözlərdən alınmış mənam deyir, məsələn, Feodorun kifared Nikona dediyi sözlər belədir: "səni dünyaya frakiyalı qadın gətirib". Feodor özünü elə tutur ki, elə bil deyir: "bu səni narahat edir" və bununla dinləyici aldanır, çünki, əslində o, tamam başqa şey deyir. Buna görə də bu fraza onu başa düşənə ləzzət verir, amma Nikonun frakiyalı olmasını bilməyən üçün bu fraza sərrast görünməyəcək.[102] Daha bir fraza: "sən onu məhv etmək istəyirsən", ya da istəyirsən ki, o, farsların tərəfinə keçsin".[103] Həm bu, həm başqa mənada fraza lazımi şəkildə deyilməlidir. Eyni şeyi sözlərin oyunu haqqında da demək olar, məsələn, əgər belə deyilirsə: "Afinalılar üçün dənizdə hökmranlıq fəlakətin başlanğıcı deyildi, ona görə ki, onlar bundan fayda götürdülər".[104] Ya da İsokratın dediyi kimi: "ağalıq etmək dövlət üçün fəlakətin başlanğıcı oldu".[105] Hər iki halda elə şey deyildi ki, onun deyilməsini gözləmək çətin olsa da, həqiqət kimi qəbul edildi. Əvvəlin əvvəl olduğunu demək o qədər də böyük müdriklik deyil, amma bu söz belə şəkildə deyil, başqa cür işlədilir və archē həmin deyil, başqa mənada təkrarlanır. Bütün bu hallarda, əgər söz lazımi olan şəkildə omonimiya, ya da metafora üçün işlədilirsə, onda yaxşı alınır, məsələn: "Anasxet dözülməzdir"[107] - burada omonimiya istifadə olunub və əgər Anasxet həqiqətən də xoşagəlməz adamdırsa, onda elə lazım olan şəkildə istifadə olunub. Ya da:

Sən bizim üçün əcnəbinin olmalı qədər olduğundan daha çox yad ola bilməzsən.[107]

Ya da: "sənin olmalı olduğun qədərdən çox olmayaraq, əcnəbi": bu da elə eyni şey deməkdir. Bir də: "əcnəbi həmişə yad qalmamalıdır", burada da xenos sözünün müxtəlif mənaları var. Eyni şeyi Anaksandridin tərifləyici sözləri haqqında da demək olar:

Ölümə layiq bir şey etməmişdən əvvəl ölmək gözəldir.[108]

Bunu demək eynilə – "ölümə layiq olmadan ölməyə dəyər", ya da "ölümə dəymədən ölməyə dəyər", ya da "ölüm üçün nə isə layiqli bir şey etmədən" - deməkdir. Bu frazaların eyni bir ifadə üsulu var, həm də fraza nə qədər qısadırsa və ondakı ziddiyyət nə qədər güclüdürsə, bir o qədər uğurludur; bunun səbəbi odur ki, zidd olan tərəfdən verilən məlumat daha dolğun, qısalığına görə isə sürətli olur. Bu zaman frazanın aid olduğu sima hökmən olmalıdır və əgər frazada deyilənlər həqiqət olub, həm də bayağı deyilsə, (çünki, bu keyfiyyətlər bir-birinə uyğun gəlməyə də bilərlər) fraza düzgün deyilməlidir. Məsələn: "heç bir günah işlətmədən ölmək lazımdır"; burada fikir eynidir, amma ifadə zərif deyil. Yenə də: "ləyaqətli ləyaqətli olanla evlənməlidir" - bu da zərif deyil. Amma, fraza hər iki keyfiyyətə malikdirsə, məsələn: "ölümə layiq olmadan ölmək" – bu fraza zərifdir. Fraza yuxarıda göstərilən tələblərə nə qədər çox cavab versə, bir o qədər də uğurlu alınar, məsələn, əgər adlar metafora kimi istifadə olunubsa və frazada həm buna uyğun növ metafora, həm də ona zidd olan, həm bərabərləşdirmə, həm də fəaliyyət olmuş olsa.

Eləcə də, bizim yuxarıda dediyimiz[109] kimi metaforanın bir növ mahiyyəti olan müqayisə də olmalıdır ki, bu həmişə xoşagələndir. Onlar həmişə analogiya üzrə metaforada olduğu kimi iki anlayışdan tərtib olunurlar, məsələn: "biz deyirik ki, qalxan Aresin[110] sinisidir, kaman isə – sinisiz forminqadir". Belə şəkildə danışarkən sadə olmayan metaforalardan istifadə edirlər, kaman forminqa, qalxanı isə sini adlandırmaq sadə metaforadan istifadə etmək deməkdir.



Müqayisələr belə şəkildə edilir: məsələn, fleyta çalanı meymunla, zəif görən adamı sönməkdə olan şamdanla (çünki, həm biri, həm də digəri göz qırpır). Müqayisə o vaxt uğurlu olur ki, onda metafora olsun, məsələn, "necə ki, qalxanı Aresin sinisi ilə, xarabalıqları evin cır-cındırı ilə müqayisə etmək olar; buraya həm də Frasimaxın Prati tərəfindən deklamasiyada məğlub edilmiş, saçını uzadaraq səliqəsiz görkəmdi olan Nikeratı[111] görən zaman dediyi müqayisə də daxildir: "Nikerat Plati tərəfmdən dişlənmiş Filoktetdir". Bu işdə (daha doğrusu, müqayisə uğursuz alınanda) şairlər çox vaxt müvəffəqiyyətsizliyə düçar olurlar və həm də elə buna görə (yəni, müqayisə uğurlu alınanda) onları ən çox şərəfləndirirlər. Mən, məsələn şairin belə dediyi halları nəzərdə tuturam:

Onun dizləri kərəviz kimi əyilib.[112]

Ya da:
Filammon kimi öz kisəsi ilə vuruşaraq...[113]

Bütün bu ifadələr müqayisəni göstərir. Müqayisənin metaforadan başqa bir şey olmadığını isə biz dəfələrlə demişik.

Və nəhayət məsəllər – bir qəbildən olan şeylərin digər qəbilə metaforasıdır, məsələn, əgər birisi nəyi isə yanına götürərək bundan faydalanmaş istəyəndə və sonradan bundan ziyan çəkəndə deyirlər: "bu karpatlı ilə dovşanın işi oldu".[114] Çünki, ikisi də eyni cür zərər çəkib.

Beləliklə, biz artıq demək olar ki, uğurlu ifadələrin nədən və niyə yarandığını aydınlaşdırdıq.

Müvəffəqiyyətli hiperbolalar da metaforadır, məsələn, əzişdirilmiş sifət haqqında demək olar ki, tut dolu səbətə bənzəyir, çünki gözlərin altı göyərib. Amma, bu kifayət qədər şişirdilib. "Filan kimi şeyə bənzəyir" və "bu cür və bu cür" ifadələri hiperboladır və ancaq formaca fərqlənirlər.

Filammon kimi öz kisəsi ilə vuruşaraq...

Bu formada müqayisə hiperbola olur – fikirləşmək olar ki, bu kisə ilə döyüşən Filamondur, ya da "kərəviz kimi əyriayağı sahib olmaq" ifadəsi, elə fikirləşmək olar ki, həmin adamda ayaq əvəzində kərəviz var (çünki, onlar elə əyiliblər). Uşaq xarakteri daşıyan hiperbolalar da mövcuddur, onlar mübaliğəli olduğu üçün, çox vaxt onları qəzəbin təsiri altında istifadə edirlər:

Hətta o, mənə burada olan qum və toz qədər versə də.
Mən Atridin qızını almaram özümə arvad
Hətta gözəlliyi ilə qızıl Afrodita ilə bəhsə girsə də
Hətta mahirlikdə bayquşgözlü Afinaya oxşasa da.[115]

Attika natiqləri hiperbolalardan daha tez-tez istifadə edirlər. Yaşlı adama isə onlardan istifadə etmək yaraşmır.

*12. Hər bir nitq növünə xüsusi üslub uyğundur. – Yazılı nitqin və polemik nitqin üslubi. – Yazılı nitq üslubi ilə şifahi yarışmaların nitqinin üslubi arasında fərq. Səhnə üsulları hansı nitq üçün yararlıdır? – Üslub haqqında mülahizələrin nəticəsi.*

Bizim diqqətimizdən qaçmamalıdır ki, hər bir nitq növü üçün xüsusi üslub yararlıdır, çünki, yazılı və polemik nitq, xalq yığıncağı qarşısında söylənən nitq və məhkəmə nitqi eyni üslubdə olmur. Hər iki növ üslubu bilmək zəruridir, çünki, birinci üslub yunan dilini mahircəsinə bilməkdən ibarətdir, ikinci üslubi bilməklə başqalarına nəyi isə ötürmək lazım olanda yazı yazmağı bacarmayan adamlar kimi susmalı olmayacaqsan. Yazı nitqi ən dəqiq, polemik nitqin üslubi isə ən aktyorcasına olan üslubdir. Sonuncu üslubin iki növü var: əxlaqa aid olan etik və ehtirasları oyadan patetik. Buna görə də aktyorlar belə qəbildən olan dramatik əsərlərin, şairlər isə belə qəbildən olan aktyorlarm sorağındadırlar. Oxumaq üçün yararlı olan şairləri ağır şairlər təqdim edir; məsələn, Xeremon belə şair sayılırdı, çünki, o, loqoqraf



kimi dəqiq idi, difiramb yazan şairlərdən isə Likimnini[116] göstərmək olar. Əgər nitqləri öz aralarında müqayisə etsək, onda şifahi yarışmalarda qələmə alınmış nitqlər quru görünür, hətta müvəffəqiyyət qazanmış natiqlərin nitqləri də əlimizdə olanda mahircəsinə deyilmiş kimi görünmür; bunun səbəbi odur ki, onlar ancaq şifahi yarışlar üçün yararlıdır; elə həmin səbəb üzündən səhnə üsulları səhnədən kənarda xoş təəssürat yaratmır və yöndəmsiz görünür; məsələn, ədalətlə desək, yazılı nitqdə bağlayıcılarla birləşdirilməmiş frazalar və eyni şeyin tez-tez təkrarı qəbul edilmir, amma şifahi nitqlərdə isə natiqlər onlardan istifadə edir, çünki, onlar aktyorlara xasdır. Eyni bir şeyin təkrarı zamanı başqa cür danışmaq zəruridir, bu da bir növ deklamasiyaya yol vermək deməkdir, məsələn: "bax, o, sizi soyandır, bax, o sizi aldadandır, bax, o, isə sizə xəyanət etməyi nəhayət qərara alıb". Məsələn, aktyor Filemon Anaksandridin[117] "Qocaların dəliliyi" əsərində hər dəfə "Radamant və Palamed" deyəndə, "Möminin" isə proloqunda "mən" deyəndə belə edirdi. Belə cümlələri aktyor kimi deməyənlər isə şalban daşıyan adama bənzəyirlər. Bağlayıcılarla birləşdirilməmiş frazalar haqqmda da eynilə belə demək olar, məsələn: "mən gəldim", "mən qarşıladım", "mən istədim". Bu cümlələri eyni cür, eyni səslə və bir cümlə deyirmiş kimi demək olmaz, onları deklamasiya ilə demək lazımdır. Bağlayıcılarla birləşməmiş nitqin müəyyən xüsusiyyəti var: eyni bir vaxt ərzində daha çox şey deyilir, ona görə ki, bağlayıcılarla birləşmək nəticəsində çoxluq vahidə çevrilir, bağlayıcıların ləğvi ilə isə vahid çoxluğa çevrilir. Bu səbəbdən belə nitqdə amplifikasiya[118] var: "mən gəldim, danışdım, xahiş etdim" (bu çox görünür), "o, mənim dediklərimin hamısına nifrətlə yanaşdı". Homer də buna nail olmaq istəyib:

... Nirey simalıdır...
...Nireyi Aqlaya doğub...
Nirey hamıdan gözəldir...[119]

Kimin barəsində çox deyirlərsə, yəqin ki, bu barədə tez-tez deyirlər; kimin haqqında tez-tez deyirlərsə, belə görünür ki, onun haqqında çox deyilib; şair də bu şəkildə Nireydən bir dəfə deyərək paralogizmin köməyi ilə bir dəfəni artırır və onun adını əbədiləşdirir, baxmayaraq ki, onun haqqında başqa yerdə heç bir söz demir.

Xalq iclasında söylənən nitqin üslubi bütün cəhətlərdən skiaqrafiyaya (sciagraphia)[120] bənzəyir, çünki, kütlə nə qədər çox olsa, perspektiv də o qədər uzaqlaşır, məhz buna görə də, həm orada, həm də burada dəqiq olan hər şey yersiz görünür və pis təəssürat bağışlayır; məhkəmə nitqinin üslubi daha dəqiqdir, bir hakimin qarşısında söylənən nitq isə daha dəqiq olur; belə nitqdə ritorika daha az olur, çünki burada nəyin işə aid olduğu, nəyin isə yad olduğu daha yaxşı bilinir; burada mübahisə olmadığına görə qərar təmiz alınır. Buna görə də, eyni natiqlər bütün qeyd etdiyimiz nitq növlərində deyil, ən az dəqiqlik olan yerdə, ən çox deklamasiya olan yerdə müvəffəqiyyət qazanırlar, bu elə yerdə olur ki, orada səs və xüsusən güclü səs lazım olsun.

Yazı üçün epideyktik nitq üslubi daha çox uyğundur, belə ki, o, qiraət üçün nəzərdə tutulub; onun ardınca məhkəmə nitqi üslubi gəlir.

Üslubin analizini davam etdirmək, onun xoşagəlimli və əzəmətli olmasını sübut etmək artıqdır, axı nəyə görə üslub bu xüsusiyyətlərə mötədillik, alicənablıq, ya da başqa etik məziyyətdən daha çox dərəcədə sahib olmalıdır? Sadaladığımız xüsusiyyətlərin üslubin xoşagəlimli olmasına yardım etməsinə gəldikdə isə, əgər biz üslubin məziyyətlərini düzgün müəyyən etmişiksə, bu şübhəsizdir. Ona görə ki, heç bir başqa şeyə görə deyil, ancaq xoşagəlimli olmaq üçün üslub aydın, ədəbli olmalıdır. Əgər üslub çox geniş, ya da çox yığcamdırsa, onda, o, aydın olmur; bu cəhətdən orta vəziyyətdə olmağın yararlılığı şübhəsizdir.

Sadalanmış keyfiyyətlər üslubi xoşagəlimli edir ki, onda həm ümumi işlənən, həm də az işlədilən ifadələr, həm



ritm, həm də lazımi qaydada inandırıcı dəlillər müvəffəqiyyətlə qarışdırılsın.

Beləliklə, biz üslub haqqında – bütün üslublər və hər biri haqqında ayrıca danışdıq. İndi ancaq nitqin qurulmasından danışmaq qalır.

*13. Nitq hansı iki hissəyə bölünür? - Aristotelin bölmələri və ondan əvvəl yaradılmış bölmələr.*

Nitq iki hissədən ibarətdir, çünki sözügedən predmeti elan etmək və onu sübut etmək lazımdır, buna görə də elan edib sübut etmək, ya da əvvəlcədən elan etməyib sübut etmək mümkün deyil, sübut edən adam nəyi isə sübut edir və nəyi isə əvvəlcədən şərh edən adam da sübut etmək məqsədi ilə şərh edir. Bu iki hissədən birincisi şərhdir (prothesis), ikincisi isə inandırma (pistis) üsuludur. Elə bil ki, birisi nitqi məsələdən və onun həllindən ibarət iki hissəyə bölüb. Amma indi necə bölürlər – bu lap gülməlidir, çünki, hekayə ancaq məhkəmə nitqlərinə xasdır; axı epideyktik nitqdə və xalq yığıncağında söylənən nitqdə hekayə dediyimiz şey, ya da rəqibə aid olan şey, ya da sübutetmənin nəticəsi necə ola bilər? Xalq yığıncaqlarında söylənən nitqlərdə giriş, dəlillərin götür-qoy və nitqdə deyilənlərin qısa təkrarı ancaq o vaxt olur ki, o vaxt müzakirələr olsun, çünki müzakirələrdə çox vaxt iş məzəmmət etməkdən və bəraətləndirməkdən ibarət olur, amma məşvərət olan hallarda belə olmur. Nəticə isə heç də bütün məhkəmə nitqlərində olmur, məsələn, nəticə o vaxt olmur ki, nitq qısa olsun, ya da iş asan yaddaqalan olsun, çünki, adətən geniş olanı əksiltmək lazım gəlir. Bu səbəbdən nitqin zəruri hissələri şərh və inandırma üsuludur; bunlar nitqin ayrılmaz mənsubiyyətidir, amma əksər hallarda nitqin tərkibi belə olur: - giriş, şərh, inandırma üsulu, nəticə, ona görə ki, rəqibə deyilənlər inandırma üsuluna aiddir, dəlillərin lehinə və əleyhinə tutuşdurulması isə ancaq öz dəlillərinin gücləndirilməsidir, buna görə də inandırma üsulunun müəyyən bir hissəsidir; bu tutuşdurmanı edən nəyi isə

sübut edir, giriş və nəticə isə heç nəyi sübut etmir, nəticə ancaq yada salır. Əgər belə bölgünü götürsək, onda Feodorun şagirdlərinin etdiyini eləmək lazım olacaq: şərhi (diēgēsis) nəticədən (epidiēgēsis) və ilkin sübutetmədən və son sübutetmədən ayırmaq. Hər hansı xüsusi bir ad qoyan zaman bunun üçün xüsusi termin təyin etmək lazımdır, əks halda termin boş və cəfəngiyyat olacaq. Məsələn, Likimni[121] öz "Ritorika" əsərində "müdaxilə", "sapma", "budaqlanma" kimi terminlərdən istifadə edərək məhz belə hərəkət edir.

*14. Nitqin birinci hissəsi olan girişin analizi. Girişin melodiya ilə müqayisəsi. – Epideyktik və məhkəmə nitqlərinə, difirambik, epik, tragik və komik əsərlərə giriş. - Bütün qəbildən olan əsərlər üçün ümumi olan başqa növ girişlər, onların məzmunu nədən ibarətdir və bu zaman hansı məqsəd güdülür?*

Beləliklə, poetik əsərdə proloq, fleytada çalınan musiqidə prelüd olduğu kimi giriş (prooimion) nitqin başlanğıcıdır. Bütün bu hissələr başlanğıc olub sanki sonradan gələn üçün yol açırlar. Prelüd epideyktik nitqlərdəki girişə bənzəyir, ona görə ki, fleytaçılar bütün pyesdə çala bildiklərinin ən yaxşısını əvvəldə çalaraq prelüddə birləşdirirlər; epideyktik nitqlərdə də belə etmək lazımdır, yəni, sübut etmək istədiyin hər şeyi tez şərh etmək və əlaqələndirmək lazımdır. Bunu hamı elə belə də edir. Buna nümunə kimi İsokratın "Yelenaya" yazılmış girişini göstərmək olar, çünki, Yelena ilə eristik mühakimələr arasında ümumi olan heç bir şey yoxdur.[122] Bununla belə, əgər giriş nitqin ümumi məzmunundan kənara çıxırsa, onda bunun da faydası nitqin eyni cür olmamasıdır. Epideyktik nitqlərin girişi tərif, ya da məzəmmətdən ibarət olur, məsələn, Qorqi olimpiada nitqində belə demişdi: "Ey bir çoxlarının yanında hörmət qazanmış ellin kişiləri"[123], çünki, o, ictimai yığıncaqları təşkil edənləri tərifləyirdi. İsokrat isə onları ona görə məzəmmət edirdi ki, onlar fiziki məziyyətləri mükafatlarla şərəfləndirdikləri halda,



mənəvi məziyyətləri olan adamlar üçün heç bir mükafat təyin etməyiblər.[124] Giriş məsləhətdən də ibarət ola bilər, məsələn: "yaxşı adamlara hörmət etmək lazımdır, elə buna görə də, o, özü Aristidi[125] tərifləyir, ya da elə adamlara hörmət etmək lazımdır ki, onlar məşhur deyillər və pis adam da deyildirlər, amma yaxşı adam olduqları halda tanınmayıblar, elə Priamın oğlu Aleksandr kimi. – müəllif bu yolla məsləhət verir.

Girişin məzmununu məhkəmə nitqlərinin girişindən, yəni birbaşa dinləyicilərə müraciətdən götürmək olar, əlbəttə, əgər söz nə isə çətin, ya da hamıya məlum olan bir şeyin xahişindən gedirsə, məsələn, Xeril belə girişlə başlayır:

İndi, hər şeyi bölüşdürəndən sonra.[126]

Beləliklə, epideyktik nitqlərə giriş bunlardan ibarət olur: tərifdən, məzəmmətdən, inandırmadan, fikirdən, çəkindirmədən, dinləyicilərə müraciətdən. Bu "prelüd" nitqin məzmunu ilə ya bağlı olmalıdır, ya da ona yad olmalıdır. Məhkəmə nitqlərinə gəldikdə isə, demək lazımdır ki, onlar dramatik əsərlərdə proloq və epik əsərlərdə isə müqəddimə kimi əhəmiyyətə malikdirlər.

Difirambik əsərlərin girişi isə epideyktik nitqlərin girişlərinə bənzəyir, məsələn:

Sənə, sənin bəxşiş və qənimətinə görə.[127]

Epik əsərlərdə giriş nitqin məzmununun göstəricisidir ki, dinləyicilər sözün nədən gedəcəyini əvvəlcədən bilsinlər və sonra çaşıb qalmasınlar, belə ki, qeyri-müəyyənlik adamı aldadır. Əgər birisi nitqin əvvəlini bir növ dinləyicinin əlinə verirsə, onda, o, bununla nitqə nəzarət etmək imkanını da verir. Buna görə də deyirlər:

Oxu ilahə, qəzəb haqqında.[128]

Və:

Muza, o təcrübəli kişi haqqında mənə de.[129]

Və:

Mənə onu da de ki, böyük savaş Asiyadan necə

Avropaya keçdi.[130]

Tragiklər də dram haqqında məlumatı girişdə deyirlər, bəziləri isə bunu Evripid kimi dərhal, bəziləri isə Sofokl kimi arada deyirlər:

Mənim atam Polib olub.[131]

Komiklər də belə edirlər, çünki girişin özünə xas olan zəruri vəzifəsi söylənən nitqin məqsədinin necə olduğunu göstərməkdən ibarətdir, buna görə də, əgər iş aydm və qısadırsa, girişdən istifadə etmək lazım deyil.

Natiqlərin istifadə etdiyi başqa giriş növləri müəyyən üsulları (iatreymata) təmsil edirlər, onlar bütün növlərdən olan əsərlər üçün ümumidir; onların məzmunu natiqin öz şəxsiyyətindən, dinləyicinin şəxsiyyətindən, işdən, rəqibin şəxsiyyətindən asılı olaraq yaranır. İttihamın təsdiqinə, ya da təkzibinə yardım edən hər şey – natiqə, ya da onun rəqibinə aiddir. Amma, burada eyni cür hərəkət etmək lazım deyil: özünə bəraət qazandırarkən ittihama aid olanları əvvəldə, ittiham edən zaman isə onları nəticədə göstərmək lazımdır. Nəyə görə belə etməyin lazım olduğu tamamilə aydmdır, özünə bəraət qazandıran zaman bütün maneələri aradan qaldırmaq lazımdır, madam öz-özünü məhkəmə qarşısında qoymağı nəzərdə tutursan, onda gərək hər şeydən əvvəl ittihamı təkzib edəsən. Özün ittiham edən zaman isə ittihamı sonda yerləşdirmək lazımdır ki, yadda daha çox qalsın.

Dinləyicini nəzərdə tutan girişlər onun iltifatını qazanmaq, ya da onu acıqlandırmaq arzusundan, bəzən isə onun diqqətini cəlb etmək, ya da etməmək arzusundan irəli gəlir, çünki, onun diqqətini cəlb etmək həmişə faydalı deyil, buna görə də bir çox natiqlər dinləyiciləri güldürməyə çalışırlar. Əgər birisi bunu istəyirsə, onda bütün bunlar dinləyicilərin iltifatına səbəb olur, əgər natiq özünü əxlaqi cəhətdən yaxşı adam kimi qələmə verə bilsə, buna nail ola bilər, çünki, dinləyicilər belə adamlara böyük diqqətlə yanaşırlar.



Dinləyicilər bütün ali şeylərə, şəxsən onlara aid olanlara, qəribə və xoşagələn hər şeyə diqqətlə yanaşırlar; buna görə də dinləyicilərə təlqin etmək lazımdır ki, söhbət məhz belə predmetlərdən gedir. Amma, dinləyicilərin diqqəti cəlb etmək arzuolunmazdırsa, onda onlara təlqin etmək lazımdır ki, adı gedən iş əhəmiyyətsizdir, onlara qətiyyən dəxli olmayan, qəmgin bir şeydən ibarətdir. Amma unutmaq lazım deyil ki, bütün bunlar birbaşa nitqin özünə aid deyil və işə dəxli olmayan şeyləri dinləməyi sevən pis dinləyiciyə aiddir. Əgər dinləyici belə deyilsə, onda girişə heç bir ehtiyac yoxdur, təkcə işi qısa şəkildə şərh etmək lazımdır ki, necə deyərlər – "bədən başa sahib olsun". Lazım olan vaxt dinləyicinin diqqətini cəlb etmək nitqin bütün hissələrinin üstünə düşən vəzifədir, çünki, diqqət əvvələ nisbətən nitqin bütün başqa hissələrində daha tez zəifləyir. Bu səbəbdən, buna əvvəldə can atmaq gülüncdür, çünki, onsuz da əvvəldə hamı daha çox diqqətlə dinləyir. Buna görə də, yeri gələndə belə frazalar işlətmək lazımdır: "Mənə bir az diqqət verin, ona görə ki, bu iş məndən çox sizə aiddir" və "Mən sizə elə dəhşətli, ya da elə qəribə şey deyəcəyəm ki, beləsini siz heç vaxt eşitməmisiniz". Bu yuxulamağa hazır olan dinləyicilərə Prodikin "öz nitqinə 50 draxmalıq bilik əlavə etdiyini"[132] deməsinə bənzəyir. Aydındır ki, belə üsullar dinləməyən dinləyiciyə aiddir, çünki, hamı öz girişlərində ya ittiham edir, ya da qorxuları dağıdır, məsələn:

Hökmdar, mən buraya bərk qaçaraq tələsməmişəm.[133]
Ya da:
Bu qədər müqəddimələr nəyə lazımdır?[134]

Bu üsula işi haqq olmayan, ya da işi belə görünən adamlar da əl atırlar, çünki, onlar üçün öz işlərindən başqa hər şeyə dayanmaq sərfəlidir. Buna görə də, qullar onlara verilən suallara cavab vermir, əsil məsələnin ətrafında fırlanır və uzun çıxışlar edirlər.

Dinləyicilərin iltifatını hansı üsulla qazanmaq barəsində, eləcə də, hər bir üsul barəsində ayrıca danışmışıq. Çünki şair yaxşı deyib:

Mənə imkan ver, mərhəmət doğuran, istədiyim
Feakaların yanına gedim.[136]

Belə ki, bu iki şeyə qarşı can atmaq lazımdır. Epideyktik nitqlərdə dinləyiciləri onu düşünməyə məcbur etmək lazımdır ki, tərif həm də onların özlərinə, ya onların nəslinə, ya da onların həyat tərzinə aiddir, buna görə də Sokrat qəbirüstü nitqində doğru demişdir: "Afinalıları afinalılar arasında təriflmək asandır, amma, onları lakedemoniyalılar arasında tərifləmək çətindir".[137]

Xalq qarşısında söylənən nitqlərin girişləri məhkəmə nitqlərinin girişlərindən götürülür; amma, öz təbiətinə görə bu nitqlərin onlara ehtiyacı azdır, çünki, dinləyicilər də söhbətin nədən getdiyini bilir və işin özünün də girişə ehtiyacı yoxdur. Giriş ya ancaq natiqin özünə görə, ya onun rəqiblərinə görə, ya da dinləyicilərin işi natiqin göstərmək istədiyindən az və ya çox qədər vacib hesab etmədiyinə görə lazımdır, buna görə də ittihamı ya təsdiq etmək, ya da təkzib etmək, işin əhəmiyyətini ya artırmaq, ya da azaltmaq lazımdır; buna görə də girişə ehtiyac var, giriş həm də bəzək üçün lazımdır, girişsiz nitq tələsik, əlüstü quraşdırılmış kimi görünür. Məsələn, Qorqinin eleylilər üçün yazdığı tərifləyici nitqi belədir, bu nitqdə o, əlini-əlinə vurmadan, əvvəlcədən hazırlaşmadan birbaşa deyir: "Eleya, xoşbəxt şəhər...".[138]

*15. İttiham; onu təkzib etməyin müxtəlif üsulları*

İttihama (diabolē) gəldikdə isə, onu təkzib etməyin bir üsulu elə şeydən ibarətdir ki, onun köməyi ilə əlverişsiz rəyi dağıtmaq mümkün olsun; bu zaman onun kimin tərəfindən söylənib-söylənməməsinin fərqi yoxdur; bu ümumi qaydadır.



Digər üsul isə mübahisəli bəndlərə qarşı çıxaraq bunun olmadığını, ya bunun məlum şəxs üçün zərərli olduğunu, ya da zərərli olmadığını, ya da o qədər də əhəmiyyəti olmadığını, ya ədalətsiz olmadığını, ya utanmalı olmadığını, ya da təsvir edilən ölçülərdə olmadığını izah etməkdən ibarətdir, ona görə ki, belə bəndlərə münasibətdə mübahisə ola bilər. İfikrit də Navsikrata[139] demişdir ki, o, rəqibin dediyi şeyi etmiş və ziyan vurmuşdur, amma, bununla belə israr etmişdir ki, ədalətsiz heç bir şey etməyib. Onu da israr etmək olar ki, ədalətsizlik etməklə biz əvəzində nə isə veririk, ya da əgər bu zəruridirsə, onda həm də gözəldir, ya da əgər kədərlidirisə, onda həm də faydalıdır; ümumiyyətlə buna uyğun bir şey demək olar.

Üçüncü üsul məlum hərəkətin səhvən baş verdiyini, ya da bədbəxt hadisə nəticəsində, ya da zərurət nəticəsində baş verdiyini israr etməkdir, məsələn, Sofokl məhkəmədə deyir ki, o, ittihamçının dediyi kimi qoca görünmək üçün deyil, zəruri olaraq əsir: - 80 yaşında olması onun iradəsindən asılı deyil.[140]

Hərəkətin nəyə görə törədilməsinin səbəbini başqa bir səbəblə əvəz etmək olar, demək olar ki, biz zərər vurmaq niyyətində olmamışıq, baş verməsində günahlandırıldığımız şeyi deyil, filan şeyi etmək istəmişik, bu zaman bizim özümüzə zərər dəyib, əgər bunu bilərəkdən etmişiksə, nifrətə layiqik. Daha bir üsul ittihamı ittihamçının özünə qarşı yönəldərək, əvvəllər onun özünün, ya da yaxınlarından birinin eyni şeyi etdiyini israr etməkdən ibarətdir. Daha bir üsul isə elə şəxslərin hərəkətlərini yada salmaqdır ki, onların hərəkətlərinin ittihama layiq olmadığı hamı tərəfindən qəbul olunub, məsələn, əgər həmin şəxs etdiyi zinakarlıqda müqəssir sayılmayıbsa, onda eyni şeyə görə ittiham olunan da müqəssir deyil. Daha bir üsul onu göstərməkdən ibarətdir ki, rəqib əvvəllər başqalarını təqsirləndirib, ya da başqa birisi rəqibi təqsirləndirib, ya da o, indi təqsirləndirilən şəxs ki-

mi şübhəli qismində olub, sonra isə məlum olub ki, heç bir günahı olmayıb.

Daha bir üsul ittihamın ittihamçının özünə qarşı yönəldilməsindən ibarətdir, ona görə ki, inama layiq olmayan insanın sözlərinin inama layiq olması qəribə olardı.

Daha bir üsul o zaman yaranır ki, bu zaman artıq məhkəmə hökmü verilmiş olsun, "Antidosisdə" Evripid onu andı pozmağa təhrik etdiyinə görə allahsızlıqda təqsirləndirən Qiqienonta belə demişdir:

Andı mənim dilim deyib,
amma qəlbim onu tələffüz etməyib.[141]

Evripid israr edirdi ki, onun özü Dionisin şərəfinə keçirilən yarışlarda artıq hökmü çıxarılmış işləri məhkəməyə verməklə düzgün iş tutmayıb və o, (Evripid) artıq orada öz sözləri ilə hesabat vermişdir, əgər o, (Qiqienont) ittihamdan əl çəkmirsə, yenidən hesabat verməyə hazırdır.

Daha bir üsul böhtanı pisləmək üçün onun necə bir şər iş olduğunu və onun təsiri altında başqa cür ittihamların yarandığını, onun işə uyğun olmadığını göstərməkdən ibarətdir.

Hər iki tərəf üçün ümumi olan üsul əlamətlərdən istifadədən ibarətdir, məsələn, "Tevkr" əsərində Odissey deyir ki, Tevkr Priamın qohumudur, çünki, onun anası Hesiona Priamın bacısıdır. Tevkr isə bunu inkar edərək deyirdi ki, onun atası Telamon Priamın düşməni idi və o, özü casuslar barəsində xəbər verməyib.[143]

İttihamçının istifadə edə biləcəyi daha bir üsul əhəmiyyətsiz bir şeyi ətraflı tərifləmək və əhəmiyyətli bir şeyi isə bir neçə kəlmə ilə məzəmmət etməkdən, ya da müttəhimin çoxlu yaxşı cəhətlərini qabarıq göstərmək və iş üçün əhəmiyyətsiz olan birini isə məzəmmət etməkdən ibarətdir. Bu üsullar ən mahir üsullardır, amma həm də ən ədalətsiz üsullardır, ona görə ki, onlar insana onun öz yaxşı cəhətlərini öz



nöqsanları ilə qarışdırmaq yolu ilə zərər vurmağa can atırlar.

Həm ittiham edən, həm də ittiham olunan üçün ümumi olan üsul (belə ki, eyni bir şey çoxlu müxtəlif səbəblər üzündən edilə bilməz) ondan ibarətdir ki, ittiham edən hər şeyi pis şəkildə qəbul edərək ittiham etsin, ittiham olunan isə hər şeyi yaxşı şəkildə qəbul edərək müdafiə olunsun, məsələn: Diamedin Odisseyi seçməsinə münasibətdə biri deyə bilər ki, Diamed Odisseyi mərd olduğuna görə seçib, başqası isə deyə bilər ki, bu heç də ona görə deyil, əslində ona görədir ki, Odissey qorxaq olduğu üçün Diamedin rəqibi ola bilməyəcək yeganə şəxs idi.[144]

İttiham haqqında demək lazım olan şeylər bunlardan ibarət idi.

*16. Nitqin ikinci hissəsinin (hekayənin) analizi. – Hekayəni necə qurmaq lazımdır və epideyktik, məhkəmə və xalq yığıncaqları qarşısında söylənən nitqlərdə hekayə hansı xüsusiyyətlərə malik olmalıdır?*

Epideyktik nitqlərdə hekayə birdəfəlik deyil, hissə-hissə söylənməlidir, belə ki, nitqin yaranmasına səbəb olan hərəkətləri şərh etmək lazımdır. Nitq natiqin məharətindən asılı olmayan (çünki, natiqin faktlara aidiyyatı yoxdur) və asılı olan hissələrdən ibarətdir; sonuncusu, nitq predmetinin fakt olduğunu (əgər o, ağlasığmaz görünürsə), ya onun məhz belə olduğunu, ya nə qədər vacib olduğunu, ya da bütün bunları bir yerdə göstərməkdən ibarətdir. Buna görə də bəzən hər şeyi bir-birinin dalınca izah etmək lazım deyil, belə izah üsulu zamanı hər şeyi yadda saxlamaq çətindir, məsələn: filan şeyin əsasında müəyyən olunur ki, o, yəni sözügedən şəxs mərddir, digərinin əsasında isə onun müdrik, ya da ədalətli olması müəyyən olunur.

Birinci üsul əsasında nitqin ifadəsi çox sadə, digər üsulda isə müxtəlif və rəngarəng olur.

Hamıya məlum faktları ancaq yada salmaq lazımdır; buna görə də belə halların çoxunda hekayə qətiyyən lazım deyil, məsələn, əgər Axilli tərifləmək istəyirsənsə, onun qəhrəmanlıqları hamıya məlum olduğu üçün onlardan ancaq istifadə etmək lazımdır. Amma Kritini[145] tərifləmək istəyirsənsə, onda hekayə zəruridir, ona görə ki, onun haqqında az adam bilir. İndiki zamanda gülməli şəkildə iddia edirlər ki, hekayə sürətli olmalıdır. Necə ki, birisi bulkaçının çörək üçün xəmiri necə – bərk və ya yumşaq yoğurmaq lazım olması haqqında sualına cavab verir: "məgər yaxşı çörək üçün xəmir yoğurmaq olmaz?" Burada da eynilə belədir: həm geniş danışmaq, həm də geniş giriş etmək və geniş sübutlar gətirmək lazım deyil. Bu halda "yaxşı" olmaq sürətdə, ya da yığcamlıqda deyil, lazımi ölçüdə olmaqdadır; bu isə işi aydınlaşdıran hər şeyi demək, ya da filan şeyin olduğunu, ya da filan şeyin ziyan vurduğunu, ya da ədalətsiz hərəkət etdiyini, ya da məlum hadisənin istədiyin mühümlükdə olduğunu göstərməkdən ibarətdir. Rəqib üçün isə bütün buna əks olanlar yararlıdır. Hekayəyə sənin şəxsi məziyyətlərini ucaldan hər şeyi əlavə etmək lazımdır, məsələn: "Mən həmişə ona ədalətli olanı təlqin eləmişəm, onu öz uşaqlarını atmaqdan çəkindirmişəm", ya da rəqibin yararsızlığını gözə çarpdırmaq üçün belə demək olar, məsələn: "O, mənə cavab verdi ki, olduğu hər yerdə onun başqa uzaqları olacaq" (Herodotun sözlərinə görə üsyan etmiş misirlilər belə deyirmişlər). Ya da hakimlər üçün xoş olan hər şeyi hekayəyə əlavə etmək lazımdır. Müdafiə zamanı hekayə qısa olmalıdır, çünki, bu zaman bu və ya başqa şeyin baş verməsi, ya da zərərli olması, ya da ədalətsiz olması, ya da elə vacib əhəmiyyətdə olması iddia edilir, buna görə də artıq müəyyən olunmuş faktlardan danışmağa dəyməz, əlbəttə ki, əgər onlar hər hansı bir şəkildə müəyyən edilməmiş faktlara aparmırlarsa, məsələn, məlum hərəkətin baş verməsi sübut edilibsə, amma onda ədalətsiz bir şeyin olması sübut edilməyibsə. Bundan başqa elə real faktlardan danışmaq lazımdır ki,



onlar dinləyicilərin gözü qarşısında baş verməsələr də, onlarda ya təəssüf, ya da dəhşət hissi oyatsınlar. Biz buna nümunəni Alkinoyun Penelopa üçün söylədiyi 60 şeirdən ibarət "Apoloqunda", Faillin kiklitik poemasında və "Oyneyin"[147] proloqunda tapa bilərik. Hekayə xarakteri əks etdirməlidir, bu isə o zaman ola bilər ki, biz xarakterin nədən ibarət olduğunu biləк. Xarakteri bilmək üçün birincisi, niyyəti üzə çıxarmalıyıq, çünki, xarakterin necəliyi niyyətin necəliyi ilə müəyyən olunur, niyyətin necəliyi isə onun məqsədinin necə olmasından asılıdır. Buna görə də elmi mövzuda olan nitqlər xarakteri qətiyyən əks etdirmir, ona görə ki, niyyəti əks etdirmir. Sokratın nitqləri isə əksinə, məhz belə məsələlərə toxunur. Hər hansı bir xarakterin nəticəsi olan hər şey həmin xarakteri əks etdirir, məsələn: "danışaraq irəli gedirdi" sözləri coşqun və kobud xarakterin olduğunu göstərir. Demək lazımdır ki, indiki insanlar müəyyən faydanı nəzərə alaraq hərəkət etmirlər, niyyətə – prinsipə görə hərəkət edirlər, məsələn: "mən bunu istəyirdim, ona görə ki, bunu daha yaxşı hesab edirdim və hətta mən burada heç bir fayda əldə etməsəm də, bu ən yaxşısıdır". Birincisi, faydanı hesaba almaq fərasətli adama, ikincisi, prinsipi nəzərdə tutmaq isə yaxşı adama xas olan şeydir, bu fərasətli adamı fayda dalınca, yaxşı adamı isə gözəl olana can atmağa məcbur edir. Əgər deyilənlər həqiqətə uyğun deyilsə, onda Sofokl kimi sözlərin əsasına əlavələr etmək lazımdır, Antiqonanın sözlərini buna misal göstərmək olar. Antiqona bildirir ki, ərindən və uşaqlarından çox qardaşının qeydinə qalır, çünki əri ilə uşaqları həlak olsalar, onların yerini başqa ər və uşaqlar tuta bilər:

> Amma, əgər anamla atam Aiddə
> gizləniblərsə,
> Artıq heç vaxt qardaşım doğula
> bilməz.[148]

Əgər öz sözlərinin əsasını göstərə bilmirsənsə, onda deməlisən ki, dediyin sözlərin həqiqətə uyğun olmadığını yaxşı bilirsən, amma neyləyəsən ki, təbiətdən beləsən, ona görə ki, insanlar inanmırlar ki, özünə faydalı olmayan bir şeydən başqa nəyi isə könüllü eləmək olar. Bundan başqa hekayədə ehtiraslardan söz açmaq və onların nəticəsində baş verən şeylərə toxunmaq lazımdır, eləcə də dinləyicilərə məlum olan, natiqə və onun rəqibinə aid olan təfərrüfatlara da toxunmaq lazımdır, məsələn: "o, məni acıqlı baxışla süzüb uzaqlaşdı". Ya da Kratil[149] haqqında Esxilin dediyi kimi: "fışıldayaraq və əl-qolunu əsdirərək", belə ifadələr inandırıcıdır, çünki dinləyicilərə məlum olan onlara məlum olmayanın əlamətidir. Bu qəbildən olan çoxlu misalları Homerdən də götürmək olar, məsələn:

Belə danışırdı. Qarı üzünü əlləri ilə örtmüşdü.[150]

Həqiqətən də, adamlar ağlayanda üzlərini əlləri ilə örtürlər. Özünü məlum xasiyyətli adam kimi göstər ki, dinləyicilər sənə məhz belə adama baxan kimi baxsınlar, rəqibə isə əksinə, amma bunu gözə çarpdırmadan etmək lazımdır. Bunun çətin olmadığını biz ondan görürük ki, birisi bizim yanımıza xəbərlə gələndə hətta (tamam tanımadığımız haqqmda) bizdə müəyyən təsəvvür yaranır. Nitqin bir çox yerlərində hekayə danışmaq lazımdır, amma, bəzən əvvəlində danışmaq lazım deyil.

Xalq yığıncaqlarında söylənən nitqlərdə hekayə az olur, ona görə ki, heç kəs gələcəyi danışmır, amma hekayə olanda da ancaq keçmişə aid olur ki, dinləyici onu ya məzəmmət, ya da təriflə yada salaraq gələcək haqqında daha yaxşı düşünsünlər; amma, bu halda natiq öz üstünə sadə məsləhətçi vəzifəsini götürmür. Əgər natiqin dediyi həqiqətə uyğun görünmürsə, o, elə həmin dəqiqə öz sözlərini əsaslandıracağına söz verməli və bunu dinləyicilərin arzuladığı şəxsin qarşısında şərh etməlidir, məsələn, Karkinin[151] "Edip" əsərindəki İokasta, onun oğlunu axtaranın suallarına həmişə vədlərlə cavab verir. Sofoklun Qemonu da belə edir.[152]



*17. Nitqin üçüncü hissəsinin (sübut etmənin) analizi. – Xalq qarşısında və məhkəmələrdə söylənən epideyktik nitqlərdə sübutları haradan əldə etmək və necə qurmaq lazımdır?*

İnandırma üsulları apodiktik xarakter daşımalıdır. Mübahisə dörd nöqtəyə toxuna bildiyi üçün, sübutları mübahisəli nöqtəyə yönəldərək sübut etmək lazımdır, məsələn, əgər nəyinsə həqiqətən baş verib-verməməsinə görə mübahisə gedirsə, onda məhkəmə çəkişməsi zamanı bütün sübutları imkan daxilində bu nöqtəyə yönəltmək lazımdır; əgər ziyanın həqiqətən toxunması haqqında mübahisə gedirsə, onda sübutlar da buna yönəldilməlidir; əgər mübahisə törədilən hərəkətin mühümlüyünə, ya da ədalətli olduğuna toxunursa, onda burada həm də bu faktın baş verməsinin dəqiq olub-olmamasını da nəzərə almaq lazımdır. Bu zaman yaddan çıxarmaq lazım deyil ki, ancaq belə mübahisə zamanı rəqiblərdən biri zəruri olaraq şərəfsiz olur, ona görə ki, burada bilməməzlik günah sayıla bilməz (bu ancaq o halda ola bilər ki, nəyin isə ədalətli olmasına münasibətdə rəylər üst-üstə düşməsin). Beləliklə, bu məsələdə dayanmaq lazımdır, o birilərində isə yox. Epideyktik nitqlərdə gözəl və faydalı olan şeylərin qiyməti əksər hallarda şişirdilir. Faktların özü inam doğurmalıdır, ona görə ki, onlara münasibətdə nadir halda sübutlar gətirilir – əlbəttə, onlar həqiqətə uyğun olmayanda, ya da onlar başqa şəxsə aid ediləndə.

Xalq qarşısında söylənən nitqlərdə mübahisə nəyin isə olmayacağı, ya da natiqin məsləhət verdiyi şeyin olacağı, amma onun ya ədalətsiz, ya faydasız olacağı, ya da o qədər də mühüm olmayacağı barəsində ola bilər. Bu zaman rəqibin sözügedən işə aid olmayan hər hansı şeydə yalandan istifadə edib-etmədiyini də nəzərə almaq lazımdır, belə ki, bu onun başqa hallarda yalan dediyinə sübut olur: misallar xalq qarşısında söylənən nitqlərə xasdır, entimemalar isə məhkəmə nitqlərinə. Birincilər gələcəyi nəzərdə tutduğu üçün misalları keçmişdən gətirmək lazımdır, ikincilər isə

olan, ya da olmayan şeylərə aiddir, burada daha çox sübutlar və zərurət anlayışı lazımdır, ona görə ki, keçmiş zərurət xarakteri daşıyır. Entimemaları bir-birinin ardınca gətirmək olmaz, onları digər ifadələrə qarışdırmaq lazımdır, əks halda onlar bir-birinə ziyan vura bilərlər, ona görə ki, miqdar üçün də hədd var.

Mənim əziz dostum, elə hey deyirsən ki, dediyini də
eləyərdim.[153]

Amma demir ki, ağıllı deyəni eləyərdim. Hər bir səbəbdən də entimemalar axtarmaq lazım deyil, ona görə ki, əks halda sən də sillogizm yolu ilə müddəaları sübut etmək əvəzinə onlara əsaslanan daha məşhur və daha həqiqətə uyğun olan şeyləri sübut edən bəzi filosoflar kimi hərəkət etmiş olarsan. Nə zaman ki, ehtirasları oyatmaq istəyirsən, onda entimemalardan istifadə etmə, çünki, o, ya ehtirası söndürəcək, ya da əbəs yerə işlənmiş olacaq, ona görə ki, eyni zamanda baş verən iki hərəkət bir-birini ləngidir, ya aradan götürür, ya da zəiflədir. Nitq məlum mənəvi xarakter daşımalı olan halda da entimema axtarmaq lazım deyil, çünki, sübutların nə xarakterə, nə də prinsiplərə heç bir dəxli yoxdur. Kəlamları həm hekayələrdə, həm də sübutetmə zamanı istifadə etmək lazımdır, çünki, onların xarakterə aiddiyyatı var: "və mən verdim, halbuki, bilirdim ki, ümumiyyətlə etibar etmək olmaz". Ya da birisi ehtiras oyatmaq istəyirsə: "mən zərər çəksəm də peşman deyiləm, ona görə ki, fayda onun tərəfindədirsə, ədalət də mənim tərəfimdədir". Xalq yığıncağında nitq söyləmək məhkəmədə nitq söyləməkdən çətindir; bu təbiidir, belə ki, birinci halda gələcək haqqında, ikinci halda isə keçmiş haqqında danışmaq lazım gəlir, keçmiş isə Kritli Epimenidin[154] dediyi kimi peyğəmbərlərə də məlum olmuşdur: "onlar gələcəkdən deyil, baş versələr də qaranlıqda qalan hadisələrdən xəbər veriblər". Məhkəmə nitqlərində əsas rolunu qanun oynayır, madam çıxış nöqtəsinə maliksən, onda sübut tapmaq da asan olur. Xalq qarşısında söylənən nitqlərdə saysız-hesabsız haşiyə-



dən çıxmaq halları (məsələn, rəqibin dəlillərinə qarşı, ya özün haqqında, ya da ehtiras oyatmaq məqsədi ilə) olmur.

Natiqliyin bu növü başqa növlərə nisbətən haşiyədən kənara çıxmağa daha az yol verir, əlbəttə ki, onun öz sahəsindən kənara çıxma çıxmaması şərti ilə. Çətin hallarda Afina natiqlərinin və İsokratın etdiyini etmək lazımdır, İsokrat məşvərətçi nitqdə ittihama əl atır, məsələn, özünün "Panegirik" əsərində lakedemoniyalıları, ittifaq haqqında nitqində isə Xareti[155] günahlandırır. Epideyktik nitqlərdə nitqə İsokratın etdiyi kimi araya tərif də salmaq lazımdır, o, daim hər hansı bir tərifi əlavə edir. Qorqinin[156] nitq üçün mövzu tapmaqda əziyyət çəkmədiyi haqqında sözlər eyni şeyə gətirib çıxarır, belə ki, əgər o, Axill haqqında danışanda Peleyi, sonra Eakı[157], daha sonra tanrı Zevsi, eləcə də qəhrəmanlığı və filanı tərifləyirsə, eyni şeyi etmiş olur. Madam natiqin əlində dəlillər var, onda, o, nitqə həm etik, həm də epideyktik xarakter verməlidir, əgər onun əlində entimema yoxdursa, o, etik danışmalıdır.

Mənəvi cəhətdən yaxşı adam üçün aydın nitq nümayiş etdirməkdənsə, vicdanlı olmasını göstərmək daha çox uyğundur. İnkaredici entimemalar nümunəvi[158] entimemalardan daha geniş yayılıb. Ona görə ki, inkar xarakterli hər şeydə sillogizm daha aydın görünür, belə ki, əks olanlar yanaşı qoyulanda daha aydın görünürlər.

Rəqibə qarşı yönəldilmiş mühakimələr özlüyündə heç bir xüsusi növü təmsil etmir, çünki, inandırma üsulları sahəsinə rəqibin dəlillərinin ya etiraz, ya da sillogizmlər yolu ilə təkzibi aiddir.[159]

Natiq məşvərətçi, ya da məhkəmə nitqinə başlayan zaman əvvəl öz şəxsi inandırma üsullarını şərh etməli, sonra isə öz rəqibinin dəlillərinə qarşı çıxış edərək onları məhv etməli, ya da qabaqcadan danlamalıdır. Əgər etiraz doğuran çox nöqtə varsa, onda əvvəlcə onlara girişmək lazımdır, məsələn, Kallisfrat[160] Messenadakı xalq yığıncağında bunu belə etmişdir: o, ancaq rəqiblərinin deyəcəklərini əvvəlcədən tək-

zib edəndən sonra öz sözünü danışmağa başlamışdır. Sırada ikinci danışmalı olan natiq əvvəlcə öz nitqini rəqibinin nitqinə qarşı çevirməli, onun dəlillərini onlara qarşı qoymalıdır, xüsusilə rəqibin dəlilləri müvəffəqiyyət qazandığı halda, çünki, əvvəllər pis bir işdə təqsirləndirilmiş bir şəxsə adamın qəlbi bağlanmadığı kimi, eynilə belə, yəni rəqibin nitqi inandırıcı olanda dinləyicinin qəlbi natiqin nitqini də qəbul etmir. Belə olan halda, dinləyicinin qəlbində növbəti nitq üçün yeri təmizləyib hazırlamaq lazımdır ki, buna da sən rəqibin dəlillərini təkzib etməklə çata bilərsən; bu səbəbdən öz sözlərinə ya rəqibin bütün dəlillərini, ya onlardan ən vacibini, ya da təkzibə ən çox davamsız olanı ilə qabaqcadan aparılan mübarizə vasitəsiylə ağırlıq verməlisən.

Əvvəlcə mən ilahələrin müttəfiqi olaram,
Məhz Heranı mən...[161]

Burada şair əvvəl ən asan olana toxunur. Bu inandırma üsulları haqqındadır. Xarakterə gəldikdə isə özümüz haqqında bəzi şeyləri demək həsəd yarada bilər, ya da uzunçuluğa görə məzəmmətə səbəb ola bilər, ya da ziddiyyət yarada bilər, başqa birisi haqqında danışmaq isə danlağa, ya da kobudluğa görə qınanmağınıza səbəb ola bilər, bunları nəzərə alaraq sözləri başqa şəxsin sözləri ilə demək lazımdır, İsokrat "Antidosisdə"[162] Filippə qarşı nitqində məhz belə etmişdir. Antilox da bu qaydada məzəmmət edir, o, öz yamblarında səhnəyə öz qızı haqqında danışan atanı çıxarır:

Elə bir şey yoxdur ki, onun olacağını gözləmək mümkün olmasın
Ya da, elə şey yoxdur ki, onu and içərək inkar
etmək olsun.[163]

Antilox həm də xarrat Xaronu da yambda[162] təsvir edərək belə başlayır:

Qızıllı Qiqes haqqında düşünmürəm.[164]



Sofokl da Qemonu səhnəyə çıxararaq Antiqonanın müdafiəsi üçün onun atasının qarşısında elə bil başqalarının sözləri əsasında danışır.[165]

Bəzən entimemaların görkəmini dəyişərək onlara kəlam formasını[166] vermək lazımdır, məsələn, ağıllı adamlar sülhə razı olmalıdırlar, onda "xoşbəxtlik onların tərəfində olacaq, çünki, bu yolla onlar ən çox fayda ala bilərlər. Entimemanın köməyi ilə isə belə demək olardı: "Əgər sülhü ən faydalı və sərfəli vaxtda bağlamaq mümkündürsə, onda sülhü xoşbəxtlik bizim tərəfimizdə olan vaxt bağlamaq lazımdır.

### *18. Nitqdə sualla müraciət etmək üçün münasib olan üç hal. – İkimənalı suallar. – Zarafatlar.*

Suala gəldikdə onu o vaxt vermək münasib olur ki, o vaxt iki müddəadan biri elə bir şəkildə deyilsin ki, ona bir sual verməklə onun cəfəngiyyat olduğu üzə çıxsın, məsələn, Perikl Lampondan "Xilaskar qadınların"[167] sirli dini ayini ilə tanış edilmək barəsində sual verir. Lampon cavab verir ki, bu barədə ayinlə tanış olmayanların eşitməyi qeyri-mümkündür. Perikl ondan soruşur: "Bu barədə özün bilirsən?" və təsdiq cavabı aldıqdan sonra deyir: "Bəs sən tanış olmamış bunu necə öyrəndin?"

İkincisi, sualın iki bənddən birinin özlüyündə aydın olması, o birinə gələndə isə ona verilən sualın təsdiq cavabı alacağını biləndə vermək münasibdir. Sualın köməyi ilə hər hansı bir müddəanı müəyyən etdikdən sonra özlüyündə aydın olana daha bir sual vermək lazım deyil, məsələn, Sokrat onun tanrıların varlığını qəbul etmədiyini iddia edən Meletdən soruşur: "Səncə mən, hər hansı iblislərin olduğunu qəbul edirəm?" və təsdiq cavabı aldıqdan sonra yenə soruşur: "Bu iblislər tanrıların uşaqlarıdır, ya da ilahi bir şey deyillər?" Təsdiq cavabı alandan sonra isə Sokrat deyir: "Belə bir adam varmı ki, tanrıların uşaqlarının varlığını qəbul etsin, tanrıların özlərinin varlığını isə qəbul etməsin?"[168]

Üçüncüsü, sualı vermək o vaxt münasib olur ki, onun köməyi ilə rəqibin özü-özünə zidd olduğunu və paradoks bir şey dediyini göstərmək mümkün olsun.

Dördüncüsü, rəqib suala başqa cür cavab verə bilməyib ancaq sofist sayağı cavab verəndə, məsələn, əgər o, belə cavab versə: "həm var, həm də yoxdur", "Bu həm belədi, həm də belə deyil", "qismən hə, qismən yox", onda dinləyicilərdə təəccüb yaranır, elə bil o, nə demək lazım olduğunu bilmir.

Başqa hallarda sualdan istifadə etmək lazım deyil, ona görə ki, əgər rəqib sual qarşısında dura bilərsə, onda sualı verən uduzmuş kimi görünəcək, belə ki, dinləyicilərin hazır olmadığı halda, çox sual vermək mümkün deyil. Məhz bu səbəbdən entimemalara mümkün qədər yığcam görkəm vermək lazımdır.

İkimənalı suallara ayrı-ayrılıqda cavab vermək lazımdır, amma yığcam şəkildə yox, ziddiyyətli suallara isə cavab verərkən ziddiyyətləri dərhal cavabla izah etmək lazımdır, həm də bunu rəqib növbəti sualı verməmiş, ya da sillogizm qurmamış etmək lazımdır, çünki nitqin hara yönəldiyini başa düşmək çətin deyil. Bu, eləcə də sualların həlli haqqında hər şey bizə "Topikdən"[169] aydındır. Əgər sual nəticəyə doğru aparırsa, bu zaman səbəbi göstərmək lazımdır, məsələn, Sofokl 400-lər şurasının təsis edilməsinə şuranın başqa üzvləri kimi onun da razı olması haqqında Pisandrın[170] sualına müsbət cavab verib. "Məgər sizə elə gəlmirdimi ki, bu pisdir?" - "Bəli, gəlirdi" - "Məgər sən belə olan halda pis hərəkət etmiş olmursan?" - Sofokl cavab verir: "Bəli, amma bundan yaxşı hərəkət edə bilməzdim". Sofokl efor[171] olduğu dövr üçün hesabat verən zaman başqalarının həlak olmasının ona ədalətli görünməsi sualına bir lakoniyalı kimi cavab verir: "Bəli". Ona sual verirlər: "Məgər sən də onlarla eyni bir şeyi etmirdin?" - lakoniyalı cavab verir: "Bəli". "Bəs onda sənin də ölməyin ədalətli deyilmi?" - "Əlbəttə ki, yox, çünki onlar ona görə belə hərəkət edirdilər ki, bunun üçün



pul almışdılar, mən isə buna görə deyil, əqidəmə görə belə etmişəm". Buna görə də nəticədən sonra suallar vermək lazım deyil, nəticənin özünü də sual formasına salmaq lazım deyil, əlbəttə ki, əgər həqiqət əhəmiyyətli dərəcədə bizim tərəfimizdə deyilsə.

Zarafatlara gəldikdə isə, onlar göründüyü kimi müzakirələrdə[172] müəyyən yer tuturlar, Qorqinin dediyi kimi, düşmənin ciddiliyini zarafat ilə, zarafatı isə ciddiliyin köməyi ilə dəf etmək lazımdır.[173] Bu düzgün bir fikirdir. "Poetikada"[174] biz artıq demişdik ki, nə qədər növ zarafat var və onlardan hansı azad adam üçün yararlıdır, hansı isə yox, onun üçün ki, hər kəs ona yarayan şeyi seçsin. İroniya təlxəklikdən[175] daha alicənab xarakterdə olması ilə seçilir, çünki, birinci halda adam zarafata özünə görə əl atır, təlxək isə bunu başqalarına görə edir.

*19. Nitqin dördüncü hissəsi olan nəticənin analizi. – Nəticənin bölündüyü dörd hissə və onların analizi.*

Epiloqun tərtibi zamam natiqə lazımdır: birincisi, dinləyicilərdə özünə qarşı yaxşı, rəqibinə qarşı isə pis rəğbət yaratmaq, ikincisi, həm şişirtmədən, həm də kiçiltmədən istifadə etmək, üçüncüsü, dinləyicilərin ehtiraslarını alovlandırmaq, dördüncüsü, nitqin nəyə görə söyləndiyini yada salmaq.

Madam natiq özünün haqq, rəqibinin isə nahaq olduğunu göstərib, onda, o, tamamilə təbii şəkildə elə bu ruhda davam edərək tərifləyir, töhmətləyir və nitqinə son haşiyələr vurur. Natiq ikisindən birini sübut etməlidir: özünün dinləyicilərə münasibətdə, ya da ümumiyyətlə yaxşı adam olduğunu və ya onun rəqibinin dinləyicilərə münasibətdə, ya da ümumiyyətlə pis adam olduğunu.

Dinləyicilərdə hansı vasitə və üsullarla rəğbət və əhval-ruhiyyə yaratmaq haqqında biz daha əvvəl, insanları yaxşı və pis şəkildə təqdim etməyin üsulları haqqında danışarkən demişdik.[176] Bunu etdikdən sonra, təbii olaraq ya şişirtmək,

ya da kiçiltmək lazımdır, çünki, faktların əhəmiyyətini qiymətləndirməyi nəzərdə tutursansa, onda onların baş verdiyini təsdiq etməlisən, axı cisimlərin böyüməsi də əvvəlcədən mövcud olmuş xassədən irəli gəlir. Böyütməyi və kiçiltməyi nəyin köməyi ilə edilməsinə gəldikdə isə bu məsələ haqqında daha əvvəl toplarda[177] izah etmişdik. Faktların necəliyini və nə qədər vacibliyini aydınlaşdırandan sonra dinləyicilərdə mərhəmət, dəhşət, qəzəb, nifrət, həsəd, rəqabət və düşmənçilik kimi hissləri oyatmaq lazımdır. Buna aid də daha əvvəl toplar[178] göstərilib. Beləliklə, daha əvvəl deyiləni yaddaşda təzələmək qalır. Bunu bəzilərinin məsləhət gördüyü kimi girişdə etmək lazımdır, amma bu məsləhət əsassızdır, çünki, onlar rahat anlansın deyə, eyni şeyi tez-tez təkrar etməyi məsləhət görürlər. Beləliklə, girişdə nəyin müzakirə olunduğu aydın olsun deyə vəziyyəti izah etmək lazımdır, nəticədə isə işin nəyin əsasında sübut olunduğuna yekun vurmaq lazımdır. Natiq sözünü başlayanda deməlidir ki, o, söz verdiyi şeyi edib, ona görə də o, nəyi sübut etdiyini və niyə sübut etdiyini deməlidir; bu zaman öz sözlərinlə rəqibin sözlərini qarşı-qarşıya qoyaraq ya eyni bir predmet haqqında hər iki rəqibin dediyini müqayisə etməlisən, ya da birbaşa ziddiyyət yaratmadan, məsələn, belə deməlisən: "O, buna münasibətdə filan cür deyib, mən isə bu cür demişəm və filan şeyə görə belə demişəm". Ya da ironiyadan istifadə edərək belə demək olar: o, filan-filan dedi, mən isə bunu dedim, əgər o, filanı deyil, bunu sübut etsəydi, nə edərdi?" Ya da belə sual vermək olar, məsələn: "Mənim üçün sübut etməyə nə qaldı?" Ya da: "Mən nəyi sübut etdim?" Nəticəni ya belə – müqayisə yolu ilə, ya da təbii yolla – dediyimiz kimi, şəxsi dəlilləri sadaladıqdan sonra, lazım gəlsə, rəqibin də dəlillərini sadalamaq yolu ilə almaq olar. Sonda bağlayıcısız frazalar işlətmək daha uyğundur ki, bu nitq deyil, nəticə olsun, məsələn: "mən dedim ", "siz eşitdiniz", "iş sizin əlinizdədir", "hökmü çıxarın".



## Qeydlər

## RİTORİKA

### Birinci kitab

«Ritorika» əsərini yunan dilindən rus dilinə N.Platonova tərəfindən tərcümə edilmişdir (Бах.: Аристотель. Риторика. Пер. с греч. Н.Платоновой. Спб., 1894).

I

1. ***Dialektika*** (yunanca «dialegomai» - «söhbət edirəm», «danışıram») – söhbətetmə və mühakimə üsuluna əsaslanaraq, obyektiv həqiqətin axtarışına yönəldilmişdir. Platon «sual verib *cavab tapana» dialektik* deyirdi (Bax.: rusca nəşrinə: Platon. Əsərlər. Üç cilddə. A.F.Losev və V.F.Asmusun redaktəsilə. M., 1968).

Dialektikanı adətən sofistik mübahisəyə – yəni sofistikaya – qarşı qoyurlar. «Fedr» əsərində Platon yazır ki, dialektika sənəti «insan qəlbində həm deyən, həm eşidən üçün faydalı olan ifadələri yaradır və möhkəmləndirir: bu ifadələr faydasız deyil, çünki onlar digər insanların qəlbində əkssəda olaraq yeni ifadələr yaradır ki, bu da söz toxumunu əbədiləşdirir» (Platon. Fedr, 277a). Ritorika həm də dialektikanın qanunlarını, dinləyicini və yaxud həmsöhbəti inandırmaq və yaxud deyiləni təkzib etmək yolunda istifadə edilir. Aristotel elmlərin ümumiliyi ideyasını dəfələrlə vurğulayır, göstərirdi ki, burada «bir çox şeylərin bir olması» mümkündür. Dialektika, «bir çox elmlərə aidiyyatı olduğu üçün, məhz belə «ümumi» elmlərdən biridir» («İkinci analitika», II, 11, 77a) (Bax.: Aristotelğ. Analitika pervaə i vtoraə. M., 1952).

2. ***Entimema*** (yunanca «enthymema» - «ağlımda», «nəzərimdə olan» deməkdir) – tam şəkildə ifadə olunmamış məntiqi sillogizm; müəyyən bir hissəsi burada yalnız nəzərdə tutulur. Bu məntiqi əqlinəticədə nəticənin strukturu mühakimələrin strukturuna uyğun gəlir. Demetri hesab edir ki, entimema – «müəyyən ritorik əqlinəticə», yəni sillogizmdir. Aristotel, rito-

rikada bir çox istifadə olunan məntiqi sübutolunmalarla yanaşı, entimemanın da inandırmanın ritorik vasitəsi, yəni sillogizmin olduğunu qeyd edir.

*Mahiyyət* – Aristotelin nəşrlərində qəbul olunmuş məna variantı – «sõma», yəni «cisim»dir, bununla belə hesab olunur ki, əlyazmada söhbət «rhõma» (=e), yəni «güc»dən gedir. Yunanlar çox vaxt fəlsəfi, estetik və etik kateqoriyaların cismani mahiyyətli olduğunu düşünürdülər. Məsələn, Ksenofont «Kinegetina» əsərində «xeyirxahlığın cismi» haqqında yazır. Platonun «Böyük Hippi» əsərində də «mahiyyət cisimi» ifadəsi gətirilir.

3. ***Areopaq*** – Afinada ən ağır cinayət işləri üzrə ali məhkəmə orqanıdır. Bu ad keçirilən iclasların yerinə, yəni «Ares təpəciyi»nə görə verilmişdir. Areopaqın üzvlüyünə hər bir kəs ömürlük seçilirdi. E.ə. 462-ci ildə, Efialtın islahatından sonra, öz əvvəlki siyasi nüfuzunu itirmişdir. Orator Femistiy xəbər verir ki, burada çox uzun-uzadı danışmaq qadağan idi. Platon da məlumat verir ki, «məhkəmədə çıxış edəni rəqib, bir də oxunan iddianın dəqiq mətni məhdudlaşdırırdı».

4. ***Sillogizm*** haqqında bax.: qeyd2.

5. Bax.: «Topika», I, 2, 101a, 30-32; burada deyilir ki, «sübutolunma sənəti fikir mübadiləsi üçün zəruridir», xüsusilə «digərləri ilə ünsiyyətdə olarkən, kütlə rəyini nəzərə alarkən».

6. Proklun, Platonun «Kratil» əsərinə münasibətini bildirən yazılarında oxuyuruq ki, «Aristotel və sofistlər hesab edirlər ki, yalnız ritorika və yalnız dialektika nəyisə seçmək və nəyisə təkzib etmək qadirindədirlər».

7. Bax.: orator İsokratın ritorik sənət haqqında qeydlərinə: bu sənət «bütün digər sənətlər içərisində ən ciddisidir, çünki o, cisim yox, ruh üçün ən vacib olanı seçə bilir; ritorikadan başı çıxan adamlar, daha çox ritorikanı öyrənib təhlil edən filosofları bəyənir».

8. ***Dialektika*** və ***sofistikanı*** müqayisə edən Aristotel «Metafizika» əsərində belə yazır: «Sofistika və dialektika fəlsəfəyə aid olan sahələri ilə məşğul olur, lakin sonuncu dialektikadan öz qabiliyyətin xarakteri, sofistikadan isə – seçdiyi inkişaf yolu ilə fərqlənir. Dialektika, müdriklik tərəfindən öyrənilən obyektlərin təhlilində bir cəhddir, sofistika isə – yalancı müdriklik, yəni yalancı zəkadır».

II

9. Plutarx, iki oratoru, yəni Demosfeni və Fokionu müqayisə edərkən, deyir ki, birincisi çox görkəmli, ikincisi – çox qabiliyyətli olmuşdur. Fokion, dinləyiciləri özünə həm nitqin gücü, həm də yaşamaq tərzilə, saflığı ilə cəlb edirdi; o, başa düşürdü ki, «inandığın adamın bircə sözü, bircə işarəsi bir çox gurultulu, uzun-uzadı sözlərdən üstündür» (Плутарх. Сравнительные жизнеописания в трех томах. т.III, «Демосфен», X, M., 1964). Evripidin qəhrəmanı Hekuba da, bacarıqlı natiq olan Odisseyə müraciət edərkən, danışan adamın necə şəxsiyyət olmasının əhəmiyyətini vurğulayır: məharətli sözlər artıqdır, axı sən yunanların qəlbini öz bacarığı ilə elə ala bilərsən. Eyni sözün çəkisi müxtəlif olur, əgər bu sözü adı bir insan, ya da kübar desə (Плутарх. Сравнительные жизнеописания в трех томах, т.III («Демосфен», X) M., 1964). Evripidin bədii qəhrəmanı Hekuba, bacarıqlı natiq olan Odisseyə müraciət edir, çıxış edənin şəxsiyyət olması zərurətini vurğulayır:

Sözün gözəlliyi ilə yox, öz məharətinlə sən
yunanların qəlbinə yol tapacaqsan.

Kimliyi bilinməyənlə kübar olanın nitqi
Bir cürə səslənə bilməz.

10. ***İstəklər*** haqqında Aristotel «Ritorika»nın ikinci kitabında söhbət açır.

11. Aristotel bu fikri dəfələrlə vurğulayırdı. «Nikomax etika»sında o, ***siyasəti*** ən ümumi, «arxitektonik» elm sayır, bu elmə xidmət edən strategiya, iqtisadiyyat, ritorika, bir də «ən çox istənilən qabiliyyətlərdir».

12. ***İstiqamətləndirmə*** (yunanca epa gõgẽ) əslində induksiyanın özüdür; konkret hallar əsasında ümumi nəticə çıxarılır: induksiya haqqında bax: «Birinci analitika» (II, 23).

***Misal*** xüsusi haldan irəli gələn xüsusi nəticəni mümkün edir. Misallar vasitəsilə sübutolunma haqqında bax: «Birinci analitika», II, 24.

***Entimema*** və ***sillogizmin*** qarşılıqh əlaqəsi haqqında bax qeyd 2.

13. Bax.: «Birinci analitika», II, 23, 24.

Başqa yerdə Aristotel biliklər əsasında qurulan təlim prosesini izah edərkən, bir sıra əqli nəticələrə müraciət etməyi lazım bilir: həmin ifadələr ya sillogizm, ya da induksiya olur (natiqlik sənətində də bu cür ifadələrdən istifadə edirlər), bu zaman natiqlər ya misallar əsasında (həmin misallar induksiya növü olur), ya da entimema vasitəsilə (bunlar isə sillogizmdir) auditoriyanı inandırmağa çalışırlar («ikinci analitika», I, 1, 71a).

14. «Topika», I, 20. Bax.: qeyd 12

15. «Metodika» əsəri bu günə gəlib çıxmayıb. Laertli Diogen Aristotelin əsərlər siyahında «Metodika»nın 8 kitabdan ibarət olduğunu qeyd edir (V, 23).

16. ***Sokrat*** (e.ə. 469-399) – Afinalı filosof, həqiqətin əsaslandırılmasının dialektik üsulunun (sual – cavab şəklində) banisi. Yazı əsərləri olmayıb; onun fəaliyyəti və söhbətləri şagirdi Platonun yazdığı dialoqlarda, bir də Ksenofontun «Xatirələrində» öz əksini tapmışdır.

Platon «Sokratın apologiyası», «Kriton», «Fedon» əsərlərində Sokratın öz məhkəməsində söylədiyi nitqi (o, məhkəməyə gəncləri guya yoldan çıxardığına, qədim Allahlara inanmadığına və yeniləri icad etdiyinə görə cəlb edilmişdir) bir də edam avağı son anları təsvir etmişdir.

Kall, Hipponikin oğlu – sofistlərdən bir şey öyrənmək üçün xeyli pul xərcləmiş dövlətli Afina vətəndaşı. Bunun adını Platon da qeyd edir («Sokratın apologiyası», «Kratil»).

17. ***Doriyey*** – Rodoslu Diaqor adlı atletin oğlu; sonuncunu Pindar vəsf etmişdir. Olimpiya oyunlarında Doriyey (həm pankratiast kimi, həm də digər növ yarışlarında) üç dəfə qalib gəlmişdir. Afinalılar onu əsir tutsalar da, sonradan hörmətli şəxs olduğuna görə azadlığa buraxdılar. Olimpiyada Diaqor,



Doriyey və onun qardaşları şərəfinə ucaldılmış abidələrindən Pavsani xəbər verir.

18. «Birinci analitika», I, 8.

19. Yunanca «tecmar» həm «işarə» və yaxud «əlamət», həm də «yekun, məqsəd» mənasını bildirir; «peras» isə həm də «son, sərhəd» deməkdir.

20. Bax.: «Birinci analitika», II, 27 (entimema haqqında).

21. Burada Sirakuza tiranı Böyük Dionisi nəzərdə tutulur (e.ə. 431-367). Surakuza tiranları Böyük və Kiçik Dionisilər haqqmda Plutarx yazmışdır («Dionun həyatının təsviri»). Platon «Qanunlar» dialoqunda «tiraniyalı insan» növünü təsvir edir.

***Pisistrat*** (e.ə. IV-cı əsrin ikinci yarısı) – Afina tiranı (Solona da qohumluğu çatırdı). Plutarx Pisistratın, hiylə işlədib Afinalılardan şəxsi mühafizəyə icazə aldığından danışır. «Şəxsi qarovulçuları lazım olduğu qədər yığandan sonra, axır ki, Akropolu ələ keçirmişdir; xalq isə bu əməllərə biganə qalmışdır».

***Feagen***, Meqara tiranı (e.ə. VI-cı əsr); yoxsulların müdafiəsinə qalxaraq, hakimiyyəti ələ keçirir (Bax.: Aristotel. «Politika», V, s).

22. ***Apodiktik*** (yunanca apodeicticos) – inandırıcı (məntiqdə nəyinsə tam və şəksiz-şübhəsiz zəruriliyini təsdiqləyən mühakimələrə deyilir).

23. Bax.: «Topika», I, 1, 14, III, 5. Müxtəlif elmlərdə, yalnız özünəməxsus xassələrə arxalanıb, sübutayetirmə yolları haqqında bax.: «Birinci analitika», I, 30.

3

24. ***Epideyktik nitq*** – xüsusi hadisə haqqında söylənilən təmtəraqlı nitq.

25. ***Axill***, Peley və Fetidanın oğlu, Homerin «İliada» əsərinin baş qəhrəmanı.

***Patrokl*** – Menetinin oğlu, Troya yaxınlığında Hektor tərəfindən öldürülmüş Axillin dostu. «İliada» əsərində (XIX, 401-418), Axillin atlarından biri, ölməz Ksanf, insan dilində Axillin ölümü haqqında qabaqcadan xəbər verdi:

«qüdrətli Pelid oğlu, indi səni xilas etmək hələ ki olar.
Lakin son günün gəlib çatır.

Heç birimiz bu işdə günahkar deyilik;
Böyük Allah və onun qüdrətli hökmüdür...»

4

26. Ritorika sofistikaya yaxındır, çünki həm əsil inam (etiqad), həm inama (etiqada) bənzər olan məsələləri ilə məşğul olur.

24. Aristotel yazır ki, üç növ idarəcilik üsullarından (monarxiya, aristokratiya, timokratiya) «ən yaxşısı – monarxiya, pisi isə - timokratiyadır» («Etika» əsəri, «Nikomaxın etikası» əsəri).

Timokratiya (yunanca time- «qeyrət», «dəyər», «ödəniş») dedikdə, maliyyə, əmlak vəziyyətinə uyğun məhdudiyyətlər üzərində qurulan hakimiyyət nəzərdə tutulur. «Politika» əsərində Aristotel demokratik idarəcilik formasını, bir də varislik üzərində qurulan hakimiyyəti və yaxud dinastiyanı təhlil edir (IV, 5); daha sonra burada, vaxtilə Karfagendə qurulmuş hakimiyyətə bənzər pul ilə alınan çar hakimiyyəti (II, 8), «ara» hakimiyyəti olan «esimnet»ləri, ömürlük seçilən monarxları (IV, 8), tiraniyanın üç növünü (IV, 8) qeyd edir.

***Oliqarxiya*** – «seçmələrin hakimiyyəti»dir. Aristotel oliqarxiyanın təhlilini «Politika» əsərində verir (IV, 5). Oliqarxiya şəraitində hakimiyyətdə yüksək əmlak məhdudiyyəti qoyulur, nəticədə vətəndaşların əksəriyyəti hakimiyyətdə olmaq imkanını itirir. Aristotel dörd cürə oliqarxiyanı qeyd edir.

5

28. Aristotel xoşbəxtlik və ya xeyirxahlıq haqqında müxtəlif təsəvvürləri «Nikomaxın etikası» əsərində verir (I, 2). Müəllif hesab edir ki, «kamil xeyirxahlıq özü-özünü təmin etməlidir» (I,5), «həzzalma, məmnunluq isə mənəvi fəaliyyətdən irəli gəlir (psiches energeia) (xeyirxahlığa uyğun şəkildə) (I, 13). Aristotel ritorikada sokratsayağı, stoiklərsayağı, epikürsayağı həzzalmanın təriflərini qeyd edir; bununla yanaşı adi şüur səviyyəsində məmnunluğun var-dövlətlə eyniləşdirilməsi halları haqqında da yazır.



29. ***Əsilzadə olanları*** Afina oratoru İsokrat, Evaqora yazılmış tərifnamədə alğışlayır.

30. Platon «Qanunlar»da qadın cismini zərif və zəif olduğuna görə kişi cismindən olanlardan ləyaqət ölçülərinə görə daha «pis», hərc-mərcli, «ikiüzlü və hiyləgər» adlandırmışdır. Aristotel «Politika» əsərində Sparta qadınlarının özbaşınalığını, onların kişilərə təzyiqi pisləyir. Bu özbaşınalığın qarşısını hətta Likurq ala bilmədi, baxmayaraq ki, qadınları da qanunlara əməl etməyə dəvət olunurdu.

Aristotel açıq göstərir ki, Sparta qanunverіçiliyi qadın məsələsi qarşısında açızdır, bu məsələyə zərərli təsir göstərir, «dövlətin qüdrətini sarsıdır», «dövlət quruluşunda nizamsızhq yaradır», «qəsdi-qərəzliyə» səbəb olur.

31. Meqarlı ***Herodik*** – Kossalı Hippokratın şagirdi, Afinada gimnaziyaların yaradıcısıdır. Müalicə məqsədilə gimnastikanı tətbiq edirdi. Tam müalicə etməsə də, xəstənin ömrünü uzadırdı. Platon «Dövlət» əsərində qəzəblə qeyd edirdi ki, Herodik «əvvəlcə özünə, sonra bir çox başqaların işgəncə verirdi».

32. ***Pentatl*** – beşnövçülük; buraya qaçış, atılma, güləş, diskin atılması, nizənin atılması daxildir.

33. ***Pankrati*** – yumruq davasının güləşlə birləşməsi.

34. Aristotel «Fizika» əsərində tam determinizm mənzərəsini təsvir edir: «heç nə təsadüfi, özbaşına baş vermir, həmişə hansısa bir müəyyən səbəb olur» (II, 4). Aristotel hesab edir ki, «hadisə, ağıl və təbiətlə müqayisədə, ikinci dərəcəli bir mövhumdur» (II, 4).

6

35. Sokrat, xeyirxahlıqlara «zahidliyi və ya ədalətliyi», «vicdanlılığı» (Platon, «Menon» əsəri) aid edir. Platon öz «Dövlət» əsərində qeyd edir ki, cömərdlik əsil filosofun xüsusiyyətidir.

36. Bax.: «İliada», I.

37. Bax.: «İliada», II.

38. Bu atalar sözü bir də heç yerdə qeydə alınmayıb.

39. Keosslu ***Simonid*** (e.ə.VI-V əsrlər) – məşhur yunan elegiya şairi, xorla ifa olunan mahnıların müəllifidir. Pindarın köməkçisi belə bir izahat verir ki, Korinf adasının bəzi sakinləri Bellerofontun oğlu Qlavkın rəhbərliyi altında troyalılara müttəfiqlik edir, onları tənbeh etmirdilər. Lakin korriflilər, yunanlı olaraq ümumiyyətlə spartalılara qarşı düşmən münasibətində olmuş və Simonidin şerləri bunlar üçün təhqiramiz səslənirdi.

40. Aristotel burada qəhrəman eposundan hamıya yaxşı məlum olan mifoloji motivlər və süjetləri gətirir: ***Afina***, müdriklik ilahəsi, Odisseyə bütün tədbirlərdə yardımçı olur; Afinalı çar və qəhrəman ***Tesey*** hələ çox gənc olan ***Yelenanı*** qaçırdır; ***Aleksandr***, və ya Paris, üç, bir-birinə rəqib olan ilahələr – Afina, Gera və Afroditanın mübahisələrində hakim olmuşdur (bax.: İsokratın «Yelena» nitqinə); ***Axill*** – Homerin sevimli qəhrəmamı olmuşdur («İliada»nın başlanğıcı: «İlahi, Peleyin oğlu olan Axillesin qəzəbini sən bizə çatdır»).

7

41. ***Leodamant*** – məşhur Afina oratoru, İsokratın şagirdi, Kollistrat və Habrinin ittihamçısı kimi çıxış etmişdir.

***Kallistrat*** – məşhur Afina oratoru, Xabri ilə bir yerdə strateq vəzifəsini icra edirdi; Sparta ilə sülh münasibətlərini yaratmağa çahşırdı.

***Xabri*** – Afina strateqi, e.ə. 388-ci ildə spartalılara qalib gəldi. K.Hepot öz xatirələrində onun həyatı və mərdanə ölümü haqqında məlumat vermişdir.

42. ***«Su həç şeydən yaxşıdır»*** - bu ifadə ilə Pindarın I Olimpiya adası başlanır; sonra aşağıdakı sətirlər gəlir: «od kimi yanan qızıl- var-dövlətin ən layiqlisidir». Görünür ki, burada su - varlığın maddi əsası olması haqqında Falesin təlimi nəzərdə tutulur.

43. Platon isə deyir: «əgər seçim qarşısında qalsaydım, ədalətsizlik törəyim, yoxsa özüm ədalətsizliyə dözüm, onda ikinciyə üstünlük verərdim» («Qorgi»). Sokratın bu mövqeyi «Kriton» dialoqunda da gətirilir: «ədalətsizliyə ədalətsizliklə



cavab vermək olmaz». Evrinid isə, əksinə, deyirdi: «Mən hesab edirəm ki, insana, düşmənə pislik etmək xasdır».

44. «İliada», IX. Bu sözləri Etol qəhrəmanı Meleaqrın arvadı demişdir; o, yalvarırdı ki, əri etolular və kuretlər arasında gedən müharibədə döyüşlərdə iştirak etsin.

45. ***Epiharm*** – məşhur Siciliya komedioqrafı (e.ə. VI-V-ci əsrlər); onun ideya mövqeyi pifaqorçulara çox yaxındır.

46. ***Keoslu Simonid*** (söhbət Olimpiya oyunların qalibi, keçmiş balıqçıdan gedir).

47. ***İfikrat*** – məşhur Afina strateqi (e.ə. V-IV-ci əsrlər), adi gönçü oğlu olmuşdur.

48. «Odisseya», XXII. Odissey, bəyləri öldürmək istəyəndə Femi (müğənni) ona yalvarır, rəhm diləyir. Odissey Feminin xahişinə əməl edir, çünki o, «müğənnidir və həm insanlara, həm də allahlara mahnılarını oxuyur», «Allahın özü» onun qəlbində «hər cürə nəğmələrə» yer verib.

49. ***Perikl*** – Afina dövlət xadimi, demokratların başçısı, strateq, yüksək ixtisaslı orator, Afinanın hərbi və mədəni yüksəlişinə nail olmuşdur. Plutarx onun həyatından yazmışdır.

Görünür, burada söhbət Peloponess müharibəsinin birinci ilindən gedir. Periklin söylədiyi «Qəbirüstü nitq» Fukididin yazdığı «Tarix»indən hamıya məlumdur. Lakin burada gətirilən metafora həmin nitqdə yoxdur. Herodotda oxşar metaforaya rast gəlmək olar (Sirakuza tiranı Gelon afinalılara müraciətində giləylənir ki, Elladaya kömək edə bilməməsi, ilin fəsillərində baharın itirilməsi kimi bir şeydir).

Evripid «Xahişə gələn qadınlar» əsərində belə bir metaforanı işlədir: Bəzisi, sanki yaz fəslində torpaq becərir,

Mərdləri biçir, cavanları doğrayıb kəsir.

8

50. İdarəetmə formaları haqqında bax.: qeyd 27. Platon həm də bəzi qarışıq idarəçilik formalarının adını çəkir (məsələn, Spartada olduğu kimi). «Qanunlar»da belə formaları gah tiraniyaya, gah «dövlətlərin ən demokratik olanlara» oxşadır, eyni zamanda qeyd edir ki, burada «həm aristokratiyanı», həm də «ömürlük çar hökümətini»ni görməmək mümkün deyil.

51. Bax.: «Politika», IV, II.
9

52. ***Enkomi*** – əvvəllər oyunlarda qalib gələnin təntənəli gəlişinin mədhiyyəsi olmuşdur, sonradan tərifləyici nitq növünü göstərən söz kimi işlədilir.

Aristotel «Nikomax etikasında» yazmışdır: «Tərif xeyirxahlığın əlamətidir, çünki o, bizi gözəlliyə qovuşdurur; mədhiyyələr isə (enkomilər) bərabər şəkildə həm ruhi, həm də fiziki fəaliyyətimizə aiddir» (I).

53. Bu cür tərifi biz Aristotelin «Evdemin etikası» əsərində tapırıq; Platon da «Qorgi» əsərində gözəlliyə həzzalma və zahidlik və ya xeyir anlayışları vasitəsilə tərif verir. Platona aid edilən «Təriflər» əsərində o, belə deyir: «gözəllik – zahidlik deməkdir». Bax.: qeydlər 28, 35.

54. ***Zahidliyin*** tərifini Platon «Menon» əsərində vermişdir. «Nikomaxın etikası» əsərində Aristotel deyir: «Əgər məmnunluq mənəvi fəaliyyətin zahidliyə uyğun aparılmasından ibarətdirsə, onda biz zahidliyi tədqiq etməliyik».

55. Safo və Alkey (e.ə. VII-VI-ci əsrlər) – qədim Yunan şairləri; Lesbos adasında yaşayırmış, müasirlər və dost olmuşlar. Melika, yəni solo şəklində ifa olunan lirik nəğmələr janrının əsasını yaratmışlar. Burada söhbət Safodan gedir.

56. Bax.: qeyd 43; Arxilox da, sədaqətlik andına xəyanət edən dostunun başına gələn müsibətlərə sevindiyini göstərir.

57. Bu adət haqqında bax.: Ksenofont «Lakedemoniyalıların dövlət quruluşu haqqında». Elian «Alabəzək hekayələrində» qeyd edir ki, spartalılara «layiqsiz əməklə məşğul olmaq qadağan olunmuşdur».

58. ***Paralogizm*** – sübutolunmada və ya mübahisədə qəsdən törədilməmiş məntiqi səhvdir.

59. Platonun «Meneksen» əsərində Sokrat deyir: «Əgər Lakedemonda afinalıları, və yaxud Afinada lakedemoniyalıları tərifləmək lazım gəlsəydi, onda qabiliyyətli, inandırmağa bacaran, mübahisə predmetini yaxşı tərəfdən təqdim edə biləcək ritor lazım olardı. Əgər kimsə təriflənən şəxslər arasında



olursa, həmin adamlar üçün yaxşı danışmaq bacarığı elə də böyük iş deyil».

60. Bax.: qeyd 46.

61. Keosslu Simonidin əsərindən gətirilən sözlərdir. Pisistratın oğlu olan Afinalı tiran Gippinin qızı Arxedikaya ithaf edilmiş qəbirüstü yazıdan bir sətirdir. Gippi Afinadan Lampsak (kiçik Asiya) şəhərinə qaçqın düşmüşdür; həmin şəhərdə onun qızı Eantid adlı tiranda ərdə idi.

62. ***Gippoloh*** – naməlum addır.

***Harmodi və Aristogiton Kipparx*** adlı tiranın qatilləri kimi özünə şöhrət tapmışdılar (e.ə.514-cü il) öldürülənin qardaşı Gippiyə vaxtında xəbər verildi və o canını qurtara bildi.

Tiran qatillərinin Afina meydanındakı bürünc heykəlinin müəllifləri Kriti və Nesiot olmuşdur.

63. Aristotelin bu təsnifatını aşağıdakı şəkildə təsvir etmək olar:




64. Bax.: «Ritorika», II.

65. Bax.: «Ritorika», I.

66. Bax.: «Ritorika», II.

67. ***Ləzzətalma*** və yaxud həzzalma haqqında bax.: «Nikomaxın etikası», VII.

68. Parosslu Even.

Aristotel «Nikomaxın etika»sında (VII) elegiya şairi Evenin şerindən bir neçə misra gətirir; həmin misralarda söhbət

insanın təbiətinə çevrilən, canına yatan, bir çox səylərin nəticəsi olan verdişdən gedir. Even adını iki şair daşıyır; onlardan biri – Sokratdan yaşca böyük olan onun müasiri, sofist olmuşdur; Platon dəfələrlə onun adını gətirir («Sokratın apologiyası», «Fedon», «Fedr»).

69. *Evripid.* «Andromeda».

70. «Odisseya», XV.

71. «İliada», XVIII.

72. «İliada», XXIII.

73. *Evripid.* «Orest» (Orestə bacısı Elektranın müraciəti). Aristotel «Nikomaxın etikasında» *dəyişikliklərin ürəyincə olmasına* bir qədər başqa cür izah verir: «İnsan təbiəti artıq sıradan çıxarılıb; sıradan çıxmış insan çox dəyişkən olduğu kimi, təbiətin özü də dəyişkən olmalıdır, çünki o nə sadə, nə də kamil deyil» (VII).

74. Bax.: *Platon.* «Fedr». Platonun sxoliastı (təsfirçisi) belə bir atalar sözü ilə bu ifadəni izah edir: «Yaşıd öz yaşıdını sevindirir, qoca-qocanı». «Odisseya» əsərində də (XVII) belə deyilir:

Məlumdur ki, Allah bir-birinə bənzərləri bir araya gətirir.

Aristotel qeyd edir ki, «naturfəlsəfəçilər bütün təbiəti nizamlamağa çalışır; bunun üçün onlar əsas prinsipi, bir-birinə bənzəyənlərin qarşılıqlı meylli olmasını götürürlər. Levkipp də, atomist olaraq, bir çox dünyaların yaranmasının əsasında oxşarların qarşılıqlı şəkildə bir-birinə meylli olmasını qeyd edir. Demokrit də hesab edirdi ki, bənzərlər bir-birini daima axtarmaqdadır».

Qədim dövrdə çox populyar olan bu ideya Homer dövründən etibarən naturfəlsəfədə daima səslənir.

75. Evrinidin bizim vaxtımıza gəlib çıxmayan «Antiopa» əsərindən bir parçadır.

76. *Gülməli* olanlar haqqında bu fikirləri Aristotel, görünür, bizə gəlib çatmayan «Poetika» əsərinin bir parçasında yazmışdır. Bizə məlum olan hissədə qədim komediyadan danışılır.





77. Bax.: «Ritorika», II.

78. Bizə məlum olmayan şəxslər.

79. Karfagen şəhərinin uzaqda olması nəzərdə tutulur. Kitabın bu hissəsi bir qədər qaranlıqdır. Ola bilsin ki, bu sözü «karfagenlilər» yox, «xalkedoniyalılar» oxumaq lazımdır. Qədim dövrün insanları bu şəhərin sakinlərini quldur bilirdilər.

80. Bu cümləni iki cürə yazmaq olar: «*miziyalıların* qazancı» atalar sözü kimi (lazımsız bir şey mənasında, yəni bu əşyanı hətta öz qorxaqlığı ilə seçilən miziyalılar da istəməzlər; başqa məna – miziyalılar qorxaqlığı ilə müqayisə olunmazdır, çünki bunlar düşmənin əlinə çox asanlıqla keçirdilər.

81. ***Dion*** – dövlət xadimi və siyasətçisi, Sirakuza tiranı Böyük Dionisinin arvadının qardaşıdır. Platonun «maarifçi monarx» ideyasına tərəf çıxırdı. Dövlət çevrilişi etmək cəhdi puça çıxandan sonra, öz əvvəlki dostu Kallip tərəfindən öldürülmüşdür (Bax.: Plutarx «Dion», Platonun 7-ci məktubu).

82. Qelon (e.ə. V-ci əsr), Sirakuza tiranı, müəyyən bir şəhərin ələ keçirilməsində Leontin şəhərinin tiranı Enesidemi qabaqladığına görə, ondan kottabi oyunu üçün işlədilən qabı hədiyyə olaraq qazandı (bu da yüngül başa gələn qələbəyə bir nişanə idi).

***Kottabi*** – yunanlılar arasında geniş yayılmış oyun olmuşdur (böyük qabın içindəki suda xırda qabları batırmaq cəhdləri).

83. ***Yason*** Fessaliyada Fer şəhərinin tiranı (e.ə.IV-cu əsr). Bir sıra yunan şəhərləri ələ keçirməyə çalışırmış, lakin ölüm (e.ə 370-ci il) buna macal verməди.

Yasonun sözlərini Plutarx öz əsərində («Dövlətin idarəolunmasına dair təlimatlar») gətirir.

84. Bax.: «Ritorika», I.

85. Bax.: Lisinin Andokidə qarşı nitqi; burada qeyd olunur ki, Perikl dinə qarşı cinayət törədənləri cəzalandırmaq məqsədilə elə bir yazılı və yazılmamış qanunları tətbiq etməyə məsləhət etmişdir ki, «bunları hələ heç kəs ləğv edə bilməsin,

bunlara qarşı çıxış edən olmasın, bunların müəllifi belə məlum olmasın».

86. Burada Sofoklun «Antiqona» faciəsi nəzərdə tutulur (qadın, doğma şəhərin müdafiəsi zamanı həlak olan qardaşı Polinikin dəfn mərasimi keçirmişdir).

87. Sofokl, «Antiqona» əsəri.

88. Siçiliya şəhəri Akraqantdan olan ***Empedokl***, e.ə. VI-V-ci əsrlərdə yaşamış natur fəlsəfə nümayəndəsi; hesab edirdi ki, bütün təbii və kosmik hadisələr dünyada hökm sürən sevgi və düşməncilik üzərində qurulur.

89. Eleyalı ***Alkidamant*** (e.ə. V-IV-ci əsrlər) – məşhur orator, sofist Qorginin şagirdi, İsokratın müəllimi olmuşdur. Alkidamantın nitqlərindən yalmz ikisi qalmışdır.

90. Bax.: «Ritorika», I, 10.

91. Yenə orada, 6, 10 (əvvəli).

92. Bax.: «Ritorika», II, 2, I, 11, 12.

14

93. Bax.: qeyd 41. Bu hadisə heç yerdə qeydə alınmayıb.

***Obol*** – təxminən 2 qəpiqdir.

94. ***Sofokl*** – e.ə. V əsrin sonunda yaşamış orator.

15

95. Bax.: ikinci kitabda (25): həmin ifadə var. Lakin «Politika»da Aristotei «ədalətlə başasalmadan» söhbət açır (II, 16); Demosfen də öz nitqlərində həmin qaydaya «riayət» edir.

96. Bax.: qeyd 86, 87.

97. Burada «İliada» nəzərdə tutulur; yəni:

Qüdrətli Ayaks Telamonun on iki Salamin gəmisini
Özü ilə çəkib gətirdi və afinalıların falanqa sıralarında düzdü.

Bu sətirlərə istinadən, belə bir qənaətə gəlirlər ki, Afina və ***Salamin*** adası qədim dövrdən müttəfiq olmuşlar.

***Periandr*** – Kipselin oğlu, Korinfin tiranı olmuşdur (e.ə. VI-V-ci əsrlər). Onu yeddi müdrikdən biri hesab edirdilər, baxmayaraq ki, Herodot (III) onun qəddar və hökmran olduğunu göstərir. Ola bilsin ki, mütəfəkkir – Periandrın bu tirana heç bir aidiyyatı yoxdur. Hər halda, artıq qədim dövrün alimləri



onun oğlu Kipselin müdrikliyindən şübhələnirdilər. Platon da onu müdrik hesab etmirdi.

Aristotelin qeyd etdiyi bu fakt ədəbiyyatda məlum deyil.

98. Kleofant – Peleponnes müharibəsi dövrünün məşhur oratoru və siyasətçisi, Afinada Otuz tiran hakimiyyəti dövründə edam edilmişdir; bəhanə kimi hərbi qulluq yerinə gəlməməsi fakta əsas götürülmüşdü; əslində isə Afina divarlarının dağıdılmasına qarşı çıxmasına görə.

***Kriti*** – Kallesxrın oğlu; dövlət xadimi, oliqarxiya çevrilişinin iştirakçısı (e.ə.404-cu il), Otuz tiran adlanan idarə heyyətinin başçısı. Şair və orator olmuş, cavanlıqla Sokratı dinləmişdir. Platonun «Timey», «Kriti», «Xarmid» dialoqlarının iştirakçısıdır.

***Solon*** – məşhur Afina qanunvericisi, mütəfəkkir və şair (e.ə.VII-VI əsrlər). Ona belə bir ifadəni aid edirlər: «Ölçüdən artıq heç nə!»

Sələnun haqqında bax.: Plutarx. «Solon». Burada Solon nəzərdə tutulur.

99. ***Femistokl*** – Afina dövlət xadimi və sərkərdəsi (e.ə.VI-V əsrlər). Yunan-fars müharibəsi zamana radikal mövqeli partiyaya başçılıq edirdi. Afina dəniz donanmasını yaratmış, şəhər istehkamlarını gücləndirmiş, Pirey limanını tikdirmiş, Salamin döyüşündə farsları darmadağın etmişdir. Aristotel Femistoklun, orakulun sözlərini hərbi manevrlər üçün sərfəli mənada yazmasını qeyd edir.

100. Svida, və ya Sudanın Vizantiya ləhcəsidir, «achrēcta» sözü dedikdə, həmin atalar sözünü gətirir; qeyd edir ki, yaxşılığı «paxıl oğlan uşağına, çox danışan qadına, axmaq uşağa, qonşu itinə, çox danışan qayıqçıya» etmək olmaz.

Fars çarı Kir Lidiya çarı Krezə deyir ki, onu əsir götürüb adi vətəndaşlara mərhəmət göstərməklə elə hərəkət etdi ki, elə bil ki, «atasını öldürüb uşaqları sağ saxlayıb» (Herodot).

101. ***Evbul*** – Attikalı orator və demaqoq (e.ə.IV-ci əsr). Demosfenini rəqibi. Xüsusi hərbi fond əvəzinə şou tamaşaları fondunun toplanılması haqqında qanun qəbul etdirdi. Makedo-

niyalı çar Filipdən maliyyə yardımı alan Evbul afinalılar üçün sərfəli olmayan sülh müqaviləsini imzaladı.

*Xaret* – Attikalı sərkərdə (e.ə. IV-cü əsr), heç də cəsur və cəngavər olmayan, qəddar, hiyləgər və bədxərc bir insan idi. Ehtimal var ki, Xeroniya döyüşündə vəfat etmişdir (e.ə.338-ci il).

Burada, Aristofanın rəqibi, Afina komedioqrafı ***Platon*** nəzərdə tutulur. Onun komediyasının fraqmentləri XIX əsrdə nəşr edilmişdir.

Bax.: Platonun əsərlərinə. ***Arxibi*** – bu ad daha heç bir yerdə göstərilməmişdir.

102. Bax.: Ritorika, II.

103. Kolofoniyalı Ksenofon (e.ə. VI-V-ci əsrlər) – filosof, şair, eleatlar məktəbinin banisi, Homer və Hesiodun mifologiyasında allahlar haqqında antropomorf təsəvvürlərin tənqidçisi.

## İkinci kitab

1.Bax.: «Ritorika», I.

2.Burada ikinci kitab nəzərdə tutulur.

3.«İliada», XVIII (hiddət və düşmənçiliyi lənətləyən Axillin sözləri).

4.«İliada», I, 356, IX, 647.

5.«İliada», II, 196, I, 82.

6.***Antifont***, Afinalı faciə janrında işləyən yazıcı; Sirakuza tiranı Böyük Dionisinin xidmətində olmuş, onun tərəfindən edam edilmişdir. Onun faciələrindən bu günə yalnız ayrı-ayrı parçaları gəlib çatmış, o cümlədən «Meleaqr» faciəsindən bir parça.

Alfeya və Oyneyin oğlu olan Etomeya qəhrəmanı Meleaqr, Kalidoniya qabanını ovlamaqla məşhurlaşmışdı; qaban başını Atalanta adlı övçu-qadına verdi, bununla da iki dayısını Pleksipp və Tokseyi özündən küsdürdü. Nəticədə mübahisə başlandı. Meleaqr bunları öldürəndən sonra kuretlər və etoliyalılar arasında müharibə başlandı. Qəzəblənmiş ana, içində



oğlunun cam olan kösövü oda atdı, bununla da onun axırına çıxdı (bax.: «İliada», IX). Ovidinin «Metamorfozalar» əsərində öz oğlunu lənətləmiş və qətlindən sonra vicdan əzabını çəkən ana haqqında təsirli epizod verilir.

Hiddətlənən adamın bir çox bəlaların və pis durumunun səbəbi olan qəzəbin mahiyyəti hələ Homer dövründən etibarən yunanlıları düşündürürdü. Düşmən qalasının qarşısında axeylərin bir çox bəlaları («İliada») Axillin qəzəbi ilə bağlı olmuşdur (Axillin qeyrətinə Aqamemnon toxunmuşdur). Homer qəzəbin gərginlik dərəcələrini fərqləndirir, buna leksik formalar tapır. Məsələn, coşqun, dağıdıcı qəzəb (mēnis) dəlilik həddinə yaxındır, bunu «mainomai» «dəlilik edirəm», menea - «istəyirəm, dəlicəsinə buna can atıram» və yaxud «menos» ismi ilə («güc», «qüvvə») ümumi kökün olmasında görmək olar. Tez yaranan, həm də tez keçən qəzəb (cholos) əslində «od» deməkdir və sözün əsil mənasında ödün dağılması fizioloji prosesi ilə əlaqəsini bildirir. İnsan bu zaman hövsələsiz və həssas olur. Müəyyən təhlükəni gizli qəzəb (cotos) yaradır; belə insan daima qəzəbli olur.

3

8. Bax.: «Odisseya», XIV

Birdən Odisseyi görcək itlər hay-küylə yığışdı,
hürə-hürə özlərini bildirdi,
Odissey onları görcək ehtiyatla tez yerə oturdu,
lakin bu zaman çubuğu əlindən düşdü.

9. ***Filokrat*** orator, Demosfenin müasiri və rəqibi, e.ə. 346-cı ildə Makedoniya çarı Filipp ilə imzalanmış sülh müqaviləsinin əsas təşəbbüskarı.
10. Kallisfen və Erqofil – 362-ci ildə xəyanətdə günahlandırılmış və mühakimə edilmiş Afina sərkərdələri.
11. «Odisseya», IX, 504.
12. «İlliada», XXIV, 54.

Axill Hektorun cənazəsini təhqir etdi, bununla da sonuncu tərəfindən öldürülmüş dostu Patröklun əvəzini çıxırdı.

4

13. Hesiod. «İşlər və günlər», 25.

14. Sevgi və düşmənçilik anlayışları yunan fəlsəfəsində kosmoqonik məna daşıyırdı. Empedokla görə, sevgi sferosu, küreyəbənzər kosmosu birləşdirir, onu bütöv edir. Sevgi, və ya dostluq, və ya Afrodita, - «müəyyən birləşdirici qüvvədir». «Düşmənçilik və sevgi daima insanlar, heyvanlar və quşlar üzərində hakimdir», lakin sfera «öz bütövlülüyündə vüqarlıdır», «sevgi səltənətidir».

5

15. Esxilə görə, ölümün unudulması Prometey tərəfindən insan nəslinə bəxş edilmiş nemətlərindən biri olmuşdur.

16. Qorxu və dəhşət - Fobos və Deymos yunan mifologiyasında iblisanə məxluqları, müharibə allahının (Aresin) silahdaşları olmuşdular («İliada», XIII, 298, XV, 119). Sonra bu adlar poeziyada troplar kimi istifadə olunur (məsələn, Esxilin əsərlərində, o cümlədən «Fivlərə qarşı yeddi cəsur» əsərində).

17. Evripid, «Kresfont» faciəsindən bir parça (bu günə bütöv gəlib çatmayıb).

18. Təfsirçi burada belə izahat verir ki, sirakuzahlar sülhə razılıq verməyəndə Evripid, sülhməramlı elçi olaraq, onları qınadı, dedi ki, birinci müraciətdə «yox» cavabı verməzlər. Ola bilsin ki, bu hekayət Plutarxın təsdiqlədiyi bir fakta əsaslanır: Evripid çox qabiliyyətli adam imiş, onun nüfuzu o qədər böyük olmuşdur ki, Siçiliya yürüşündə (413-cü il) məğbul olmuş afinalıları, Evripidin şerlərini əzbər dedikdə, əsirlikdən azad edir və hətta yedizdiriblər.

6

19. Bu paraçalanma 439-cu ildə Perikl tərəfindən Samos adasında üsyan yatızdırılandan sonra baş vermişdir. Kidi – az məlum olan şəxsdir (Bax.: Plutarx. «Perikl»).

20. ***Antifont*** haqqında bax.: II kitabda 6-cı qeydə. Plutarx söhbət edir ki, Antifont verilən suala sərt cavabından sonra edam edilmişdir (Dionisi, soruşanda ki, hansı mis yaxşıdır? cavab verdi: tiran qatilləri Harmodi və Aristogiton heykəllərinə sərf edilmiş mis).



7

21. Yunanca «phormos» «zənbil, palaz, yük, çörək ölçüsu» deməkdir («pher» - «aparıram» deməkdir). Burada nə nəzərdə tutulur, məlum deyil.

8

22. «Poetika» əsərində Aristotelin məşhur faciəvi katarsis haqqında ifadəsi qorxu və mərhəmət anlayışları ilə bağlıdır. Qədim teatra gələn tamaşaçı, qəhrəmanın taleyinə can yandıraraq, həmin hisslərdən azad olmalıdır. Aristotel düşünürdü ki, insanda mərhəmət hissini, öz xasiyyəti baxımından tamaşaçıya uyğun gələn, ona oxşayan, müəyyən mənfi cəhətlərinə malik qəhrəman oyada bilər («Poetika», Fəsil 13). Həmin fikir bu fəsildə əzabkeşlik və qəm-qüssə gətirən yaxmlarımızın dərdisəri haqqındakı fikirlərlə üst-üstə düşür. Nə dərəcədə bu hisslər bizə köməklik edə bilər? Bu sualın da cavabı axtarılır.

Sofistlər (xüsusi olaraq Qorgi) ritorun başqalarda mərhəməti oyatmaq, onu artırmaq qabiliyyətinə fikir verirlər. Natiqlik sənətkarı olan Qorgi üçün dinləyicini öz tərəfinə çəkmək, sözün qüvvəsini onda sınamaq vacib idi. Bu zaman o, eyni dərəcədə gah onda (dinləyicidə) mərhəmət və rəhm, təəssüf hissini oyadır, gah da «qorxunu qovur və qəm-qüssəni məhv edirdi».

23. Bilinmir, Aristotel hansı faktı burada qeyd edir.

24. Bunun haqqında Herodotun hekayəti var, Misir çarın oğlu Amazis – Psammenitin üzərində Fars çarı Kambizin (Kirin oğlu) qələbə çalması haqqında. Psammenit, öz qızını qul geyimində və edam yerinə aparılan oğlunu görcək, güclə özünü həyəcanlanmadan saxladı; lakin dilənən dostunu görərkən, hıçqırtı ilə ağladı. Kambiz, bu barədə verilən suala cavab verdi ki, öz dərdi ağlamaq üçün olduqca vacib səbəbdir, amma qoca yaşında salamat və firavan həyatı ilə vidalaşıb, yoxsulluqla rastlaşan dostunun dərdi göz yaşına layiqdir. Kambiz bu sözləri eşidəndə, heyrətləndi və Psammenitin oğlunu əfv etməyə hazır olduğunu bildirdi, lakin artıq gecikmişdi.

25. Bax yuxarıda, qeyd 22, yaxınlar və əzizlərə qarşı mərhəmət haqqında.

26. Aristotel «Nikomaxın etika»smda bu cür tərif verir: «hiddət – paxıllıq və bədxahlıq arasında yerləşir; bu mənəvi durum öz yaxınlarımızın düşdüyü müxtəlif vəziyyətlərilə bağlı çəkdiyimiz əzabkeşliyə və həzzalmaya aiddir. Hiddətlənən adam, pis insanların layiq olmadıqları zirvəyə nail olduğunu görəndə iztirab çəkir; paxıl adam bundan da artıq əzab çəkir: yaxınların, tanışların hər bir sevinci onun iztirablarını artırır; bədxah insan nəinki digərinin dərdinə şərik olur, əksinə, sevinc keçirir».

27. «İliada», XI, 543. Söhbət Troya qəhrəmanı, Priam çarın oğlu Hektordan gedir.

10

28. Esxilin bizim günlərə gəlib çatmayan, adı məlum olmayan tragediyadan ifadə.

29. Herkules sütunları – Hibraltar.

30. Bax.: qeyd 13.

12

31. Burada Aristotel ehtirasla (pathos) əxlaqi adətləri (ethos) qarşı-qarşıya qoyur, yəni çox güclü daxili təəssüratlanmanı xasiyyətin sabit durumuna qarşı qoyulur. Qədim dövrdə etos dediklə həm sabitlik, həm də müəyyən, insan mahiyyətini ifadə edən istiqamətləndirici qüvvəni nəzərdə tuturdular. Heraklit, məsələn, qeyd edirdi ki, «insan etosu onun bəlasıdır». Pafos – faciənin zəruri hissəsidir, «bu – ağrılı bir haldır» («Poetika», III-cü fəsil). Sabitləşdirici bir qüvvə olaraq, etos faciə qəhrəmanı üçün çox vacibdir, xüsusilə chrēston ethos, yəni həddindən çox ideallaşdırılmayan, tamaşaçının bəraətini qazanan xoş xasiyyət («Poetika», fəsil 13).

Aristotel orator nitqində etosun bədii xüsusiyyətlərini dərindən təhlil etmişdir: etos müəllifin məqsədlərinə və tövsiyələrinə uyğun gəlməlidir, musiqi etosu isə insanın özünü tərbiyə edir. Sonradan incəsənət tədqiqatçılara (Halikarkaslı Dionisi, Lonqin, Kvintilian) pafosu və etosu iki növ üslubun təmsil etdiyini göstərmişlər – effektiv və sakit, biri «yüksəldənə», digəri isə «həzz verənə uyğundur» (Lonqin).



32. Sxoliast burada belə izahat verir: Fivlərə qarşı müharibəyə qalxan başçılarla Arqos qəhrəmanı və gələcəyi görən Amfiarayla ittifaqa girməyə cəhd xatırlanır. Amfiaray, arvadına Adrast tərəfindən təklif edilmiş cah-calaldan (ya da puldan) imtina etmişdir; yeddi müdrikdən biri – Pittak bunu xüsusi ifadədə qeyd etmişdir. Sxoliastın izahı qeyri-ardıcıldır. Pittak – tarixi şəxsiyyət, Lesbos adasında seçkilər yolu ilə seçilmiş Mitilen şəhərinin ali başçısı, «esimnet»i olmuşdur (e.ə. VII-VI-ci əsrlər). Pittakın dostu, sonra isə siyasi düşməni olmuş şair Alkey onun haqqında bəzi məlumat vermişdir. Yeddi başçının yürüşü isə Troyanın alınmasına bir nəsil qalmış baş vermişdir, yəni bu, e.ə. II minilliyin son rübünə aiddir. Arfiarayın arvadı Erifila öz qardaşı Adrastın əlindən boyunbağı almış və ərini yürüşdə iştirak etməyə sövq etmişdir («Odisseya», XI, 326). Amfiarayın cəng arabasını torpaq udmuş, özü isə, yürüş başçılarını Fivaları dağıtmaqdan çəkindirdiyinə görə ölməzliyə ucalmışdır.

33. ***Xilon*** – Spartalı, yeddi müdrikdən biridir. Hesab olunur ki, «Ölçüdən artıq heç nə olmamalı» ifadəsi Solona aiddir; Lindli Kleobun isə guya demişdir ki, «ölçü – yaxşıların yaxşısıdır»; Xilona adətən həm də bu sözləri aid edirlər: «özün-özünü dərk et».

13

34. ***Biant*** – yeddi müdrikdən biri, İoniyada da yerləşən Priyenadandır (e.ə. VI-cı əsr). Belə bir ifadəsi ilə məşhurlaşıb: «Özümünkü nə varsa, özümlədir». Aristotelin qeyd etdiyi Biantın sözlərini həm də Laertli Diogen gətirir; öz kitablarının birincisində o, bütün yeddi müdrikin həyat və yaradıcılığından yazır.

35. ***Gözəlliyin*** bu tərifini «Böyük Hippi» əsərində Platonun təsvir etdiyi Sokratın tərifi ilə müqayisə et: «əgər gözəl olan xoşbəxtliyin səbəbidirsə, onda xoşbəxlik gözəlliyə görə əmələ gəlir». Bu ifadədə gözəllik haqqında teleoloji, məqsədyönlü təsəvvür aydın şəkildə gözə çarpır, bunun etik mahiyyəti özünü biruzə verir. Aristoteldə bu cəhət bir qədər zəif qabardılıb.

14

36. Aristotel burada məlum antik ənənəyə sadiq qalır. Solonun 19-cu elegiyasında (e.ə.VII-VI-cı əsrlər) 7 ədədin simvolik anlamını tapmış oluruq («hebdomada»nın): uşaq yeddi yaşında diş dəyişir, ikinci yeddilik – yetkinlik, üçüncü – həddibuluğa çatmaq, dördüncü – çiçəklənmə («akme»), beşinci – nigah bağlamaq, altıncı – ağıldan möhkəm olmaq deməkdir.

Yalnız yeddinci yeddilikdə səkkizincisi ilə birlikdə – düz ön dörd il ərzində – zəka və nitq çiçəklənir.

Doqquzuncu yeddilikdə cömərdlik müdrikliyə yer verir, onuncuda isə – ölümü gözləyirlər. Platon hesab edirdi ki, kişilər öz yetkinliyinə 25-30 və yaxud 30-35 yaşında gəlib çatır («Qanunlar», VI, 772). Bu yaş həddi nigahın bağlanması üçün ən gözəl yaş sayılır; burada şair Hesiodun köhnə kəlamını xatırladır: «Otuza qədər tələsmə, lakin otuzdan sonra da ləngimə. Otuz yaşına yaxın evlənmək – ən yaxşı vaxtdır» («İşlər və günlər»)».

15

37. ***Alkiviad*** (e.ə. təqribən 450-403-cü illər) – Afina dövlət xadimi və sərkərdəsi, öz siyasi avaturizmlə şöhrət qazanmışdı. Çox savadlı və qabiliyyətli insan olubmuş; gənc yaşlarında Sokratın ideyalarını qəbul edib, lakin sonra ondan uzaqlaşdı, Ksenofont («Sokrat haqqında xatirələr») belə yazırdı: «Demokratiya zamanı Alkiviad öz təkəbbürü, zabitəliyi, zorakılığa meylliliyi ilə fərqlənirdi».

Sirakuza tiranı ***Böyük Dionisinin*** oğlu Kiçik Dionisi də tiran olmuşdur. Sonuncunun yanına Platon iki dəfə gəlmiş və fəlsəfi öyüd-nəsihət vermişdi. Hər ikisinin qəddarlığı, Platon ilə gərgin münasibətləri haqqında Plutarx yazıb (bax.: «Dion»); Platonun yeddinci məktubunda da bu problemlər göstərilir.

***Kimon*** (e.ə. təqribən 504-449-cu illər) – yunan-fars müharibələr dövrünün tanınmış dövlət xadimi və sərkərdəsi; o, Afina başda olmaqla yunanların dəniz ittifağını möhkəmlətməyə nail olmuşdur. Bax.: Plutarx «Kimon». Kimonun övladları haqqında bir məlumat yoxdur.



Platon öz «Protaqor» dialoqunda deyir ki, ***Perikl*** öz oğullarına Parala və Ksantippə gözəl və incə tərbiyə vermişdir, lakin «öz bildiyini onlara öyrədə bilmədi, başqalarına da bunu etməyə tapşırmadı». «Birinci Alkiviad» əsərində onlar axmaq adlandırılıb.

***Sokratla Ksantippanın*** üç oğlu var idi – böyüyü Lamprokl, kiçikləri – Sofronisk və Meneksen. Böyük Katonun həyat fəaliyyətinin təsvirində Plutarx göstərir ki, sonuncu Sokrata ona görə hörmət edirdi ki, o «deyingən arvadı və kütbəyin uşaqlarına» qarşı mehriban və yumşaq olmuşdur (fəsil 20).

16

38. ***Giyeron*** – Sirakuza tiranı (e.ə. 467-ci ildə vəfat etmişdir), elm və incəsənət sahələrinə himayədarlıq etməsi ilə məşhurlaşmışdır. Onu Pindar vəsf etmiş, ona Esxil və Keoslu Simonid baş çəkirdilər.

Platon «Dövlət» əsərində yazırdı ki, «belə zarafat edən yanılır, yəni, mümkün deyil ki, müdriklər dövlətlilərin qapılarını gəzsinlər» (VI).

Sxoliast və Aristotel bu sözlərin Simonidə aid olduğunu təkzib edir; belə bir rəvayəti xatırladırlar: Sokrat və Evbul adlı şəxs arasında söhbət yaranır; Sokrat Evbulla razılaşmayaraq, deyir ki, dövlətli adamın qapısında dayanan müdrik bilir ki, dövlətli kasıblara nə paylayır, lakin dövlətli bilmir ki, müdrikdən necə faydalana bilər. Bu hekayətə yaxın məzmunda filosof – kirenaik Aristipp və Sirakuzalı tiran Dionisi arasında olmuş söhbəti bizə Laertli Diogen də çatdırmışdır.

39. Bax.: «Ritorika», I, 8.

40. Bax.: Yenə orada, 3.

41. Bax.: Yenə orada, 9.

19

42. ***Prosxizma, kefalida, xiton*** – ayaqqabı hissələridir.

43. ***Aqafon*** – bizə məlum olmayan faciədən bir ifadə.

44. ***Evfin*** – məşhur ritor İsokrata qarşı çıxış etmiş Afinalı şəxs. Evfinə qarşı İsokratın nitqi də məşhurdur.

20

45. ***Ezop*** - yarıəfsanəvi yunan təmsilyazar olmuşdur (e.e.VI-cı əsr); bir neçə yüz təmsilin müəllifi olduğunu yəqin edirlər.

Hermogen adlı ritorun «Hisnasmatikaya yaxın məşqlər» əsərindəki təmsillər haqqında fəslində təmsillərin bir neçə qədim müəlliflərinin adları çəkilir (Hesiodun bülbül və qırğı haqqında təmsili, Arxinoxun – tülkü haqqında), təmsillərin yayılması əraziləri göstərilir (Kipr, Liviya, Sibarit). Ayrıca Ezopun təmsilləri burada da qeyd olunur.

46. Ola bilsin ki, söhbət e.ə. 350-ci ildə Misirə təcavüz edən III Artakserksdən gedir.

***I Dari*** – fars çarı (e.ə. VI-ci əsr), öz dövlətini genişləndirmiş və möhkəmləndirmiş, bununla da özünə şöhrət qazanmışdır. Onun dövründə yunan müharibələri baş vermişdir.

47. ***Kserks*** – öz zülmkarlığı və təkəbbürlüyü ilə tanınan Dari çarının oğlu. Yunanlara qarşı müharibəyə başçılıq etmiş, sonuncular tərəfindən Salamin, Plateya, Mikal ərazilərində darmadağın edilmişdir (e.ə. 485-465-ci illər). Kserksin rüsvayçı məğlubiyyəti Esxilin «Farslar» pyesində göstərilmişdir.

48. ***Stesixor*** (e.ə.VII-VI-ci əsrlər) Siciliya adasının Himer əyalətindəndir; lirik şair, xor mahnılar müəllifi, xorların yaradıcısı (adından da bilinir). Xorun strofası (səhnədə xor dəstəsinin təntənə ilə gəzişməsi və oxuması) və antistrofasına o, daha bir epizodu əlavə etmiş və onu nəqarət adlandırmışdır. Suda onun haqqında yazır: «Deyirlər ki, Yelenaya yazdığı təhqirə görə, onun gözlərini kör etdilər. Hökm olundu ki (yuxuda)» o Yelena üçün yenidən tərif yazsın (palinodiya, yəni «əksinə olan nəğmə»), nəticədə gözlərinə nur qayıtdı. Bu fikri İsokrat da öz nitqlərindən birində təsdiqləyir.

***Falarid*** – Siciliyanın Aqriqent şəhərinin tiranı (e.ə.VI-ci əsr). Stesixor Himera sakinlərinə onun barəsində xəbərdarlıq etmişdir. Falarid ölümə məhkum olanları misdən hazırlanmış öküz fiqurunda yandırardı. Stesixorun bu nəsihətini yalnız Aristotel qeydə almışdır. Plutarx Aratın həyat və yaradıcılığının təsvirində (fəsil 38), buna oxşar süjeti (atı yəhərləmiş ovçu haqqında) Ezona mənsub olduğunu qeyd edir.

21

49. Evripid, «Medeya».

50. Evripid, bizə gəlib çıxmamış «Sfenebeya» faciəsindən bir parça.

51. Evripid, «Hekuba», 864.

52. Yenə orada, 865.

53. Platonun «Qorgi» əsərini yazan sxoliast, bu şeri Keoslu şair Simonidə və yaxud komik Epaharma aid olduğunu qeyd edir.

54. Evripid. «Troyalı qadınlar».

55. Bax.: qeyd 49.

56. 79-cu hissə – məlum olmayan tragediya müəllifinə aiddir.

57. Epiharm, hissə 263.

58. Bax.: Demetri. Üslub haqqında, qeyd 106. Stesixorun nəsihətinin mənası belədir: əgər lokriyalalılar müharibəni başlasa, onda ölkə ___ran olacaq, hətta ağacda oxuyan çırcırama qalmaz.

59. «İliada», XII, 243, XVIII, 309 (Hektorun sözləri).

60. Bax.: «Ritorika», 1, 15, qeyd 100.

61. Söhbət axmaq qonşudan gedir. Bu atalar sözü Afinalıların mürtecə siyasəti ilə bağlı yaranmışdır.

62. Bax.: qeyd 33.

63. Burada, yəqin ki, sadə mənşəli sərkərdə İfikrat nəzərdə tutulur; bax. həm də qeyd 47 (kitab I).

22

64. Bax.: «Ritorika», I, 2; II, 22.

65. Evripid. «İppolit», 988.

66. Salamin yaxınlığında e.ə. 480-ci ildə Femistoklun rəhbərliyi altında yunanlar fars donanmasını darmadağın etdilər.

E.ə. 490-cı ildə Marafon ətrafındakı döyüşdə Miltiadın rəhbərliyi altında yunanlar farsları darmadağın etdilər.

67. Afinalılar Salamin döyüşündən sonra, güclü donanması olan Egin adasının yüksəlməsindən ehtiyat edərək, *eginetləri* darmadağın etdilər, onları, şəhər divarlarını sökdürüb, xərac verməyə məcbur etdilər. **Potideylilər** – Potideya skinləri -- farslarla mübarizədə Afinalıların müttəfiqləri idilər, lakin Peloponness müharibəsi zamanı şəhəri afinalılara təhvil verdilər (e.ə. 432-ci ildə), sakinlər şəhərdən köçürüldü, onları Afina mühacirləri əvəz etdi.

68. «Topika», I, 14.

69. ***Diomed*** - Troya ətrafındakı Ahey başçılarından birisi olan Tideyin oğlu; Diomedin qəhrəmanlıqları «İliada»da təsvir olunmuşdur (V).

70. ***Kikn*** – Troyalıların müttəfiqi olan Poseydonun oğlu. Silah ona təsir etmədiyi üçün, dəbilqənin qayışı ilə boğudulmuşdu. Ovidi «Metaforfozalar» əsərində Axill tərəfindən onun öldürülməsindən və ölümündən sonra qu quşuna dönməsindən yazır (yunanca cycnos – «qu quşu» deməkdir).

*23*

71. Qorqinin şagirdi, ritor Alkidamantın nitqi. Bax.: «Ritorika», I, 13.

72. Naməlum faciə yazarın ifadəsi.

73. Evripid, bu günə gəlib çıxmamış «Fiyest» faciəsindən bir parça.

74. ***Teodekt*** (e.ə. IV əsr) – orator və faciə aktyoru, İsokrat, Platon və Aristotelin şagirdi. 50 faciənin müəllifidir. Onun eyniadlı faciənin qəhrəmanı Alkmeon, Amfiarayın oğlu, öz anası Erifilanın qatili, sonradan Alfesibeyaya evlənmiş, ayrılmış və onun qardaşları tərəfindən öldürülmüşdür. Burada «Alkmeon»dan bir parça verilir.

75. Məşhur orator ***Demosfeni*** (e.ə. 385-322-ci illər) məhkəməyə verdilər, çünki o, Makedoniyalı İsgəndərin ölümündən sonra (e.ə.323-cü il) yunanlıları makedoniyalılara qarşı qaldırmışdır. Demosfen Kalavriya adasına, Poseydon məbədinə qaçdı, zəhər içərək, intihar etdi (Plutarx, «Demosfen», fəsil XXIX).



***Nikanor*** – Makedoniyalı İsgəndərin sərkərdəsi; sonuncunun ölümündən sonra hakimiyyəti ələ keçirmək istərkən, öldürülmüşdür.

76. Söhbət ***Evfondan*** gedir; onun tarixçəsini Kesnofont «Yunan tarixində» şərh edir (VII, 3, 5).

77. Bu günə gəlib çıxmamış faciədən bir parça.

78. Birinci dəfə ***Pesey*** Yelenanı öz dostu Perifoy ilə bir yerdə qaçırmışdır, lakin Yelenanın qardaşları fürsət tapıb qızı xilas etdilər (bax.: Plutarx, «Tesey», fəsil XXXI).

***Aleksandr*** – Troya şahzadəsi Parisin yunan adı.

***Tindaridlər*** – Kastor və Polidevkdir (Tindar və Ledanın övladları Yelenanın qardaşları), öz əmiqızları olan LevGippin bacılarını qaçıranlardır.

79. ***İfikrat*** (bax.: I kitab, qeyd 47). - Harmodiy adlı bir şəxs tərəfindən özünə heykəl ucaldılmasında günahlandırılmışdır. Harmodiyə qarşı İfikratın nitqinin müəllifi oratorloqoqraf Lisi olduğunu yəqin edirlər.

80. e.ə. 338-ci ildə baş vermiş Heroney döyüşündən əvvəl baş vermiş hadisələr nəzərdə tutulur: bu zaman yunanlılar Makedoniyalı çar II Filipp ilə döyüşlərdə öz müstəqilliyini itirmişlər.

81. Sofoklun «Tevkr» faciəsi, yalnız arı-ayrı hissələri bu günə gəlib çıxmışdır.

82. Aristofonta qarşı İfikratın nitqinin müəllifi Lisi olduğunu yəqin edirlər. Aristofont İfikratı xəyanətdə günahlandırırdı.

83. Yəqin ki, e.ə. V-ci əsrin məşhur yunan sərkərdəsi ***Aristid*** nəzərdə tutulur; o ədalətli, vicdanlı, əliaçıq olmaqla özünü şöhrətləndirmişdir (Bax.: Plutarx. «Aristid»).

84. «Demonion», və yaxud «dahi» - bu, Sokratın daxili səsi olmaqla, uşaq yaşlarından onu müxtəlif bəd əməllərindən çəkindirdi (Bax.: Platon, Sokratın apologiyası; Ksenofont. «Sokrat haqqında xatirələr»; Plutarx. «Sokratın dahiliyi haqqında», Apuley «Sokratın allahı haqqında»).

85. Burada, Harmodiyə qarşı İfikratın nitqi nəzərdə tutulur (bax.: qeyd 79).

85. Burada, Harmodiyə qarşı İfikratın nitqi nəzərdə tutulur (bax.: qeyd 79).

86. «Aleksandr» - nitqdir, görünür ki, müzakirə obyekti burada Paris olmuşdur.

87. Laertli Diogen xəbər verir ki, Sokrat Makedoniya çarı Arxelaym və digər hökmdarlar – Skopas və Evriloxun dəvətini qəbul etmədi.

88. Peparef – Kiklad adalarından biridir; burada Panorm və Selinunt şəhərləri yerləşir (Siciliya ilə dəyişik salmayın!) Makedoniyalı çar II Filipp bu adanı viran etmişdi.

Bax.: Herodotun (VI, 67-69) Sparta çarı Demaratın anası haqqında hekayətini: sonuncu onun kimdən anadan olduğunu sirrini açdı.

Orator Lisi Manti adlı naməlum şəxsə qarşı nitq söyləmişdir. Orator Esxin, məktublarından birində Manti adında ritor – qramatisti qeyd edir (IV, 2).

Burada müxtəlif şəxslərin məhkəmə hadisələrindən nümunələr gətirilir; həmin hadisələr başqa heç bir yerdə qeydə alınmamışdır.

89. *Teodekt* haqqında bax.: qeyd 74. «Qanun» - ola bilsin, bu onun nitqnin adıdır.

90. Burada məşhur qədim yunan dövrünün şairləri, filosofları və müdriklərin adları gətirilir.

*Arxilox* – Paros adasından yamboqrafdır (şair) (e.ə.VII-ci əsr). Yazdığı şerlərində o, keçmiş adaxlısına, onun qohum-əqrəbasına böhtanlar yaxmış və, rəvayətə görə, buna görə bütün ailə özünü asmaqla intihar etmişdir.

*Hios* adası Homerin vətəni olduğunu sübut etməyə çalışırdı. Hiosda «Homeridlər» adlanan öz adət-ənənələri ilə tanınan müğənnilər birliyi öz əcdadının Homer olduğunu deyirdi. Rəvayətə görə, Hios adasından olan Kreofil Homerin qızını alıbmış, Homer ona «İliada» əsərini bağışlamış, şairi öz ailəsinə qəbul etmişdir (Platonun «Dövlət» əsərini yazan sxoliast, IX, 600). Strabona görə, Kreofil-Samos adasındandır (XIV, 1).



*Safo* – Lesbos adasından məşhur şairə (e.ə. VII-VI əsrlər), sevgi nəğmələri lirikasının banisi. Onuncu muza sayılardı, onun şərəfinə pul sikkələri hazırlanmışdı.

*Xilon* – yeddi müdrik adlananlardan biridir.

*Pifaqor* (e.ə.VI əsr) – cənubi İtaliyanın Regiya şəhərindəndir; onun adına bir çox rəvayətlər deyilir. Krotonda xüsusi məktəbi təsis etmişdir; burada ən çox diqqət riyaziyyata və zahidlik idmanına verilirdi.

Klazomenli *Anaksaqor* (e.ə. V-ci əsr) – filosof, Sokratın müasiri Periklin dostu; öz baxışlarına görə təqiblərə məruz qalmış və Afinadan qovulmuşdu. Yazırdı ki, Günəş – qızmar nəhəng daş, Ay isə – Yer kürəsinə bənzər bir cisimdir. Afinada Anaksaqorun üzərində məhkəmə zamanı belə bir təklif irəli sürülmüşdür ki, adətlərə riayət edib allahlara səcdə etməyən və ya səma hadisələrinin elmi izahını verən şəxs cinayətkar hesab olunmalıdır. Periklin xahişinə əsasən hakimlər ona çıxarılan ölüm hökmünü sürgün ilə əvəz etdilər.

*Solonun* həyat və yaradıcılığı haqqında bax.: Plutarx. «Solon».

*Likurq* – yarıəfsanəvi Sparta qanunvericisi; öz sərtliyi ilə məşhur idi. Onun haqqında bax.: Plutarx «Likurq».

91. Müxtəlif oratorlar, filosoflar, şairlər, hökmdarların adı çəkilir.

*Avtokl* (e.ə. V-IV-ci əsrlər), Ksenofontun dediyinə görə («Yunan tarixi», IV, 3, 7), çox hazırcavab natiq kimi məşhurlaşmışdı.

Öz anasını qətlə yetirmiş əsər qəhrəmanı Orestin Afina Areopaqı məhkəməsinə cəlb edilməsi səhnəsi nəzərdə tutulur. Məhkəməyə Orest, qisas ilahələri Eriniyalar və ya Evmenidalar tərəfindən cəlb edilmişdir.

Safonun şeridir:
Ölüm pislikdir. Allahların özü bunu belə təyin edib.
Ölüm nemət olsaydı, allahlar da ölərdi.

*Aristinn* – Kirenalı filosof, hedonistlər məktəbinin banisi (yunanca hedoner – «həzzalma» deməkdir). Sokratın şagirdi və Platonun müasiridir.

*Qeqesipolid* və yaxud Aqesipolid; Ksenofonta görə («Yunan tarixi», IV), Sparta sərkərdəsi olmuşdur; Arqosa yürüşə getməzdən əvvəl Olimpiyada Zevsdən və Delfidə Apollondan razılıq (təqdiretmə) almışdır.

*İsokrat* (e.ə.436-338) – Afina oratorudur. Siyasi həyatda böyük nüfuza malik olmuşdur. Xeroneya ətrafında (e.ə.338-ci il) makedoniyalılar yunanlara qalib gələndən sonra intihar etdi. Burada Yelenaya həsr olunmuş onuncu nitq nəzərdə tutulur.

*Yevaqor* (V-IV-cu əsrlər) – Kipr çarı; onun şərəfinə İsokrat doqquzuncu nitqini yazmışdır. Bacarıqlı və savadlaı adım olmuş, yunan mədəniyyəti təhsil vasitəsilə yaymağa çalışırdı. Afina süquta uğrayanda Afina sərkərdəsi Kononu öz evində qəbul etmiş və ona himayədarlıq etmişdi. Konon səkkiz il mühaçiratda qalmış, lakin sonra fars müttəfiqlərinə arxalanaraq, Afinada hakimiyyəti bərpa etdi və Spartanın nüfuzunu zəiflətdi.

92. Görünür ki, *Teodektdə*, Sokratın apologiyasını təmsil edən nitq var idi.

93. *Kallipp* – Afina ritoru, İsokratın şagirdi; həmvətənlər onu qızıl çələnglə mükafatlandırdılar. İsokrat öz əsərlərində onun adını çəkir (IX).

94. Bu topa həm də ritor Korinfli Qriqorinin nitqində təsadüf olunur.

95. Atalar sözündə, görünür, nəzərdə tutulur ki, duzu alan adam həm faydalı duzun özünü, həm də duza qarışmış lazımsız toz-torpağı alır. Yunan dilində «duz» sözü tələffüzündə «bataqlıq» sözünə yaxındır. Beləliklə, sözlərin zahiri oxşarlığı daxili müxtəlifliyə maneçilik törətmir.

96. Ksenofan, 21A, 12.

97. Naməlum yazıcının əsərindən (faciədən)bir parça.

98. «Meleaqr» faciəsindən bir parça.

99. Teodektin «Ayaks» əsəri haqqmda məlumatımız yoxdur. Yalınz Aristotelin əsərində bu fakt təsdiqlənir.

100. *Pamfil* - ritor, Platonun şagirdi. Siseron «Allahların təbiəti haqqmda» traktatında yazır: «Epikur etiraf edir ki, Samosda olarkən o, Pamfil alı bir şəxsi (Platonun şagirdini) dinləmişdir; bununla belə Epikurun özü bu platonikə xor baxardı – qorxurdu ki, birdən ondan nəyisə öyrəndiyini onun boynuna qoyarlar».

101. *Androkl* – Alkiviadın məhvindən sonra demokratlara başçılıq edən Afina demaqoqu və oratoru. Alkiviadi, hermaların, yəni Hermesin təsvirlərinin kafirçasına dağıdılmasında təqsirləndirmişdir.

102. *Leodamant* – haqqmda bax.: qeyd 41 (kitab 1).

Kollitli *Frasibul* – orator, Afinada Otuz tiranların hakimiyyətini devirmiş məşhur Frasibulun müasiridir. Afinanın azad edilməsində iştirak etmişdir. E.ə. IV əsrin 80-cı illərində Kiçik Asiyaya göndərilmiş donanmasına başçıhq edir, fivalıların rəğbətini qazanmışdır.

103. Ksenofan, 21A, 13.

*Levkoteya* – dəniz pərisi; başından havalanmış Kadmanın qızı, Afamantın arvadı, Allahların hökmü ilə özünü dənizə atmış və su pərisinə çevrilmişdi.

104. *Karkin* – Evripidi yamsılamaq bacarığı və səmimiliyi ilə şöhrətlənmiş dramaturqlar ailəsindən çıxmış Afina yazıçısı (e.ə. V-IV-cü əsrlər). Aristofan öz komediyalarında bu ailəni dönə-dönə lağa qoyur. Bir neçə faciənin iki yüzə yaxın parçası bizim günlərə gəlib çatmışdır.

*Medeya* – Arqonavt, qəhrəman Yazonun sevgilisi, Kolxida şahzadəsi; onun köməyi isə Yazon qöyunun qızıl dərisini əldə etmişdir; sonradan onun tərəfindən rədd edilmiş Medeya, öz uşaqlarından qısas alaraq, onları qətlə yetirmişdir.

105. *Feodor* - Vizanti şəhərindən olan ritor, məhşur orator-loqoqraf Lisinin müasiri.

106. Sofokl, «Tiro» adlı naməlum faciədən bir parça. Burada sözlərin oxşarlığından istifadə olunur: «Sidēros» (dəmir) və qadın adı «Sidērō» (Sidero).

107. Konon haqqında bax.: qeyd 91.

*Frasibul* – yunan dilindən «cəsarətli məsləhətçi» kimi tərcümə olunur.

*Herodik* – məhşur həkim olmuşdur. Bax.: kitab I, qeyd 31.

***Frasimax*** – yunan dilindən tərcümədə «döyüşdə cəsarətli» kimi səslənir.

Yunan dilində «pŏlos» - «dayça» deməkdir.

108. ***Drakon*** – e.ə. VII əsrdə məşhur Afina hüquqşünası; yunanca «dracŏn» - «ilan», «əjdaha» deməkdir.

109. Evripidin «Troya qadınları» əsəri. Afrodita yunan dilində Afrosinĕ («dəlilik») sözünə uyğun gəlir.

110. ***Xeremon*** – e.ə. V-IV-cı əsrlərdə Afina yazıçısı. Burada onun «Dionis» faciəsindən bir parça verilir (bütövlükdə tamaşa bizim günlərə gəlib çıxmayıb).

***Penfey*** – Fivaların çarı, Kadmanın nəvəsi, Dionisinin əmisi oğlu; Dionisini allah kimi qəbul etmədiyinə görə Vakxın (şərab Allahı) kahinələri onu tikə-tikə parçaladılar. Adı yunan dilində «qəm» sözünə həmahəngdir («penthos»).

24

111. Yevaqorun şərəfinə İsokratın nitqi, IX, 65-69.

112. Pindar, hissə 96.

Pan allahın adı «hər şey» sözünü xatırladır (yunanca «pan»); bu da bu allahın mahiyyətinin anlamına yaxındır; çünkü təbii qüvvələrin ümumən dəyişkənliyini ifadə edir.

113. ***Hermes*** – Allahların iradəsini yazan, onların müjdəçisi, Yer üzündə səyahətçilərin himayədarı, axirət dünyasında isə ruhların bələdçisidir. Həqiqətən öz vəzifələrinə görə Allah bütün, yəni səma, yerüstü, yeraltı sahələrin ümumisidir.

114. ***Polikrat*** – sofist, ritordur. «Otuzların tiraniyası» əvəzinə, bütövlüyü daha dəqiq ifadə etmək üçün «Otuz tiran» ifadəsi işlədilir.

115. Teodektin naməlum faciəsi «Orest»dən bir hissə.

116. Müqayisə üçün bax.: Platon. «Məclis», 178 (Harmodi və Aristoqitonun sevgisi haqqında).

117. Müqayisə üçün bax.: Herodotun, Misir çarı Sətə basqın etmiş ərəblərin oxluqları, kamanları, qalxan qulplarını sicanların gəmirib korlaması haqqında hekayəsinə.

118. Müqayisə üçün bax.: Proklun «Müntəxəbatına» (bölmə 104); burada deyilir ki, Tenedos adasında Troyaya yürüş etməzdən əvvəl Axilles, sonradan məclisə dəvət olundu və burada Aqamemnon ilə dalaşdı.

119. Paris sürülərini Troya yaxınlığında ***İda*** dağında otarırdı.

120. ***Demad*** (e.ə. IV əsr) Afina oratoru, Demosfenin müasiri və düşməni, Makedoniya partiyasının yaradılmasının tərəfdarı. Antipartr tərəfindən edam edilmişdir.

121. Evripidin «Avliddə İfigeniya» əsərində Yelenanın atası, çar Tindar belə demişdir:

«Qızım, kimi seçirsən, seç;

yəni Kipridanın küləyi səni haraya istiqamətləndirsə, oraya da üz».

122. Aqafonun naməlum faciəsindən bir parça.

123. ***Koraks*** (e.ə. V-ci əsr) – Siciliya ritoru, Tisiyin müəllimi; hər ikisi ritorikanı «inam demiurqu» (yaradıcısı) kimi qiymətləndirirdilər; öz dəlillərini «mümkünlük» əsasında qurur, nitqi parçalara bölmək texnikasından istifadə edirdilər. Koraks və Tisi, Leontili Qorqinin müəllimləri olaraq, antik ritorikanın əsasını yaratmışdılar.

124. ***Protaqor*** (e.ə. I-ci əsr) – Afinalı ritor və sofist, Herakliti dialektikasını relyativizm həddinə çatdırmışdır. Qocalıqda azadfikirlilikdə günahlandırılmış, kitabları Afinada yandırılmışdır.

125. ***Ovidi*** «Metamorfozalar» əsərində (IX, s.450-665). Biblidanın öz qardaşı Kavna olan sevgisindən, sonuncunun isə bu sevgini rədd etməsindən yazır.

126. ***Pittakın*** bu qanunu haqqında bax.: Aristotel. «Politika», II, 12.

127. «İkinci Analitika», II, 27.

128. Yenə orada.

26

129. ***Top*** – ümumi müddəa, bunun mümkünlüyü məntiqi sübutsuz (sillogizmsiz) qəbul olunur. Sillogizmə daxil edilmiş top onun mühakimələrindən irəli gələn formal nəticəni pozur. Aristotelin toplar haqqında təlimi, formal məntiqi, həyatın zid-

diyyətlərlə dolu məntiqinə yaxınlaşdırır. Aristotel toplar haqqında təlimi əsil dialektika və ritorika adlandırır.

## Üçüncü kitab

1

1.Bax.: Ritorika, I, 2.

2.Bax.: Ritorika, II, 22.

3.***Qlavkonun*** (Homerin təfsirçisinin) adını həm Platon, həm də Aristotel («Poetika» əsərində) çəkir (25-ci fəsil).

4. Ritorikada üslub haqqında daha ətraflı bax.: «Antiçnıe teorii əzıka i stilə». Pod red. O.Freydenberq. M.-L., 1936.

5.Xalkedonlu ***Frasimax***, ritor və sofist, Platonun «Dövlət» dialoqunun iştirakçılarından biri.

O, tərs və özünə güvənən adam idi, eyni zamanda onu «aydın, incə, hazırcavab zəka»sına görə, «istədiyini, istər qısa, istərsə də ətraflı danışmağı bacardığına» görə yüksək qiymətləndirirdilər, Frasimax ömrünü intihar etməklə bitirdi.

6. ***Qorgi*** Siciliyanın Lemontin şəhərindən məşhur ritor (e.ə.483-375-ci illər), sofistikanın əsasını yaradanlardan biri; 427-ci ildən Afinada yaşamışdır. Bax.: Platonun «Qorgi» dialoqunu.

7. ***Tetrametr*** – dördbölgülü xorey; ***yamb*** – ikibölgülü təqti, qısa və uzun hecalardan ibarətdir. Faciənin dialoqları adətən yamb vəzi ilə yazılırdı. Bəzi, çox təsirli yerləri tetrametr əsasında yazırdılar (məsələn, Evripid, «Vakx qadınları» əsəri).

***Heksametr*** – altıbölgülü daktildir; burada daktil təqtilərini spondey və qısaldılmış son bölgüsü ilə əvəzlənməsi imkanı da var idi. Yunan şeri uzun və qısa hecaların proporsional əvəzlənməsi üzərində qurulurdu; burada üç əsas ritmik forma fərqləndirilirdi: bərabər (burada təqtilərin uzun hissəsi qısa hissəsinə bərabərdir), ikiqat formalar (uzun hissəsinin uzunluğu qısadan iki dəfə artıqdır), 1,5 formalar (uzun təqtilər qısalardan 1,5 dəfə böyükdür).

8. Burada «Poetika» nəzərdə tutulur.



9. ***Feodor*** məşhur faciə aktyoru; onun Attikada Kefis sahillərində yerləşdirilməsi haqqında Pavsani yazmışdır.

10. Aristotel, Homerin eposu ilə yanaşı böyük yunan dramaturğu Evripidin yaradıcılığına tez-tez müraciət edir, özü də nəinki öz nəzəriyyələri, poetika və ritorikasının, həm də siyasət, etika, heyvanlar aləmi haqqında təliminə aid ideyalarının təsdiqi üçün istifadə edirdi.

11. Bax.: «Poetika», fəsil 21.

12. Bax.: «Ritorika», III, 3 və 7.

13. Aristotelin təliminə görə **metafora** haqqında bax.: Taxo-Qodi A.A. Antiçnıe istoki tradiüionnoqo predstavlenia o metafore.// «İnozemna filoloqiə». 9, Lğviv, 1966.

14. Bax.: «Poetika», fəsil 21, 22.

15. ***Kalli*** – Hipponikin oğlu, dövlətli, zadəgan Afinalı, Demetranın Elevsin rituallarının iştirakçısı, dadux, yəni məşəlçi fəxri adının daşıyıcısı. Bax.: Ksenofont. Yunan tarixi, VI, 3, 4.

Frigiya ilahəsi, Allahların böyük anası Kibelanın kahinləri cuşa gələrək, özünü kişilikdən məhrum edirdilər. Beləliklə, İfikrat, Kalliydə kişiliyin olmadığına işarə vurur.

16. ***Dionisi yaltaqları*** – Sirakuza tiranı Böyük Dionisinin ətrafındakı rəssamlar.

17. Yunan dilində «poridzõ» - «çatdırıram», «poristẽs» isə – «vergi yığan» deməkdir.

18. Evripidin «Telef» adlı naməlum faciədən bir parça.

19. ***Dionisi*** – e.ə. V əsrin Attikalı orator, Afinalılara mis pulu kəsməyi məsləhət vermişdi.

***Kalliopa*** – muza, bacıları kimi, «gözəlsəs», Zevsin qızı, epik poeziyanın himayəçisi.

20. Bu qəribə sətirin müəllifi şairə ***Kleobulinanın*** olduğu ehtimal olunur.

Plutarx («Yeddi müdrik məclisi», X) Evmetida və ya Kleobulinanın adını çəkir.

21. ***Likimni*** – yunan ritoru Qorginin şagirdi (e.ə. V-ci əsr).

22. Herakleyalı *Brison* – sofist və riyaziyyatçı, dairənin kvadraturasını tapmağa çalışırdı (Aristotel. İkinci analitika, I, 9).

23. Bu sözlər, atası Aqamemnonun qisasını anası Klimetnestradan alaraq, onu öldürən Oresti xarakterizə edir.

24. Keosslu Simonid, bölmə 19.

25. Aristofanın bu komediyası bizə məlum deyil.

3

26. *Likofron* – sofist, Aristotel bunun adını dəfələrlə çəkir (məsələn, bax.: Аристотель. «Политика», III, 5, 11).

27. *Skiron* –Meqara və Attika arasında sərhəddə səyahətçiləri öldürən əfsanəvi quldur. Afina qəhrəmanı Tesey tərəfindən öldürülmüşdür.

28. *Difiramb* – ilk əvvəl Dionisi allahın şərəfinə himn, sonradan müəyyən yüksək mövzuya yazılmış təntənəli nəğmə.

29. *Qorgi, A, 23.* Afina çarı Pandionun qızı Filomela – bülbülə, onun bacısı Prokla isə qaranquşa döndərildi; səbəb - müdafiə olunaraq, müəyyən şəxsin qətlə yetirilməsidir (Ovidiy. Metamorfozalar. VI, 244-674).

4

30. *Androtion* – Afina oratoru və siyasi xadimi (e.ə. IV əsr), İsokratın şagirdi, Demosfenin müasiri.

*İdriyey* – Kariya hökmdarı, Hekatomnun oğlu, məşhur çar Mavsolun qardaşı.

31. Adları çəkilən şəxslər bizə məlum deyil.

32. Platon «Dövlət», V.

33. Platon «Dövlət», VI.

34. Fukidid, Afinalıların Periklin rəhbərliyi altında Samosda mövcud aristokratiyanın yerinə demokratik quruluşun yaradılması haqqında söhbət edir.

35. Bu müqayisə Periklin adına yazılır.

36. Bax.: Demosfenin nitqlərindən parçalara.

37. *Demokrat* – attikalı orator və siyasi xadim, Demosfenin müasiri və təəssübü (IV-cü əsr).

38. *Antisfen* – filosof (e.ə. V-IV əsrlər), kiniklər məktəbinin banisi, Sokratın şagirdlərindən biri.



39. *Fial* – dibl geniş piələ.

*Ares* – Afinanın əksi olaraq nizamsız və qəddarlıqla aparılan müharibə Allahı.

5

40. Herodot Lidiya çarı *Krez* haqqında danışır ki, o, farslara hərbi yürüş keçirməzdən əvvəl Delfadan ikimənalı xəbər almış, onu öz xeyrinə yozmuş, lakin Kir tərəfindən darmadağın edilmiş və bununla öz böyük çarlığına son qoymuşdur.

41. Məşhur İoniya filosofu və dialektiki Heraklitin əsərləri (e.ə.VI əsr) çoxlu metaforlar və işarələrlə zəngin idi, buna görə də onun özünə «qaranlıqh» deyirdilər.

6

42. Naməlum dramaturgun əsərindən bir ifadə.

43. Evripid. «Tavriddə İfigeniya».

44. Kolofonlu *Antimax* – epik şair və qrammatika bilicisi (e.ə. V-IV-cı əsrlər), «Fivanda» əsərinin müəllifi, Platonun yaşlı müasiri və dostu.

Tevmessa – Beotiyada (orta Yunanıstan) dağ.

Bax.: Kolofonlu Antimax, hissə 2.

7

45. *Klefont* – Attika oratoru və siyasətçisi; bax.: kitab I, qeyd 98.

46. Platonun «Fedra» əsəri nəzərdə tutulur, Sokratın nitqi.

8

47. Aristotel «Poetika» əsərində ölçünü yalnız şer janrına aid edir, baxmayaraq ki, ritmik ölçülər və dəyişmələr incəsənətin bir çox sahələrinə və ümumiyyətlə təbiətə xasdır. Məsələn, Arxilox öz şeyrlərində «insan həyatının ritmindən» yazır. Ritm sözünün özü əvvəldən hərəkətin xüsusi formasını, axmasının xüsusi növünü bildirdi.

48. *Peon* haqqında bax.: qeyd 7.

49. Ritmin xarakteri haqqında bax.: yenə orada.

50. Bu misralar qabaqlar Keosslu Simonidə aid edilirdi, lakin hal-hazırda bunları Delfi himnlərinin parçası olduğu hesab olunur. Məsələn, Apollona müraciət: «Demosda və ya Li-

kiyada dünyaya gələn»; Hekataya müraciət: «Qızılsaç Hekata, Zevsin qızı», «Gecə, torpaqdan sonra, suları və okeanı da gizlətdi».

9

51. Tarixçi Herodot (e.ə.V əsr) İoniyada Halikarnass şəhərində boya-başa çatmış («Tarix», c.1, I), sonradan İtaliyanın cənubuna, Furiyaya köçmüşdür.

52. Bu, Sofoklun «Meleaqr» faciəsindən bir parçadır:

Bu torpaq – Kalidondur
Pelon ölkəsinin.

«Pelon ölkəsinin» sözləri sonrakı sətrə aiddir. Şerin bu cürə qurulması elə bir təsəvvür yaradır ki, guya Kalidon Peloponnesdə (cənubi Yunanıstanda) yerləşir; əslində isə bu Etoliya (şimali-qərbi Yunanıstan) torpağıdır.

53. Xiosslu ***Demokrit*** – musiqiçidir. Görünür ki, burada söhbət e.ə. V-ci əsrdə yaşamış difiramblar janrında işləmiş şair Böyük Melanippiddən gedir.

Birinci sətir – Hesiodun «İşlər və günlər» əsərindəndir. İknci – bu sətrin işlənməsidir: «Pis məsləhətin acısını daha çox məsləhətçinin özü çəkir».

54. Bu sözlərlə orator İsokrat öz «Panegirik» («Təriflənmə») əsərini başlamışdır. Sonrakı misallar da həmin nitqdəndir.

55. İsokrat, IV, 35.

56. Yenə orada, 41.

57. Yenə orada, 48.

58. Yenə orada, 72.

59. Yenə orada, 89.

60. Yenə orada, 105.

61. Yenə orada, 149.

62. Yenə orada, 181.

63. Yenə orada, 186.

64. ***Pifolay və Likofron*** – Fer şəhərinin tiranı Aleksandrın arvadının qardaşlarıdır. E.ə. 335-ci ildə onlar Feri ələ keçirərkən, Aleksandrı qətlə yetirmişdilər. Makedoniyalı Filipp onları buradan sıxışdırıb çıxarandan sonra, əvvəllər düşmənçilik



münasibətlərində olduğu Afinaya hədiyyələr göndərib, kömək dilədilər.

65. Aristofan, naməlum komediyadan bir parça.

66. «İliada», IX.

Sonrakı misallar Aristotelin özünə aiddir; bu ritorik fiqurlar geniş yayılmışdır.

67. Teodekt «Ritorika»nın müəllifi olmuşdur, burada o, Aristotelin ritorik sənət haqqında əsas müddəaları bir qədər də inkişaf etdirdi.

68. Epixarm, 10 hissə 147.

69. «Odisseya», XIV, 214.

10

70. Bax.: «Ritorika», III, 4.

71. İsokrat, V, 73.

72. Bax.: qeyd 45, kitab I.

73. ***Leptin*** – Afina siyasətçisi, Demosfenin müasiri. Xalq məclisinə təklif etmişdir ki, dövlət vergilərindən azadolmada güzəştləri məhdudlaşdırmaq lazımdır; bu təklifə qarşı e.ə. 356-cı ildə Demosfen öz «Leptinə qarşı» nitqində çıxış etmişdir.

Leptin Afina və Spartanı Elladanın gözü adlandırır, göstərir ki, afinalılar gərək fivanlılar tərəfindən məğlubiyyətə uğradılmış spartalılara köməklik göstərsinlər. Lakedemoniyalıların Afinada səfirliyi haqqında bax.: Ksenofont. Yunan tarixi. VI, 5.

74. ***Kefisodot***, orator (e.ə. IV-cü əsrin ortaları), sərkərdə Xaretə qarşı çıxış etmişdir; sonuncunu tamahkar adam kimi tanıyırdılar. Olinf şəhərinə, Makedoniyalı Filippə qarşı göndərilmiş Xaret öz ordusu ilə zəif müqavimət göstərmiş və şəhəri xilas edə bilməmişdi.

75. Burada ***Demosfen*** nəzərdə tutulur; o, vaxtilə sərkərdə Miltiad (e.ə.V-ci əsr) heç nə gözləmədən Kserksə qarşı çıxış etdiyi kimi, Evbenin xilasına çıxış etməyə çağırırdı.

76. ***Parala*** – Suni burununda lövbər salan Afina gəmisi. Səfirliklər, müqəddəs ibadətlər üçün istifadə edilirmiş, bir də müharibə vaxtı donanma başçısının qaldığı yeri idi.

*Sest* – Frankiyada, Abidosla üzbəüz yerləşən Hellespont boğazının ən dar yerində şəhər və liman.

Pirey – Afina yaxınlığında şəhər və liman.

Metaforanın mənası ondadır ki, Sestin istehkamlarının möhkəmliyindən mərkəzi Yunanıstana düşmən gəmilərinin keçib-keçməməsi asılı idi.

77. Attikanın yaxınlığında yerləşən ***Egina*** adası, güclü donanmasına görə Afina ilə rəqabət aparırdı. E.ə.457-ci ilə qədər Afinaya vergi ödəyirdi; burada qala divarları uçurdulmuş, 429-cu ildə şəhər sakinləri başqa yerlərə köçürülmüşdür.

78. ***Mirokl*** – Attikalı orator (e.ə.IV-cü əsr) Makedoniya partiyasının əleyhdarı.

79. ***Anaksandrid*** – orta dövr komediyasının dramaturqu (e.ə.IV-cü əsrin birinin yarısı).

80. Söhbət cinayətkarların cəzalandırma alətindən gedir; burada baş, əl, ayaq üçün xüsusi deşiklər var idi.

81. ***Poliyevkt*** – Afina oratoru və siyasətçisi, Demosfenin dostu, Makedoniya partiyasının əleyhdarı.

***Sinoplu Diogen*** – məşhur kinik-filosof (e.ə. V-IV-cı əsrlər), öz hazırcavablığı ilə özünə şöhrət tapmışdır.

***Fiditiya*** və ya ***sissitiya*** – spartalılar və kritlilərdə ümumi qonaqlıq, süfrə.

***Esion*** – Attika oratoru, Demofsenin müasiri.

82. ***Lisi.*** Korinfin mühafizəsində həlak olmuş Afinalılar şərəfinə qəbirüstü nitq. II, 60. Hellespontda Afina donanmasının məhv olması nəzərdə tutulur. Aristotel səhvən Salamin adını çəkir.

83. ***Likeleont*** – Afinalı orator, İsokratın şagirdi. Bizə onun yalnız bir nitqi məlumdur – «Xabrinın müdafiəsi naminə».

***Xabri*** – Afina sərkərdəsi, Egin yaxınlığında öyüşlərdə spartalılar üzərində qələbə çalmışdır. Onu, Fivanın Orona verilməsində günahlandırsalar da, sonradan səhvini başa düşdülər. Xios yaxınlığında müttəfiqlərlə birgə aparılan döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.



Xabri heykəlində diz üstə təsvir edilib; deyirlər ki, o, öz ordusuna düşməni diz üstə qarşılamaq əmrini vermişdir. Bu, bir növ heykəlin yalvarıcı ifadəsinə işarədir.

84. İsokrat, IV, 150.

85. Yenə orada, 172.

86. Yenə orada, 180.

11

87. Skoliya, yəni süfrə başında oxunan mahnıdan sözlər. Müəllif – Keoslu Simoniddir.

88. İsokrat, IV, 10.

89. Evripid. Avliddə İfigeniya, 80.

Müasir tərcümədə isə belə səslənir: «Onda yunanlar, nizələrini göydə sürətlə silkələyərək...»

90. «Odisseya», XI, 598.

91. «İliada», XIII, 587, IV, 126, XI, 574, XV, 542.

92. Odissey («Odisseya», XI, 593-600). Aiddə Eolun oğlu ***Sizifi*** görür; sonuncu, cəza olaraq, dönə-dönə, faydasız bir iş görür, daşı dağa yuvarladır.

93. «İliada», XIII, 797-799.

94. Bax.: «Ritorika», III, 10.

95. ***Arxit*** (e.ə.V-IV-cı əsrlər) – Tarent şəhərindən (cənubi İtaliya) pifaqorçu-filosof, Filolayın şagirdi, Platonun dostu.

96. ***Krematra*** – tavandan asılmış qutu, yunan teatrında aksessuar kimi (səhnə dekoratiyası) istifadə edilirdi.. Bax.: məsələn, Aristofan. Buludlar.

97. İsokrat, V, 40.

98. Bax.: qeyd 58, II-ci kitab.

99. Bax.: qeyd 105, II-ci kitab.

100. Bu hissə başqa heç bir yerdə qeydə alınmayıb.

101. ***Nikon*** - yeni komediya dövrünün dramaturqu, «Kifared» komediyasının müəllifi; bu günə gəlib çıxan kiçik bir parçası var.

102. Sözlərin oxşarlığından istifadə olunur: «thratto» - «həyəcanlandırıram», «Thrattē» - «frakiyalı qadın».

103. Sözlərin oxşarlığından istifadə olunur: «persai» - «məhv etmək» və «Persēs» - «fars».

104. Sözlərin oxşarlığından istifadə olunur: omonimlər «axchê» - «əvvəli» və «rəhbərlik».
105. İsokrat, V, 61, VIII, 101.
106. Burada «anaschetos» sözü («dözümsuz») qadın adı «Anasxet» kimi işlədilir.
107. Naməlum müəllifin komediyasından bir parça.
108. Koskun əsərindən bir parça.
109. Bax.: «Ritorika», III, 6 (əvvəli).
110. Bax.: yenə orada (axırı).
«Truba lirasız çalınan melodiyadır». Bax - həm də Heraklitin lira və kamanın harmoniyası haqqında fikirlərinə.
*Forminqa* –simli musiqi aləti.
111. *Nikerat* – məşhur Afina sərkərdəsi Nikinin oğlu. «İliada» və «Odisseya»nın oxunuşunda. Prati adlı rapsodla (şer oxuyan) yarışa girmişdir. Nikerat Otuz tiran oliqarxiyası zamanı edam edilmişdir (Ksenofont. Yunan tarixi. II, 3).
112. Naməlum müəllifin komediyasından bir parça.
113. Yenə orada.
114. Krit və Rodos arasında yerləşən Karpat adasına dovşanlar gətirildi; bunlar, artaraq, kənd təsərrüfatına xeyli zərər vurdular.
115. Bu – yunan rəhbərlərin səfirliyinin xeyrinə deyilən Axillin sözləridir.
116. *Xeremon* haqqında bax.: qeyd 110, kitab II.
*Loqoqraflar* – erkən yunan tarixçiləri, əksəriyyəti İoniya mənşəli idilər. Onlar qədim tayfalar və qəhrəmanlar, şəhərlərin salınması, onların yaşayışı, məbədlər və qurban verməlar haqqında rəvayətləri qələmə alırdılar.
Xios adasında *Likimni* – xor mahnılarını yaradan şair; bu mahnıların bir neçə parçası bu günə gəlib çıxmışdır.
117. *Filemon* - məşhur aktyor (e.ə.IV-cü əsr).
*Anaksandridin* komediyası haqqında bax.: Ateneydə (XIV, 614 s.).
118. *Amplifikasiya* – ritorik fiqur (mətnin mürəkkəbləşdirilməsi).
119. «İliada», II, 671-673.



120. *Skiaqrafiya* – məkan genişliyi təsəvvürü yaratmaq məqsədi daşıyan rəsm.

13

121. Bax.: qeyd 21.

14

122. Yelenanın şərəfinə nitqində İsokrat sofistləri, onların mübahisə etmək (yəni evristikanı) formasını pisləyir.
123. Qorgi, B, 7.
124. İsokrat, IV, 1.
125. Bax.: qeyd 83, kitab II.
126. *Xeril* – epik şair (e.ə.V-ci əsr), yunanlılarla farsların mübarizəsini vəsf etmişdir. İlk dəfə olaraq tarixi mövzulara müraciət etmişdir; mifoloji süjetlər hələ ki ənənəvi poeziyanın məzmununa aid idi.
127. Timofeyin difirambından bir parça; bizə gəlib çıxmayıb.
128. «İliada».
129. «Odisseya».
130. Bax.: Xeril, hissə 1.
131. Sofokl. Edin çar, 774.
132. Keos adasından *Prodik* (e.ə. təqribən 470-ci illər) – sofist; əsasən əxlaqi məsələləri təhlil edirdi. O, dilin sinonimiyasını öyrənirdi, yəni sözün əhəmiyyətini yüksək qiymətləndirən sofistlədən biri idi.
Burada, yalnız ödəniş haqqını hamıdan çox verən şagirdlərə öyrədilən ideyalar nəzərdə tutulur.
133. Sofokl. Antiqona, 223.
134. Evripid. Tavriddə İfigeniya, 1162.
135. Bax.: «Ritorika», II, 1.
136. «Odisseya», VI, 327.
137. Platon. Meneksen, 235 d.
138. Qorgi, B10.

15

139. *Navsikrat* – orator, İsokratın şagirdi (e.ə.IV-cü əsr).
140. Ola bilsin ki, burada Sofokla qarşı öz oğlu tərəfindən irəli sürülən ağıldan kəm olması ittihamı nəzərdə tutu-

lur. Buna cavab olaraq, Sofokl hakimlər qarşısında «Kolonda Edip» əsərini oxumuşdur.

141. Burada söhbət Evripidin afinalı *Gigidenonta* qarşı nitqindən gedir; sonuncu onu Allahsızlıqda günahlandırdı. *Antidosis* – hərfi mənada «mübadilə» deməkdir; burada «əvəzçıxma, təhqirin əvəzi» mənasında işiədilir.

142. Dionisin şərəfinə yarış; burada – dramaturqların teatr yarışları.

143. Sofoklun naməlum «Tevkr» faciəsi.

*Tevkr* – yunan qəhrəmanı Telamon və Gesionanın (Troya çarı Laomedontun qızı, onu Telamon Troyanı mühasirədən qurtardığına görə hərbi qənimət kimi qazanmışdı) oğlu.

144. «İliada», (X). Diomed Odissey ilə birlikdə troyalıların düşərqəsinə kəşfiyyata gedir.

16

145. *Axill* - Homerin «İliada» əsərinin qəhrəmanı – onun şöhrəti Afinada Otuz tiran başçısı Kritinin şöhrətinə qarşı qoyulur.

146. *Herodot* (II, 30) – illərlə qarnizonda qalıb əvəzlənməyən və axırda Efiopiya tərəfinə keçən Misir əsgərlərindən danışır.

Misir çarı, onları dilə tutaraq deyəndə ki, arvad – uşaqları niyə atırsınız, belə cavab aldı: yeni arvad-uşağın olması onların özündən asılıdır.

147. Odissey («Odissey», XXIII, 310-341) qısa şəkildə çar Alkinoyun məclisində Penelopaya öz həkayətini danışır; «Odisseyada» bu həkayət dörd boyu əhatə edir.

Nə Faill adı, nə də ki poema daha heç bir yerdə qeydə alınmamışdır.

*Kiklik* adını, e.ə. VII-VI-cı əsrlərdə mifoloji mövzulara, dairəyə («kikl») daxil olan Troya müharibəsi haqqında poemalara verilmişdi.

«Oyney» - Evripidin bizə məlum olmayan faciəsi.

148. Sofokl. Antiqona.



149. *Esxin* – Sokratın şagirdi Lisaninin oğlu, bir müddət Sirakuzlarda, tiranlar Böyük Dionisi və Kiçik Dionisi dövründə yaşamışdır.

*Kratil* – Afinalı filosof, Hepaklitin davamçısı. Platon ona «Kratil» dialoqunu həsr etmişdir.

150. «Odisseya», XIX, 361.

151. Karkin (dramaturq) və onun ailəsi haqqında bax.: qeyd 104, kitab II.

152. *Hemon* - *Sofoklun* «Antiqona» faciəsinin qəhrəmanı.

153. «Odisseya», IV, 204.

154. *Epimenid* – yarıəfsənəvi Krit müdriki, e.ə.596-cı ildə Afinada taun epidnemiyasından sonra təmizlik işləri aparmışdır.

155. İsokrat, IV, 110-114.

156. Qorgi, B 17.

157. *Eak* – yunan qəhrəmanı, Zevs və Eginanın oğlu, Telamonun atası.

158. Bax.: «Ritorika», II, 23.

159. Bax.: yenə orada, 25.

160. Bax.: qeyd 41, kitab I.

161. Evripid. Troyalı qadınlar, 969.

162. İsokrat, V, 4-7, XV, 132-139, 141-145.

163. Görünür ki, söhbət Likamb və onun qızı Neobuladın (ailəsini yamblarda gülünc şəkildə təsvir edən Arxiloxun keçmiş adaxlısı ) gedir.

164. Arxilox, hissə 25.

*Giges* – yarıəfsanəvi, olduqca dövlətli Lidiya çarı. Onun haqqında bax.: Herodot (I, 8-15), Platon «Dövlət» (X, a 2b).

165. Sofokl. Antiqona, 688-696.

166. Bax.: «Ritorika», II, 21.

18

167. *Lampon* – orakulların (falçıların) təfsirçisi.

Demetra ilahəsi şərəfinə Elevsin ibadətləri nəzərdə tutulur.

168. Bax.: Platon. Sokratın apologiyası.

*Lilet* – Sokratın ittihamçılarından biri.
169. «Topika», VIII, 4.
170. ***Pisandr*** - 400-lər oliqarxiya Şurasının rəhbərlərindən biri (e.ə. 411-ci il). Sofokl Afina qanunvericiliyinin yenidən baxılmasına cəlb edilmişdir.
171. ***Eforlar*** – Spartada ali vəzifəli şəxslər, onlar çar hakimiyyətinə nəzarət edirdilər.
172. ***Bax.***: «Ritorika», I, II.
173. Qorgi, B, 12.
174. Bax.: qeyd 76, kitab I.
175. «Nikomax etikası», IV, 13: «rişxəndli o adamdır ki, şərəfli əməllərdən uzaqlaşır, ya da ki bunların əhəmiyyətini heçə endirir».
Yenə orada (IV, 14): «təlxəklər-gülüşün quludur, gözəl sözə görə onların nə özünə, nə də ki başqalarına yazığı gəlmir».

19

176. Bax.: «Ritorika», I, 9.
177. Bax.: «Ritorika», II, 19.
178. Bax.: Yenə orada, I-II.



# MÜNDƏRİCAT

Birinci kitab........3
İkinci kitab........82
Üçüncü kitab........163
*Qeydlər*........217

Kağız formatı 50 x 72. Fiziki ç.v 16,5
Tiraj: 100. Sifariş № 12.
Kitab «Turan Nəşrlər evi» mətbəəsinə təqdim olunmuş
hazır diapozitivlərdən çap edilmişdir.